# PEDAQOJİ UNİVERSİTETİN
# XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

**ISSN 2520-2014**

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası***

***Series of humanitarian, social, pedagogical and psychological sciences***

## *ADPU – 100*

**2021, C. 69, № 3**

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

## *Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2021, C.69, №3

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini),*** f.e.d., prof. V.H.Əliyev, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. B.Ə.Xəlilov, f.e.d., prof. Z.A.Xəlilov, f.e.d., s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova, f.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, prof. Dr. V.Q.Aliyev, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. B.A.Khalilov, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. Phd I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. Phd N.A.Abdullazadeh, Ass. prof. Phd N.T.Huseynova, Phd N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2021***
***©ASPU, 2021***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***İbrahimova B.E.***
PUBLİSİSTİK MƏTNLƏRİN DİL-ÜSLUBİ XÜSUSİYYƏTLƏRİ ………................ 9
***Rəhimzadə V.G.***
COVID-19 DÖVRÜ VƏ ONDAN SONRAKI MÜDDƏTDƏ JURNALİSTİKANIN QARŞISINDA DURAN VƏZİFƏLƏR ……................................................................ 18
***Sadəddinli N.M.***
BOZQURD OBRAZININ HAMİ-QORUYUCU FUNKSİYASI ……....................... 23

## *İctimai elmlər*

***Abdullayev M.Q.***
XIX ƏSRİN 20-40-cı İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA XÜSUSİ SAHİBKAR KƏNDLİ KATEQORİYALARI VƏ ONLARIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ ................................................................................................................... 29
***Adilova N.F.***
YENİ MEDİA İLƏ SİYASİ MƏDƏNİYYƏTƏ STRATEJİ TƏSİR ÜSULLARI ........ 42
***Hacıyeva M.C.***
XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİNİN BAKI BÖLMƏSİNİN NƏZDİNDƏ YARADILMIŞ TEXNİKİ KURSLARIN TƏŞKİLİ VƏ FƏALİYYƏTİ .............................................................................................. 51
***Kərimova S.A.***
YENİ İCTİMAİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ UŞAQ HÜQUQLARI …............. 61
***Məmmədova R.A.***
KLASSİK FƏLSƏFƏ VƏ SOSİAL ELMLƏRDƏ ÖZGƏLƏŞMƏ VƏ DUALİZM PROBLEMİ ………………….......................................................................……....… 69
***Mustafayev E.T.***
AVROPALAŞMA PROSESİNİN AVROPA İTTİFAQI REGİONALİZM MODELİNİN İXRACI VASİTƏSİLƏ YAYILMASI …………………………......… 75
***Salmanzadə T.R.***
BAKI FORUMLARI SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINDA ALTERNATİV DİALOQ PLATFORMALARI KİMİ ……………………….……......… 81
***Şükürov S.İ.***
AZƏRBAYCAN RESPUBLİKASINDA ENERJİ SİYASƏTİNİN HÜQUQİ-NORMATİV BAZASI ....................................................................................................... 90

## *Pedaqoji-psixoloji elmlər*

***Zamanov A.D., Əlizadə H.Ə.***
İNTERNETİN TƏHSİLƏ İNTEQRASİYASI TƏLİM PROSESİNİN SƏMƏRƏ VƏ KEYFİYYƏTİNİN ARTIRILMASI YOLU KİMİ ...................................................... 98
***Xəlilova X.O.***
MƏHKUMLUQDAN AZAD OLMUŞ GƏNCLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASI – XARİCİ ÖLKƏLƏRLƏ MÜQAYİSƏLİ TƏHLİL ..................... 111
***Mollayeva E.Ə.***
QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TƏRBİYƏNİN İNKİŞAF DİNAMİKASI …......… 123

***Nəzərova Ş.S.***
İNKLÜZİV TƏHSİLİN ƏSAS PRİNSİPLƏRİ, MÖVCUD PROBLEMLƏRİ VƏ
İNKİŞAF PERSPEKTİVLƏRİ ........................................................................................ 132
***Rzayeva F.İ.***
GƏNC NƏSLİN MÜASİR MUSİQİYƏ MARAQ GÖSTƏRMƏSİNDƏ
İSMAYIL HACIBƏYOVUN FORTEPİANO YARADICILIĞININ TƏSİRİ ............. 143

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Ибрагимова Б.Э.***
ЛИНГВИСТИЧЕСКИЕ И СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПУБЛИЦИСТИЧЕСКИХ ТЕКСТОВ ........ 9
***Рагимзаде В.Г.***
ЗАДАЧИ, СТОЯЩИЕ ПЕРЕД ЖУРНАЛИСТИКОЙ В ПЕРИОДЫ COVID-19 И ПОСТПАНДЕМИИ ........ 18
***Сададдинли Н.М.***
ФУНКЦИЯ ПОКРОВИТЕЛЯ ОБРАЗА БОЗКУРТА ........ 23

## *Общественные науки*

***Абдуллаев М.К.***
КАТЕГОРИИ ЧАСТНОВЛАДЕЛЬЧЕСКИХ КРЕСТЬЯН И ИХ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В 20-40-х ГОДАХ XIX ВЕКА ........ 29
***Адилова Н.Ф.***
МЕТОДЫ СТРАТЕГИЧЕСКОГО ВОЗДЕЙСТВИЯ НА ПОЛИТИЧЕСКУЮ КУЛЬТУРУ С ПОМОЩЬЮ НОВЫХ МЕДИА ........ 42
***Гаджиева М.Дж.***
ОРГАНИЗАЦИЯ И ДЕЯТЕЛЬНОСТЬ ТЕХНИЧЕСКИХ КУРСОВ, СОЗДАННЫХ В НАЧАЛЕ XX ВЕКА ПРИ БАКИНСКОМ ОТДЕЛЕНИИ РОССИЙСКОГО ИМПЕРАТОРСКОГО ТЕХНИЧЕСКОГО ОБЩЕСТВА ........ 51
***Керимова С.А.***
ПРАВА ДЕТЕЙ В НОВОЙ СИСТЕМЕ ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ ….. 61
***Мамедова Р.А.***
ПРОБЛЕМА ОТЧУЖДЕНИЯ И ДУАЛИЗМА В КЛАССИЧЕСКОЙ ФИЛОСОФИИ И СОЦИАЛЬНЫХ НАУКАХ ........ 69
***Мустафаев Э.Т.***
ДИФФУЗИЯ ЕВРОПЕАНИЗАЦИИ ЭКСПОРТОМ МОДЕЛИ РЕГИОНАЛИЗМА ЕС ........ 75
***Салманзаде Т.Р.***
БАКИНСКИЕ ФОРУМЫ КАК АЛЬТЕРНАТИВНЫЕ ДИАЛОГОВЫЕ ПЛАТФОРМЫ ДЛЯ РАЗВИТИЯ МЕЖЦИВИЛИЗАЦИОННОГО ДИАЛОГА… 81
***Шукуров С.И.***
НОРМАТИ`1ВНО-ПРАВОВАЯ БАЗА ЭНЕРГЕТИЧЕСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ........ 90

## *Педагогико-психологические науки*

***Заманов А.Д., Ализаде Х.А.***
ИНТЕГРАЦИЯ ИНТЕРНЕТА В ОБРАЗОВАНИЕ КАК СПОСОБ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ И КАЧЕСТВА ПРОЦЕССА ОБУЧЕНИЯ 98
***Халилова Х.О.***
ИНТЕГРАЦИЯ В ОБЩЕСТВО ОСВОБОЖДЕННОЙ ОТ ЗАКЛЮЧЕНИЯ МОЛОДЕЖИ – СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ С ЗАРУБЕЖНЫМИ СТРАНАМИ ........ 111

***Моллаева Э.А.***
ДИНАМИКА РАЗВИТИЯ ОБРАЗОВАНИЯ В КОНТЕКСТЕ
ГЛОБАЛИЗАЦИИ ……………………………………………………………….. 123
***Назарова Ш.С.***
ОСНОВНЫЕ ПРИНЦИПЫ, СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ И
ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ ................. 132
***Рзаева Ф.И.***
ВЛИЯНИЕ ФОРТЕПИАННЫХ ПРОИЗВЕДЕНИЙ ИСМАИЛА
ГАДЖИБЕКОВА НА РАЗВИТИЕ ИНТЕРЕСА К СОВРЕМЕННОЙ МУЗЫКЕ
МОЛОДОГО ПОКОЛЕНИЯ ........................................................................ 143

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Ibrahimova B.E.***
LINGUISTIC AND STYLISTIC FEATURES OF JOURNALISTIC TEXTS .......... 9
***Rahimzadeh V.G.***
THE TASKS OF JOURNALISM ON THE PERIODS OF COVID-19 AND POSTPANDEMIA .......... 18
***Sadaddinli N.M.***
ALL-PROTECTIVE FUNCTION OF BOZQURD IMAGE .......... 23

## *Social sciences*

***Abdullayev M.G.***
ENTREPRENEURIAL PEASANT CATEGORIES AND THEIR SOCIO-ECONOMIC SITUATION IN NORTHERN AZERBAIJAN IN THE 20-40s OF THE XIX CENTURY .......... 29
***Adilova N.F.***
METHODS OF STRATEGIC INFLUENCE ON POLITICAL CULTURE WITH NEW MEDIA.......... 42
***Hajiyeva M.C.***
ORGANIZATION AND ACTIVITY OF TECHNICAL COURSES CREATED UNDER THE BAKU BRANCH OF THE RUSSIAN IMPERİAL TECHNICAL SOCIETY IN THE EARLY 20th CENTURY .......... 51
***Karimova S.A.***
CHILDREN'S RIGHTS IN THE NEW SYSTEM OF PUBLIC RELATIONS .......... 61
***Mammadova R.A.***
THE PROBLEM OF ALIENATION AND DUALISM IN CLASSICAL PHILOSOPHY AND SOCIAL SCIENCES .......... 69
***Mustafayev E.T.***
DIFFUSION OF EUROPEANIZATION BY EXPORTING THE EU REGIONALISM MODEL .......... 75
***Salmanzadeh T.R.***
BAKU FORUMS AS ALTERNATIVE DIALOGUE PLATFORMS FOR THE DEVELOPMENT OF INTER-CIVILIZATION DIALOGUE .......... 81
***Shukurov S.İ.***
LEGAL AND NORMATIVE BASE OF ENERGY POLICY IN THE REPUBLIC OF AZERBAIJAN .......... 90

## *Pedagogical-psychological sciences*

***Zamanov A.D., Alizadeh H.A.***
INTEGRATION OF THE INTERNET TO EDUCATION AS A WAY TO IMPROVE THE EFFICIENCY AND QUALITY OF THE LEARNING PROCESS 98
***Khalilova Kh.O.***
INTEGRATION IN A SOCIETY RELEASED YOUTH – A COMPARATIVE ANALYSIS WITH FOREIGN COUNTRIES .......... 111

***Mollayeva E.A.***
DYNAMICS OF DEVELOPMENT OF EDUCATION IN THE CONTEXT OF GLOBALIZATION ........................................................................................ 123
***Nazarova Sh.S.***
BASIC PRINCIPLES OF INCLUSVE EDUCATION, CURRENT PROBLEMS AND DEVELOPMENIT PERSPECTIVES ............................................................. 132
***Rzayeva F.I.***
THE INFLUENCE OF ISMAIL HAJIBEYOVS PIANO WORKS ON THE DEVELOPMENT OF INTEREST IN CONTEMPORARY MUSIC OF THE YOUNGER QENERATION ........................................................................ 143

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 9-17
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 9-17

# Humanitar elmlər

*UOT 81*

***B.E.İbrahimova***
*Bakı Slavyan Universiteti*
*benovsheibrahimova@gmail.com*

## PUBLİSİSTİK MƏTNLƏRİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *informasiya, publisistika, üslub, dilçilik, qəzet, praqmatika, jurnalistika*

Məqalədə gündəlik informasiya vasitəsi kimi qəzet materiallarında işlənən mətn və ifadələrin ədəbi dil, onun norma və semantikasına təsiri haqqında bəhs edilmişdir. Digər kütləvi informasiya vasitələrindən fərqli olaraq qəzet-publisistik janrının oxucu kütləsinə təsiri (fikrin emosional ifadəsi, polemikalar, inandırıcılıq məqsədli suallar, neologizmlərdən daha çox istifadə və s) xüsusi olaraq şərh edilmişdir. Məqalədə qəzetlərdə xəbər mətni və başlıqlarda ədəbi dil normalarının pozulması, jarqonlardan istifadənin artması da diqqət mərkəzində saxlanılmışdır. Qeyd olunmuşdur ki, publisistik üslubun formalaşması əsasən siyasi-ideoloji, sosial-iqtisadi, mədəni və s. ictimai əlaqələr sahəsindən asılı olaraq dilin lüğət tərkibinin yeniləşməsi (neologizmlər, terminlər) və ya əksinə, arxaik, dialekt sözlərin yenidən ictimai nitqə qaytarılması yolu ilə paralellik təşkil edir.

***Б.Э.Ибрагимова***

## ЛИНГВИСТИЧЕСКИЕ И СТИЛИСТИЧЕСКИЕ ОСОБЕННОСТИ ПУБЛИЦИСТИЧЕСКИХ ТЕКСТОВ

***Ключевые слова:*** *информация, публицистика, стиль,, лингвистика, газета, прагматика, журналистика*

В статье обсуждается влияние текстов и выражений, используемых в газетных материалах в качестве ежедневного средства массовой информации, на литературный язык, его нормы и семантику. В отличие от других СМИ, особое внимание уделялось влиянию газетно-публицистического жанра на читательскую аудиторию (эмоциональное выражение мнения, полемика, убедительные вопросы, большее использование неологизмов и т. д.). В статье также говорится о нарушении норм литературного языка в газетах и заголовках, а также о росте использования жаргонов. Отмечалось, что формирование публицистического стиля в основном в зависимости от политико-идеологического, социально-экономического, культурного и других общественных отношений образует параллель с обновлением словарного запаса языка (неологизмы, термины) или, наоборот, за счет возвращения архаичных, диалектных слов в общественную речь.

**B.E.Ibrahimova**

## LINGUISTIC AND STYLISTIC FEATURES OF PUBLIC TEXTS

***Keywords:*** *information, publicism, style, linguistics, newspaper, pragmatics, journalism*

The article discusses the influence of the texts and expressions used in newspaper materials as a daily mass media on the literary language, its norms and semantics. Unlike other media, special attention was paid to the influence of the newspaper-journalistic genre on the readership (emotional expression of opinion, polemics, persuasive questions, greater use of neologisms, etc.). The article also talks about the violation of the norms of the literary language in newspapers and headlines, as well as an increase in the use of jargon. It was noted that the formation of a journalistic style, mainly depending on the political-ideological, socio-economic, cultural and other social relations, forms a parallel with the renewal of the vocabulary of the language (neologisms, terms) or, conversely, due to the return of archaic, dialectal words to public speech.

Kütləvi informasiya vasitələrinin dil xüsusiyyətləri hər hansı bir dilin ümumi mənzərəsini əks etdirməklə sanki xalqın ədəbi dilinin güzgüsü rolunu oynayır (10, s.12). Publisistik dilin bu cür qiymətləndirilməsi bu sahənin müasir dilçilik üçün əhəmiyyətini artırır.

Müasir medianın vəziyyəti ən çox təmsil olunduğu elmi forumlarda müzakirə olunur. Qəzet dili müvafiq xalqın dilinin vəziyyətinin təsvirinə həsr olunmuş monoqrafiyalardakı əsas tədqiqat materialıdır. Müasir media çox dinamik bir araşdırma obyektidir. O, linqvistik sahənin hərəkətini, habelə cəmiyyətdəki sosial və etnik cəhətdən baş verən dəyişiklikləri, informasiya və kommunikasiya əlaqələrinin elmi-texniki təchizatında irəliləyişə cavab verən dil vəziyyətinin yeni inkişaf meyillərini əks etdirir (13, s.78).

XX-XXI əsrin sonlarında Azərbaycan və ingilis dillərinin aktiv proseslərin öyrənilməsinə həsr olunmuş son əsərlərdə müasir medianın dilini xarakterizə edən praqmatik, konseptual, leksik-semantik cəhətlərə xüsusi fəsillər verilməsi müşahidə olunur. Son illərdə nəşr olunan ensiklopedik lüğətlərdəki məqalələrin xüsusilə müasir kütləvi informasiya vasitələrinin dilinə həsr olunması kifayət qədər yüksək göstəricidir. Tədqiqatçılar qeyd edirlər ki, medianın dili eyni zamanda dinamizm və mühafizəkarlıq, standart və zamanın nitq prioritetlərindən asılılıq kimi müxtəlif xüsusiyyətləri özündə birləşdirir. Ziddiyyətli meyillərin toqquşması bir tərəfdən medianın istifadəsində müəyyən qeyri-sabitliyə səbəb olur, digər tərəfdən, bu tip ümumi etnik ünsiyyət üçün dilin inkişafına güclü bir təkan verir (7, s.500). Beləliklə, hazırda müasir jurnalistikada əsas cəhətlər normativ funksional stilistikadır. Son illərdə bunlara koqnitivlik və praqmatika əlavə edildi.

Medianın dili dünyanın müxtəlif və rəngarəng mənzərəsini yaradır. Bu mənada idrak aspekti ən əsasa çevrilir. (17, s.263). Media dünyanın mənzərəsini təsvir etmək üçün hazırlanmış aydın və məntiqli mifoloji reallığı yaradır.

Medianın funksiyası oxucunu yalnız dünyanın müasir mənzərəsi ilə məlumatlandırmaq deyil, həm də inandırmaq, geniş kütlənin zehninə təsir etmək məqsədi daşıyır. Qəzetlərdə dünyanın mənzərəsi əsasən müəllifin ideoloji və siyasi münasibətlərindən asılıdır. Bu vəziyyətdə praqmatik aspekt doğma dilin spesifikliyini və nitq obyektinin (ünvanlandığı proses) spesifikliyinin dərindən öyrənilməsini əhatə edir. Media spesifikliyi media dilinin xüsusiyyətlərini – üslub istiqamətini, emosionallığı, qiymətləndirmə və ifadə qabiliyyətini özündə birləşdirir (13, s.90).

Medianın əsas funksiyası məlumat ötürməkdir. Bu ünsiyyət niyyətinin müvəffəqiyyətlə həyata keçirilməsi üçün ötürülən mesajın, çatdırılan məlumatın növü və bu zaman uyğun dil qaydalarının tətbiqi  aydın şəkildə həll edilməlidir. Bu o deməkdir ki, məlumat müəyyən bir alıcı üçün əlçatan, başa düşülən və asanlıqla anlaşılan şəkildə tərtib olunmalıdır.

XXI əsrin əvvəllərində informasiya və media kütlənin şüuruna təsir edən ən güclü vasitəyə çevrildi. Deyə bilərik ki, mediada təsir, inandırma funksiyası digər linqvistik funksiyaları sıxışdırmağa başladı. Müəyyən sosial və siyasi şəraitdə medianın cəmiyyətimizin bütün üzvlərinə təsiri var. Kütləvi informasiya vasitələrinin dilinin araşdırılması qrammatika, fonetika, üslub, söz ehtiyatı, frazeologiya ilə bağlı olan bəzi yenilikləri ortaya çıxarır (6, s.35).

Son zamanlar neologizmlər qəzetlərin dilində ən çox təmsil olunur. Bunun səbəbi qəzetlərin media növlərindən biri olaraq hər yeni günün hadisələrini tez və əhatəli şəkildə əks etdirməsidir. Bu gün qəzetlər yeni sözləri, mənaları, ifadələri gündəlik hadisələrdən və başqa dil materiallarından daha tez əks etdirir. Qəzetlər, ictimai həyatın bütün sahələrində baş verən dəyişiklikləri yazılı nitqin bütün digər janrlarından daha sürətli əks etdirir, cəmiyyət üçün ən əhəmiyyətli problemləri qaldırır. Publisistik üslubun qəzet janrı dildə müxtəlif yeniliklərin ortaya çıxması, yeni sözlərin ümumi lüğətə keçməsində vasitəçi rolunu oynayaraq proseslərin xüsusiyyətlərini göstərir (6, s.45).

Jurnalistlərin hadisələrə münasibəti ilə əlaqədar olaraq kütləvi ünsiyyət dili ilk növbədə kütlələrin ideoloji tərbiyə aləti olaraq qəbul edildiyinə görə cəmiyyətin canlı nitq ünsürü olan müasir mətbuat dilin ən müxtəlif nitq formalarını mənimsəyir. Bu zaman müəllif mətndə cəmiyyətin bir çox sosial qruplarının nitq praktikasını əks etdirir, bu da son dərəcə müxtəlif dil köklərinin müasir media dilində qütbləşməsinə, passiv lüğət dilindən xarici dilə istiqamətlənmiş qarşılıqlı təsirinə səbəb olur (15, s.70).

Müasir qəzet üslubu parlaq polemikalar, inandırıcılıq və neologizmlərin yüksək dərəcədə istifadəsi ilə xarakterizə olunur.

Qəzet-publisistik üslubun əsas xüsusiyyətlərindən biri ekspressivlik və standarta meyillilik tendensiyanın birləşməsidir. Bu, jurnalistikanın yerinə yetirdiyi funksiyalarla – informasiya, məzmun və inandırma funksiyaları ilə əlaqədardır. Ümumi oxucuya təsir etmək funksiyası qəzetlərdə publisistik üslubun emosional və ifadəli xarakter olma xüsusiyyəti ilə əlaqələndirilir. Bu üslubun standartı ictimai əhəmiyyətli məlumatların ötürülmə sürəti ilə əlaqələndirilir (11, s.11). Bəzi tədqiqatçılar öz əsərlərində qəzet-publisistik üslubun lüğətinin açıq emosional və ifadəli özəlliyə sahib olduğunu, danışıq dilini, xalq dilini və hətta jarqon elementlərini də özündə birləşdirdiyini göstərirlər. Funksional, ifadəli-qiymətləndirici xüsusiyətləri birləşdirən leksiko-frazeoloji vahidlər və ifadələr fəal şəkildə istifadə olunur, məsələn, sarı mətbuat. Belə adlandırmalar yalnız qəzet-publisistik nitq tərzinə mənsub olduqlarını göstərməklə kifayətlənmirlər, əksinə mənfi qiymətləndirmə ifadə edirlər (12, s.98).

V.L.Nemçenko hesab edir ki, standarta meyil jurnalistikanın elmi və rəsmi iş üslublarına xas olan məlumatlı olmaq istəyi deməkdir. Məsələn, davamlı inkişaf, geniş əhatə dairəsi, dostluq mühiti, rəsmi səfər və s. qəzet üslubu üçün standart olaraq təsnif edilə bilər (12, s.198).

Qəzet-publisistik üslubun digər əhəmiyyətli xüsusiyyəti həm mühafizəkarlığa, həm də hərəkətliliyə sahib olmasıdır. Bir tərəfdən publisistik nitqdə kifayət qədər başlıq, ictimai-siyasi və digər terminlər var. Digər tərəfdən müəllif oxucuların istəklərini təqib edərək onlara təsir etmək, inandırmaq üçün getdikcə daha çox dil vasitələrinə ehtiyac duyur, bu məqsədlə bədii danışıq nitqinin bütün zənginliklərindən istifadə edir (12, s.208).

Qəzet-publisistik nitq tərzinin sintaksisi də emosional və ifadəli formaların aktiv istifadəsi ilə əlaqəli xüsusiyyətlərə malikdir. Bu zaman təsirliliyi artırmaq üçün aşağıdakı formalar daha çox istifadə olunur: müxtəlif mənalı nida cümlələri, sorğu-sual cümlələri, müraciətli cümlələr, ritorik suallar, təkrarlamalar, parçalanmış konstruksiyalar və s. Öz fikirini ifadə etmək istəyi nitqdə müxtəlif konstruksiyaların istifadəsini tələb edir: hissəciklər, kəsişmələr, frazeoloji quruluşlar, tərs çevrilmələr, birləşməmiş cümlələr, ellipslər (bu və ya digər üzvün buraxılması, struktur yarımçıqlığı) və s. Bütün bu vasitələr müəllifə emosional, pafoslu mətn yaratmağa xidmət edir (11, s.21).

Fərqləndirici xüsusiyyətlərin bütün müxtəlifliyini nəzərə alaraq qeyd etmək lazımdır ki, ilk növbədə qəzet-publisistik üslubun əsas xüsusiyyəti onun informativliyi və ifadə qabiliyyətidir (11, s.21).

Jurnalist üslubu siyasi-ideoloji, sosial-iqtisadi, mədəni və s. ictimai əlaqələr sahəsinə xidmət edir. Kütləvi-informasiya vasitələri və təbliğat – mətbuat, radio, kino, televiziya tərəfindən təbliğ edildiyi üçün bütün kitab üslubları arasında ən populyardır. V.Q.Kostomarov jurnalistikanın geniş oxucu kütləsini dövrümüzün ən aktual problemləri ilə tanış etmək üçün yaradıldığını

qeyd edir: "müasir publisistik janr inandırmaq yolu ilə insanların şüuruna təsir etmək və müəyyən ictimai rəy formalaşdırmaq üçün hazırlanmışdır" (10, s.24).

V.Q.Kostomarov publisistik üslubda ifadənin əsas hissəsini vurğulamaq, oxucunun diqqətini qeyri-adi sözlə və ya xüsusi sintaktik quruluşlu forma istifadəsi ilə cəlb etməkdən ibarət olan funksional rolunu ayırır. Jurnalistik üslubun ifadəsi nitqin daha aydın və yadda saxlamağı asanlaşdırmaq vəzifəsinə tabedir (10, s.24).

Jurnalistikada ifadəli və obrazlı vasitələrə ehtiyac xüsusilə yüksəkdir, lakin bu, gündəlik qəzet istehsalının mövcudluğu ilə dövrümüzün bütün hadisələrinə dərhal cavab vermək ehtiyacı ilə ziddiyyət təşkil edir. Obrazlı ifadə yaratmaq üçün tipik üsullardan istifadə olunur, məsələn, frazeoloji vahidlər standart texnika ilə yenilənir.

Jurnalistik üslubun xarakterik xüsusiyyətlərindən biri də nitq standartlarının və stereotiplərin olmasıdır. Standart – müəyyən bir vəziyyətlə əlaqəli hazır danışıq forması olaraq ünsiyyəti çox asanlaşdırır; buna görə də ondan mediada istifadə etmək xüsusilə əlverişlidir. Qəzet dili tədqiqatçıları standartlara müraciət etmədən yazmağın demək olar ki, mümkün olmadığını qeyd edirlər. V.Q.Kostomarovun araşdırmasında göstərildiyi kimi, ifadə və standart birliyi qəzet dilinin konstruktiv prinsipini təşkil edir. Eyni zamanda yalnız bu ziddiyyətli elementlərin bir-birini əvəz etməsi, onların tam tarazlığı, tədqiqatçıya görə, qəzet janrlarının ideal nümunələrini yaradır (10, s.23).

Q.İ.Miskeviç xüsusən də bugünkü qəzet və jurnal publisistikasında sözcüklərin yaranma intensivliyinin artdığını qeyd edir, hətta yenidənqurma dövründə dilə yeni sözlərin daxil olmasının əlaməti olaraq "nominativ partlayış"dan bəhs edir (11, s.43).

Yenidənqurma dövründə proqressiv inkişaf yalnız ingilis leksikonunun qəzet dilinə daxil olması ilə kifayətlnməyərək postsovet dövrü standartlarına alışmış olan müstəqil Azərbaycan mətbuatına sanki qərb "səsi" gətirdi.

Kostomarov mətbuatdakı mövcud vəziyyəti "orfoqrafiya boşluğu", "icazəsiz daxil olma təhlükəsi, anarxiya" olaraq xarakterizə etmişdir. Bu, əlbəttə ki, linqvistik kommunikativ sahədə ictimai tələbatın nəticəsidir (10, s.24).

Tədqiqatçıların fikrinə görə, dil sistemi nitq fəaliyyətinin əsasını təşkil edərək normanı, dil qabiliyyətini, tələbatı və hətta cəmiyyətin nitq səviyyəsini müəyyən edir. Bu kateqoriyalar həm ekstilinqvistik – sosial amillər, dil xaricindəki reallıq, şüurlu elmi təsir, psixoloji münasibət, həm də təhsil səviyyəsi ilə müəyyən edilir.

M.V.Panov qeyd edir ki, mətbuat dili çox fərqli görünüşlərə sahib ola bilir (14, s.33). Bu, daxili qaynaqların, formaların, xüsusən də mənaların dəyişkənliyi ilə təmin edilir, lakin uzun müddətdir ki, müxtəlif səviyyələrdə, xüsusən də söz ehtiyatında, üslubda, sintaksisdə bir çox xüsusi yeniliklərə və

dəyişikliklərə baxmayaraq öz xüsusiyyətlərini saxlamağa davam edir. Bu cür dəyişikliklər və yeniliklər müasir tərzə uyğun yaradılan, cəmiyyətin tələbatı ilə diktə edilən, dil qabiliyyəti əlaqələndirilərək norma ilə kodlaşdırılarsa, dilin quruluşunun bir elementi olaraq öz yerini tutar (14, s.33).

Beləliklə, qəzet janr dilinin əsas xüsusiyyətləri arasında aşağıdakıları vurğulamaq lazımdır: iki meylin birləşməsi – ifadə qabiliyyəti və standarta meyil, parlaq polemik və neologizmlərin yüksək dərəcədə qiymətləndirilməsi, emosional və ifadəli şəkilləndirmə, mühafizəkarlıq, hərəkətlilik və məlumat məzmunu (14, s.34).

Söz yaratma prosesləri sosial dünyagörüşünün inkişafı ilə əlaqəli olan dilin lüğət tərkibindəki dəyişiklikləri aydın və birbaşa əks etdirir. Dil proseslərinin dinamikası nəzərə alınaraq yeni sözlərin əmələ gəlməsi günümüzün dilini xarakterizə edən əsas hadisələri və meyilləri müəyyən edir (15, s.22). Bundan əlavə yeni sözlərin təhlili, söz yaratma faktları göstərir ki, onlar müasir həyatın müxtəlif sahələrində baş verən bütün dəyişiklikləri tematik şəkildə əks etdirir. Alınma sözlər müasir cəmiyyətin reallığını, hadisələri, danışanların görmə qabiliyyətini və qiymətləndirməsini əks etdirir. Mediada ön planda təyinatlar sosial, ictimai və siyasi hadisələr, eyni zamanda cəmiyyətin bir vahidi olaraq bir insandır (15, s.22).

Müasir qəzetlərdə müzakirə və qiymətləndirmə obyektləri ictimai həyatda, iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə baş verən müxtəlif hadisələr, eləcə də ictimai və siyasi xadimlər, pop ulduzları və şou-biznes xadimləridir.

Kütləvi ünsiyyət sahəsində qeyri-rəsmi, şəxsi ünsiyyət ilə rəsmi ictimai ünsiyyət arasındakı kəskin xətt qarışıqdır. E.A.Zemskaya qeyd edir: "Qəzetlərin dili kəskin şəkildə dəyişmişdir. İctimai dil mövcud səviyyəsindən aşağı salınmış, hətta kobud jargon ifadələrin təsir etdiyi proseslərin mərkəzinə çevrilmişdir" (18, s.75). O, dövri mətbuatda iki növ neologizmlər təsbit etmişdir:

- Dilin müxtəlif sahələrinə xas olan şərti faktları əks etdirən;
- Fərdi-müəllif təzahürləri: bədii olduğunu iddia edərək dil oyunu həyata keçirir (18, s.75).

Bu gün qəzetlərin dili, senzuranın ləğv edilməsi dilin demokratikləşməsinə səbəb olur. Bu isə vaxtilə ədəbi dildə az rast gəlinən jarqon və ya qeyri-mədəni söz axınının öz çərçivəsindən kənara çıxmasına səbəb olur. Nitqdə sözün öz əsl mənasında istifadə etməyi tələb edən bütün janrlar: qəzet və televiziya reportajları, publisistik çıxışlar, siyasi mübahisələr, lüğətlər əvvəllər ədəbi cəhətdən çox ciddi sərhədlənirdisə, başqa sözlə, qeyri-ədəbi ifadələrdən son dərəcə ehtiyatlı şəkildə icazə verilirdisə, indi onun müxtəlif janrlarda payı artaraq, gənclikdən kənara çıxaraq əhalinin demək olar ki, bütün təbəqələrini əhatə edir.

Hazırda qəzetlərinin lüğət ehtiyatını bəzən başqa semantikalardan "alınmış" sözlərlə, bəzən semantikasını dəyişmədən, bəzən də yeni məna çalarları ilə doldurma prosesinin şahidi oluruq. Qəzet səhifələrində leksik kompozisiyanın son illərdə yenilənməsi əsasən leksik materialın bir üslubdan digərinə "köçürülməsi" yolu ilə həyata keçirilmişdir. Jurnalistik üslubun söz ehtiyatı tədricən həm yeni, həm də jarqon sözlərlə "qidalanır", bir tərəfdən danışıq və gündəlik (daşıyıcı, boğa, qoçu, lotu, mafiya), digər tərəfdən isə elmi və iş üslubları (prezentasiya, menecment, investisiya və s.) (3, s.40).

Qəzet səhifələrindəki yeni birləşmələrdən danışarkən qəzet mətninin janr növləri baxımından heterogen bir publisistik mətn olduğunu nəzərə almaq lazımdır. Bütün deyilənləri nəzərə alaraq qəzetlərin dil xüsusiyyətlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

Publisistik üslub ictimai-siyasi ədəbiyyatda, dövri mətbuatda, siyasi çıxışlarda, nitqlərdə rast gəlinir. Bu üslub daha geniş şəkildə qəzet və jurnallarda istifadə olunur və aşağıdakı xüsusiyyətlərə malikdir:

1. Dil vahidlərinə qənaət və lakonik təsvir.
2. Dil vahidlərindən seçim edərkən onların daha asan qavranılması prinsipini rəhbər tutmaq, çünki qəzet dili asan və anlaşılan olmalıdır.
3. İctimai-siyasi leksikanın və frazeologiyanın publisistik məqsədlərə uyğunlaşdırılması.
4. Janr rəngarəngliyi və bundan irəli gələn üslub fərqliliyi, üslubların qarşılıqlı əlaqəsi (3, s.43).

Lakin sadalanan ümumi cəhətlərlə yanaşı, publisistikanın müxtəlif janrlarına dair fərqli keyfiyyətlər də mövcuddur. Seçilən janrdan asılı olaraq müvafiq dil vahidləri və üslubi leksika istifadə olunur. Bu səbəbdən publisistik əsərlərdə digər üslublara aid dil elementləri də istifadə olunur (3, s.43).

Qəzet üslubunun leksikasının əsas hissəsini ümumişlək sözlər və müxtəlif terminlər təşkil edir. Onlar publisistik mətnin kontekstində publisistik rəng alır. Məsələn: işsizlər ordusu, ölkələrarası dialoq, diplomatik manevrlər, rəsmi dairələr, sülh məsələsi, əmək bazarı, ticarət maqnatları və s. "Qəzet dilində klişelərdən və digər hazır dil düsturlarından istifadə geniş yayılmışdır. Bu isə yazan üçün də, oxucu üçün də rahat bir vasitədir" (16, s.49).

Qəzet dili həm də danışıq dilinə çox yaxındır. Danışıq dilindən qəzet dilinə elliptik cümlələr – feilsiz frazalar da daxildir (16, s.49). Bu cür cümlələr daha çox sərlövhələr üçün istifadə olunur. Məsələn: "Gəncliyimiz – gələcəyimizdir", "Təcrübə – uğurun təməlidir".

Publisistik mətndə inversiyadan da istifadə olunur. Yəni məntiqi yüklü sözlər önə keçirilir. Bundan əlavə qəzet yazılarında informasiyanın mənbəyi cümlənin əvvəlinə keçirilir. Məsələn: rəsmi məlumata görə, Azərtac xəbər verir ki, və s.

Yuxarıda göstərilənlər təsdiq edir ki, publisistik üslub öz məqsəd və məramına görə dilin bütün leksik imkanlarından yararlanır. İctimai və siyasi məsələlərin geniş xalq kütləsinin anlayacağı şəkildə izah edilməsi ədəbi dilin publisistik funksional üslubu adlanır. Publisistik üsluba eyni zamanda kütləvi üslub, kütləvi dil də deyilir. Publisistik üslubun əmələ gəlməsində mətbuatın xüsusi rolu vardır (5, s.143). Buna görə də bu üslubu çox zaman mətbuat üslubu adlandırırlar. Lakin qeyd etməliyik ki, qəzet və jurnallardakı məqalələrin hamısı publisistik üslubda yazılmır. Azərbaycan ədəbi dilinin publisistik funksional üslubunun bünövrəsi XIX əsrdə – milli mətbuatın yarandığı dövrdə qoyulmuşdur. Ədəbi dilimizdə bu üslubun xüsusi mövqeyi və əlaməti vardır (2, s.27).

Ədəbi dilin publisistik funksional üslubu universal xarakterdə olub kütləvi kommunikasiya üçün geniş istifadə edilir. Hər cür kütləvi informasiya qəzet, radio, televiziya, mitinq və iclaslardakı çıxışlarla, əsasən publisistik üslubda geniş xalq kütləsinə çatdırılır (4, s.17).

Publisistik ədəbiyyat öz məzmununda iqtisadi, siyasi, mədəni, fəlsəfi, dini və sair problemləri əhatə etdiyinə görə həmin sahələrlə əlaqədar dil vahidlərindən istifadə olunur. Bununla da publisistik üslubun xüsusi dil əlamətləri özünü göstərir:

a) Fonetika sahəsində. Publisistik üslub ədəbi dilin həm yazılı, həm də şifahi formasında istifadə edilir. Buna görə də burada səslərin tam tələffüz edilməsi tələb olunur. Səslərin aydın tələffüzü ilə yanaşı, onların ahəngdarlığı, tonu və sürəti də xüsusi əhəmiyyət kəsb edir. Fonetik tələblərə ciddi riayət olunması ədəbi dilin publisistik funksional üslubu üçün əsas şərtlərdən hesab olunur (2, s.45).

b) Lüğət tərkibi sahəsində. Publisistik üslubun səciyyələnməsində lüğəvi vahidlər xüsusi rol oynayır:

1) burada ictimai-siyasi leksikadan, elm, mədəniyyət, sənaye və digər sahələrə dair terminlərdən geniş istifadə olunur;

2) nitqi müxtəlif rəngə salmaq üçün yeni sözlərə, arxaizmlərə, məhdud dairədə işlənən söz və ifadələrə tez-tez müraciət olunur;

3) müəyyən hədəfi tənqid və ifşa etmək məqsədi ilə kəskin söz və ifadələr seçilib işlədilir;

4) sözün istehza ilə işlənməsinə geniş yer verilir;

5) frazeoloji vahidlərin hər növündən geniş istifadə edilir;

6) müxtəlif mövzularda danışıq dili ünsürlərinə geniş yer verilir. (məsələn, "Kirpi" jurnalının materiallarında külli miqdarda xalq danışıq ifadə və tərkibləri işlədilir) (2, s.47).

c) Qrammatika sahəsində. Publisistik üslub üçün bir sıra morfoloji və sintaktik əlamətlər xarakterikdir. Bu üslubda mücərrəd isimlər nitqə geniş daxil edilir. Feilin indiki zamanı tez-tez işlənilir (1, s.143). Dildə yeni yaranan

beynəlxalq sözlərə dair budaq morfemlərdən – şəkilçilərdən yeri gəldikcə istifadə olunur. Sintaktik vahidlərdən yarımçıq cümlələrin işlədilməsi, vasitəsiz nitqə geniş yer verilməsi, yaxud ritorik suallar, təkrarlar, anafora və antitezalardan istifadə olunması xüsusi üslubi vəzifə daşıyır (1, s.146).

Nəhayət, üslublar sistemində ədəbi dilin publisistik funksional üslubu daha çox sadəliyi, yığcamlığı, kütləviliyi, kəskinliyi, təsirliliyi ilə səciyyələnir.

## ƏDƏBİYYAT

1. *Abdullayev K.* Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Nurlar, 1999, 346 s.
2. *Bəylərova A.* Bədii dildə üslubi fiqurlar. Bakı: Nurlan, 2008, 210 s.
3. *Əliyeva D.T.* Praktik üslubiyyat. Bakı: Mütərcim, 2011, 238 s.
4. *Əliyev K.* Üslubiyyat və üslublar sistemi. Bakı: Elm, 1985, 83 s.
5. *Cabbarov X.* Sənətkar, söz, üslub. Bakı: Gənclik, 1993, 195 s.
6. *Ильясова С.В.* Языковая игра в коммуникативном пространстве СМИ и рекламы / С.В.Ильясова, Л.П.Амири. М., 2009, 296 с.
7. Какорина Е.В. Активные процессы в языке средств массовой информации// Современный русский язык: Активные процессы на рубеже XX-XXI вв. М., 2008, 547 с.
8. *Караулов Ю.Н.* О состоянии английского языка современности. М.: Наука, 1991, 157 с.
9. *Коньков В.И.* Речевая структура газетного текста. СПб., 1995, 98 с.
10. *Костомаров В.Г.* Языковой вкус эпохи. Из наблюдений над речевой практикой масс-медиа. СПб., 1999, 157 с.
11. *Миськевич Г.И., Чельцова Л.К.* Новые слова, их принятие и нормативная оценка (проблема новых слов в культурно-речевом аспекте) // Актуальные проблемы культуры речи. М.: Наука, 1970, 272 с.
12. *Немченко В.Н.* Современный английский язык. Морфемика и словообразование. Нижний Новгород, 1994, 290 с.
13. *Нещименко Г.П.* Сопоставительное изучение словообразования славянских языков. М.: Наука, 1987, 278 с.
14. *Панов М.В.* Из наблюдений над стилем сегодняшней периодики // Язык современной публицистики. М.: Наука, 1988, 399 с.
15. *Попова Т.В., Рацибурская Л.В., Гугунава Д.В.* Неология и неография современного английского языка. М., 2005, 250 с.
16. *Розенталь. Д.Э.* Практическая стилистика русского языка. М., 1987, 340 с.
17. *Солганик Г.Я.* О языке и стиле газеты // Язык СМИ как объект междисциплинарного исследования. М., 2003, 268 с.
18. *Земская Е.А.* Новое в лексике – новое в словообразовании // Актуальные проблемы английского словообразования / Материалы VII Международной научной конференции, посвященной 70-летию профессора А.Н.Тихонова. Елец, 2001, 305 с.

Redaksiyaya daxil olub 18.10.2021

*UOT 070*

***V.G.Rəhimzadə***
*Bakı Slavyan Universiteti*
*vuqarrehimzade@mail.ru*

# COVID-19 DÖVRÜ VƏ ONDAN SONRAKI MÜDDƏTDƏ JURNALİSTİKANIN QARŞISINDA DURAN VƏZİFƏLƏR

***Açar sözlər:*** *COVID-19, Koronavirus pandemiyası, karantin rejimi, televiziya, radio, mətbuat, elektron media*

Ötən iki il ərzində mediada ən populyar mövzulardan biri COVID-19 oldu. Bununla yanaşı, özünümüdafiə tamamilə yeni informasiya vasitələrinin yaranmasına təkan verdi, onların çoxu xarici dünya ilə əlaqəyə ehtiyacı olan tamaşaçılar arasında müəyyən populyarlıq qazandı. Televiziya, radio, mətbuat və elektron media pandemiya xəbərləri ilə doldu. "Koronavirus dünyanı dəyişir", "Koronavirusun istəyi ilə təcrid", "Koronavirus: həyat əvvəlki kimi olmayacaq", "Koronavirus: pandemiya salnaməsi", "Koronavirusdan sonra həyat necə olacaq?" – xəbər başlıqlarının yalnız təvazökar hissəsidir. Vəziyyəti anlamaq və son hadisələrdən xəbərdar olmaq üçün planetin müxtəlif yerlərinin sakinləri gün ərzində smartfonlarında onlarla xəbər və məlumatları yeniləyir, radio və TV vasitəsilə çoxsaylı tematik verilişlərə müraciət edirlər. Təbii ki, bu vəziyyət kütləvi informasiya vasitələrinə də öz təsirini göstərdi.

***В.Г.Рагимзаде***

## ЗАДАЧИ, СТОЯЩИЕ ПЕРЕД ЖУРНАЛИСТИКОЙ В ПЕРИОДЫ COVID-19 И ПОСТПАНДЕМИИ

***Ключевые слова:*** *COVID-19, пандемия Коронавирус, карантин, телевидение, радио, пресса, электронные медиа*

Один из самых популярных тем в медиа за последние два года был COVID-19. В то же время, самооборона дала толчок к появлению новых СМИ, большинство из них обрело определенную популярность среди аудитории, нуждающихся в связи со внешним миром. Телевидение, радио, пресса и электронные средства массовой информации были наполнены пандемическими новостями. «Коронавирус меняет мир», «Изоляция», «Коронавирус: жизнь не будет как предыдущая», «Коронавирус: пандемическая хроника», «Как будет жизнь после Коронавируса?» - это только скромная часть новостей заголовков. Чтобы понять ситуацию и осознавать последние события, жители разных частей планеты обновляют десятки новостей и информации в своих смартфонах в течение дня, обращаются к многочисленным тематическим передачам через радио и телевидение. Конечно, эта ситуация также повлияла на средства массовой информации.

***V.G.Rahimzadeh***

# THE TASKS OF JOURNALISM ON THE PERIODS OF COVID-19 AND POSTPANDEMIA

***Keywords:*** *COVID-19, Coronavirus Pandemic, quarantine mode, television, radio, press, electronic media*

One of the most popular topics in the media over the past two years was COVID-19. At the same time, the self-defense impetus to the emergence of new media, most of them have won a certain popularity among the audience in need of connecting the foreign world. Television, radio, press and electronic media filled with pandemic news. "Coronavirus changes the world", "Isolation", "Coronavirus: life will not be like the previous", "Coronavirus: Pandemic Chronicle", "How will life after the Coronavirus?" - It is only a modest part of news headlines. In order to understand the situation and be aware of the latest events, the residents of different parts of the planet update dozens of news and information on their smartphones during the day, apply to numerous thematic programs via radio and TV. Of course, this situation also affected the media.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən 11 mart 2020-ci ildə elan edilən COVID-19 Koronavirus pandemiyası dünyanın hər bir ölkəsinin həyatının bütün tərəflərinə böyük təsir göstərdi. Kütləvi xəstəliklər təhlükəsi səbəbindən dövlətlər sərhədlərin bağlandığını elan etdilər və misli görünməmiş təhlükəsizlik tədbirləri tətbiq etdilər. Dünyanın əksər ölkələrində karantin rejimi pozuldu və bir çox təşkilat və müəssisənin işi dayandırıldı, futbol çempionatı “Avro-2020”, “Formula-1”, fiqurlu konkisürmə üzrə dünya çempionatı, “Avroviziya-2020” mahnı müsabiqəsi kimi beynəlxalq idman və mədəni tədbirlər ləğv edildi. Təbii ki, bu vəziyyət kütləvi-informasiya vasitələrinə də öz təsirini göstərdi [1]. Heç şübhəsiz ki, ötən iki il ərzində mediada ən populyar mövzulardan biri COVID-19 oldu. Bununla yanaşı, özünümüdafiə tamamilə yeni informasiya vasitələrinin yaranmasına təkan verdi, onların çoxu xarici dünya ilə əlaqəyə ehtiyacı olan tamaşaçılar arasında müəyyən populyarlıq qazandı. Televiziya, radio, mətbuat və elektron media pandemiya xəbərləri ilə doldu. “Koronavirus dünyanı dəyişir”, “Koronavirusun istəyi ilə təcrid”, “Koronavirus: həyat əvvəlki kimi olmayacaq”, “Koronavirus: pandemiya salnaməsi”, “Koronavirusdan sonra həyat necə olacaq?” – xəbər başlıqlarının yalnız təvazökar hissəsidir. Vəziyyəti anlamaq və son hadisələrdən xəbərdar olmaq üçün planetin müxtəlif yerlərinin sakinləri gün ərzində smartfonlarında onlarla xəbər və məlumatları yeniləyir, radio və TV vasitəsilə çoxsaylı tematik verilişlərə müraciət edirlər [2].

Buna əsasən iddia etmək olar ki, media indiki dünyada hər zamankından daha çox tələb olunur, çünki onlar bizim üçün əsas məlumat mənbəyidir. Buna

görə də pandemiyanın mediaya təsiri məsələsi bizə aktual görünür. Lakin əksər kütləvi media oxucuları, dinləyicilər və tamaşaçılar arasında populyarlıq zirvəsinə çatsa da, pandemiyanın əks təsir etdiyi nəşrlər də mövcuddur.

"Tibb xəbərləri" bölməsindəki koronavirus haqqında qısa xəbərlər bütün KİV-lərin ön cərgələrinə addım atdıqda və sonra bütün xəbərlərin bütün buraxılışlarını ələ keçirdikdə bəziləri düşünə bilərdilər ki, media üçün sənaye kimi qızıl dövrlər gəlib. Baxışların sayı yüksəldi, ölkə bütün gadgetlarından çıxmadı, eyni zamanda televizora baxdı, laptopda oxudu və sosial şəbəkələrdə məlumat mübadiləsi etdi. Normal həyat karantin səbəbi ilə dayandıqda və vətəndaşlar evdən çıxa bilmədikdə lokdaundan kimin qazanacağına dair son şübhələr yox oldu. Amma göründüyü qədər sadə deyil. Pandemiya zamanı mediada nə baş verdiyini və bunun haraya gedəcəyini başa düşmək mümkün deyildi [3].

Ənənəvi KİV son illərdə ciddi şəkildə siyasi problemlər və hərbi böhranlar kontekstində rolu daha çox hiss edilən elektron media və sosial şəbəkələrlə sıxlaşıb. Sosial şəbəkənin informasiyası əhalinin düşüncəsinə yaxın olduğundan bu platformalar ciddi mediaya köklü şəkildə təsir göstərir və günümüzün bu aktual məsələsi dünyanın aparıcı KİV təmsilçilərini narahat etməkdədir. Çünki bir neçə ildən sonra sosial şəbəkələr ənənəvi kütləvi-informasiya vasitələrinin rolunun və yerinin qiymətləndirilməsini köklü şəkildə dəyişəcək. Bu proqnoz məntiqlidir.

Bu gün isə reallıq ondan ibarətdir ki, sosial şəbəkələr müasir cəmiyyətin əhəmiyyətli kommunikativ vasitələrindən birinə çevrilib. Nəzərə alsaq ki, bir neçə il öncə sosial şəbəkələr yalnız ünsiyyət vasitəsi idisə, artıq hazırda bu, həmçinin konkret iqtisadi, sosial və siyasi məsələlərin həllinə nail olmaq üçün münasib platformadır. O da artıq bir həqiqətə çevrilib ki, hazırda sosial şəbəkədə akkauntu (hesabı) olan və beləliklə, onun üçün inanılmaz dərəcədə böyük sayda auditoriyaya çıxış imkanı yaranan, demək olar ki, hər bir insan jurnalistə çevrilir [4].

Zaman keçdikcə sosial şəbəkələrin ictimai-siyasi proseslərdə cəmiyyətin əhval-ruhiyyəsinə təsir etmək vasitəsi kimi rolunun daha da artacağını güman etməyə əsaslar yaranır. Sosial şəbəkə istifadəçilərinin əhatə dairəsinin artım dinamikası belə bir nəticəni tamamilə qanunauyğun edir. Belə ki, artıq 2013-cü ilin sonlarında sosial şəbəkələrdən istifadə edənlərin sayı bütün dünyada 19,2 faiz artmışdı və hazırda bu rəqəm 2 milyard insanı ötüb keçir. Qeyd etmək lazımdır ki, dünyanın ən böyük sosial şəbəkəsi "Facebook" olaraq qalır. Onun 1 milyarddan çox istifadəçisi vardır.

Hazırda sosial şəbəkələr təkcə mənasız ünsiyyət həvəskarları arasında çox populyar deyil, bu cür şəbəkələrdən həmçinin nüfuzlu şirkətlərin fəaliyyətində də geniş istifadə edilir. Bunu aşağıdakı göstəricilər də sübut edir. Belə ki, bu gün dünyada korporasiyaların 80 faizi sosial şəbəkələrin

xidmətlərindən istifadə edir, sorğu keçirənlərin 78 faizi isə bu şəbəkələrdə yayılan informasiyaların dürüstlüyünə inanır [5].

Sırf əyləncə portalları çərçivəsini çoxdan ötüb keçən sosial şəbəkələr müəssisələrin əməkdaşları arasında ən rahat və əlverişli kommunikasiya vasitələrindən biridir və həmin şəbəkələrdən hətta müxtəlif şirkətlər arasında danışıqlar aparılması üsulu kimi də istifadə olunmaqdadır. O da faktdır ki, bu günümüzdə Koronavirus pandemiyası ilə əlaqədar görüşlərin, tədbirlərin, konfransların onlayn şəkildə keçirilməsi sosial şəbəkələrdən istifadəni daha da artırıb. Təkcə “Zoom” proqramından istifadə edənlərin sayı 200 milyonu keçib. Yəni Koronavirus pandemiyası yeni virtual reallıq formalaşdırıb ki, bu da insanların ötən ilə qədərki yaşam qaydalarını tamamilə dəyişir [6].

Əlbəttə ki, internetin və sosial şəbəkələrin insanların həyatında mühüm yer aldığı bir zamanda karantin şəraitində yaşayan insanların informasiya mənbəyi internet və sosial şəbəkələrdir. Belə olan şəraitdə orada koronavirusla bağlı yayılan informasiyalar karantin şəraitində yaşayan insanların əhval-ruhiyyəsinə və psixologiyasına təsir etməkdədir. Bu səbəbdən də cəmiyyət dövlətin yaydığı rəsmi məlumatlar xaricində digər rəsmi olmayan məlumatlara inanmamalı, etibar etməməli, sosial şəbəkə istifadəçiləri, KİV-lər koronavirusla bağlı tətbiq olunan qayda və qanunların həm də cəmiyyətin informasiya təhlükəsizliyi məsələsi olduğunu dərk etməli, vətəndaşlar tərəfindən koronavirusla bağlı tətbiq olunan qaydalara riayət olunmasını təbliğ etməli, cəmiyyəti maarifləndirməli, panika, ajiotaj yaranmasına yol verməməli, cəmiyyətdə informasiya kirliliyinə və narahatlığa səbəb olacaq şaiyə xarakterli məlumatlar yaymaqdan çəkinməli, televiziya, sosial şəbəkələr, KİV-lər vasitəsilə məktəblər, idarə və müəssisələrdə internet və sosial şəbəkələrdən düzgün istifadə edilməsi ilə bağlı maarifləndirici təbliğatlar aparılmalı, televiziyada ailə dəyərlərini əks etdirən bədii, sənədli filmlər, teatr tamaşaları nümayiş etdirilməlidir [7].

Artıq hər kəs belə bir reallığı da qəbul edib ki, postpandemiya dövründə dünya çox dəyişəcək. Məsələn, vətəndaşı və cəmiyyəti qorumağa üstünlük verən ölkələr daha da güclənəcək, inkişaf edəcək, milli birlik və tolerantlıq nümayiş etdirən ölkələr nümunə təşkil edəcək, siyasi və iqtisadi yol xəritəsini dəyişdirəcək, dövlətlər silahdan daha çox səhiyyə, texnologiya və elmi-tədqiqat sahələrinə büdcə ayıracaq, BMT-nin qətnamələri icra edilməsə də, Ümumdünya Səhiyyə Təşkilatının qətnamələrinə əməl ediləcək, vətəndaş gigiyena, təmizlik və yazılı qanunlara daha çox riayət edəcək, kölgə iqtisadiyyatı azalacaq. Lakin bütün bunların fonunda koronavirus “erası” başa çatdıqdan sonra dəyişməyən faktorlar da olacaq. Məsələn, dinlə elm biri-birinin alternativi olmağa davam edəcək, Koronavirus pandemiyası bitsə belə müharibə və münaqişələr qaldığı yerdən yenidən başlayacaq, siyasətin elmə qarışdığı və təsir etdiyi ölkələr fəlakətlərə səbəb olmağa davam edəcək və hər hansı fəlakətlə üz-üzə qaldığı

zaman isə özünü itirəcək, əli ayağına dolaşacaq, kimi və kimdən nümunə götürüm hissinə qapılacaq, cəmiyyət, ailə institutlarının güclənməsinə əhəmiyyət verməyənlər daha çox narazılıq və böhranlarla qarşılaşacaqlar. [8]

Beləliklə də insan və cəmiyyət həyatında yeniliklər olduğu kimi, həm mətbuatda, həm də sosial şəbəkələrdə yeni reallıqlar formalaşmaqdadır. Bundan sonrakı dövrdə artıq dünyanın, dövlətlərin, cəmiyyətlərin, ailələrin və fərdlərin taleyi zəncirvari olaraq hər kəsdən, hər bir amildən asılı olacaq.

## ƏDƏBİYYAT


1. *Бочаров Ю.* Киберпреступность и кибертерроризм. Новая глобальная угроза государственному строю, 24.10.2011 / URL: http://www.elections-ices.org/russian/publications/textid:12835/
2. *Гусейн-заде Ф.* Социальные сети как новая угроза безопасности человека, Законность и правопорядок в современном обществе / Сборник материалов VII международной научно-практической конференции, Новосибирск, февраль, 1990
3. Социальные сети – угроза мировой безопасности? / Avesta.Tj / 15 августа 2011 г. / URL: http://www.avesta.tj/goverment/9586-socialnye-seti-ugroza-mirovoy-bezopasnosti.html
4. Госдума приняла закон о черных списках Интернета / Vesti.ru. 11 июля 2012 г. / URL: http://www.vesti.ru/doc.html?id=847282
5. *Ильяшенко А.* США вводят тотальный контроль в Интернете. Голос России. 30 мая 2012 г.
6. https://stm.az/media/expert-reviews/koronavirus-eraitinde-dvlet-cemiyyet munasibetleri-kiv-ler-ve-sosial-ebekelerin-prosesde-rolu
7. Accenture оценила, как коронавирус изменил ритейл. TAdviser / URL: https://www.tadviser.ru/index.php/Статья:Влияние_коронавируса_COVID19_на_экономику_стран_мира.
8. *Jones L., Palumbo D., Brown D.* Coronavirus: A visual guide to the economic impact. BBC News, 29 June 2020 / URL: https://www.bbc.com/news/business-51706225


Redaksiyaya daxil olub 08.09.2021

*UOT 398*

***N.M.Sadəddinli***
*Bakı Avrasiya Universiteti*
*sadeddinlinermin@gmail.com*

# BOZQURD OBRAZININ HAMİ-QORUYUCU FUNKSİYASI

***Açar sözlər:*** *mifologem, qurd, sərkərdə, hami*

Məqalədə Bozqurdun hami-sərkərdə mifologemi olması araşdırılmışdır. Bozqurd türk dastanlarında totem-əcdad, hami-sərkərdə, xilaskar funksiyalarını daşıyır. Yeri gəldikdə qurd mifologemi həm ata, həm də nəslin yaradıcısı olan ana rolunda çıxış edir. Məqalədə göstərilir ki, qurd Oğuz Xaqana yol göstərən, ordunun önündə gedən, onu qələbəyə aparan erkək qurd cismində çıxış edir. Göydən işığın içərisində Oğuzun çadırına enməsi və onun gözünə görünməsi onu müqəddəs edir. Qurd türklərin əsas hərbi totemlərindən biridir. Hətta bu gün hərbi nida olan “ura” hayqırtısının qurdun çağırış nidası olması fikri geniş yayılmışdır.

***Н.М.Сададдинли***

## ФУНКЦИЯ ПОКРОВИТЕЛЯ ОБРАЗА БОЗКУРТА

**Ключевые слова:** *мифологем, волк, военачальник, защитник*

В статье исследуется мифологем Бозкурда как покровителя. Бозкурд несет функции тотема-предка, хранителя-полководца, спасителя в турецких эпосах. Время от времени мифологем волка выступает в роли отца и матери – творца рода. В статье отмечается, что волк указывает путь Огуз-кагану, играет роль волка-самца, стоящий впереди армии и ведущий ее к победе. Сошествие Огуза в его шатер в свете неба и появление в его глазах освящает его. Волк – один из главных военных тотемов турок. Даже сегодня широко распространено мнение, что военный крик «ура»– это зов волка.

***N.M.Sadaddinli***

## ALL-PROTECTIVE FUNCTION OF BOZQURD IMAGE

***Keywords:*** *mythologist, wolf, warlord, protector*

The article examines Bozkurd's mythology as a patron saint. Bozgurd has the functions of totem-ancestor, guardian-commander, savior in Turkish epics. By the way, wolf mythology plays the role of both father and creative mother of the generation. In the article, the wolf plays the role of a male wolf who leads Oguz Khagan, leads the army and leads him to victory. The descent of Oguz into his tent in the light from the sky and his appearance in his eyes sanctifies him. The wolf is one of the main military

totems of the Turks. Even today, it is widely believed that the military cry of "hurray" is the wolf's call.

**Problemin qoyuluşu**

Müstəqillik dövrü folklorşünaslığının tədqiqat arealı genişləndikcə xalq özünün tarixi kimliyini, yaranışının mifoloji köklərini araşdırmağa başlayır, türklüyünün mifoloji axarına üz tutur. Bozqurd totem obrazının mifoloji düşüncədəki yeri, qürur, qüdrət, cəsarət, qorxmazlıq, hamilik rəmzi kimi öyrənilməsi zərurətə çevrilərək tədqiqatçını bu çətin və şəfərli elmi fəaliyyətə istiqamətləndirir. Bozqurd mifologizmi ümumtürk düşüncə tərzində müasirlik kəsb edərək araşdırılmasını, daha dərin qatlarının incələnməsini qaçılmaz bir elmi vəzifə kimi qarşıya qoyur.

**İşin məqsədi**

Tədqiqatçının bu çətin mövzuya müraciət etməsində əsas məqsəd folklorun epik düşüncədəki arxetiplik rolunu ifadə edən, qədim türk mifologiyasından Azərbaycan mifologiyasına daxil olan Bozqurdun hamilik funksiyasının qədim türk epik və lirik örnəklərindəki yeri və rolu kontekstində öyrənməkdir.

Qədim türk mifoloji düşüncəsinin genezisində özünə yer almış Bozqurd obrazının bir totem kimi mifik səciyyələnməsi türk folklor araşdırmaçılarının qələmində təhlil obyektinə çevrilmiş, türk tədqiqatçıları Məhərrəm Erginin "Oğuz dastanı" [10], Rəfik Özdəkin "Türkün qızıl kitabı" [15], Yaşar Kalafatın "Türk xalq təfəkküründə qurd" [12], Abdulkadir İnanın "Türk rəvayətlərində bozqurd" [7], Bahəddin Ögəlin "Türk mifologiyası" [8], Necati Gültəpənin "Türk mifologiyası" [11], Azərbaycan alimlərindən Mirəli Seyidovun "Azərbaycan mifik təfəkkürünün qaynaqları" [6], Ramazan Qafarlının "Mifologiya" [2], Füzuli Bayatın "Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı" [1], Seyfəddin Rzasoyun "Oğuz mifologiyası" [5] və Fidan Qasımovanın "Türk mifologiyasında mədəni qəhrəman problemi" [3] tədqiqatlarında müxtəlif baxış bucağından özünə yer almışdır.

Qurdun xilaskarlığı onun hamilik funksiyasını ortaya qoyur. "Oğuz Kağan" dastanından oxuyuruq: "Oğuz Kağan dünyaya gəldikdə ayaqları öküz ayağına, beli qurd belinə, çiyinləri samur ağzına, sinəsi ayı sinəsinə bənzəyirdi. Oğuz Kağan toyundan sonra bəyləri və xalqı başına toplayaraq onlara hədiyyə verir və bunları söyləyir:

Alalım yay ilə kalkan
Kurt olsun bizə uran

Daha sonra dastanda qurdun hamilik funksiyası daha da qabarıq şəkildə diqqət çəkir: "Urum üzərinə yürüş etməyə hazırlaşan Oğuz Kağan ertəsi günü,

gün doğarkən çadırına günəş işığı kimi bir işıq düşdüyünü gördü. Bu işıqdan göy rəngində tükləri və yələyi olan böyük bir erkək qurd çıxdı. Və Oğuz Kağana belə dedi: “Ey Oğuz! Urum üzərinə yürüş etmək niyyətindəsən. Mən də sənin xidmətində səninlə gəlmək istəyirəm”.

Oğuz ordusunu toplayıb yürüş etməyə başlayınca eyni qurdu ordunun qarşısında getdiyini gördü. Ordusuna qurdu izləmələrini tapşırdı. Qurd dayananda Oğuzun ordusu da dayandı... Ordu yenidən yola düşdü, bir müddət daha irəlilədi. Göy tüklü, göy yələkli erkək qurd yenidən qarşılarında peyda oldu. Göy Qurd Oğuz Kağana dedi ki: “İndi sən əsgərlərinlə get Oğuz! Xalqı və bəylərini də ardınca apar. Heç narahat olmayın mən qarşınızda gəzib sizə yenə yol göstərəcəm” [1].

Dastanda Oğuzun belinin qurd belinə bənzədilməsidə rəmzi deyil, mifoloji mahiyyət kəsb edir. Oğuzun belinin gücü, qurdun belinin gücünü xatırladır. Dastandakı qurd göy tüklü və göy yələklidir. Dastanın qəhrəmanı ilə danışa bilir. Həmçinin qəhrəmana necə hərəkət etməsinin yolunu göstərir. Onu cəsarətləndirir, dayancağı yerləri Oğuz Kağana göstərir və onu zəfərə doğru aparır [9, s.45-59].

Ayrı-ayrı türk xalqlarında qurdun hamilik, zəfər rəmzi olması folklorun müxtəlif janrlarında vurğulanır. Özbək laylalarında analar balalarını yuxuya verən zaman onlara qorxmazlıq, dostluq, xeyirxahlıq rəmzi kimi qurdun adını çəkir:

Qurd görsən qorxma,
O sənin dostund.
At görsən qorxma,
O sənin mindiyindir [12, s. 34].

Türk tədqiqatçısı Numan Kartal da Qurdun türk mədəniyyəti coğrafiyasında laylalarda geniş yer tutduğunu göstərir. Alimin qeydlərinə görə, “Atatürkün içindən çıxdığı Türk cəmiyyəti olan Kocacık Türklərində qurda **taran** deyilir.

Lulli mi lulli
Oolum uyusun lulli
Taran (qurd) gəldi
Lulli mi lulli [13, s. 90].

Türk xalqlarının inanclarında qurdun xilaskarlıq, hamiik funksiyası ilə bağlı maraqlı nümunələr özünü göstərməkdədir. Şərqi Qaradənizdə, Trabzon ətrafında axşam tərəfi fərqli tərzdə ulayan qurdun o gecə ayın tutulacağına xəbər verdiyi inancı vardır.

Necdet Yaşar və Murat Bayatlı yazırlar: “İraq türkmənlərinin nağıllarında qurd tülkü ilə danışır, onların dilini başa düşür” [14, s.133 ].

Digər türk tədqiqatçısı Tahsin Parlak “Turan dənizindən günümüzə Aralın sirləri” əsərində göstərir ki, “müqəddəsliyinə etibar edilən bişmiş kərpic

üzərində tarixi qurd izlərini nəşr etmişdir. Qurdun izinin mübarəkliyi onun izi ilə gözələ, yaxşıya, doğruya çatacağı inancı ilə izah edilə bilər. İzi izləmək surətiylə genişliyə qovuşulacağına inanılan din liderlərinin olduğu inancı da vardır. Buradan hərəkətlə göy tüklü, göy yələkli qurdun izi inancının xalq inanclarında davam etdiyi söylənilməkdədir” [16, s .95].

Yaşar Kalafata görə isə, “yuxuda görünən qurd yaxşı və gözəlin simvoludur. Anadoluda olduğu kimi, Azərbaycan və Qazaxıstanda da yuxuda qurd şad xəbər olaraq bilinir. Belə yuxular müjdə izi daşıyırlar” [12, s. 32-36 ].

Rəfiq Özdək “əski türk yazılı abidələri”nə söykənərək özünün “Türkün qızıl kitabı” əsərində qurdun hamilik məsələsinə də toxunmuşdur. Tədqiqatçı yazır: “Tanrı güc verdiyi üçün atam xaqanın qoşunu qurdtək imiş, yağısı qoyuntək imiş” [15, s.13].

Qurdun hamilik və əzəmət funksiyası tədqiqatçıların qələmində fars şairi Firdovsinin “Şahnamə” əsərinə istinadən qüdrətli türk hökmdarı Alp Ər Tonqa öldürüldükdən sonra onun yaxınlarının ağlaması qurd səsi ilə müqayisə olunmuşdur. Türk tədqiqatçısı Bilgehan Adsız Gökdağ – Kemal Üçüncü özünün “Başlanğıcdan Günümüze Türk Destanları” adlı əsərində bu münasibətlə yazır: “Bəylər kurtlar kibi ulaşıyorlar, Yakalarını yırtıb, çığlık atıyorlar” [9, s.90].

Uyğurların “Mənşə” əfsanəsinə görə isə “uyğurların atası göydən enən nurla ağacdan doğulmuşdur”. Bundan başqa “Oğuz Xaqan” dastanında Oğuzun arvadı da göydən nur içində yerə enmişdir. Eyni zamanda mədəni qəhrəman olan boz qurd da işıq içərisində Oğuza yol göstərmək üçün göndərilir [1, s.125-126].

Qurd türk folklorunun hər sahəsində qarşıya çıxan bir motivdir. Bahəddin Ögəlin qeydlərindən məlumatlanırıq ki, “Göytürklərdə qurd, “tuğ və bayraqların təpəsində yer alma yolu ilə bir dövlət simvolu olmuşdur” [8, s.115].

Türk xalqlarının bir çox folklor örnəklərində qurd müxtəlif xüsusiyyətləri ilə təsvir edilmişdir. Bu xüsusiyyətlər sırasında qurdun yol göstəriciliyi daha diqqət çəkir. Xalq ədəbiyyatı nümunələrinin məzmununa görə, qurd qəhrəmanları doğru yerə aparmaqla onların xilaskarına çevrilir. Bahaeddin Ögəl qurdla bağlı qeydlərində “Oğuz kağan” dastanını əsas təhlil obyekti kimi götürərək yazır: “Oğuz kağan” dastanında, Oğuz xana zaman-zaman rəhbərlik edib yol göstərən və Tanrı tərəfinfən göndərilən müqəddəs qurddan söz açarkən, həmişə “göy tüklü, göy yələkli” deyimi də işlədilir. Burada qurda “göy” adının verilməsi onun müqəddəsliyini və Tanrı ilə əlaqəsini göstərməkdən başqa bir məna daşımamalıdır. Sonralar bu göy adı qocalıq və təcrübənin ifadəsi və qarşılığı olaraq işlədilmişdir” [8, s.134].

Abdülkadir İnan türk rəvayətlərində bozqurd mövzusunu ələ alan məqaləsində qədim romalılarda və ərəblərdə qurdun əfsanəvi bir motiv olmasına baxmayaraq onun türk milli kultu olmasını irəli sürür. Həmçinin fin və moğol

xalqlarında da qurd motivinə rast gəlindiyini göstərir. Bozqurdun yol göstərən bir motiv olduğunu başqırdların miflərində daha çox rast gəlinir. Qədim zamanlarda uzaq şərqin yüksək qarlı dağlarında "Başqurd, Noqay, Qazax, Qırğız" qəbilələri bir atanın övladı olaraq yaşayırdılar. O zamanlar onların Başqurd, Noqay və s. adları yox idi. Bir dəfə bu qəbilələr arasında mübahisə düşdü. Günlərdən bir gün bu qəbilənin rəisi ova getdi. Və qarşısında bir qurd peyda oldu. Rəis bu qurdu izlədi. Qurd onu cənnət kimi meşələri və şəlalələri olan bir əzəmətli dağ yerinə gətirdi. O zaman qurd birdən-birə yox oldu. Rəis o zaman başa düşdü ki, ona rəhbərlik edən qurd Tanrı tərəfindən göndərilmişdir. Rəis geriyə, şərq tərəfinə qayıtdı. Qəbiləsini də özüylə götürüb Ural dağlarına gətirdi. Beləliklə, digər qardaşlarından ayrılan bu qəbiləyə "Başqurd" adı verildi. Və deyildi ki, "Qurdun baş olub gətirdiyi qəbilə" [7, s.69-70].

Abdülkadir İnan qurdun yol göstəriciliyi ilə bağlı maraqlı rəvayətlərin olduğunu diqqətə çatdırır. Birində söylənilir ki, "Peyğəmbər yoldaşlarından üç nəfərini Ural dağlarına İslam dinini öyrətmək üçün yollamışdı. Bu yoldaşlara Ural dağlarına qədər bir Bozqurd rəhbərlik etmişdir. Ural dağlarında tapılan xalqlar da islamiyyəti qəbul etdikdən sonra Başqurd adlanmışdır [7, s.66-74].

Abdülkadir İnan həmçinin öz tədqiqatlarında qurdla əlaqəli başqa mövzulara da toxunmuşdur. Müəllifin əsas fikirlərindən biri "Oğuz Kağan" dastanında yer alan qurdun yol göstərməsi hadisəsinin dastanın İslami dövr mətinləri ilə əlaqəsi olmaması ehtimalının irəli sürülməsidir. Alimin qeydlərinə görə, "bu motiv İslamdan əvvəlki Türk inanc sistemiylə əlaqəli olduğunun bir göstərgəsidir. İslamdan əvvəlki Türk inanc sistemi içərisində gördüyümüz bir neçə nöqtəni müasir dövrümüzdə qədim dinləri özündə yaşadan çuvaşlarda görmək mümkündür" [7, s.19-27].

Türk mifologiyasında mədəni qəhrəman problemindən söz açan Fidan Qasımovanın qurdun yol göstəriciliyi ilə bağlı qeydləri maraq doğurur. Alim yazır: "Mədəni qəhrəman haqqındakı miflərdə bütün xalqların mifologiyasının ən qədim motivlərindən biri olan "günahsız mayalanma" haqqındakı miflər geniş yayılmışdır. Burada ilkin insanın, əcdad-qəhrəmanın buluddan, yaxud işıqlandıran gün şüasından doğulması bildirilir. Məsələn, "Oğuz xaqan" dastanında Oğuzun arvadı da göydən nur içində yerə enmişdir. Eyni zamanda mədəni qəhrəman olan boz qurd da işıq içərisində Oğuza yol göstərmək üçün göndərilir" [3, s.54-55].

Məqalənin əsas elmi yeniliyi Bozqurdun hamilik funksiyasının mövcud tədqiqatlar və mətnlər əsasında ümumləşdirilməsi və obraz üçün xarakterik olan funksional xüsusiyyətlərin müəyyənləşdirilməsidir.

Məqalənin nəzəri əhəmiyyəti onun nəticələrindən mövzu ilə bağlı digər tədqiqatlarda istifadə imkanları, praktiki əhəmiyyəti isə ondan ali məktəblərdə mifologiyanın tədris zamanı əlavə vəsait kimi istifadə imkanları ilə müəyyənləşir.

## ƏDƏBİYYAT

1. *Bayat F.* Oğuz epik ənənəsi və "Oğuz Kağan" dastanı. Bakı: Sabah, 1993, 194 s.
2. *Qafarov R.* Mifologiya: 6 cilddə, II c., Bakı: Elm və Təhsil, 2019, 432 s.
3. *Qasımova F.* Türk mifologiyasında mədəni qəhrəman problemi. Bakı: Elm və təhsil, 2012, 164 s.
4. *Rzayev S.* Mifologiya və folklor: nəzəri metodoloji kontekst. Bakı: Nurlan, 2008, 188 s.
5. *Rzayev S.* Oğuz mifologiyası. Bakı: Nurlan, 2009, 363 s.
6. *Seyidov M.* Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 324 s.
7. *Abdulkadir İ.* Türk Rivayetlərində Bozkurt // Makaleler ve incelemeler. C. II, Ankara: Türk Tarih Kurumu Yayınları, 1987, 417 s.
8. *Bahəddin Ö.* Türk mifolojisi. C. II. Ankara: Türk Tarih Kurumu Yayınları, 1995, 610 s.
9. *Bilgehan A.* Başlanğıcdan günümüze türk dastanları. Ankara, 2007, 207 s.
10. *Ergin M.* Oğuz dastanı. Ankara: Hülbe yayınları, 1998, 64 s.
11. *Gültepe N.* Türk Mitolojisi (Yeni araştırmalar işığında). İstanbul, 2015, 665 s.
12. *Kalafat Y.* Türk Halq Tefekküründe Kurd. Ankara, 2009, 200 s.
13. *Kartal N.* Atatürk və Kocacık Türkləri. Ankara: T.C. Kültür Bakanlığı, 2002,436 s.
14. *Necdet Y., Bayatlı M.* Irak Türkmenlerinin Motif ve Tip İncelemesi. Ankara, 2007, 433 s.
15. *Özdək R.* Türkün qızıl kitabı. I kitab. Bakı: Yazıçı, 1996, 244 s.
16. *Parlak T.* Tufandan Turan Dənizinə, Turan Denizinden Günümüze Aralın Sırları. Ankara, 2005,164 s.

Redaksiyaya daxil olub 17.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 29-41
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 29-41

# İctimai elmlər

*UOT 94(479.24)*

***M.Q.Abdullayev***
*Bakı Dövlət Universiteti*
*dos.mehman.abdullayev@gmail.com*

## XIX ƏSRİN 20-40-ci İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA XÜSUSİ SAHİBKAR KƏNDLİ KATEQORİYALARI VƏ ONLARIN SOSİAL-İQTİSADİ VƏZİYYƏTİ

***Açar sözlər:*** *XIX əsr, sahibkar kəndliləri, rəncbər, vergi və mükəfəlliyyətlər*

Aqrar tarixşünaslıqda xüsusi sahibkar kəndli kateqoriyalarının sayının müəyyənləşdirilməsi və onların sosial-iqtisadi vəziyyətinin araşdırılması böyük aktuallıq kəsb edir.

Müxtəlif arxiv fondlarından əldə edilən və bir hissəsi yeni olan sənədlər əsasında Azərbaycanın Şirvan, Qarabağ, Şəki və Quba bölgələrində XIX əsrin 20-40-cı illərində xüsusi sahibkar kəndli kateqoriyalarının tərkibi və sayı müəyyən olunmuşdur. Xüsusi sahibkar kəndli kateqoriyaları içərisində birinci yerdə rəiyyətlər, ikinci yerdə rəncbərlər, üçüncü yerdə isə nökərlər dayanırdı.

Apardığımız hesablamalara görə, bu dövrdə xüsusi sahibkar rəiyyət və rəncbərlərin sayının kəskin azalmasının səbəbini rus hökümətinin müsadirə tədbirlərində axtarmaq lazımdır. Şirvan əyalətində kənd və rəiyyətlərin bəylərin əlindən alınması, Qubada isə bəylərin rəncbərlər üzərində sahiblik hüququna ağır zərbə vurması nəticəsində hər iki əyalətdə xüsusi sahibkar kəndlilərin sayı kəskin şəkildə azalmışdır.

Aparılan təhlillər göstərir ki, dövlətə və sahibkarlara vergi verən və mükəlləfiyyətlər ödəyən rəiyyətlərdən, daha çox hərbi xidmət göstərən nökərlərdən fərqli olaraq rəncbərlər bütün il boyu xüsusi sahibkarların təsərrüfatlarını yardarlıq və paydarlıq qaydasında becərirdilər.

***М.К.Абдуллаев***

## КАТЕГОРИИ ЧАСТНОВЛАДЕЛЬЧЕСКИХ КРЕСТЬЯН И ИХ СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В 20-40-х ГОДАХ XIX ВЕКА

***Ключевые слова:*** *XIX век, частновладельческие крестьяне, ранджбар, налоги и повинности*

В историографии аграрных отношений очень актуальны исследования по определению численности и социально-экономического положения частновладельческих крестьян.

На основе выявленных в различных архивных фондах документов, часть из которых впервые была привлечена нами к научным разработкам, были определены состав и численностъ категорий частновладельческих крестьян в различных регионах Азербайджана – в Ширване, Гарабахе, Шеки и Губе в 20-40-х годы XIX века. Среди частновладельческих крестьян на первом месте стоят райяты, на втором – ранджбары, на третьем – нукеры.

По проведенному нами подсчету, причину резкого уменьшения численности частновладельческих райятов и ранджбаров в это время следует искать в действиях русского правительства. Захват сел и райятов у беков в Ширванской губернии, а в Губе в результате нанесения беками тяжелого удара на право собственности над ранджбарами в обеих губерниях резко уменьшилось количество частновладельческих крестъян.

Проведенные исследования показывают, что в отличие от райятов, которые давали налоги и несли повинности государству и владельцам, и служащих, которые больше служили в армии, ранджбары в течение всего года работали в хозяйстве бека на условиях издольщины.

***M.G.Abdullayev***

## ENTREPRENEURIAL PEASANT CATEGORIES AND THEIR SOCIO-ECONOMIC SITUATION IN NORTHERN AZERBAIJAN IN THE 20-40s OF THE XIX CENTURY

***Keywords:*** *XIX century, entrepreneurial peasants, rancher, taxes and duties*

Determining the number of special entrepreneurial peasant categories and studying their socio-economic situationis of great importance in agrarian historiography.

On the basis of documents obtained from various archival funds and some of them are new, the composition and number of special entrepreneurial peasant categoriesin Shirvan, Karabakh, Sheki and Guba regions of Azerbaijan in the 20-40s of the XIX century were determined.

Among the categories of private entrepreneur peasants, the first place went to the subjects, the second to the ranchers, and the third to the servants.

According to our calculations, the reason for the sharp decline in the number of private entrepreneurs and ranchers during this period should be sought in the confiscation measures of the Russian government. In Shirvan province, as a result of the seizure of villages and subjects from beys, and in Guba, the number of private entrepreneurial peasants in both provinces has sharply decreased.

The analysis shows that in the subjects who paid taxes and duties to the state and entrepreneurs, unlike the servants who served more in the military, ranchers cultivated the farms of private entrepreneurs all year round in the form of aid and shares.

Müxtəlif arxiv fondlarından əldə etdiyimiz yeni sənədlər, xüsusilə, kameral siyahıyaalma materialları XIX əsrin 20-30-cu illərində Şimali

Azərbaycanda sahibkar kəndlilərinin tərkibini və sosial-iqtisadi vəziyyətini araşdırmağa imkan verir. 1820-ci ildə Şirvanda keçirilən kameral siyahıyaalma materiallarına əsasən 17 mahaldan ibarət olan əyalətdə qeydə alınan 376 kənddən 252-si xəzinəyə, 124-ü isə xüsusi sahibkarlara məxsus idi. Həmin kəndlərdə siyahıya alınan 11617 ailənin böyük hissəsi 9479-u dövlətə məxsus, 2138-i isə xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayırdı. Əyalət üzrə ali zümrə kimi qeyd olunan 154 ailədən 103-ü dövlət xəzinəsinin kənd və ellərini idarə edirdi. 51 ailə isə özlərinə məxsus kənd və ellərin sahibi kimi çıxış edirdi (6, vərəq 1-129).

Dövlətə məxsus kəndlərdə yaşayan 9479 ailənin 7114-ü dövlət xəzinəsinə vergi ödəyən və müxtəlif mükəlləfiyyətlər daşıyan qrupa aid idi. Bunlardan 6706-sı rəiyyət, 216-sı rəncbər kateqoriyasına aid idi. Dövlət xəzinəsinə vergi verməyən 1857 kəndli ailəsinin 103-ü rəiyyət, 446-sı rəncbər, 948-i nökər kateqoriyasına aid edilmişdi (6, vərəq 1-129). Başqa yerlərdən qaçıb gələnləri də hesaba almaqla əyalətdə vergi ödəyən və ödəməyən kəndlilərin birlikdə ümumi sayı 8971 ailə təşkil edirdi. Bütün vergi və mükəlləfiyyətlərdən azad edilən 508 ailə istehsalçı zümrəyə aid olmayıb, yüzbaşı, kovxa, molla, əfəndi, seyid və başqalarından ibarət idi. Dövlət xəzinəsinə vergi verməyən kimi qeydə alınan 1857 ailəyə daxil olan rəncbərlər istehsalçı zümrəyə aid olub xəzinəyə məxsus təsərrüfatların becərilməsi kimi ən ağır işləri görürdülər. Nökər kateqoriyasına aid olan ailələr isə hərbi, poçt mükəlləfiyyətlərini yerinə yetirir və müxtəlif təyinatlı mühafizə xidmətinə cəlb olunurdular. 1820-ci ilə aid statistik sənədlərinin təhlilıı göstərir ki, əyalətdə yaşayan ailələrin daha az hissəsi sahibkarlara məxsus kəndlərdə cəmləşmişdi. Həmin kəndlərdəki 2138 ailənin 77-si bütün vergi və mükəlləfiyyətlərdən azad edilmişdi. 772 ailədən ibarət olan rəiyyət, rəncbər və nökərlər isə dövlət xəzinəsinə vergi ödəməsə də, bəy və ağalara məxsus kənd və ellərdə müxtəlif təsərrüfatları yardarlıq qaydasında becərir və müxtəlif mükəlləfiyyətləri yerinə yetirirdilər. 1289 ailə isə həm mülkədara, həm də dövlətə müxtəlif natural və pul vergiləri ödəyir, eyni zamanda cürbəcür mükəlləfiyyətlərin (məsələn, poçt, xəzinə təsərrüfatları üçün işçi ayrılması, biyar, iməci və s) icrasına cəlb olunurdular.

Apardığımız araşdırmalar xüsusi sahibkar kəndli ailələrinin sayının bu dərəcədə az olmasının səbəbini üzə çıxarmağa imkan vermişdir. Siyahıyaalma keçirilərkən xan ilə xaricə qaçan və ruslara sədaqəti şübhə doğuran bütün bəy və ağaların mülkləri, torpaqları, kəndləri və kəndliləri hökumət məmurları tərəfindən dövlət xəzinəsinin idarəsinə verilmişdi. Bunun nəticəsində xüsusi sahibkarlara məxsus kənd və ellərin sayı 186-dan 124-ə enmişdi. Bəy və ağaların, onların varislərinin əlindən alınaraq dövlət xəzinəsinin ixtiyarına verilən 62 kənddə 1417 xüsusi sahibkar kəndli ailəsi yaşayırdı. Həmin ailələrdən 1159-u vergi ödəyən və mükəlləfiyyət daşıyan rəiyyət və

rəncbərlərdən ibarət idi. 258 ailə isə dövlət xəzinəsinə vergi ödəməsə də, öz mülkədarlarının xeyrinə bir sıra mükəlləfiyyətləri yerinə yetirirdilər (6, vərəq 32-108). Beləliklə, xanlığın ləğv edilərək əyalətə çevirilməsi nəticəsində sahibkar kəndlilərinin 24,5 faizi dövlət xəzinəsinin ixtiyarına verilmişdi (6, vərəq 48-48).

Statistik sənədlər əsasında apardığımız təhlillər göstərir ki, Azərbaycanın sahibkar kəndində kəndli kateqoriyaları içərisində rəiyyətdən sonra sayına görə ikinci yerdə rəncbərlər gəlirdi. Xüsusi sahibkaralara məxsus rəncbərlərin sosial-iqtisadi vəziyyətinin təhlili göstərir ki, farsca “zəhmətkeş” mənasını verən rəncbər kəndli kateqoriyası iki qrupa bölünürdü: 1) dövlət xəzinəsinə heç bir vergi ödəməyənlər; 2) hər il xəzinəyə 4 gümüş manat məbləğində vergi ödəyənlər. Rus işğalından sonra da bu kateqoriyadan olan kəndlilər xüsusi sahibkarların ipəkçilik, çəltik, pambıq, üzümçülük və taxılçılıq təsərrüfatlarında bütün il ərzində ağır zəhmətlə çalışırdılar. Rəncbərlərin çox ağır zəhməti hesabına yetişdirilən müxtəlif növ məhsullar sahibkarlarla rəncbərlər arasında yardarlıq və paydarlıq qaydasında bölüşdürülürdü. Əldə edilən bir arxiv sənədi rəncbərlərin bəyin xeyrinə hansı ağır işləri gördüyünü və əmək mükəlləfiyyətlərini necə yerinə yetirdiyini aydın şəkildə göstərir. 1820-ci ilə aid olan həmin sənədə görə Şirvan əyalətində mülkədar Qasım bəyin sahibliyində olan Çiyni kəndində şəxsən bəyə məxsus 19 rəncbər ailəsi, yüzbaşıya və onun üç qardaşına məxsus beş rəncbər ailəsi, cəmi 24 rəncbər ailəsi yaşayırdı. Həmin ailələr tərəfindən becərilən 19 sarayın olduğu 19 tut bağından məhsul bol olan ildə 19 batman barama əldə edilirdi. Kənddə olan bir böyük və beş kiçik üzüm bağına da rəncbərlər qulluq edirdi və bu bağlardan hər il 100 manatadək gəlir götürülürdü. Üstəlik rəncbərlər hər il 19 tağar çəltik toxumunu səpməyə də borclu idilər. Bundan başqa tut bağlarından əldə edilən barama məhsulu böyük bir mis qazanda rəncbərlər tərəfindən qaynadılırdı. Rəncbər əməyi ilə becərilən bu mülkədar təsərrüfatının illik gəliri xan pulu ilə 2355 manat 99 qəpik, rus gümüş puluna çevirdikdə isə 1472 manat, 49 qəpiyə çatırdı (6, vərəq 36). Şirvan əyalətində mahal bəyi Hacı Əhməd Sultana məxsus olan Alxasava kəndində Qarabağdan köçüb gələn 62 rəncbər ailəsi tərəfindən 59 tut bağı becərilərək hər il 59 batman barama istehsal olunurdu. Bundan əlavə əslən yerli olan daha 30 rəncbər ailəsinin becərdiyi 24 tut bağından daha 24 batman barama əldə edilirdi. Kənddə olan 3 böyük üzüm bağı ili 500 manata iltizama verilmişdi. Xüsusi sahibkara məxsus olan kənddə 92 rəncbər ailəsinin ağır zəhməti hesabına becərilən böyük bir ipəkçilik təsərrüfatından hər il xan pulu ilə 6312 manat 40 qəpik və yaxud rus gümüş pulu ilə 3945 manat 25 qəpik gəlir əldə edilirdi (6, vərəq 42-43).

1823-cü ilə aid statistik materiala əsasən Qarabağ əyalətində Əli bəyə məxsus Preben kəndində yaşayan 27 rəncbər ailəsi bəyin çəltikçilik təsərrüfatında bütün əkin-biçin işlərini yerinə yetirməklə yanaşı, rus xəzinəsinə

4 çervon hərbi bac ödəyir və poçt mükəlləfiyyəti üçün dörd günlüyə bir at da ayırmalı idi (14, s.23). Həmin əyalətdə başqa bir ali zümrə nümayəndəsinə – Fətəli bəyə məxsus Qaradağlı kəndində yaşayan 13 rəncbər ailəsi mülkədarın torpaqlarında bütün əkin-biçin işlərini yerinə yetirərək digər vergi və mükəlləfiyyətlərdən azad idilər. Həmin bəyə məxsus Darğalıq kəndində yaşayan 3 bağban ailəsi də bütün vergilərdən azad olub mülkədarın bağlarını becərməklə məşğul olurdu (14, s.38-41). Sahibkarlara məxsus bağbanların vəziyyəti rəncbərlərinkindən o qədər də fərqli deyildi.

Maraqlıdır ki, Fətəli bəyin atlarını, mal-qarasını bəsləyən və Tərəkəmə elində yaşayan 5 ilxıçı və çoban ailəsi də dövlət xəzinəsinə heç bir vergi, hətta hərbi bacı da ödəmirdi (14, s.41). Qarabağın Horadiz kəndində mülkədara məxsus 2 rəncbər ailəsi sahibinin verdiyi 2 öküzlə 3 çetvert buğda və 3 çuval arpa yetişdirərək məhsulun üçdə ikisini mülkədara təhvil verilir, üçdə biri isə onların ixtiyarında qalırdı (14, s.350). Göründüyü kimi, mülkədarlara məxsus rəncbər ailəsi öz sahibinin təsərrüfatını paydarlıq qaydasında becərirdi. Rəncbər ailələrinin əməyi ilə becərilən xəzinə təsərrüfatlarında isə daha çox yardarlıq qaydaları hökm sürürdü. Məsələn, xəzinəyə məxsus Xanıxlar kəndində yaşayan 13 rəncbər ailəsi becərdikləri çəltik təsərrüfatından yığılan məhsulun yarısını əldə edir, digər yarısını xəzinəyə təhvil verirdilər (14, s.392). Qarabağ əyalətində Rüstəm bəyə məxsus kəndlərdən birində yaşayan 6 rəncbər ailəsi mülkədara məxsus öküz və xışlarla onun təsərrüfatında arpa və buğda yetişdirərək məhsulun dörddə üçünü mülkədara verir, dörddə biri isə rəncbərlərin ixtiyarında qalırdı. Vəzifəsi mülkədar təsərrüfatını paydarlıq qaydasında becərmək olan bu rəncbər ailələri dövlət xəzinəsinə heç bir vergi ödəmir və hər hansı bir mükəlləfiyyət daşımırdılar (14, s.150).

Şəki əyalətində isə Böyük İncə adlanan sahibkar kəndində yaşayan rəncbər ailələri Aslan bəyə məxsus çəltik əkinini yardarlıq qaydasında becərirdilər, yəni yetişdirilən məhsul sahibkarla kəndlilər arasında bərabər şəkildə bölünürdü (1, vərəq 36-38). Aqrar sahədə tədqiqat aparan tarixçilərdən İ.P.Petruşevski öz məhşur monoqrafiyasında (15, s.316-321) və M.M.Əfəndiyev elmi məqaləsində (16, s.91-111) sahibkarlara məxsus rəncbərlərin sosial-iqtisadi və hüquqi vəziyyətini təhlil edərək belə bir fikir irəli sürmüşlər ki, Azərbaycan kəndində təhkimçilik münasibətlərinin bəzi ünsürləri mövcud olmuşdur. Lakin yuxarıda apardığımız təhlillər göstərdi ki, rəncbərlər ali zümrəyə məxsus olan təsərrüfatları işləyib ödəmə qaydasında deyil, yardarlıq icarə şərtləri daxilində becərirdilər. Digər tərəfdən təhkimçiliyin klassik formasının tələb etdiyi kimi, rəncbərlər heç bir vaxt torpağa təhkim edilməmişdilər. Çünki rəncbərlərin böyük əksəriyyəti pay torpağına malik deyildi. Təhkimçilik münasibətlərinin mövcud olduğu ölkələrdə, məsələn, Rusiyada “əşya hüququ” hökm sürürdü, yəni kəndli əşya kimi alınıb-satılırdı. Xoşbəxtlikdən Azərbaycanda belə hallara rast gəlinməmişdir. Ona görə də

Azərbaycanın sahibkar kəndində hətta təhkimçiliyin hər hansı bir ünsürünün mövcudluğundan da danışmaq doğru olmazdı. Rəncbərlik institutunun geniş yayıldığı bölgələrdən biri olan Quba əyalətində 1824-cü ildə tərtib olunan statistik sənədlərə görə, 279 bəy, əfəndi, kəndxuda, yüzbaşı və digərlərinə məxsus olan 1353 rəncbər ailəsi qeydə alınmışdı. Aparılan təhlil nəticəsində aydın olur ki, həmin xüsusi sahibkar rəncbər ailələrinin çox az hissəsi – 313 ailə bəy və din xadimlərinə vaxtilə müxtəlif xanlar tərəfindən, böyük hissəsi, yəni 1028 ailə isə rus komendantları tərəfindən bağışlanmışdı (10, vərəq 4-17; 7, vərəq 50-54). Məlumat verilmədiyindən 12 rəncbər ailəsinin kim tərəfindən bağışlandığını müəyyənləşdirmək mümkün olmadı (10, vərəq 4-17; 12, vərəq 4-6). Rus hökuməti tərəfindən 1824-cü ildə həyata keçirilən və ruslara düşmən mövqe tutan bəy və din xadimlərinin rəncbərlər üzərində sahiblik hüququna ağır zərbə vuran sərt tədbirlər nəticəsində bu kəndli kateqoriyasının say tərkibində kəskin dəyişiklik baş vermişdi. Çünki hökumət 620 rəncbər ailəsinin (359-u dövlət xəzinəsinə hər il 4 gümüş manat pul vergisi ödəyən rəncbər ailəsi, 261-i vergi ödəməyən rəncbər ailəsi) ali zümrə nümayəndələrinin sahibliyində saxlanılması, 696 rəncbər ailəsinin isə dövlət xəzinəsinin xeyrinə geri alınması haqqında qərar vermişdi. Nəticədə, Quba əyalətində xüsusi sahibkar rəncbər ailələrinin sayı yarıdan çox (51,4%) azalmışdı. Həmin rəncbər ailələri dövlət kəndlisi kateqoriyasına daxil edildiyi üçün hər bir ailə üzərinə gümüş pulla bir manat əlli qəpik sabit pul vergisi, bir ruba buğda və 0,5 ruba arpadan ibarət sabit məhsul vergisi qoyulmuşdu. Bəy və ağaların ixtiyarında qalan rəncbər ailələrini də təxminən eyni tale gözləyirdi. Çünki rəncbərlər haqqında Əsasnaməyə görə bundan sonra komendantlara rəncbər paylamaq qadağan edilmiş, ali zümrə nümayəndələrinin rəncbərlər üzərində sahiblik hüququ daşıdıqları vəzifə müddəti ilə məhdudlaşdırılmışdı. Onlara ən yaxşı halda rəncbərlərə ömürlük sahib olmaq hüququ verilmişdi (13, vərəq 498-499).

XIX əsrin 20-40-cı illərində Azərbaycanın istər sahibkarlara, istərsə də dövlətə məxsus torpaqlarda kəndlilərin əsas aparıcı kütləsini təbii ki, rəncbərlər deyil, rəiyyətlər təşkil edirdi. Dövlət və sahibkar kəndlilərinin müxtəlif kateqoriyalarının tərkibi, say nisbəti və sosial-iqtisadi vəziyyəti haqqında daha əyani təsəvvür yaratmaq üçün 1831-ci ildə Quba əyalətində keçirilən kameral siyahıyaalma materialları əsasında tərtib etdiyimiz bir neçə cədvəli nəzərdən keçirək:

CƏDVƏL 1. Quba əyalətində ümumi əhalinin tərkibində dövlət xəzinəsinə və sahibkarlara məxsus kəndlilərin say nisbəti (1831-ci il kameral sayım materiallarına əsasən)

| | Əyalətdə 10 mahal üzrə | Ailələrin sayı | % | Kişilərin sayı nəfər | % | Hər ailəyə düşən kişi sayı nəfər |
|---|---|---|---|---|---|---|
| 1 | Dövlət kəndində yaşayan əhalinin sayı | 7085 | 62,9 | 26153 | 64 | 3,69 |
| 2 | Sahibkar kəndində yaşayan əhalinin sayı | 4179 | 37,1 | 14535 | 36 | 3,47 |
| Birlikdə cəmi | | 11264 | 100 | 40688 | 100 | 3,61 |
| 3 | Bütün rəiyyətlərin sayı | 9872 | | 33514 | | 3,39 |
| 4 | Bütün rəncbərlərin sayı | 590 | | 2858 | | 4,5 |
| 5 | Bütün bağbanların sayı | 34 | | 138 | | 4,06 |
| 6 | Bütün hərbi nökərlərin sayı | 399 | | 2532 | | 6,35 |
| | Kəndlilər<br>Dövlət kəndində | | | | | |
| 1 | Rəiyyətlərin sayı | 6332 | 64.4 | 21914 | 65.4 | 3,39 |
| 2 | Rəncbərlərin sayı | 283 | | 1306 | | 4,6 |
| 3 | Bağbanların sayı | 12 | | 41 | | 3,4 |
| 4 | Hərbi nökərlərin sayı | 269 | | 1730 | | 6,4 |
| | Birlikdə cəmi | 6896 | 63,3 | 24991 | | |
| | Sahibkar kəndində | | | | | |
| 1 | Rəiyyətlərin sayı | 3540 | 35.86 | 11600 | 34.6 | 3,25 |
| 2 | Rəncbərlərin sayı | 307 | | 1552 | | 5,05 |
| 3 | Bağbanlarınsayı | 22 | | 97 | | 4,4 |
| 4 | Hərbi nökərlərin sayı | 130 | | 802 | | 6,17 |
| | Birlikdə cəmi: | 3999 | 36,7 | 14051 | | |
| | Dövlət və sahibkarlara məxsus bütün kəndli kateqoriyalarının ümumi sayı | 10895 | 100 | 39042 | | 3,6 |

Cədvəlin qaynağı: (2, vərəq 3-407; 3, vərəq 1-604; 4, vərəq 1 arxa-406; iş 5, vərəq 1 arxa-639).

Cədvəlin təhili göstərir ki, 10 mahaldan ibarət Quba əyalətində yaşayan 11264 ailədə 40688 nəfər kişi qeydə alınmışdı. Həmin ailələrin 7085-i (62,9%-i), yaxud kişi cinsindən olan sakinlərin 26153 nəfəri (64%-i) dövlət xəzinəsinə məxsus kəndlərdə, 4179 ailə (37,1%-i) və yaxud 14535 nəfər kişi (36%-i) isə xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayırdı. Dövlət kəndində hər ailəyə düşən kişi sayı 3,64 nəfər, sahibkar kəndində isə 3,47 nəfər idi. Əhalinin tərkibində kəndli kateqoriyaları üstün yer tutsa da, yuxarıda təqdim etdiyimiz ümumi statistik göstəriciyə, yəni 11264 ailənin (40688 nəfər kişi) tərkibinə digər əhali kateqoriyaları olan bəylər, namnauzlar, yüzbaşılar, kəndxudalar, yasavullar, seyidlər, mehtərlər, ilxıçılar və başqaları da daxildir. Kameral sayım materialları əsasında apardığımız hesablamalar nəticəsində müəyyən edilmişdir ki, bu kateqoriyadan olan sakinlərin sayı 1646 kişinin daxil olduğu 369 ailədən ibarət idi. Bu da bütün sakinlərin cəmi 3,28 faizini təşkil edirdi. Əyalətdə bütün kateqoriyalara mənsub olan dövlət və sahibkar kəndlilərinin sayı 39042 nəfər kişinin qeydə alındığı 10895 ailədən ibarət idi ki, bu da Quba əyalətinin bütün sakinlərinin çox böyük hissəsini – 96,72 faizini təşkil edirdi. Əyalət üzrə qeydə alınan 9872 rəiyyət ailəsində 33514 nəfər kişi yaşayırdı. Dövlətə məxsus kəndlərdə yaşayan 6332 rəiyyət ailəsində 21914 nəfər kişi, xüsusi sahibkar kəndində isə 3540 rəiyyət ailəsində 11600 nəfər kişi qeydə alınmışdı. Rəqəmlərdən göründüyü kimi, dövlətə məxsus rəiyyətlərin sayı daha çox olub ailə hesabı ilə 64,4 faizə, nəfər hesabı ilə 65,4 faizə bərabər idi. Xüsusi sahibkarlara məxsus rəiyyətlərin sayı isə daha az olub müvafiq olaraq 35,86 faiz və 34,6 faiz təşkil edirdi. Əhalisinin sayının çoxluğuna görə digərlərindən fərqlənən bir neçə dövlət kəndində mövcud olan vəziyyətlə bağlı bəzi faktlara müraciət edək: məsələn, Xınalıq mahalında dövlət xəzinəsinə məxsus olub 1676 nəfər kişidən ibarət 421 ailənin yaşadığı Qrız kəndində 1614 kişidən ibarət 398 rəiyyət ailəsi qeydə alınmışdı. Bu dövlət kəndlilərinin böyük hissəsi oturaq, az hissəsi yarımköçmə həyat tərzi sürür, taxılçılıq, qoyunçuluq və müxtəlif növ parça istehsalı ilə məşğul olurdu. Hər bir kəndli ailəsi ildə dövlət xəzinəsinə bir rubl əlli qəpik pul və bir ruba arpa vergisi ödəyirdi (5, vərəq 134, arxa-207). Quba əyalətində dövlət xəzinəsinə məxsus ən böyük yaşayış məskənlərindən biri də Xınalıq mahalının Cek kəndi idi. Yüzbaşı tərəfindən idarə olunan bu kənddə 1011 nəfər kişidən ibarət 280 ailə yaşayırdı. Həmin kənddə dövlətə məxsus 256 rəiyyət ailəsində 857 nəfər kişi qeydə alınmışdı. Daha çox yarımköçmə həyat tərzi keçirən sakinlər qoyunçuluq və qismən taxılçılıq təsərrüfatı ilə məşğul olurdular. Kənddə 500 ruba əkinə yararlı torpaq, 500 ruba otlaq, 60 ruba biçənək sahəsi və dörd su dəyirmanı var idi. Yüzbaşı ailəsi hər il xəzinəyə üç rubl əlli qəpik pul, bir ruba arpa, dörd rəncbər ailəsinin isə hər biri dörd rubl gümüş pul ödəyirdi (5, vərəq 13, arxa-56). Mahalla eyni adı daşıyan Xınalıq kəndində 266 ailədə 962 nəfər kişi siyahıya alınmışdı. Dövlətə məxsus 262 rəiyyət ailəsi 938 nəfər kişidən ibarət idi. Yarımköçmə həyat sürən sakinlər

qoyunçuluqla yanaşı, qismən taxılçılıq və pambıqçılıqla da məşğul olurdular. Onlar min ruba əkinə yararlı, iki min ruba yararsız, 400 ruba biçənək sahəsindən istifadə edirdilər. Hər rəiyyət ailəsi ildə dövlət xəzinəsinə bir rubl əlli qəpik pul və bir ruba arpa vergisi ödəyirdi (5, vərəq 82, arxa-127). Qeyd etmək lazımdır ki, dövlət və sahibkar kəndlərinin əksəriyyətində yerləşən taxılçılıq təsərrüfatlarında buğda və arpa məhsulları yetişdirildiyindən hər kəndli ailəsi xəzinəyə ildə bir ruba buğda, 0,5 ruba arpa vergisi ödəyirdi. Xüsusi sahibkar kəndlilərinin sosial-iqtisadi vəziyyəti haqqında müəyyən təsəvvür yaratmaq üçün bir neçə arxiv sənədinə müraciət edək: Quba əyalətinin Bərmək mahalındakı Buduq kəndi Rüstəm bəyə vaxtilə xan tərəfindən mahal naibi vəzifəsini daşıdığına görə tiyul kimi verilmiş və bu hüquq rus hökuməti tərəfindən də tanınmışdı. Kənddə 750 ruba əkinə yararlı, 3 min ruba yararsız torpaq, min ruba biçənək, min ruba otlaq sahələri və bir dəyirman var idi. Hər xüsusi sahibkar rəiyyət ailəsi ildə xəzinəyə bir rubl 50 qəpik pul və bir ruba arpa natural vergisini ödəməklə yanaşı, öz torpaq sahibinin xeyrinə bütün vergi və mükəlləfiyyətləri yerinə yetirirdi (4, vərəq 368, arxa-406). Şeşpara mahalında vaxtilə xan tərəfindən general-leytenant rütbəsi daşıyan Tarku şamxalına bağışlanan, indi isə onun oğlu Süleyman Mirzənin sahibliyində olan Çiçi kəndində 789 nəfər kişidən ibarət 202 ailə yaşayırdı. Bunlardan 658 nəfər kişidən ibarət 182 rəiyyət ailəsi kasıbları, yetimləri və şikəstləri çıxmaqla əkinçilik, xalça və bez parça toxumaqla məşğul olur, 900 rubalıq əkinə yararlı torpaqdan istifadə edirdi. Hər rəiyyət ailəsi dövlət xəzinəsinə ildə bir rubl əlli qəpik pul, bir ruba buğda, 0,5 ruba arpa vergisi ödəməklə yanaşı, sahibinin bütün əmrlərini də yerinə yetirirdi. Kənddə dövlət xəzinəsinə məxsus iki qışlaq da var idi (3, vərəq 538, arxa-570). Polkovnik Ağabəy Sadıqovun xüsusi sahibkar kəndində qeydə alınan 39 ailədən (283 nəfər kişi) 75-i (200 kişi) rəiyyət idi (2, vərəq 140-154). Bərmək mahalında Ağabəyə məxsus Kevxanlı kəndində 212 ailə (675 nəfər kişi) qeydə alınmışdı, bunlardan 198 ailəni (624 nəfər kişi) rəiyyətlər təşkil edirdi (4, vərəq 129, arxa-158). Tip mahalında poruçik Məmmədxan bəyə məxsus Alpan kəndində 680 nəfər kişidən ibarət 195 rəiyyət ailəsi, 576 nəfərdən ibarət 176 ailə rəiyyət ailəsi yaşayırdı (2, vərəq 219, arxa-223). Tip mahalı Taib bəyə məxsus Nüqədi kəndində 219 ailədə 808 kişi qeydə alınmışdı. Bundan 135 ailə – (152 nəfər kişi) rəiyyət, 31 rəncbər ailəsi (152 nəfər kişi) qeydə alınmışdı (2, vərəq 333-371).

Xüsusi sahibkar Polkovnik Ağa bəy Sadıqova məxsus Xudat kəndində qeydə alınan 39 ailədən (283 nəfər kişi) 75-i (200 kişi) rəiyyət idi (2, vərəq 140-154). Bərmək mahalında Ağa bəyə məxsus Kevxanlı kəndində yaşayan 212 ailədən (675 nəfərkişi), 198 ailə (624 kişi) rəiyyət idi (4, vərəq 129, arxa-158). Tip mahalında poruçik Məmmədxan bəyə məxsus Alpan kəndində 680 nəfər kişidən ibarət 195 ailə yaşayırdı. 1 kəndxuda ailəsini çıxdıqdan sonra qalan 189 rəiyyət ailəsi 640 nəfər kişidən ibarət idi. Bəyə məxsus 4 hərbi nökər ailəsində

24 nəfər kişi, 1 bağban ailəsində 6 nəfər kişi qeydə alınmışdı (2, vərəq 219, arxa-223). Tip mahalında Taib bəyə məxsus Nüqədi kəndində 219 ailədə 808 kişi qeydə alınmışdı. Bundan 135 rəiyyət ailəsində 385 nəfər kişi, 31 rəncbər ailəsində isə 152 nəfər kişi qeydə alınmışdı. (2, vərəq 333-371). Şeşpara mahalında Nurməhəmməd bəyə məxsus Qəndob kəndində 396 nəfər kişidən ibarət 92 rəiyyət ailəsi yaşayırdı (3, vərəq 350-369). Həmin mahalda Rüstəm bəyə məxsus 640 nəfərdən ibarət 139 ailənin yaşadığı Zərqova kəndində 541 nəfər kişidən ibarət 124 rəiyyət ailəsi qeydə alınmışdı (3, vərəq 445, arxa-475).

Qeyd etmək lazımdır ki, xüsusi sahibkarlara məxsus xalisə mülk torpaqlarında vəziyyət bir qədər fərqli cərəyan edirdi. Məsələn, Rüstəm bəyin Bərmək mahalında xalisə mülkü olan Talış kəndində 73 nəfər kişidən ibarət 19 rəiyyət ailəsi yaşayırdı. Bu xalisə mülkündən dövlət xəzinəsinə heç bir vergi daxil olmurdu. Hər rəiyyət ailəsi öz mülkədarına ildə bir rubl əlli qəpik pul və bir ruba arpa sabit natural vergi ödəyirdi (4, vərəq 303, arxa-304).

Cədvəlin təhlili göstərir ki, Quba əyalətində rəiyyətlərdən sonra sayına görə ikinci sıranı rəncbərlər tuturdu. Əyalətdə ümumilikdə 2858 nəfər kişidən ibarət 590 rəncbər ailəsi qeydə alınmışdı. Hər ailəyə düşən kişi sayı orta hesabla 4,5 nəfər təşkil edirdi. 590 rəncbər ailəsindən daha çoxu – 307-si və yaxud 52 faizi xüsusi sahibkarlara, 283-ü və yaxud 48 faizi dövlət xəzinəsinə məxsus idi. Xüsusi sahibkarlara məxsus rəncbər ailələrində 1552 nəfər kişi və yaxud bütün kişi rəncbərlərin 54,26 faizi, dövlətə məxsus rəncbər ailələrində isə 1306 nəfər kişi və yaxud bütün kişi rəncbərlərin 45,76 faizi cəmləşmişdi. Xüsusi sahibkarlara məxsus rəncbərlərin kiçik hissəsi – 181 nəfər kişidən ibarət 49 ailə vergi ödəyən kateqoriyaya, böyük hissəsi – 1371 nəfər kişidən ibarət 258 ailə isə vergi ödəməyən kateqoriyaya aid idi. Dövlətə məxsus rəncbərlərlə bağlı vəziyyət də təxminən eyni idi. Dövlət xəzinəsinə məxsus olan rəncbərlərin də az hissəsi – 296 nəfər kişidən ibarət 64 ailə vergi ödəyən, 1010 nəfər kişinin qeydə alındığı 219 rəncbər ailəsi dövlət xəzinəsinə vergi ödəməyən kateqoriyaya daxil idi. Kameral sayım materiallarında dövlət və sahibkar rəncbərləri haqqında verilən bəzi məlumatları nəzərdən keçirək: Qubanın dövlətə məxsus Erfi kəndində yaşayan 75 nəfər kişidən ibarət 15 rəncbər ailəsi xəzinəyə məxsus taxılçılıq təsərrüfatlarında bütün əkin-biçin işlərini yerinə yetirərək dövlət xəzinəsinə heç bir vergi ödəmirdi (4, vərəq 295-296). Dövlətə məxsus digər Qrız kəndində 20 nəfər kişidən ibarət 4 rəncbər ailəsi isə hər il xəzinəyə 4 rubl gümüş manat pul vergisi ödəyirdi (5, vərəq 207).

1831-ci il məlumatına əsasən, Quba əyalətinin Tip mahalında xüsusi sahibkara məxsus Nüqədi kəndində yaşayan 31 rəncbər ailəsində 151 nəfər kişi, 5 bağban ailəsində 22 nəfər kişi, 20 hərbi nökər ailəsində 114 nəfər kişi qeydə alınmışdı. Bu ailələrin heç biri dövlət xəzinəsinə hər hansı bir vergi ödəmirdi. Lakin kənddəki 105 meyvə bağı rəncbər və bağbanların əməyi ilə becərilirdi (2, vərəq 333-371). Ruslara sədaqətlə xidmət edən proporşik Yəhya bəyə məxsus

Zizik sahibkar kəndində yaşayan 27 rəncbər ailəsində 96 nəfər kişi qeydə alınmışdır. Həmin rəncbər ailələri dövlətə bütün vergilərdən azad olub bəyin 10 meyvə və 50 tut bağında bütün təsərrüfat işlərini yerinə yetirirdilər. Maraqlıdır ki, rəncbərlə eyni sosial-iqtisadi vəziyyətdə olan bağban da mənbədə "təsərrüfatsız" kimi qeyd olunmuşdur (2, vərəq 390-407). Qeyd etmək lazımdır ki, Qubanın bütün kateqoriyadan ibarət sahibkar kəndliləri təsərrüfat və bağları suvarmaq üçün dövlətə məxsus su arxlarından istifadə edirdilər (3, vərəq 69). Sahibkarlara məxsus Rustov kəndində yaşayan 6 rəncbər ailəsinin hər biri xəzinəyə ildə 4 gümüş rubl pul vergisi ödəyirdi (3, vərəq 537-538). Maraqlıdır ki, xüsusi sahibkarlara məxsus rəncbərlər bəzi hallarda xəzinə kəndlərində yaşayırdılar. Məsələn, Sırt mahalının dövlətə məxsus İmamqulu kəndində yaşayan 9 rəncbər ailəsindən 3-ü Məmmədxan bəyə, 3 ailə mahal naibi hüququna görə Əli Paşa ağaya, biri Hacı Niyaz oğluna, ikisi isə yüzbaşı Şahnavaz Hacı Novruz bəyə məxsus olub 43 nəfər kişidən ibarət idi. Digər xəzinə və sahibkar rəncbərlərindən fərqli olaraq bu rəncbər ailələrinin hər biri ildə xəzinəyə 4 deyil, 5 gümüş manat pul ödəyirdi (5, vərəq 579-580). Mahal naibi Əli Paşa bəyin başqa bir dövlət kəndi olan Gündüzqalada xəzinəyə heç bir vergi ödəməyən 2 rəncbər ailəsi yaşayırdı (5, vərəq 587, arxa-588). Xəzinəyə məxsus Yeger kəndində yaşayan 12 rəncbər ailəsi ayrı-ayrı xüsusi sahibkarlar olan mahal naibi, divan yasavulu və yüzbaşıya məxsus idi (5, vərəq 599).

Cədvəlin təhlili göstərir ki, Quba əyalətində kəndli kateqoriyasına daxil olan hərbi nökərlər sayca rəiyyət və rəncbərlərdən sonra gəlib üçüncü sırada dayanırdı.

Cədvəl 2. Quba əyalətində dövlətə və xüsusi sahibkarlara məxsus kəndli kateqoriyalarının say nisbəti (1831-ci il kameral sayım materiallarına əsasən)

| | Dövlətə məxsus | | | | | | Xüsusi sahibkarlaara məxsus | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Ailələr | | | Kişilər nəfər | | | Ailələr | | | Kişilər nəfər | | |
| | Vergi ödəyən | Ödə-məyən | Cəmi | Vergi ödəyən | Ödə-məyən | Cəmi | Vergi ödəyən | Ödə-məyən | Cəmi | Vergi ödəyən | Ödə-məyən | Cəmi |
| Rəncbərlər | 64 | 219 | 283 | 296 | 1010 | 1306 | 49 | 258 | 307 | 181 | 1371 | 1552 |
| Bağbanlar | - | 12 | 12 | - | 41 | 41 | 22 | - | 22 | - | 97 | 97 |
| Hərbi nökərlər | - | 269 | 269 | - | 1730 | 1730 | - | 130 | 130 | - | 802 | 802 |

Cədvəlin qaynağı: (2, vərəq 3-407; 3, vərəq 1-604; 4, vərəq 1 arxa-406; 5, vərəq 1 arxa-639.

Cədvəlin təhlilinə görə, 1831-ci ildə Quba əyalətində 2532 nəfər kişidən ibarət 399 hərbi nökər ailəsi qeydə alınmışdı və orta hesabla hər ailəyə 6 nəfərdən çox kişi düşürdü. Xəzinəyə heç bir vergi ödəməyən hərbi nökərlərin daha çox hissəsi 1730 nəfər kişidən ibarət 269 ailə dövlətə, 802 kişidən ibarət 130 ailə isə xüsusi sahibkarlara məxsus kəndlərdə yaşayırdı. Əyalətdə ən çox hərbi nökər ailələri Sırt mahalının Zeyxur kəndində və Yuxarıbaş mahalında

dövlətə məxsus Həzrə kəndində qeydə alınmışdı. Zeyxur kəndində 130 nəfər kişidən ibarət 17 hərbi nökər ailəsi, Həzrə kəndində isə 139 nəfər kişidən ibarət 16 hərbi nökər ailəsi yaşayırdı (5, vərəq 530-537). Ümumiyyətlə, hərbi nökər institutu xan dövründən qalma idi və maaf adlanan təbəqənin birinci dərəcəsini təşkil edirdi. Xanlıqlar dövründə xəzinəyə və xüsusi sahibkarlara məxsus kəndlərdən və ellərdən seçilən nökərlər xanın xüsusi hərbi dəstəsini təşkil edirdi. Rus hökuməti dövründə isə hərbi nökərlər daha çox mahal naibləri tərəfindən qaravul, dustaqların müşayiət edilməsi üçün konvoy, polis funksiyalarının yerinə yetirilməsi kimi mühüm və xüsusi işlərə cəlb olunurdular. Quba əyalətində olan hərbi nökərlərin və onlarla eyni vəziyyətdə olan namnauzların gələcək taleyi sual altında idi. Çünki 1840-cı il Əsasnaməsinə görə bundan sonra hər hansı şəxsə belə ad verilməsi rus hakimiyyət orqanlarına qadağan edilmişdi (11, vərəq 292-293).

Ümumiyyətlə, digər müsəlman əyalətlərində olduğu kimi, Quba əyalətində də çoxsaylı maaf kateqoriyasına daxil olan kəndxudalar, hərbi nökərlər, rəncbərlər, yetimlər, kasıblar və yasavulların saxlanılması kimi böyük bir yükün ağırlığı da zəhmətlə çalışan rəiyyət və rəncbərlərin boynuna düşürdü.

Qeyd etmək lazımdır ki, ali müsəlman zümrəsinin tiyul torpaqlarında yaşayan sahibkar kəndlilərinin də gələcək taleyi aydın deyildi. Məsələn, Quba qəzasında polkovnik Ağa bəy Sadıqov 1841-ci ildə vəfat edən kimi ona məxsus 8 kənd (Padar, Əli Qışlağı, Xudat və başqaları) dövlət xəzinəsinə keçirildiyi üçün həmin kəndlərdə yaşayan 614 rəiyyət və 18 rəncbər ailəsi dövlət kəndlisi kateqoriyasına daxil edilmişdi. Bundan sonra həmin kəndlilərdən hər il 5690 gümüş manat dəyərində məhsulla bəyə ödənilən onda bir (dəh-yek) vergisi xəzinəyə daxil olurdu. Müsəlman-türk əhalisinin düşməni erməni knyaz Mədətov 1844-cü ildə öldüyünə görə onun Qarabağdakı bütün mülkləri və kəndliləri xəzinəyə keçdiyindən bundan sonra məhsulun beşdə birini təşkil edən natural vergi xəzinəyə ödənilirdi (8, vərəq 3-5).

Sənədlərin təhlili göstərir ki, xüsusi sahibkar kəndliləri həm dövlət, həm də sahibkarlar qarşısında daşıdıqları çoxlu sayda vergi və mükəlləfiyyətlərin ağırlığına dözə bilmir və hökumət orqanlarına şikayətlər göndərirdilər. Şamaxı qəzasının Qoşun nahiyəsinin Sulut və Nuran kəndlərində yaşayan sahibkar kəndlilərinin 1846-cı ildə əri öləndən sonra onlara sahiblik edən Səadət Nisə xanımın vəkalət verdiyi şəxslərin onlardan qanunsuz vergilər tələb etməsi və əsassız olaraq üç ailənin nökər siyahısına daxil edilməsindən verdikləri şikayət və onların xəzinə kəndliləri sırasına keçirilməsi haqqında xahişləri 1851-ci ilədək müxtəlif orqanlar arasında yazışmalardan sonra rədd edilmişdi (9, vərəq 1-1arxa, 27-27 arxa). Bu sənəd Səadət xanım və oğluna məxsus 7 kəndin sahibkar kəndlilərinin mülkədar qarşısında daşıdıqları vergi və mükəlləfiyyətlər haqqında əyani təsəvvür yaratmaq baxımından da əhəmiyyətlidir: buğda və arpa məhsulunun onda birini təşkil edən malcəhət vergisi, arpa ilə ödənən atarpası

vergisi, bağbaşı. Kəndlilərin əkində istifadə etdikləri hər xışa görə bir manat pul; hər xışa görə beş batman buğda, dörd batman arpa ilə tələb olunan darğalıq vergisi. Rəncəbərlər isə mülkədarın torpaqlarında bütün əkin-biçin işlərini aparmalı idilər (9, vərəq 49-49 arxa).

Apardığımız araşdırmalar belə nəticəyə gəlməyə imkan verir ki, dörd əyalət üzrə dövlətə məxsus kəndlilərin sayı xüsusi sahibkar kəndlilərinin sayından daha çox olmuşdur. Xüsusi sahibkar kəndlilərinin tərkibinə rəiyyət, rəncbər və nökər kateqoriyaları daxil idi. Xüsusi sahibkar kəndində rəiyyət-kəndli kateqoriyasının sayı üstünlük təşkil etmişdir. Rus hökümətinin yeritdiyi aqrar siyasətin nəticəsində xüsusi sahibkarlara məxsus rəncbərlərin və hərbi nökərlərin gələcək taleyi sual altında idi. Çünki hökümət bu iki kəndli qrupunun gələcəkdə dövlət kəndlisi kateqoriyasına daxil edilməsi üçün bütün zəruri tədbirləri görmüşdü.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Mərkəzi Dövlət Arxivi (MDA) fond 24, siyahı 1, iş 72
2. Azərbaycan Respublikası MDA fond 24, siyahı 1, iş 342
3. Azərbaycan Respublikası MDA fond 24, siyahı 1, iş 343
4. Azərbaycan Respublikası MDA fond 24, siyahı 1, iş 344
5. Azərbaycan Respublikası MDA fond 24, siyahı 1, iş 345
6. Azərbaycan Respublikası MDA fond 24, siyahı 1, iş 84
7. Azərbaycan Respublikası MDA fond 32, siyahı 1, iş 13
8. Azərbaycan Respublikası MDA fond 32, siyahı 1, iş 144
9. Azərbaycan Respublikası MDA fond 32, siyahı 1, iş 166
10. Azərbaycan Respublikası MDA fond 75, siyahı 1, iş 7
11. Azərbaycan Respublikası MDA fond 91, siyahı 1, iş 84
12. Gürcüstan Mərkəzi Tarix Arxivi (MTA) fond 2, siyahı 1, iş 1201
13. Rusiya Dövlət Tarix Arxivi fond 1377, siyahı 1, iş 29
14. Описание Карабагской провинции составленное в 1823 году по распоряжению главноуправлявшаго в Грузии Ермолова. Тифлис: Типография управления наместника Кавказского, 1866, 415 с.
15. *Петрушевский И.П.* Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Ленинград: Изд-во Ленинградского Гос. Ордена Ленина Университета имени А.А. Жданова, 1949, 384 с.
16. *Эфендиев М.М.* Частновладецеские ренджбары в Азербайджане в XIX веке // Известия АН Азерб ССР, 1955, №10, с.91-111


Redaksiyaya daxil olub 05.10.2021

*UOT 323*

***N.F.Adilova***
*AMEA Hüquq və İnsan Haqları İnstitutu*
*adilova.nigar@gmail.com*

# YENİ MEDİA İLƏ SİYASİ MƏDƏNİYYƏTƏ STRATEJİ TƏSİR ÜSULLARI

***Açar sözlər:*** *yeni media, siyasi mədəniyyət, siyasi kommunikasiya, yumşaq güc, ictimai rəy*

Yeni media siyasi mədəniyyətə siyasi və qeyri-siyasi təbliğat yolu ilə təsir edə bilir. Siyasi üsullar siyasi kommunikasiyanın əsas növləri olan siyasi marketinq, siyasi reklam, siyasi müzakirələr, siyasi xəbərləri əhatə edir, qeyri-siyasi üsullara isə yumşaq güc siyasətinin əsas instrumentləri olan cəlbedici filmlər, video-çarxlar, psevdo xəbərlər aiddir. Siyasi strateji kampaniyalar inandırıcılıq yolu ilə vətəndaşların siyasi biliklənməsini təmin edir və istiqamətləndirir. Qeyri-siyasi strateji üsullar isə əsasən siyasi yanaşma və dəyərlərə öz cəlbediciliyi ilə müdaxilə edə bilir. Hər iki halda siyasi mədəniyyətin yenilənməsi ictimai fikrə təsirlə mümkündür. Fərqli təbliğat metodlarının təbii və qeyri-təbii təsirləri nəticəsində ictimai fikrin müxtəlif səviyyələrində dəyişiklik baş verir. Bu dəyişiklik ayrı-ayrı mədəniyyətlərə sahib cəmiyyətlərdə və müxtəlif xarakterli insanlarda fərqli şəkildə özünü göstərir. Tədqiqat işində müqayisəli təhlil, sistem yanaşma kimi elmi metodlardan istifadə olunmuş və sahə üzrə müxtəlif müəlliflərin yanaşmalarının təhlili ilə müvafiq nəticəyə gəlinmişdir. Tədqiqatın əsas yeniliyi ondan ibarətdir ki, yeni medianın siyasi mədəniyyətə təsiri kompleks şəkildə, həm siyasi kommunikasiya, həm də yumşaq güc kontekstində araşdırılmışdır.

***Н.Ф.Адилова***

## МЕТОДЫ СТРАТЕГИЧЕСКОГО ВОЗДЕЙСТВИЯ НА ПОЛИТИЧЕСКУЮ КУЛЬТУРУ С ПОМОЩЬЮ НОВЫХ СМИ

***Ключевые слова:*** *новые медиа, политическая культура, политическая коммуникация, мягкая сила, общественное мнение*

Новые СМИ могут влиять на политическую культуру посредством политической и неполитической пропаганды. Политические методы включают в себя политический маркетинг, политическую рекламу, политические дискуссии, политические новости, которые являются основными типами политической коммуникации, а к неполитическим методам относятся фильмы, видео, псевдоновости, которые рассматриваются как инструмент мягкой силы. Политические стратегические кампании предоставляют гражданам политические знания и направляют их через убеждение. Неполитические стратегические методы большей частью могут проникать в политические подходы и ценности своей привлекательностью. В обоих случаях обновление политической культуры

возможно через влияние на общественное мнение. Различные уровни общественного мнения меняются в результате естественного и неестественного воздействия различных методов пропаганды. Это изменение по-разному проявляется в обществах с разными культурами и людьми с разными характерами. В исследовании использовались научные методы, как сравнительный анализ, системный подход, и был сделан соответствующий вывод путем анализа подходов разных авторов в данной области. Основная новизна исследования заключается в том, что влияние новых медиа на политическую культуру изучалось комплексно, в контексте как политической коммуникации, так и мягкой силы.

***N.F.Adilova***

**METHODS OF STRATEGIC INFLUENCE ON POLITICAL CULTURE WITH NEW MEDIA**

***Keywords:*** *new media, political culture, political communication, soft power, public opinion*

New media can influence political culture via political and non-political propaganda. Political methods contain political marketing, political advertising, political discussions, political news, which are the main types of political communication, as well as, non-political methods cover films, videos, pseudo-news which are considered as a soft power tools. Political strategic campaigns provide citizens with political knowledge and guide them through persuasion. Non-political strategic methods can mostly penetrate political approaches and values with their attractiveness. In both cases, the renewal of political culture is possible through influence on public opinion. Different levels of public opinion are changed as a result of natural and unnatural impact of different methods of propaganda. This change is manifested in societies with different cultures and people of different characters in distinct way. Scientific methods such as comparative analysis and system approach were used in the research work and the relevant conclusion was reached by analyzing the approaches of different authors in the field. The main novelty of the study is that the impact of new media on political culture has been studied in a complex way, in the context of both political communication and soft power.

## Giriş

Media informasiya kommunikasiya texnologiyalarının siyasi mədəniyyətə təsir edə bilən bir sahəsini təşkil edir. Qeyd edilməlidir ki, müasir dövrdə həm sosiallaşma təşkilatı olan medianı, həm də müasir texnologiyaları birləşdirən aktual anlayış ənənəvi medianın əsas təmsilçiləri – mətbuat, radio və televiziyanın rəqəmsallaşmış formaları ilə yanaşı, internet mediasını da ehtiva edən yeni mediadır. Siyasi mədəniyyətin formalaşmasında siyasi kommunikasiyanın əhəmiyyətli rolunu və bu prosesdə medianın tutduğu mövqeyi nəzərə alaraq qeyd olunmalıdır ki, müasir dövrdə yeni medianın siyasi mədəniyyətə təsirinin öyrənilməsi çox aktualdır.

Təqdim edilən məqalədə yeni medianın siyasi mədəniyyətə nüfuzetmə imkanları və üsulları ətraflı şəkildə araşdırılır, media vasitələrinin siyasi mədəniyyətə təsirinin nəticələrinə qədərki proses izah olunur, yeni media ilə siyasi mədəniyyətin struktur komponentlərinə təsirin məqsədləri, mahiyyəti qeyd olunur. Eyni zamanda medianın ictimai fikirlə yanaşı, dərin ictimai-siyasi baxış və dəyərlərə nüfuzetmə imkanları yeniliklər sırasındadır. Tədqiqat işində bir sıra mediatəsir və ictimai fikir nəzəriyyələrinшт nəticələrindən yararlanılmış və müqayisəli təhlil, sistem yanaşma, analiz metodlarından istifadə edilmişdir.

**Yeni mediada siyasi təbliğat strategiyaları**

Müasir informasiya və kommunikasiya vasitələri ənənəvi medianın davamı və yenilənmiş, daha geniş məzmun, resurs və ərazi əhatəsinə malik bir forması olaraq əvvəlki kommunikasiya texnologiyalarının siyasi mədəniyyətin formalaşmasına təsir mexanizmlərini özündə ehtiva edir. Bununla yanaşı, müasir texnologiyalar ilə media siyasi mədəniyyətə təsir edə bilmək üçün yeni imkanlar qazanmış və təsirinin effektivliyi üçün vasitə və üsullar daha da çoxalmışdır. Bu təsir əvvəlki kimi siyasi sosiallaşma və siyasi kommunikasiya prosesində reallaşır. Əsas fərqlərdən biri siyasi bilik və bəzən siyasi mahiyyət daşıyan əyləncə məqsədli informasiya məhsullarının insanlara onların öz zövqlərinə uyğun şəkildə təqdim olunmasıdır.

Ənənəvi media öz funksiyalarını daha çox təbliğatla həyata keçirdiyi kimi, müasir mediada da təbliğat və manipulyasiya mühüm strategiyalardan biridir və həmçinin dövrün tələblərinə cavab vermək üçün bir qədər fərqli çalarlara malikdir. Siyasi kommunikasiya üzrə mütəxəssis M.N.Qraçev bildirir ki, əvvəlki siyasi təbliğat məcburetmə metoduna əsaslanırdısa, indi siyasi kommunikasiya strategiyaları inandırıcılığa söykənir. Psixoloji məcburetmədən fərqli olaraq inandırma metodları təhdid yolu ilə deyil, elə tələblərin qoyulması ilə baş verir ki, hədəf qruplar bunu şəxsi maraqlarına əsasən rasional şəkildə özlərinin seçdiyi qərar kimi qiymətləndirirlər. Qraçev qeyd edir ki, inandırıcı metod zamanı təsir mexanizmi kimi adətən təmkinlilik, hisslərin oyadılması, məsuliyyətin aktivizasiyası tətbiq olunur [4; s.151]. Eyni zamanda yeni kompüterləri inandırıcı texnologiya kimi araşdıran B.J.Fogg da vurğulayır ki, müasir texnologiyalar motivasiya, təşviq, simulyasiya, hekayə danışmaq, yeni mühit yaratmaq yolu ilə davranışları dəyişdirməyə qadirdirlər. Həmin vasitə ilə siyasi baxışları və siyasi davranışları da dəyişmək mümkündür [7].

Həm dövlət siyasətinin təbliği, həm siyasi partiyaların seçki kampaniyaları, həm müxtəlif maraq qruplarının, ictimai birlik və qeyri-hökumət təşkilatlarının maraqlarını təmin etmək məqsədilə müxtəlif yeni media vasitələrindən və siyasi təbliğatın fərqli üsullarından istifadə olunur. Müasir dövrdə siyasi təbliğatın əsasını təşkil edən yeni mediaya həm ənənəvi medianın yeni davamçıları olan elektron-qəzet və jurnallar, radio və televiziya geniş zolaqlı yayımları, həm də

internetin yeni sosial şəbəkələri və kommunikasiya üsulları (e-mail, səs yazıları, videolar) daxildir. Bunların hər birinin siyasi təbliğatının əsas hissəsini ictimaiyyətlə əlaqələr, siyasi marketinq, siyasi reklam təşkil edir.

İctimaiyyətlə əlaqələr ictimai fikrin öyrənilməsi, xüsusilə, gizlində olan ictimai rəyin vaxtında araşdırılıb lazımı istiqamətdə istifadəsinə və önləyici tədbirlərin həyata keçirilməsinə xidmət edir. Bu, həm də siyasi partiyaların seçicilərə yaxınlığını göstərən bir siyasi manevr kimi qiymətləndirilə bilər. İctimaiyyətlə əlaqələrin yeni mediaya aid olan hissəsi daha çox interaktiv media vasitələri ilə (tele-forumlar, radio sorğular, internet forumlar, onlayn platformalarda və sosial şəbəkələrdə paylaşımlar və geridönüşlər, çat platformaları) həyata keçirilən fəaliyyətlərdir.

Bununla yanaşı, siyasi marketinq də ictimai rəyin öyrənilməsi üçün əsas vasitələrdən biridir. 1950-ci illərdən ABŞ-da yaranan siyasi marketinq mövcud siyasi mühiti dəyərləndirməyə, mənfi və müsbət tendensiyaları ortaya çıxarmağa, cəmiyyətin nəbzini tutmağa hədəflənmiş üsuldur. İctimai rəy əsasında sonradan siyasi imic, siyasi reklam yaradılır. Bu üsul və metodlardan daha çox seçkilər zamanı və ya hər hansı siyasi layihənin həyata keçirilməsi ilə əlaqədar istifadə olunur [5, s.11]. Bəzi müəlliflər iddia edirlər ki, bir çox siyasətçilər ictimai rəydən insanların istəklərini yerinə yetirmək üçün deyil, onları manipulə etmək üçün istifadə edirlər [8, s.742-743].

Siyasi reklam müasirliyin əsas özünütəqdimat üsulu kimi obyektiv qiymətləndirilsə də, burada əsl məqsəd təbliğat və təşviqatdir. Bəzən siyasi reklam rəqib haqqında anti-reklam kimi də təqdim olunur. Media siyasi reklamın həyata keçirilməsində keçən əsrin ortalarından mühüm alət kimi istifadə edilir. 1990-ci illərdən xüsusilə qərbdə radio və televiziya da əsas siyasi reklam vasitəsi olmuş və kütlənin fikrinin yönləndirilməsində vacib rol oynamışdır. İlk dəfə sosial mediadan bu məqsədlə istifadə isə 2008-ci ildə Barak Obamanın seçkiləri zamanı müşahidə olunmuşdur. Bu yolla seçicilərə geniş çatımlıq təmin olunaraq onların seçimlərinə təsir edilmişdir. Müasir siyasi reklamın əsas hissəsini həm də sosial mediada sosial kapitalın, yəni çoxsaylı izləyicilərin inamının yaradılması təşkil edir. Belə sosial kapitalla namizəd fərdlərin onun istəyinə uyğun siyasi fəallıq nümayiş etdirməsinə nail olur.

Müasir mediada əsas məqsədyönlü təsir üsullarından biri də inandırıcı "hekayə danışmaq" bacarığı ilə bağlıdır. Bəzən rəqib tərəflər hətta yanlış, amma təsirli olan informasiya ilə gündəmi zəbt edə bilir, ictimai rəyi yönləndirə bilirlər. Bloqlarda, mikrobloqlarda – Twitter, Facebook, Youtube kimi sosial şəbəkələrdə bu üsuldan geniş istifadə olunur [2].

Bir çox hallarda ənənəvi kütləvi yayımın metodlarına əsaslanan yeni media, təkcə siyasi seçki kampaniyaları zamanı deyil, siyasi xəbərləri çatdıran zaman da siyasi təbliğat üsullarından məharətlə istifadə edir. Siyasi kommunikasiyanın uğurlu olması və auditoriyanın informasiyanı istənilən şəkildə qəbul etməsi üçün

mediada metafor və xüsusi frazalardan (freyminq), məlumatın hər hansı şəxs üzərindən izah və təqdimatından (personalizasiya), xəbərlərin ayrı-ayrı ixtisar olunmuş xülasələr şəklində verilməsindən (fraqmentasiya), onların əhəmiyyətinə görə deyil, emosional səciyyəsinə (dramatik və ya əyləncə) görə seçilməsindən (dramatizasiya), müəyyən siyasi sistem çərçivəsində icazə verilən xüsusi problemin xəbər kimi şərh olunmasından (normalizasiya), gündəmin təmin olunması üsulundan geniş istifadə olunur [3, s.338]

Yeni media bu tipli siyasi reklam və təbliğat üsullarından həm ictimaiyyəti məlumatlandırmaq, həm onların hiss və duyğularına təsir etmək, həm də siyasi fəallığını artırmaq üçün geniş istifadə edir. Buna müvafiq olaraq strateji kommunikasiya kampaniyasının nəticələri **koqnitiv** (müəyyən qrupların diqqətinin məqsədli şəkildə kampaniyanın açar problematikasına cəlb olunması), **affektiv** (auditoriyanın hisslərinin, əhvalının, düşüncələrinin dəyişməsi) və **biheviorial** (informasiya təsirinin ünvanlandığı auditoriyanın davranış və fəaliyyətinə təsir) kimi xarakterizə olunur [4, s.150].

### KİV-in siyasi mədəniyyətə qeyri-siyasi yolla təsir üsulları

Kultivasiya nəzəriyyəsinə və eyni zamanda "yumşaq güc" nəzəriyyəsinə əsasən birbaşa siyasi olmasa da, dramatik süjet, reklam, musiqi, filmlər vasitəsilə də siyasi motivli təsirə nail olmaq mümkündür. Bu barədə David Platz və D.Lipinski qeyd edirlər ki, bütün əyləncə, reklam və psevdo-xəbərlərin məzmununda siyasi məqamlar var və bu siyasi elementlər cəmiyyətin siyasi mədəniyyətini dəyişməyə qadirdir [9]. Dövlətlərin həm ictimai və xarici siyasətlərinin mühüm hissəsini əhatə edən bu yumşaq güc strategiyası ilə ərsəyə gəlmiş filmlərin, verilişlərin, musiqili reklamların, video-çarxların nümayişi vasitəsilə kütlə fikir və davranışlarını məqsədəmüvafiq şəkildə yönləndirmək mümkündür. Bununla əlaqədar daxili ictimai siyasətdə siyasi tarix və proseslərin öyrənilməsi və siyasi biliyin əldə olunmasının daha rahat başa gəlməsini təmin etmək üçün dramatik süjetlərin, milli şüurun formalaşması üçün milli tarixi filmlərin yayımından geniş istifadə olunur [6]. Həmçinin fərqli film janrlarının siyasi mədəniyyətə təsir potensialına misal olaraq, müəyyən olunmuşdur ki, cinayətkarlıqla mübarizə filmlərini daimi olaraq izləyən auditoriya üzvlərində qanunlardan razılıq və bütünlükdə siyasi sistemə dəstək daha çox müşahidə edilir [4, s.176]

Əvvəllər bu cür filmlər televiziya vasitəsilə kütləvi şəkildə nümayiş olunurdusa, müasir dövrdə yeni medianın verdiyi imkanlarla insanlar filmləri, əyləncə videolarını öz seçimlərinə əsasən izləyə bilirlər. Lakin müasir dövrdə bu cür əyləncə xarakterli məhsulların daha çox izlənildiyi "Youtube", "Netflix" kimi sosial platfomalar insanların seçimlərini yönləndirmək potensialına malikdir. Onların təklif etdiyi məzmun daha çox izlənilən məhsulları əhatə edir. İnsanlar öz maraqlarına, istəklərinə uyğun seçim edə bilsələr də, əslində, daha reytinqli və

keyfiyyətli şəkildə təklif olunan filmlərə, video-çarxlara üstünlük verirlər. Həm də geniş şəkildə təklif olunan mövzu və süjet daha çox özünüifadə ilə bağlı olan postmaterialist dəyərləri təbliğ edir (ən keyfiyyətli və cəlbedici filmlər qərb film sənayesinə aid olduğu üçün). Bu cür məhsullar bir tərəfdən fərdiçilik, siyasi iştirak, tolerantlıq, insan hüquqları kimi dəyərləri təbliğ etsə də, digər tərəfdən də bir çox cəmiyyətlərin mənəviyyatına uyğun olmayan yeni ideologiyaların, yanaşmaların, ifrat feminizm və azadlıq ideyalarının yayılmasına, beləliklə də, cəmiyyətdə yeni zəif sosial düzənin ortaya çıxmasına, qütbləşməyə səbəb olur.

Siyasi kommunikasiya yolu, siyasi mədəniyyətə təsir inandırıcılığa əsaslanırsa, qeyri-siyasi yolla siyasi mədəniyyətə təsir daha çox cəlbedicilik vasitəsilə təmin edilir. Müasir texnologiyaların imkanları görüntü və səs effektləri ilə cəlbediciliyi və hisslərə təsiri daha uğurlu şəkildə həyata keçirə bilir.

**Yeni medianın ictimai fikrə təsirinin əsas xüsusiyyətləri**

Qeyd edilən müxtəlif strateji üsullarla həm makro (cəmiyyət), həm mikro (fərdlər) səviyyədə ictimai rəyə təsir mümkün olur. Canlı xəbər yayımları, siyasətçilərlə birbaşa virtual görüşlər, reytinqli filmlər və s. topluma təsir etmək məqsədilə istifadə olunan üsullardır. Bununla yanaşı, yeni medianın çoxmənbəliliyi, çoxməzmunluluğu və çoxfunksiyalılığı fərdə öz seçimini özü etmək imkanı yaradır. Belə olan halda fərdlərin siyasi mədəniyyət və baxışlarına təsir ayrı-ayrılıqda həyata keçirilir. Sonradan medianın təsiri ilə eyni baxışın formalaşdığı insanlar sosiallaşaraq həmin fikri cəmiyyətin əsas hissəsini təşkil edən kütlənin ictimai rəyinə çevirirlər. Beləliklə, nəticə etibarilə yenə kütləvi təsir həyata keçirilmiş olur.

Qeyd edilməlidir ki, ictimai rəy özü üç səviyyədən ibarətdir:




**Şəkil. İctimai rəyin qatları** [10].

Alt qat mənəvi dəyərlərə, mentalitetə əsaslanırsa, orta qat – ictimai mövqe – fərdin şəxsi xarakter və dünyabaxışına, ən üst təbəqə isə tez-tez dəyişə bilən gündəmi əhatə edən edən mövzularla bağlı fikirlərə əsaslanır. Üst qatda ictimai fikrə gündəlik xəbər mediası, seçkilər zamanı siyasi reklam və kampaniyalar, orta qatda ictimai mövqeyə uzun zaman təkrarlanan media məzmun, xarici media, filmlər, "fikir liderləri"nin təsiri və s., daha uzun zamanı əhatə edən təsirlər, eyni zamanda nəsillərin bir-birini əvəz etməsi nəticəsində isə ən alt təbəqədə ictimai

dəyərlərə təsir həyata keçirilmiş olur. KİV-in daha çox təsir etdiyi qat üst qat olsa da, müəyyən vasitə və üsullarla bir müddətdən sonra ictimai yanaşmalar və dəyərlər də dəyişə bilər. Amma mediadan ictimai dəyərlərin qorunmasını təmin etmək üçün istifadə olunması dəyərlərin dəyişməsinin qarşısını da ala bilir. Bu baxımdan Xalid Niyazov qeyd edir ki, KİV həm ictimai dəyərlərin, həm dövlət siyasətinin təbliğatçısı, həm də vətəndaşların dövlət işlərində iştirakının təşkilatçısı olmaqla yanaşı, həmçinin dövlətdə psixoloji mühitin yaradılması, mediaya və dövlətə inamın yaranması üçün məsuliyyət daşıyan siyasi institutdur [1, s.74-78].

1970-ci illərdən başlayaraq mikro və makro səviyyədə medianın siyasi mədəniyyətə müsbət və mənfi təsirlərinin (mikro səviyyədə inancın formalaşması və dəyişməsi; koqnitiv effektlər (prayminq və freyminqin də tədqiqi daxil olmaqla biliyin artması); fərdin siyasi sistemə inamına təsir; siyasi həyatda siyasi davranışa və iştiraka təsir, makro səviyyədə bütünlükdə sistemə təsir araşdırılmışdır) araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, bu faktorlar auditoriyanın müxtəlif nümayəndələrinin siyasi meylləri və xarakterik xüsusiyyətləri, həmçinin mediaxəbərin onlar tərəfindən emalı prosesindən asılıdır [3, s.346]. Yəni yeni media müxtəlif üsul və vasitələrdən istifadə edərək bütün insanlara təsir etmək üçün yönləndirildiyi halda, onun təqdim etdiklərini hamı eyni şəkildə qəbul etmir. Bəziləri kor-koranə konformizm nümayiş etdirir, bəziləri dilemma qarşısında qalır, mövqesizləşir, az bir qisim isə mövqeyini və qərarlarını özü müəyyən edir. Müxtəlif demoqrafik göstəricilər (bilik və təhsil səviyyəsi, yaş, sosial status və s.) də bu zaman mühüm rola malikdir. Xüsusilə inkişaf etməkdə olan cəmiyyətlərdə müasir informasiya-kommunikasiya kanalları iki öncəki tipə məxsus keyfiyyətlərin formalaşmasına daha çox xidmət edir. Bu zaman onlara azad seçim verilsə belə, öz sözlərini deyil, sadəcə özlərinin hesab etdikləri, lakin başqalarının təsiri altına düşərək və ya istifadə aləti olaraq qəbul etdikləri fikirləri müdafiə edirlər və ya mövqesiz vətəndaşlara çevrilirlər. Bu hal məhz siyasi marketinq, ictimai əlaqələr, xəbərlərin təhrifi, siyasi reklam və yumşaq güc vasitələrindən ibarət strateji təbliğat üsulları ilə mümkün olur. Daha rasional fərdlər isə siyasi biliklərini daha da inkişaf etdirərək təsir altına düşmədən təklif olunan seçimlərdən özlərinə müvafiq olanı seçməyə müvəffəq olurlar.

**Nəticə**

Nəticə olaraq qeyd olunmalıdır ki, yeni media siyasi bilik və davranışlara birbaşa siyasi və dolayı, qeyri-siyasi yolla nüfuz edə bilir. Birbaşa siyasi yol siyasi kommunikasiya kampaniyaları – siyasi xəbərlərin verilməsi, siyasi müzakirələrin təşkil olunması, siyasi reklamın həyata keçirilməsi ilə bağlıdır. Bu cür fəaliyyət siyasi mədəniyyətin bir komponenti olan siyasi biliyin və məlumatlılığın artırılmasına və siyasi seçimlərə təsir edir. Qeyri-siyasi yol isə

mədəni nümunələrlə təsiri özündə ehtiva edir ki, bununla daha çox siyasi düşüncənin dəyişilməsinə və ya möhkəmləndirilməsinə çalışılır. Bəzən reklam, filmlər, video-çarxlar, podkastlar vasitəsilə ilk baxışdan siyasətə aid olmayan, lakin əslində kifayət qədər siyasi mahiyyət daşıyan məzmun fərdin siyasi düşüncəsinə təsir edərək onun mövqeyini və seçimlərini də dəyişə bilir. Bu cür təbliğat yumşaq güc siyasətinin əsas təsir üsulu olan cəlbediciliyə, təqdim edilən fikri könüllü qəbul etməyə əsaslanır. Bir çox hallarda xüsusi strategiya ilə hazırlanmış bu təsir üsulları cəmiyyəti idarə edə bilmək və yönləndirmək üçün əsas alətlərdir. Məqsəddən asılı olaraq bu cür təbliğat üsullarının siyasi mədəniyyətə təsirinin nəticələri müsbət və mənfi ola bilər. Bu baxımdan vacib olan əsas məqamlardan biri cəmiyyətin maariflənməsini təmin etmək, mənəvi dəyərlərimizin müvafiq dövrə uyğunlaşması üçün obyektiv qiymətləndirməni təmin edərək yeni medianın onun yalnız müsbət yöndə inkişaf etməsinə təsirini təmin etməkdir. Əsasən də yeni medianın ictimai rəyin üst qatına təsirinə ilk növbədə diqqət yetirilməli və bu sahədə vətəndaşların inamını təmin etmək üçün yumşaq güc üsullarından daha çox istifadə edilməlidir. Çünki bütün sosiallaşma agentləri kimi media da siyasi mədəniyyətin inkişafını ictimai fikri formalaşdıraraq təmin edir. İctimai fikir siyasi mədəniyyətin yalnız bir elementi olsa da, ona uzunmüddətli təsir siyasi mədəniyyətin də transformasiyasına səbəb olur.

## ƏDƏBİYYAT


1. *Niyazov X.* Dövlət İnformasiya Siyasəti (KİV timsalında). Bakı: Elm və təhsil, 2016, 324 s.
2. *Bəşirli A., Cavadova X., İzzətli S.* Yeni media jurnalistikası / Avropa Şurası, 2017, s. 66
3. *Брайант Дж., Томпсон С.* Основы воздействия СМИ. Москва: Санкт-Петербург, Киев: Издателсьский дом «Вильяме», 2004, 426 с.
4. *Грачев М.Н.* Политическая коммуникация: теоретические концепции, модели, векторы развития. Москва: Прометей, 2004, 328 с.
5. *Морозова Е.Г.* Политический рынок и политический маркетинг: концепции, модели, технологии. Москва: "Российская политическая энциклопедия" (РОССПЭН), 1999, 247 с.
6. *Capelous T., Graber D.* The impact of Popular TV-Drama Shows on Political Information Acquisition and Civic IQ / Paper prepared for the ECPR Joint Workshop Sessions. Lisbon, 14-18 April 2009, 30 p.
7. *Fogg B.J.* Persuasive Technology: Using Computers to Change What We Think and Do. Interactive Technologies / B. J. Fogg. Stanford: Morgan Kaufman, 2002, p.283
8. *Jacobs R., Shapiro R.Y.* Politicians Don't Pander: Political Manipulation and the Loss of Democratic Responsiveness: [Electronic resource] / Presidential Studies Quarterly, Vol. 31, No 4, December 2001, 742-743 pp. /

URL:https://www.researchgate.net/publication/37693614_Politicians_Don't_Pander_Political_Manipulation_and_the_Loss_of_Democratic_Responsiveness

9. *Paletz D. L., Lipinski D.* Political Culture and Political Communication / Working Paper No 92, Barcelona, 1994, p.17
10. *Phillips D.W.* Public opinion / Encyclopedia Britannica, Nov. 13, 2020 / URL: https://www.britannica.com/topic/public-opinion/Components-of-public-opinion-attitudes-and-values (last review 27/05/2021)

Redaksiyaya daxil olub 01.07.2021

*UOT 94 (479.24)*

***M.C.Hacıyeva***
*Sumqayıt Dövlət Universiteti*
*umid-hacizade@mail.ru*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA İMPERATOR TEXNİKİ CƏMİYYƏTİNİN BAKI BÖLMƏSİNİN NƏZDİNDƏ YARADILMIŞ TEXNİKİ KURSLARIN TƏŞKİLİ VƏ FƏALİYYƏTİ

***Açar sözlər:*** *Bakı bölməsi, təhsil, texniki kurslar, peşə təhsili, fəhlələr, dinləyici-usta, ianə*

Rusiya İmperator Texniki Cəmiyyətinin iri sənaye şəhərlərində bölmələri olsa da, Bakıda XIX əsrin sonlarında yaradılmışdır. Bakı Bölməsinin bir çox fəaliyyət sahələri olmuşdur ki, məqalədə də bu bölmənin nəzdində yaradılmış texniki kursların təşkili və fəaliyyətindən bəhs olunur. Qeyd olunur ki, Bakı şəhərinin sənaye baxımından inkişafı yerli mütəxəssislərə geniş tələbat yaratmışdır. Bakı neft sahibkarları və iş adamlarının bölməyə verdikləri könüllü ianələr hesabına təşkil edilən kurslar usta və fəhlələrin müxtəlif peşələrə yiyələnmək sahəsində istək və arzularının təmin olunması məqsədinə xidmət edirdi. Məqalədə həmçinin kursların yaranmasından sonrakı keçən dövr ərzində müxtəlif tədris illərində tələbələrin sayı, kursların maliyyə durumu, edilən ianələr, xərclənən vəsait, müəllimlərin əmək haqları və s. haqqında çoxlu statistik məlumat və mənbələrə müraciət olunur, müqayisə və təhlillər aparılır.

***М.Дж.Гаджиева***

# ОРГАНИЗАЦИЯ И ДЕЯТЕЛЬНОСТЬ ТЕХНИЧЕСКИХ КУРСОВ, СОЗДАННЫХ В НАЧАЛЕ XX ВЕКА ПРИ БАКИНСКОМ ОТДЕЛЕНИИ РОССИЙСКОГО ИМПЕРАТОРСКОГО ТЕХНИЧЕСКОГО ОБЩЕСТВА

***Ключевые слова:*** бакинское отделение, образование, технические курсы, профессиональное образование, рабочие, слушатель-мастер, пожертвование

Хотя Российское Императорское Техническое Общество уже имело отделения в крупных городах, в Баку оно было создано в конце XIX века. Бакинское отделение имело много сфер деятельности, в статье также говорится об организации и деятельности технических курсов, созданных при этом отделении. Отмечается, что промышленное развитие города Баку создало широкий спрос на местных специалистов. Курсы, организованные бакинскими нефтяными предпринимателями и бизнесменами за счёт добровольных пожертвований, служили целям обеспечения стремлений и желаний мастеров и рабочих в овладении различными профессиями. В статье также указывается количество студентов в различных учебных годах за прошедший период после создания курсов, их финансовое состояние, сделанные пожертвования, потраченные средства, заработная плата преподавателей и т.д.,

которые ссылаются на многие статистические данные и источники, проводятся сравнения и анализ.

**M.C.Hajiyeva**

## ORGANIZATION AND ACTIVITY OF TECHNICAL COURSES CREATED UNDER THE BAKU BRANCH OF THE RUSSIAN IMPERİAL TECHNICAL SOCIETY IN THE EARLY 20th CENTURY

***Keywords:*** *Baku Department, education, technical courses, vocational education, labours, listener-master, donation*

The Baku branch of the Russian Imperial Technical Society was established in Baku in the late 19th century, whereas it was founded in major industrial cities from earlier times. There were numerous fields of activity of the Baku Branch, and the article also discusses the organization and operation of technical courses established under this branch. It is noted that the industrial development of Baku created a wider demand for local specialists. The courses, arranged at the expense of voluntary donations to the department made by Baku oil entrepreneurs and businessmen, served to satisfy the desires and aspirations of masters and labours in various professions. The article also appeals, compares and analyzes data on the number of students in different academic years within the period starting after the establishment of the courses, based on a lot of statistical data and sources, as well the financial status of the courses, donations, expenses, teachers' salaries, etc.

1879-cu il mart ayının 24-də yaradılmış Rusiya İmperator Texniki Cəmiyyətinin Bakı Bölməsinin Bakı şəhərində əhalinin müxtəlif təbəqələri arasında, xüsusilə, neft mədənlərində və zavodlarda çalışan fəhlələr arasında texniki biliklərın yayılması sahəsində gördüyü işlər diqqətəlayiq olaraq xüsusi qeyd edilməlidir. Qeyd edək ki, bu məsələlər indiyədək tarixi tədqiqatlarda və ədəbiyyatlarda ya ümumiyyətlə diqqətdən kənarda qalmış, ya da "məsələ ilə bağlı bəzi kiçik həcmli məqalələrdə çox cüzi rəqəmlərə və fikirlərə rast gəlmək olar" [1, v.126].

Ümumiyyətlə, bu texniki cəmiyyətin təşkilində, həm də onun fəaliyyətinin rəngarəng və səmərəli olmasında iri sənaye dairələrinin nüfuzlu nümayəndələrindən L.Nobel, N.Putilov, Struve qardaşları, T.Morozov, D.Şipov və digərlərinin təsiri  və rolu ayrıca qeyd olunmalıdır. Çünki "cəmiyyətin mövcud olduğu illərdə bütün kəşf və yeniliklərin həyata keçirilməsində iri kapitalın nümayəndələrinin dəstəyi olduqca vacib idi" [2, s.7]. Cəmiyyətin fəaliyyətinin müxtəlif illərində "dünyada tanınmış müxtəlif elm sahələrini təmsil edən A.Krılov, D.Mendeleyev, N.Tolstoy, M.Rıkaçev, D.Çernov, P.Yabloçkov və bir çox başqalarının onunla əməkdaşlıq etməsi" [2, s.7] əldə edilmiş nailiyyətlərin tez bir vaxtda istehsalata yol tapmasında, bununla da həmin alimlərin və texniki işçilərin növbəti uğurlarında az

rol oynamamışdır.

Kursların fəaliyyətinə kənar rəylərin alınması və münasibətin təhlili xüsusi maraq doğururdu. Bu sahədə ilk işlərdən biri kursların dinləyicilərinin təhsil aldıqdan sonra öz iş yerlərində necə çalışmaları, ən əsası isə müəssisəsinin rəhbərliyi və məsul şəxsləri tərəfindən bu cəhətə münasibətin çox vaxt rəsmi şəkildə bildirilməsi idi.

Bakı Bölməsinin "Texniki kurslarının fəaliyyətinin və onların nəticələri haqqında ən geniş və əhəmiyyətli faktlar 1911/1912-ci tədris ilinə aid tərtib edilmiş hesabatlarda verilmişdir" [5, s.4-30]. Bölmənin hesabatlarında əvvəlki illərlə müqayisədə diqqətçəkən yeniliklər və cəhətlər çox olmuşdur. Texniki fəhlə kurslarının işindəki yeniliklərdən biri daxili yanma mühərriklərinin işi və təmiri ilə əlaqədar ustaların hazırlanması üçün yeni bir illik sinfin açılması idi. Hesabatda göstərilirdi ki, qazla, benzinlə və başqa neft məhsulları ilə işləyən mühərriklərin daha çox işlədilməsi ilə əlaqədar buxarla işləyən mühərriklər tədricən aradan çıxmaqdadır. Bununla əlaqədar yeni mühərrik növləri və qurğularının istehsalatda get-gedə daha çox tətbiq edilməsi nəticəsində belə qurğulara texniki xidmət göstərən işçilərin və ustaların hazırlanmasına tələb artmışdır. Bu tələbatdan bəhs edən fikirlər hətta yerlərdən bölmə və kurs rəhbərlərinin ünvanına daxil olmuş məktub və müraciətlərdə də tez-tez səslənirdi. Məhz bu ehtiyacı əsas tutan "bölmə rəhbərliyi 1911-ci ilin oktyabrın 1-dən yeni açılmış sinifdə tədris prosesinin bu istiqamətdə təşkili haqqında çox vacib qərar qəbul etmişdi" [5, s.4].

Elə bu tədris ilində "yeni sinfə 41 nəfər ustanın qəbul edilməsi ilə kurslardakı dinləyicilərin sayı 168-ə çatmışdı" [5, s.30]. Burada 168 dinləyicinin 122-nin rus, 27-nin erməni, 5-nin gürcü, 6-sının polyak, 3-nün alman, 3-nün yəhudi, 1-nin dağlı və 1-nin osetin olması, onların yaş hədlərinin 17-55 yaş arasında dəyişməsi haqqında da məlumatlar verilmişdir. Göründüyü kimi, bu dinləyicilər arasında bir nəfər olsa belə azərbaycanlı olmamışdır. Burada yəqin ki, elə bir tutarlı səbəb və izahata ehtiyac yoxdur. Lakin növbəti tədris illərindən başlayaraq yeni siniflərdə tək-tək azərbaycanlı usta-dinləyicilərə rast gəlinirdi. Eyni zamanda digər siniflərin dinləyici ustaları arasında tatar müsəlmanlar az deyildi.

Dinləyicilərin peşələri haqqında da dəqiq məlumatlar verilməsi diqqəti ilk olaraq cəlb edən hallardan biri idi. Ustaların 168-i arasında 52 çilingər, 28 tokar, 7 elektrik, 7 maşinist, 3 mexanik, 3 qazma ustası, 4 dəmirçi, 3 elektrik stansiyası xidmətçisinin və digər peşələrdən olan şəxslərin olması isə onların peşə mənsubiyyəti, sonra da təhsil alacaqları istiqamətin çalışdıqları peşələrlə nə qədər uyğun olması barədə müqayisələr aparmağa və müəyyən fikirlər söyləməyə imkan verir.

Kurslarda yeni tədris ilinin yeniliklərindən biri də burada ilk dəfə buraxılış imtahanlarının təşkili və bu sınaqlardan keçənlərə xüsusi vəsiqələrin verilməsi idi.

Yeri gəlmişkən bir faktı da qeyd etmək yerinə düşərdi ki, bölmənin texniki kurslarının dinləyicilərinin və müəllimlərin istifadəsi üçün tədris və dərs vəsaiti,

ixtisas kitablarının alınması, hətta onların sifarişlə xarici ölkələrdən gətirilməsi artıq hər il baş verən ənənəyə çevrilsə də, 1909-cu ilə qədər bu yazı və kitablar qorunub saxlanılmış, lakin xüsusi bir kitabxanaya çevrilməmişdi. Yalnız 1909-cu ilin mayın 1-də ilk dəfə bölmənin kurslarının nəzdində "Qazma işləri sahibkarlarının sindikatı" tərəfindən alınıb bölməyə bağışlanmış kitablar üçün Şimali Azərbaycanın mədəni həyatında daha bir yeniliyə imza atılmış oldu. Kitabxanaya son 6 ildə bölmənin kurslarının rəhbəri olmuş M.Branovskinin şərəfinə onun adı verilmişdi. Elə həmin ildə "kitabxana avadanlıqlarının alınmasına 400 rubl, kitabların alınıb gətirilməsinə isə 275 rubl xərclənmişdir" [5, s.6].

Qeyd etməliyik ki, indiyədək mövcud olan və bütün nəzərdən keçirdiyimiz biblioqrafik ədəbiyyatların və yazıların heç birində bu kitabxananın nəinki adı çəkilməmiş, heç onun varlığından xəbər də tutulmamışdır. Hesab edirik ki, bu adi bir hadisə olmayıb, onsuz da əhalinin böyük bir hissəsinin savadsızlığı, adi mütaliə imkanlarından məhrum olan yüzlərlə, minlərlə insanların, nəinki ixtisas, həmçinin adi məsələlər haqqında cüzi məlumat almaq imkanlarının yoxluğu şəraitində mühüm mədəni hadisə idi. Çox yaxşı olardı ki, biblioqraflar və digər tədqiqatçılar bu kitabxananın varlığı və burada vaxtı ilə saxlanan kitablar, ümumiyyətlə, onun sonrakı taleyi haqqında məlumatlar toplasınlar.

Texniki fəhlə kurslarında o dövrün ən tanınmış mühəndis, texniki işçiləri və digər mütəxəssislər dərs deyirdilər. Hər dərs saatı 2-6 rublla qiymətləndirilirdi. Bu, o dövr üçün kifayət qədər yüksək rəqəm idi və müəllim-pedaqoqların əməyinin bölmə rəhbərliyi tərəfindən yetərincə dəyərləndirildiyindən xəbər verirdi. Kurslarda dərs deyən müəllimlərin sırasında kifayət qədər istehsalat təcrübəsi olan, imperiyanın hüdudları və ondan kənarda da tanınan elektrik mühəndisi V.Kayankovski, fizik L.Qrişpun, maşın çertyoju mühəndisi N.Petrov, geometriya rəsmxəti üzrə mühəndisi L.Brjastovski, hesab və cəbr üzrə K.Karcenki və bir çox başqalarının adlarına rast gəlmək olardı. "Sonuncu həm də texniki fəhlə kurslarının növbəti bir neçə il ərzində direktoru vəzifəsində çalışmışdı" [5, s.7].

Bəhs etdiyimiz tədris ilindən başlayaraq əvvəllər tədris olunan fənlər sırasına geometriya, elektrotexnika, mexanika və digər fənlərin əlavə edilməsi texniki kursların fəaliyyətindəki yeniliklərdən biri idi və dinləyici-ustaların müxtəlif peşələrə yiyələnmək sahəsində istək və arzularının təmin olunması məqsədinə xidmət edirdi.

Kurslarda təhsil alan dinləyicilərin müxtəlif peşələrdən olması ilə bərabər onların daha çox təmsil etdiyi bir neçə sahəni qeyd etmək istərdik. Dinləyicilər arasında çoxluq baxımından ilk yerlərdə cəmi 15 peşə sahəsindən olan insanlar idi. O cümlədən 52 çilingər, 28 tokar, hər biri 7 nəfər olmaqla maşinist və elektrik, hər biri beş nəfər olmaqla xarrat və rəngsazlar, habelə digər peşə sahibləri bu siyahının ön sıralarında idilər. Cəmi 1 fəhlə və ya ustanın təmsil etdiyi peşələr siyahıda çoxluq təşkil edirdilər. Ümumiyyətlə, "bəhs olunan ildə bölmənin texniki fəhlə kurslarında 35 peşədən olan şəxslərin təmsil olunması məlum idi" [5, s.10-12].

Hesabatlardan aydın olur ki, kursların dinləyicilərini göndərən firma və cəmiyyətlərin sayında mühüm dəyişikliklər baş vermiş, bu rəqəm 1904/1905-ci ildəki 42-dən indi (yəni 1911-1912-ci tədris ilində - M.H) 73-ə çatmışdı. Cənubi Qafqaz dəmiryolu deposu 8 dinləyici ilə bu siyahıda ilk yerdə dayanırdısa, 37 zavod və cəmiyyətin hər birindən yalnız bir təmsilçi kurslarda təhsil alırdı. Qafqaz və Merkuri cəmiyyəti kurslarda cəmi 7, hərbi liman, Nobel qardaşları, Kaspi və Bakı maşınqayırma zavodlarının hər biri 5, Elektriçeskaya sila cəmiyyəti 6, Bibiheybət neft şirkəti və Bakı gəmi tərsanəsi hər biri 4 usta və ya işçi ilə təmsil edilmişdi [5, s.13-17].

Bu siyahıda yeniliklərdən biri kurslarda təhsil alanlardan 16-sının əvvəllər heç bir yerdə işləməməsi, onların peşə və ya iş təcrübəsinin olmadığının göstərilməsi idi.

Bəhs edilən ildə bölmənin kurslarının fəaliyyətinə kömək məqsədi ilə edilmiş könüllü bağışlamalar olsa da, lakin əvvəlki illərlə müqayisədə bu çox az idi. Əgər "1904/1905-ci illərdə kurslara 39 cəmiyyət və sahibkar tərəfindən 3095 rubl bağışlanmışdısa, 6 ildən sonra bu rəqəmlər müvafiq olaraq 9 və 550 rubl təşkil edirdi" [5, s.17-20].

İlk göstərici sözsüz ki, ən müxtəlif səbəblərlə izah oluna bilər. Lakin bunların hər birinin üzərində geniş dayanmağa lüzum görməyərək siyahı iştirakçılarının bəzilərinin adlarını qeyd etməklə kifayətlənirik.

Könüllü bağışlamaların ən yüksək həddi dəyişməz, yəni 150 rubl məbləğində qalmış, ən aşağı hədd isə 25 rubl idi. Tək bir cəmiyyətin – Nobel qardaşlarının ödədiyi yardım 150 rubl idi. "Siyahıda milli burjuaziyamızın nümayəndələri M.Əlibəyov ikinci yerdə, M.Nağıyev isə üçüncü yerdə dayanırdı" [5, s.17].

Edilən könüllü bağışlamanın məbləği o qədər də yüksək olmayan 550 rubl təşkil edirdisə də, amma bu fakt özlüyündə bölmənin kurslarının fəaliyyətindəki əvvəlki illərin müsbət ənənələrinin qaldığını göstərən hallardan biri kimi dəyərləndirilməlidir.

Başlıca fərqli bir cəhət isə Azərbaycan burjuaziyasının çoxmillətli tərkibində erməni millətindən olanların heç birinin adına bu siyahılarda rast gəlinməməsi idi.

Bir məsələni də xüsusi vurğulamaq istərdik ki, bölmənin texniki fəhlə kurslarının təmsil etdikləri firma, fabrik və zavodların adlarının mühüm bir hissəsi heç bir ədəbiyyatda verilməmişdir. Onların o dövrdə varlığı və sahiblərinin milli tərkibi haqqında məlumatlara RİTC Bakı Bölməsinin bəhs etdiyimiz hesabatlarında və illik "Əsərlər" adlı jurnallarının müxtəlif saylarında rast gəlinir. Bu fakt bəlkə də ilk baxımdan kimlər üçünsə o qədər əhəmiyyətli görünməsə də, amma fakt faktlığında qalır və tarixi tədqiqat o vaxt əhəmiyyətli olur ki, tədqiqatçı heç bir müəllifin görmədiyi faktları, rəqəmləri və ayrı-ayrı məlumatları tapıb elmi dövriyyəyə daxil etmiş olsun.

Bölmənin texniki fəhlə kurslarının 9 illik fəaliyyətinin yekunları ilə bağlı bəzi rəqəmləri və məqamları nəzərdən keçirərkən apardığımız təhlil və

müqayisələrimizi 9 illik hesabatların 5 bölməsi üzrə aparmağı (hesabatın materialları buna imkan verdiyinə görə) məqsədə uyğun bildik. Təhlil və müqayisələrimiz kursların fəaliyyəti ilə bəzi gözlənilməz, lakin çox vaxt qanunauyğun hesab edilən nəticələrə rast gəldiyimizi göstərdi.

Bu nəticələr dinləyicilərin tədris ili ərzində vəziyyəti, dinləyicilərin ixtisaslar üzrə təhsil almaları, onların milli və dini etiqad baxımından kateqoriyaları, yaş həddi və mədaxil-məxaric vəsaitlərini müəyyən edir, onların hər biri də özlüyündə bir neçə prinsip və göstəricilər baxımından nəzərdən keçirilərək, bütövlükdə kursların fəaliyyəti, təşkili qaydaları, görülmüş işlərin konkret nəticələri və s. parametrlər baxımından təhlillər aparıb müəyyən qənaətlər söyləməyimizə kömək edir.

Kurslardakı dinləyicilərin hərəkəti və davamiyyəti cədvəllərinə müraciət edərək apardığımız təhlillərdən aydın olur ki, "9 illik dövrdə kurslara qəbul üçün ən az müraciət (cəmi 95) 1903/1904-cü, ən çox müraciət isə (181) 1907/1908-ci tədris illərində müşahidə edilmişdi" [183, s.30]. Qalan tədris illərində bu rəqəmlərin gedişində baş vermiş dəyişikliklər o qədər də kəskin deyildi. 9 ilin son üç ilindəki rəqəmlər bir-birinə müəyyən qədər yaxın olması ilə (müvafiq olaraq 142, 165, 168) yadda qalır. Kurslara dinləyici olmaq üçün müraciət edilməsi hələ onları kurslara avtomatik qəbulu demək deyildi. Çünki bir qayda olaraq dinləyicilərlə müəyyən müsahibə keçirildikdən sonra onların kurslarda qalıb-qalmaması məsələsinə münasibət bildirilirdi. Burada sözsüz ki, müraciət edən şəxslərin məqsədləri, praktik iş bacarıqları, seçdikləri sahə haqqında məlumat və bilik səviyyələri, habelə rus dili bilmək qabiliyyətlərinə üstünlük verilirdi.

Hesabatlarda kursların dinləyiciləri arasında ilk tədris ilində müsəlman-azərbaycanlıların olmaması, sonrakı illərdə isə azlıq təşkil etməsinin ən əsas səbəbi məhz dərsləri rus dilində dinləmək və cavab vermək problemi ilə əlaqədar idi. Göstərilən "9 il ərzində kurslara edilmiş 1106 müraciətdən 165-nə göstərdiyimiz səbəblərlə bağlı imtina cavabı verildiyini" [5, s.26] nəzərə alaraq onda müsəlman-azərbaycanlıların kurslarda azlığı səbəblərinə aydınlıq gətirmiş oluruq.

Müraciətlərə ən çox imtina cavabı verilməsi (102-dən 32-nə) 1906/1907-ci, ən az isə (142-dən 4-nə) 1909/1910-cu tədris illərinə təsadüf edir. 1911/1912-ci tədris ilində isə 168 müraciətin hər birinə müsbət cavab verilmiş, yəni imtina faktlarına rast gəlinməmişdir. Qəbul edilənlərin lazımi əyani vəsait, zəruri olan kitab və dərsliklərdən istifadə probleminin tam həlli üçün kursda normal fəaliyyət şəraiti yaradılmışdı.

Edilmiş müraciətlərin vaxtı və sayından asılı olmayaraq dinləyicilərin kurslarda ən az olduğu (64 nəfər) 1903/1904-cü, ən çox isə (168 nəfər) 1911/1912-ci tədris illəri olmuşdur. Göründüyü kimi, müraciətlərin sayının çox və az olması kursda təhsil almaq imkanı verilənlərinin sayının çox olmasına səbəb ola bilməzdi. Bu baxımdan biz yenə də 181 müraciətin edildiyi, lakin bunların 160-na təhsil almağa razılıq verilməsinin qeydə alındığı 1907/1908-ci tədris ilini göstərə bilərik.

Lakin bu göstəricilər də kurslarda aparılan dərslərin keyfiyyət və nəticələrinə təsir göstərə biləcək meyar və ya şərtlər deyildi. Belə ki, hesabatlardakı rəqəmlərdən göründüyü kimi, dinləyicilərin hər il fərqli bir hissəsi müxtəlif səbəblər üzündən təhsillərini yarımçıq qoyub getmişdilər. Müxtəlif tədris illərində bu rəqəmlər çox fərqli olmuşdur.

Bölmənin texniki fəhlə kurslarının 9 illik fəaliyyəti ilə bağlı ümumiləşdirmələri əsas götürərək qeyd edə bilərik ki, bu müddətdə kurslara 1106 dinləyici müraciət etmiş və ya göndərilmiş, bunlardan 911-i qəbul olmuş, 165-nə imtina cavabı verilmiş, bunlardan 471-i təhsili yarımçıq qoymuş, tədris ili ərzində 120 yeni dinləyici kurslardakı məşğələlərə qoşulmuş, dərs ilinin sonunda dinləyicilərin sayı 590 olmuşdu.

Bu müddətdə "53 müxtəlif peşə üzrə 1106 nəfərin təhsil alması qeydə alınmışdır" [5, s.26-28]. Tədqiq edilən illərdə kurslarda ən çox dinləyicinin qeydə alındığı illər 1906/1907-ci (181), 1907/1908-ci (141), 1908/1909-cu (142), 1909/1910-cu (165) və sonuncu 1911/1912-ci tədris illərinə (168) təsadüf etmişdi (hesablama və müqayisələr müəllifindir).

Tədqiqatın bu hissəsində məqalənin ədəbiyyat siyahısında göstərilmiş 3-cü və 4-cü mənbələrdə verilmiş müxtəlif hesabatlar, cədvəllər, rəqəmlər və digər statistik materiallar əsasında müəyyən etdiyimiz təhlillərin nəticələri, apardığımız müqayisələri, ümümiləşdirici rəqəmləri və bəzi mülahizələrimizi də bildirmək istərdik.

Çünki bu materiallar və onlarla bağlı detalların təhlili bizə tamamilə yeni olan qənaətlər əldə etməyə imkan vermişdir. Belə ki, dinləyici-usta və nümayəndələrin hazırlandığı barədə təhlillər apardığımız 1911/1912-ci tədris ilinin əvvəlinə qədər hər sahə və il üzrə müəyyən fərqlərlə davam etdirilmişdisə, qalan 10 peşə üzrə dinləyici və ya fəhlələrin kurslara qəbulu təhlillər apardığımız son tədris ilinin payına düşürdü.

Təhlillərin aid olduğu müddətdə kurslarda təhsil almış peşə sahibləri içərisində 433 çilingər, 139 tokar, 35 dülgər, 25 qazançı, 19 elektrik ustası qeydə alınmışdı. Digər peşələrin sahibləri fərqli rəqəmlərlə siyahıda təmsil olunmuşdur. Bundan fərqli olaraq bu müddətdə bəzi peşələri təmsil edən ustalar, o cümlədən litoqrafçı, neft qazmaçısı, kanat ustası, dəmir beton qurğuları ustası, ocaqçı, dəyirmançı və daha bir neçə peşə sahibləri, kurslarda 1-2 usta və ya işçi ilə təmsil edilmişdilər.

Kursların 1106 dinləyicisi arasında ən çox rus (717), ən az isə müsəlman azərbaycanlılar (4) idi. Dinləyicilər arasında rus millətindən olanların ardınca sonrakı yerlərdə gürcü, erməni və ya yəhudi millətlərindən olanlar gəlirdilər.

Hesabatlarda xüsusi maraq doğuran mühüm cəhət bölmənin maliyyə fəaliyyətinin yekunlarına həsr olunan beşinci bölmə olmuşdur. 9 il ərzində kursların büdcəsi 2596 rubl təhsil haqqından, 13710 rublu könüllü bağışlamalardan, 102 rublu isə digər gəlirlərdən ibarət olmaqla, bundan əlavə

kredit təşkilatlarından alınmış 4022 rubl da daxil olmaqla cəmi 20454 rubl olmuşdu. Kursların büdcəsindəki maliyyə vəsaitinin yüksək həddi 1907/1908-ci (2818 rubl), 1908/1909-cu, ən az isə 1911/1912-ci tədris illərinə (1156 rubl) təsadüf etmişdir.

Toplanılmış vəsaitin xərclənməsi istiqamətləri də xüsusi maraq doğurur. 20454 rubldan bu müddətdə 1373 rubl müxtəlif əşya və avadanlıqların alınmasına, 994 rublu bina və otaqların işıqlandırılmasına, 1782 rublu müxtəlif xərclərə, 14205 rublu isə bəlkə də inandırıcı görünməsə də, müəllimlərin əmək haqqının ödənilməsinə sərf edilmişdi. Sonuncu rəqəmin xüsusi olaraq vurğulanması təsadüfü deyil. 9 il müddətində 20454 rublluq vəsaitin 14265 rublunun, yaxud ümumi vəsaitin təxminən 68 faizə yaxının müxtəlif tədris illərində sayı 10-u keçməyən müəllimlərin əmək haqlarının ödənilməsinə sərf edilməsi sıradan adi bir fakt demək deyildi. Buna görə də kursların dinləyicilərinin anket sorğularında müəllimlərin ünvanına heç bir iradın söylənilməməsinin səbəbləri məlum olur. Digər tərəfdən bu fakt bölmə rəhbərliyinin kurslarda çalışan müəllimlərə və onların əməklərinə necə diqqət və hörmətlə yanaşmalarının təzahürü də demək idi.

Vəsaitin xərclənməsi baxımından 1907/1908-ci (3247 rubl) və 1909/1910-cu (3294 rubl) tədris illəri digərlərindən fərqli idi. Ən az vəsaitin sərf olunduğu tədris ili (1941 rubl) 1903/1904-cü illər idi. 1908/1909-cu və 1909/1910-cu tədris illəri müəllimlərin daha çox əmək haqqı almaları ilə yadda qalmışdı (müvafiq olaraq 2224 rubl və 2552 rubl). 1903/1904-cü tədris ili bu baxımdan ən sonda gedən tədris ili idi (hesablama və müqayisələr müəllifindir).

Bakı kimi böyük sənaye və neft şəhərində mühəndis, texnik, usta və ixtisaslı fəhlələrin hazırlığının təşkili təcili tələb edilirdi. Buna görə də "bölmənin tərkibində ən azı iki istiqamətdə zəruri mütəxəssislərin olduğu kursların açılması sürətlənmişdi" [6, s.188].

Bakı Bölməsinin mövcud olduğu müddət ərzində onun tərkibində fəaliyyət göstərən texniki fəhlə kursları adı ilə daha çox tanınan təhsil sisteminin bir neçə mənbə və hesabatlar əsasında tam təhlili və əhatə edilməsi tam mümkün olmasa da, gördüyümüz və araşdırdığımız faktlar bizə müəyyən qənaətlər əldə etməyə və ümumiləşdirici fikirlər söyləməyimizə imkan vermişdir.

Tədqiqat dövründə əhalinin imkanlı, imkansız dairələrinin nümayəndələrini əhatə edən müxtəlif tipli məktəblər mövcud olmuşdur və onların xidmətləri danılmazdır. Lakin belə məktəblərin əhatə dairəsi və azlığı, digər tərəfdən şagirdlərin azyaşlı olmaları, ali və orta ixtisas təhsilindən isə heç bir söhbət belə getməməsi təhsildəki mövcud vəziyyəti görməyə və başa düşməyə yardım edir. Texniki peşə sahəsində yaşından asılı olmayaraq sadə biliklər verən məktəblərdən isə heç söhbət belə gedə bilməzdi.

Bölmənin texniki fəhlə kurslarında görülmüş işlərin təhlili həm də praktik baxımdan əhəmiyyətlidir. Hal-hazırda Azərbaycan Respublikasında iqtisadi inkişafın prioritet istiqamətlərinədən biri qeyri-neft sektorunun sürətli inkişafını

təmin etmək, neft gəlirlərindən asılılığa son qoymaqdır. Bunun üçün də son 25 ildə xüsusilə regionlarda sənaye və aqrar sahələri əhatə edən çoxlu fabrik, zavod və müəssisələr açılmışdır. Lakin bu sahədə də mövcud imkan və iqtisadi potensialımızın çox az hissəsindən istifadə olunur. Yeni açılmış və açılacaq iş yerlərində çalışmaq üçün müəyyən bacarıqları və iş vərdişləri olan işçilərin azlığı bu gün də özünü hiss etdirir. Bu mənada texniki peşə təhsili sistemində ciddi islahatlara böyük ehtiyac duyulur.

Hər bir halda Bakı Bölməsi kurslarının iş təcrübəsinin müəyyən cəhətlərinin belə islahatların məzmunu və keçirilməsində nəzərə alınması işin xeyrinə olardı.

Texniki peşə məktəblərində tədris prosesinin keyfiyyətinin yaxşılaşdırılması məqsədi ilə eksperiment və ya pilot xarakterli olsa da, tədris prosesində birbaşa praktik təcrübəyə ayrılmış saatların artırılmasına, hətta bu hissənin nəzəri hissədən də çox olmasına nail olmaq lazımdır.

Regionlarda, minlərlə işçilərin bir və ya bir neçə müəssisədə işlədiyi yerlərdə onların tərkibində texniki peşə məktəbləri və ya kursların açılmasına başlanılması üçün əlaqədar qurumlarla işgüzar əlaqələr yaradılması sonda işin xeyrinə olardı.

Texniki peşə məktəblərində şagirdlərin qəbulu və buraxılışı məsələləri də tam dəyişilməli, tədris prosesi keyfiyyətcə yenidən qurulmalıdır. Ən azı dərs deyən müəllimlərin çox hissəsinin keçilən fənlərə aid iş sahələrində praktik təcrübəyə malik olan şəxslər sırasından seçilməsinə nail olunması nəticələri xeyli yüksəltmiş olardı.

Bəhs edilən fikir və mülahizələr Bakı Bölməsinin kurslarının fəaliyyəti sahəsində təcrübəsi və texniki peşə təhsili sisteminə daxil olan məktəblərin və əksəriyyətinin indiki mövcud vəziyyəti əsasında apardığımız müqayisələrdən və təhlillərdən sonra gəldiyimiz qənaətlərin bir hissəsidir. Sözsüz ki, belə qənaətlər daha da çox ola bilər. Yetər ki, onlar işdə, təcrübədə nəzərə alına və yerlərdə iş prosesinə, onun keyfiyyətinə səmərəli təsir göstərə bilsin.

Bakı Bölməsinin fəhlələr üçün açdığı texniki kursların səmərəli fəaliyyətinin nəticələrindən bəhs edərkən qeyd etməliyik ki, əslində bu kursların açılması bölmə əməkdaşlarının yerlərdə – neft mədənlərində, maşınqayırma zavodları və digər müəssisələrdə apardığı müşahidə və təcrübələrin gedişində gördükləri vəziyyətlə bağlı neft sahibkarları və fabrik, zavod rəhbərləri ilə danışıqlarda onları bu kursların son dərəcə vacibliyinə inandıra bilmələri nəticəsində baş tutmuşdu.

Sonda qeyd edək ki, bu kursların fəaliyyətində heç də hər şey qaydasında olmamışdır. Kursların maddi-texniki bazasının zəifliyi, maliyyə problemləri, müsəlman-türk fəhlə və digər işçilərin kursların dinləyiciləri arasında demək olar ki, olmaması da diqqətdən yayınmayan hallar idi.

## ƏDƏBİYYAT


1. Из истории создания культурно-просветительных учреждений в Азербайджане в конце XIX – начале XX вв. / AMEA Tarix İnstitutunun Elmi arxivi, İnventar № 6779, qutu №239, iş № 239, vərəq 126
2. *Кульчицский В.В.* 150-летний юбилей Русского Технического Общества. // Инженер-нефтяник: научно-технический журнал, Москва, 2016, №2, с.3-9
3. Общественные известия // Нефтяное дело, Баку, 1904, №11, с.934-937
4. *Оджагова К.Р.* Городское самоуправление Баку в конце XIX – начале XX вв. Баку: Нурлан, 2003, 135 с.
5. Отчет о деятельности технических курсов при Бакинском отделении Императорского Русского Технического О-ва за 1911/1912 учебный год. Издание БО ИРТО / Сост. К.Ярченко. Баку: Тип. Труд С.Г.Берладира, 1912, 40 с.
6. *Хатисов К.И.* О желательности создания при БО ИРТО Технических курсов для рабочих // Труды БО ИРТО, Баку, 1901, № 2-9, с.187-191


Redaksiyaya daxil olub 12.10.2021

*UOT 342.7*

***S.A.Kərimova***
*Bakı Dövlət Universiteti*
*sevda.aydin.k@gmail.com*

# YENİ İCTİMAİ MÜNASİBƏTLƏR SİSTEMİNDƏ UŞAQ HÜQUQLARI

***Açar sözlər:*** *uşaq hüquqları, insan haqları, uşaq ombudsmanı, tədris problemləri, bioetik dəyərlər*

Hər bir cəmiyyətdə demokratiya və insan hüquqlarının qorunmasının səviyyəsi uşaqlara, qadınlara və dustaqlara münasibətlə ölçülür. Bu mənada uşaq hüquqlarının pedaqoji kadr hazırlayan ali məktəblərdə tədrisi ciddi strateji, hüquqi və siyasi məsələdir. Uşaq hüquqlarının tədrisi uşaq hüquqlarının qorunmasının əsas amili kimi çıxış edir. Müasir dövrün önəmli problemlərindən biri uşaqlarla işləyən müəllimlərin uşaq hüquqları ilə bağlı dərin biliyə malik olmamasıdır. Müəllimlərin uşaq hüquqları ilə bağlı sistemli hüquqi biliyə malik olması vacibdir.

***С.А.Керимова***

# ПРАВА ДЕТЕЙ В НОВОЙ СИСТЕМЕ ОБЩЕСТВЕННЫХ ОТНОШЕНИЙ

***Ключевые слова:*** *права ребёнка, права человека, детский омбудсман, проблемы преподавания, биоэтические ценности*

В каждом обществе уровень демократии и защиты прав человека измеряется по отношению к детям, женщинам и заключенным. В этом смысле преподавание прав детей в высших учебных заведениях, которые занимаются подготовкой педагогических кадров, является серьезной стратегической, правовой и политической проблемой. Преподавание прав детей является ключевым фактором для защиты прав детей. Одна из наиболее важных проблем современности заключается в том, что учителя, работающие с детьми, не имеют глубоких знаний о правах детей. Преподавателям необходимо иметь систематические юридические знания о правах детей.

***S.A.Karimova***

# CHILDREN'S RIGHTS IN THE NEW SYSTEM OF PUBLIC RELATIONS

***Keywords:*** *child's rights, human rights, child ombudsman, educational problems, bioethical values*

In each society, the level of democracy and protection of human rights is measured in relation to children, women and prisoners. In this sense, the education of children's rights in higher education institutions preparing pedagogical personnel is a serious strategic, legal and political issue. Teaching of children's rights is a key factor in the protection of

children's rights. One of the most important problems of modern time is that teachers working with children do not have a deep knowledge of children's rights. It is necessary for teachers to have systematic legal knowledge about children’s rights.

Respublikamızda uşaqların sosial və hüquqi müdafiəsi ilə bağlı məsələlər Azərbaycan Respublikasının Konstitusiyası, Ailə Məcəlləsi, Əmək Məcəlləsi, “Təhsil Qanunu” və bir sıra digər qanunverici və normativ-hüquqi aktlarla tənzimlənir. Bu sahədə əsas normativ sənəd 1998-ci il mayın 19-da qəbul edilmiş «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunudur (5). Qanun bir sıra beynəlxalq sənədlərə, xüsusilə də «İnsan hüquqları haqqında» Ümumdünya Bəyannaməsinə (1948), Uşaq hüquqları Bəyannaməsinə (1959), BMT-nin Uşaq hüquqları Konvensiyasına (1989), Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsinə (1990) uyğun şəkildə hazırlanmış və uşaqların beynəlxalq səviyyədə təsbit olunmuş əsas hüquq və azadlıqlarını, eləcə də bu hüquqların reallaşdırılması üçün dövlətin vəzifələrini özündə əks etdirir.

Azərbaycan Respublikası 21 iyul 1992-ci il tarixli və 236 №-li qanunla BMT-nin «Uşaq hüquqları haqqında» Konvensiyasını ratifikasiya etmişdir. 1993-cü ildə ölkəmiz «Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi haqqında» 1990-cı il 30 sentyabr tarixli Ümumdünya Bəyannaməsinə qoşulmuşdur. 2000-ci il 6-8 sentyabr tarixlərində BMT-nin Nyu-Yorkda keçirilmiş Minilliyin Sammitində isə Azərbaycan Respublikasının Prezidenti bu konvensiyanın «Uşaqların silahlı münaqişəyə cəlb olunması» və «Uşaq alveri, uşaq fahişəliyi və uşaq pornoqrafiyası» üzrə Fakültativ Protokollarını imzalamışdır. 2004-cü ildə Azərbaycan Beynəlxalq Əmək Təşkilatının «Uşaq əməyinin ən pis formalarının ləğv edilməsi» haqqında 182 saylı Konvensiyasına və eyniadlı 190 saylı Tövsiyəsinə, həmçinin «Beynəlxalq övladlığa götürməyə dair Haaqa Konvensiyası»na qoşulmuşdur (10).

Qanunvericiliyə əsasən, hər bir insan 18 yaşına çatanadək uşaq sayılır, bir şərtlə ki, həmin uşaq barəsində tətbiq edilən qanuna görə o, yetkinlik yaşına daha əvvəl çatmış olmasın (6).

Ən son statistikaya əsasən, 2020-ci ilin əvvəlində Azərbaycan əhalisinin 26,2 faizini, yəni 2636,8 min nəfərini uşaqlar təşkil etmişdir (1). Ölkədə polisin qeydiyyatında 4 minə yaxın uşaq var. İl ərzində 2500-ə yaxın küçə uşağı, 500-ə yaxın cinayət törətmiş uşaq saxlanılır. 13 minə yaxın uşaq internat məktəblərindədir. Azərbaycanda 50 minə yaxın uşaq əlildir. Təxminən 200 minə yaxın uşaq isə qaçqın və məcburi köçkün vəziyyətindədir (12). Zorakılığa məruz qalan uşaqların sayı məlum deyil. Mətbuatda gedən qeyri-rəsmi məlumata görə hər il təqribi 1000 nəfər uşaq məktəbdə və ailədə zorakılıqla üzləşir. Bəzən cəmiyyətdə ciddi əks-səda doğuran faciələrlə üzləşməli oluruq. Uşaqların sağlamlığının

qorunması, onlara səhiyyə xidmətinin yaxşılaşdırılması problemləri aktual olaraq qalır. Uşaq ölümü hallarına təsadüf olunur. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün, onların valideynləri üçün çoxsaylı güzəşt və imtiyazlar nəzərdə tutulsa da, qanunlar qəbul olunsa da, onların reallaşmasında mövcud qanunları bilməməkdən və ya müvafiq qurumların bürokratik münasibətindən müəyyən çətinliklər mövcuddur. Dövlətin müəyyən etdiyi imtiyazlar yerlərdə öz subyektlərinə çatmır.

Azərbaycan Respublikası Prezidentinin 03 may 2019-cu il tarixli Sərəncamı ilə ali təhsil müəssisələrində təhsil alan fəaliyyət imkanları məhdud uşaqların təhsil haqqının dövlət tərəfindən ödənilməsi bu kateqoriyadan olan şəxslərə ciddi maddi və mənəvi dəstəkdir (9).

Bu və digər uşaqların həyat səviyyəsinin yaxşılaşdırılması, hüquqlarının qorunması, mənafelərinin təmin edilməsi və həyatı onlar üçün daha yaşana bilən hala gətirməkdən ötrü dövlətimizin gördüyü işləri ictimaiyyətə daha yaxından təqdim etmək gərəkdir.

Azərbaycan Respublikasında uşaq siyasətinin həyata keçirilməsinə məsul mərkəzi icra hakimiyyəti orqanları – Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) fəaliyyət göstərir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ailə, qadın və uşaq problemləri ilə iş sahəsində dövlət siyasətini və onun tənzimlənməsini həyata keçirən əsas dövlət orqanıdır (11). Mövcud yerli və beynəlxalq qanunvericilik və normativ aktlara uyğun olaraq Azərbaycan Respublikasında uşaqların müdafiəsi və onların rifahının yaxşılaşdırılması, hüquq və azadlıqlarının təmin edilməsi, eləcə də uşaqlarla bağlı dövlət siyasətinin əlaqələndirilməsi vəzifələrini daşıyır.

2006-cı ildə BMT-nin Uşaq Hüquqları Komitəsi Azərbaycanda uşaq hüquqları üzrə Ombudsmanın, yaxud Ombudsman Aparatının nəzdində xüsusi qurumun yaradılmasını tövsiyə edib.

Bütün bunlara baxmayaraq gələcəyimiz olan uşaqların şən, xoşbəxt, gələcəyin ləyaqətli vətəndaşı kimi böyüməsi, azad və müstəqil düşüncəyə sahib olması, öz imkanlarını tam reallaşdırması, sağlam, gümrah və güclü olması üçün çox işlərin görülməsinə ehtiyac var.

Bununla əlaqədar aparılan araşdırmalar göstərir ki, zəif nöqtələrdən biri uşaqlarla birbaşa, sıx təmasda olan müəllimlərin uşaq hüquqları ilə bağlı məlumatının az olması, bu mövzuya laqeyd yanaşması və uşaq hüquqları ilə bağlı bilikləri uşaqlar və valideynlər arasında zəif təbliğ etməsidir.

Uşaqlarla iş üzrə çoxsaylı dövlət və ictimai komissiyalarda təmsil olunan, ekspert və ya nümayəndə kimi istintaq və ya məhkəmə prosesinə cəlb olunan müəllimlərin uşaqların hüquq və mənafeyini həqiqətən qoruması üçün müəyyən biliklərə, təcrübəyə və normativ bazaya malik olması vacibdir. Biz də dünyanın

qabaqcıl ölkələrində geniş tətbiq olunan yuvenal yustisiya (uşaq ədliyyəsi) sisteminin tədricən qurulmasına çalışmalıyıq. Bu isə uşaq hüquqlarının cəmiyyət, pedaqoji heyət, hüquq mühafizə, ədliyyə, məhkəmə orqanları və s. tərəfindən dərindən mənimsənilməsini tələb edir.

Qeyd edilən və edilməyən geniş fəaliyyət sahəsini əhatə etmək üçün əhali və pedaqoji işçilər arasında hüquqi maarifləndirmə və ya məlumatlandırma yetərli ola bilməz. Bunun üçün universitetlərdə, xüsusilə pedaqoji kadr hazırlayan universitetlərdə uşaq hüquqları ilə bağlı sistemli şəkildə tədris təşkil edilməlidir. Gələcək müəllimlər həm özləri bu hüquq sahəsini mükəmməl mənimsəməli, həm də onun məktəblərdə tədrisi metodikasına yiyələnməlidirlər. Bunun üçün orta məktəb və pedaqoji yönümlü tədris müəssisələrinin proqramlarında dəyişiklik aparılmalı, dərsliklər, tədris metodiki vəsaitlər hazırlanmalıdır.

Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 4.4.-cü maddəsində orta ixtisas və **ali təhsil müəssisələrində insan hüquqlarının tədrisinin genişləndirilməsi**, ümumtəhsil məktəblərində uşaq hüquqlarının pilləli tədrisinin inkişaf etdirilməsi nəzərdə tutulmuşdur (2).

Bu bəndə uyğun olaraq 2015-ci ildən etibarən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsman) təşəbbüsü və Təhsil Nazirliyi ilə əməkdaşlıq çərçivəsində bəzi orta ümumtəhsil məktəblərində uşaq hüquqları üzrə pilləli tədris proqramı artıq həyata keçirilir.

Ali təhsil müəssisələrində də insan hüquqlarının, xüsusilə də uşaq hüquqlarının tədrisinin genişləndirilməsinə önəm verilməli, konkret işlər görülməlidir.

**Universitetlərdə uşaq hüquqları niyə tədris olunmalıdır?**

- Demokratik dövlətdə insan hüquqlarının öyrənilməsi və tətbiqi hər bir vətəndaş üçün zəruridir;
- İnsanın şəxsiyyət kimi formalaşmasının ilkin mərhələsi məktəbdir və düzgün yetişdirilmiş fərdlərin ilk tərbiyəçiləri (valideynlərdən sonra) müəllimlər – pedaqoqlardır. Bu səbəbdən də uşaqların tərbiyəsi və təhsili ilə məşğul olacaq pedaqoqlar insan hüquqları, xüsusilə də uşaq hüquqları ilə bağlı kifayət qədər geniş informasiyaya malik olmalıdır;
- Uşaqlar arasında ayrı-seçkiliyin və əsassız davranışın, zorakılıq hallarının azaldılması, onların hüquqlarının qorunmasında beynəlxalq təşkilatların, dövlətin, ailənin, məktəbin, bələdiyyələrin, vətəndaşların vəzifələrini hər bir müəllim bilməlidir;
- Uşaq hüquqlarının müdafiə mexanizmlərini bilmək və onlardan səmərəli istifadə etmək müəllimin borcudur;

- Çalışdığı məktəbdə, bölgədə, rayonda uşaq hüquqları ilə bağlı problemləri bilmək, onların həllinə çalışmaq, uşaqları və valideynləri məlumatlandırmaq müəllimin gənc nəsil yetişdirmək sahəsində fəaliyyətinin vacib hissəsidir;
- Uşaq hüquqlarının qorunması, təhsil və sağlamlıq sahəsində dövlətin beynəlxalq təşkilatlar və dünya ictimaiyyəti qarşısındakı öhdəliklərinin yerinə yetirilməsinə kömək üçün də bunları bilmək zəruridir;
- Təhsil qanunvericiliyi, təhsil strategiyası, uşaq və gənclər haqqında normativ hüquqi aktlar müəllimin bu biliklərə yiyələnməsi üçün əsas verir;
- Müəllimin əldə etdiyi bilik və informasiyalar uşaqların və valideynlərin də maariflənməsini təmin edəcəkdir;
- Cəmiyyətin həssas qruplarına aid olan – müharibənin təsirinə məruz qalan, məcburi köçkün, qaçqın, yoxsul ailələrdən olan, azlıqların təmsilçiləri, əlil, xüsusi müəssisələrdə saxlanılan uşaqlar başqaları üçün mümkün olan əsas hüquq və azadlıqlardan istifadə edə bilmirlər. Bu hüquqları müəllimlər bilməli, qorumalı, müdafiə etməlidir;
- Dünyada genişlənməkdə olan insanmərkəzli humanitar siyasi, iqtisadi, mənəvi, etik və hüquqi dəyər və standartların öyrənilməsi və öyrədilməsi mütərəqqi ictimaiyyətin diqqət mərkəzində olan məsələlərdəndir.

Eyni zamanda universitetlərin nəzdində «Uşaq Hüquqları Klinikası»nın təsis edilməsinə, müəllimlərə, valideynlərə və xüsusilə uşaqlara praktik kömək göstərilməsinə ehtiyac vardır.

Hər bir qanun pozuntusu ilə əlaqədar hüquq mühafizə orqanlarına müraciət etməmək mentalitetinə malik olan insanlarımız çox zaman laqeydliklə, bəzən də yumşaq desək, sərtliklə üzləşəcəklərini düşündüklərindən uşaq hüquqlarının müdafiəsi ilə bağlı üz tutmağa yer tapmırlar.

Fikrimizcə, məsələyə ciddi, müasir səviyyədən yanaşsaq, yaxın gələcəkdə belə bir yer hamı üçün əlçatan olan, valideynlərin və uşaqların inandığı, uşaq hüquqlarının və onların müdafiə mexanizmini yaxşı bilən, hüquq mühafizə orqanları ilə sıx təmasda olmağı bacaran pedaqoqlar ola bilər.

İnsanlar uşaqlıqda zorakılığa və təhqirə məruz qalmasalar, cəmiyyətdə baş verən narkomaniya, cinayətkarlıq, korrupsiya, yalançılıq, talançılıq, ailədaxili münaqişə və s. kimi neqativ hallar da dəfələrlə azalar.

Uşaq hüquqlarının yeni vətənpərvər gənclik yetişdirmək, ləyaqətli vətəndaş formalaşdırmaq, yaşamın və fəaliyyətin qanunauyğun standartlarını yaratmaq və hüquqi maarifləndirmə baxımından ciddi strateji hüquqi, siyasi və pedaqoji məsələ olduğunu nəzərə alsaq, ölkə ictimaiyyətinin bu məsələyə diqqətinin ancaq uşaqlara qarşı radikal zorakılıq halları baş verdikdə və ya uşaqların ölümü ilə nəticələnən hadisələrdən sonra müvəqqəti artması təəssüf doğurur.

Müasir dövrdə hüquqi mədəniyyətin və hüquq tərbiyəsinin əsasında hər kəsin öz hüquq və azadlıqlarını bilməsi, onu reallaşdırmaq bacarığına yiyələnməsi,

qoruya bilməsi, şəxsi azadlığının məsuliyyətinin sərhədini dəqiq müəyyənləşdirməsi, mübahisə və konfliktlərin hüquqi vasitələrlə həll edilməsini təminetmə durursa, deməli uşaq hüquqlarının təkcə uşaqlar tərəfindən öyrənilməsi kifayət deyil, baxmayaraq ki, bugünkü tədris və tərbiyə sistemi uşaq hüquqlarının uşaqlar tərəfindən öyrənilməsi üçün heç bir real mexanizm təklif etmir.

Uşaq hüquqlarının öyrənilməsinə diqqətin artırılmasını ölkəmizin qoşulduğu beynəlxalq normalar və ölkə daxilində cinayətkarlığa qarşı mübarizə prosesləri də tələb edir.

Araşdırmalar göstərir ki, valideynlərin, pedaqoqların və uşaqların münasibətlərində normativləşmə, standartlaşma olmadığı üçün məktəblərdə uşaqlara qarşı çoxsaylı zorakılıq halları, valideyn və müəllim arasında kobud mübahisələr baş verir.

Bu gün uşağın təkcə təhsil hüququ ilə bağlı hansı hüquq və öhdəlikləri olduğu, məktəbdə və dərs prosesində valideynin, eləcə də müəllimin hansı hüquqlara malik olduğunu və hansı vəzifələr daşıdığını öyrədən bilikverici mənbə, normativ sənəd yoxdur. Ona görə də hər kəsin özünü haqlı saydığı mühitdə konfliktlər qaçınılmazdır.

Narahatedici faktdır ki, ölkəmizin pedaqoji profilli ali təhsil müəssisələrinin proqramlarında gələcək müəllimlərə tədrisin təşkili, pedaqoji taktın müəyyənləşməsi, ayrı-ayrı fənlərin tədrisi metodikası zamanı, eləcə də məktəbin idarə edilməsində uşaq hüquqlarının öyrədilməsi nəzərdə tutulmur. Bəsit halda öyrədilən Konstitusiya hüququ ilə bağlı proqramlar nə müəllimlərə, nə də uşaqlara öyrətmək üçün uşaq hüquqları haqqında kifayət qədər informasiya vermir.

Cəmiyyətin inkişafında insanmərkəzli dəyərlərin önə çıxdığını, demokratik cəmiyyətdə insan hüquq və azadlıqlarının yerini, hüquqi informasiyanın və hüquqi biliklərin insanların həyatında oynadığı vacib rolu dərindən bilməyən bəzi tədris ekspertləri, metodistlər və tədris idarəçiləri uşaq hüquqlarının pedaqoji profilli ali təhsil müəssisələrində tədrisinə mane olmağa çalışırlar. Fikrimizcə, bu həm də onunla bağlıdır ki, on illərlə daşlaşmış tədris proqramlarının yeni dövrün tələblərinə uyğunlaşdırılması əlavə bilik, bacarıq və sistemdə dəyişiklik aparmaq qabiliyyəti tələb edir.

Sosial şəbəkələrdə ardıcıl olaraq uşaq hüquqlarının pozulması, uşaq əməyinin istismarı, məktəblərdə və ailələrdə uşaqlara qarşı zorakılıq və s. materiallar yayılmaqdadır. Bu cür neqativ halların baş verməsinin müxtəlif, çoxşaxəli səbəbləri var və onlar mütəxəssislər tərəfindən dərindən təhlil olunmalı, ictimai müzakirələr təşkil edilməlidir.

Bununla belə ictimaiyyətin və mütəxəssislərin diqqətini öz pedaqoji və elmi fəaliyyətimlə bağlı uşaq hüquqlarının müdafiəsi sahəsində gəldiyim bir qənaətə də cəlb etmək istəyirəm.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2000-ci il tarixli 125 nömrəli sərəncamı ilə "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və

hüquqlarının qorunması haqqında" Dövlət Proqramı və Azərbaycan Respublikası Prezidentinin 2 iyun 2020-ci il tarixli 2073 nömrəli sərəncamı ilə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiq olunmuşdur. Dövlət Proqramının və Strategiyanın qəbulunun əsas məqsədlərindən biri də BMT-nin Uşaq hüquqları Konvensiyasının və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının həyata keçirilməsinə əlverişli şərait yaratmaq və uşaqların müdafiəsini gücləndirmək olmuşdur.

Mükəmməl hazırlanmış və uşaqların ahəngdar inkişafı üçün ictimai həyatın müxtəlif sahələrində görülməli vacib məsələləri əhatə edən Proqramda tədris fənnindən asılı olmayaraq bütün pedaqoji işçilərə və uşaqlarla işləyəcək şəxslərə uşaq hüquqlarının sistemli şəkildə öyrədilməsi, pedaqoji universitetlərdə uşaq hüquqları ilə bağlı fənninin tədris proqramlarına daxil edilməsi məsələsi həllini tapmamışdır. Fikrimizcə, gələcək müəllimlərin pedaqoji universitetlərdə ixtisasdan (tədris fənnindən) kənar öyrəndikləri biliklər daimi təmasda olacaqları uşaqların hüquqlarından əhəmiyyətli deyil.

Dövlət və ictimai həyatda bioetikanın yeri, bioetik bilik və informasiyanın genişlənməsi, önə çıxması yeni etik, fəlsəfi və hüquqi dəyərlər, standartlar yaradır. Bu isə öz növbəsində milli etik dəyərlərin tədrisini, bununla bağlı yaranan münasibətlərin tənzimlənməsini, bu standartlardan kənara çıxan, dəyərlərə xələl gətirən əməllərin kriminallaşdırılmasını tələb edir.

Bioetik dəyərlər mühitində yaşayacaq insanların gənc yaşlarından, uşaqlıqdan bu həyata hazırlanması cəmiyyətimizin qarşısında duran strateji məsələlərdən biridir.

Uşaq hüquqlarını tədris və tədqiq etmək, onlara yeni dəyərlərlə yaşamağı öyrətməyin vacib formalarından biridir.

Bununla əlaqədar olaraq xüsusi qeyd etməliyəm ki, dünyada elmi-texniki tərəqqinin nailiyyətləri, milli-mənəvi və ictimai inkişafın sürəti tədris proqramlarının və dərsliklərin yeni dövrün tələblərinə uyğunlaşdırılmasını tələb edir. Sovet dövründə tərtib edilmiş və köhnəlmiş metodika ilə aparılan tədris prosesi bu günün bioetik, biotexnoloji və mənəvi psixoloji səviyyəsi ilə uzlaşmır. İnformasiya texnologiyalarının həyatımıza daxil olması, ona cəmiyyətin və fərdin reaksiyası köhnə tədris proqramı və dərsliklərlə uzlaşmır. Zaman tələb edir ki, insanlara öz real həyatlarında istifadə etdikləri bilik, bacarıq və vərdişlər verilməlidir.

Belə bilik, bacarıq və vərdişlərdən biri də demokratik cəmiyyətdə insanın hüquq və azadlıqları ilə, o cümlədən uşaq hüquqları ilə bağlıdır. Eləcə də elmi-texniki tərəqqinin yeni nailiyyətlərinin tətbiqi nəticəsində uşaqların sağlamlığına və inkişafına ziyan vuran hallara, hərəkətlərə qarşı hüquqi qadağaların müəyyənləşməsi, bu əməllərin kriminallaşması onların təhqiqi və istintaqının aparılmasının yeni mexanizmlərinin hazırlanması, insan həyatına və sağlamlığına, psixi vəziyyətinə neqativ təsir edən texniki vasitələrə və sosial şəbəkələrə

mükəmməl nəzarət və təşkilati idarəetmə sisteminin yaradılması haqqında da düşünməliyik.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Uşaqlara dair 2020–2030-cu illər üçün Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 2 iyun 2020-ci il / http://www.e-qanun.az/framework/45086
2. Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı, 27 dekabr 2011 / http://www.e-qanun.az/framework/22821
3. İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya. Avropa Şurası, 4 noyabr 1950 / http://www.e-qanun.az/framework/1405
4. İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsi, 10 dekabr 1948 / http://miqrasiya.nakhchivan.az/images/acts/intern/55.pdf
5. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu, 19 may 1998 / http://www.e-qanun.az/framework/3292
6. Uşaq hüquqları Bəyannaməsi, 1959 / https://az.atomiyme.com/usaq-huequqlari-bəyannaməsinin-10-prinsipləri-usaq-huequqlari-bəyannaməsi-xuelasəsi/
7. Uşaq hüquqları Konvensiyası. BMT, 20 noyabr 1989 / http://scfwca.gov.az/store/media/Uşaq%20hüquqları%20haqqında%20BMT%20Konvensiyası.pdf
8. Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi üzrə Ümumdünya Bəyannaməsi. 30 sentyabr 1990 / https://az.wikipedia.org/wiki/Azərbaycanda_insan_haqları
9. I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 03 may 2019 / http://www.e-qanun.az/framework/42163
10. http://mfa.gov.az/content/112
11. http://scfwca.gov.az/page/about-the-sommittee
12. http://www.faktxeber.com/214lk601d601-media-v601-u351aq-ombudsmanlar305-niy601-yarad305lm305r--_h11432.html


Redaksiyaya daxil olub 18.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 69-74
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 69-74

***UOT 1(091)***

***R.A.Məmmədova***
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu*
*mammedova1707@gmail.com*

# KLASSİK FƏLSƏFƏ VƏ SOSİAL ELMLƏRDƏ ÖZGƏLƏŞMƏ VƏ DUALİZM PROBLEMİ

***Açar sözlər:*** *özgələşmə, paradiqma, dualizm, insan təbiəti, ekzistensializm, rasionalizm, metafizika*

Tədqiqatda özgələşmə problemi mövcud paradiqmalar kontekstindən araşdırılır və fenomenin öyrənilməsində iki əsas yanaşmanın mövcudluğu vurğulanır. Sosial elmlərdə özgələşməyə sosial-tarixi proseslərdə formalaşan insan şüurunun nəticəsi kimi yanaşıldığı halda, dini düşüncədə bu fenomenin mövcudluğu insanın öz təbiətindən düşüşü ilə əlaqələndirildiyi göstərilir. Fərdin təbiəti ilə cəmiyyətin formalaşdırdığı xüsusiyyətlər arasındakı ziddiyyətin özgələşmə problemində dualizmin meydana gəlməsinə səbəb olduğu göstərilir. Subyektyönümlü yanaşmalara əsaslanmaqla insanın yaşantılarını əks etdirən baxışın elmi yanaşmaya gətirilməsi və özgələşmə probleminin tədqiqində bu baxışın əhəmiyyəti probleminə toxunulur.

***Р.А.Мамедова***

# ПРОБЛЕМА ОТЧУЖДЕНИЯ И ДУАЛИЗМА В КЛАССИЧЕСКОЙ ФИЛОСОФИИ И СОЦИАЛЬНЫХ НАУКАХ

***Ключевые слова:*** *отчуждение, парадигма, дуализм, человеческая природа, экзистенциализм, рационализм, метафизика*

В исследовании рассматривается проблема отчуждения в контексте существующих парадигм и подчеркивается наличие двух основных подходов к изучению феномена. Если в социальных науках отчуждение рассматривается как результат человеческого сознания, сформированного в социально-исторических процессах, то в религиозной мысли показано, что существование этого феномена связано с падением человека с собственной природы. Показано, что противоречие между природой индивида и особенностями, сформированными обществом, приводит к возникновению дуализма в проблеме отчуждения. Затрагивается дополнение научного подхода взглядом, отражающим человеческий опыт, основанный на субъектно-ориентированных подходах, значение этого взгляда в исследовании проблемы отчуждения.

***R.A.Mammadova***

# THE PROBLEM OF ALIENATION AND DUALISM IN CLASSICAL PHILOSOPHY AND SOCIAL SCIENCES

***Keywords:*** *alienation, paradigm, dualism, human nature, existentialism, rationalism, metaphysics*

The research explores the problem of alienation in the context of existing paradigms and emphasizes the existence of two main approaches to the study of the phenomenon. Whereas the social sciences view alienation as the result of human consciousness shaped by socio-historical processes, religious thought shows that the existence of this phenomenon is related to man's Fall from his own nature. It is shown that the contradiction between the nature of the individual and the features shaped by society leads to a dualism in the problem of alienation. On the basis of subject-oriented approaches, the problem of bringing to a scientific approach a view reflecting human experience and the problem of the significance of this view in the study of the problem of alienation is touched upon.

Özgələşmə probleminin sosial elmlər və dini düşüncə aspektlərindən tədqiqi özgələşmənin daha geniş müstəvidə öyrənilməsinə şərait yarada bilər. İnsanın var olma böhranı kimi dəyərləndirilə biləcək özgələşmə fenomeninin doğurduğu sualların elmi-rasional cavablandırılmasında ortaya çıxardığı problemlər mövcud elmlərin kontekstində teoloji yanaşmanı yenidən aktuallaşdırır. Məqalədə özgələşmə probleminin sosial elmlər kontekstindən hərtərəfli öyrənilməsinin mümkünsüzlüyü və bu baxımdan teoloji yanaşmanın yenidən tədqiqinin zəruriliyi iddia olunur.

Problemin mürəkkəbliyi və genişmiqyaslılığı fəlsəfə, sosiologiya və psixologiya elmlərində özgələşmənin əsasən ən önəmli mübahisəli tərəflərini əhatə edən baxışların, konsepsiyaların nəzərdən keçirilməsini tələb edir. Özgələşmə probleminin öyrənilməsində ən vacib məqamlar bu problemin sosial elmlərin dairəsinə necə girməsi, cəmiyyət-fərd münasibətlərini müəyyən edən əsas paradiqmaların müəyyənləşməsidir.

Orta əsr fəlsəfəsindən Yeni dövr fəlsəfəsinə keçid özgələşmə fenomenində paradiqmatik dəyişikləri şərtləndirir. İstər Yunan fəlsəfəsində, istərsə də Xristianlıqda insanın  dünyada yeri ilə bağlı suallar Yeni dövrün formalaşdırdığı yanaşmadan fərqli aspektlərdə təzahür edirdi. Yunan fəlsəfəsində kainat-insan, loqos-insan, xristianlıqda isə Tanri-insan mərkəzli münasibətlər formalaşdığı halda, Yeni dövrdən etibarən insan mərkəzli münasibətə keçid baş verir. Buber yunan düşüncəsinin formalaşdırdığı sistemin dağılmasını insanın öz qəlbinin dərinliyində şər problemi ilə rastlaşdığı üçün dünyanın ikiləşməsi ilə əlaqələndirir. Öz probleminin həllini Loqosun şəxssizliyində tapa bilməyən insan şəxsləndirilmiş, canlı Tanrıya üz tutur. Buber dünyanın teoloji mənzərəsinin parçalanmasını isə

Kainatın öz sərhədsizliyini elan etməsi ilə əlaqələndirir. Birinci halda qnosisin dualist mifi böhrana səbəb olursa, ikinci halda böhranı heç bir mifə bürünməyən xalis elmin kosmosu yaradır (2, s.170). Kainatın sərhədsizliyi çağırışı ilə üzləşən düşüncə insanın xilasını öz əqlinin imkanlarında axtarmağa başlayır. Yeni yanaşma özgələşmə probleminə baxışda da öz əksini tapır.

Platonun yanaşmasına əsasən, yaşadığımız dünya əsl gerçəklik olan mahiyyət varlığından kənarlaşdığı üçün yanlışların və şərin məkanı kimi səciyyələnməlidir. Həqiqi Varlıq isə ziddiyyətlərin mövcud olmadığı əbədi ideyaların hakim olduğu mahiyyət aləmidir (5, s.305). Platonun metafizikasında qnostisizmə xas olan mövcudluğa dualistik baxış öz əksini tapmışdır ki, bu da insanın Yer üzündəki mövcudluğunun öz təbiətinə yad olmasını açıqlayan konsepsiya olaraq tanınır. Xristianlıqda aktuallıqla potensiallıq arasındakı ziddiyyət də insanın özgələşməsinin ilkin şərti kimi çıxış edir. İnsan öz gerçək mahiyyətindən ayrı düşdüyü üçün hər zaman öz yadlaşması ilə üzləşmək məcburiyyətindədir. Yeni dövrə qədər mövcud olan mifoloji, dini və fəlsəfi təfəkkürdə insanın mövcudluğundakı yadlaşma probleminin metafizik əsasları müxtəlif konsepsiyalarda öz əksini tapmış olur. Bu konsepsiyalarda oxşar tərəflərin olmasına baxmayaraq onların aparıcı baxışı özgələşmənin fərqli metafizikalarını formalaşdırır.

**Sosial elmlərdə metodoloji yanaşma və özgələşmə**

Yeni dövrün fəlsəfi düşüncəsi ənənəvi yanaşmada həllini tapa bilməyən problemlərə yeni baxışın, yanaşmanın zərurətindən meydana gəlir. Hegelin yanaşmasında özgələşməyə yeni paradiqmatik baxış formalaşdırılır, o, spekulyativ sosial-fəlsəfi anlayışa çevrilir. Hegel fenomenin xeyir və şər prizmasından təhlilindən imtina edərək onun dəyərlərdən kənar məfhuma çevrilməsinə yol açır. Onun yanaşmasında fenomenin təhlilinə xeyir və şər kateqoriyalarından "həqiqi" və "həqiqi olmayan" anlayışlarına keçid edilir. Özgələşməni dini-etik mahiyyətindən uzaqlaşdırmanın əsasında rasionalizmin günah və şər fenomenlərini inkişafı əngəlləyən hadisələr kimi görməsi dayanırdı. Bu baxımdan özgələşmə tarixi yaşantıda meydana gələn, lakin insan ağlının gücü ilə aradan qaldırıla bilən hadisə kimi xarakterizə olunmağa başlayır. Yəni özgələşmə halının mövcudluğu tarixi (təbii) əsaslara söykəndiyi üçün, "saf məntiq"ə keçid zamanı bu halın aradan qaldırılmasına inam müşahidə olunur (3, s.140-142).

P.Tillixin yanaşmasına əsasən, Hegel ekzistensial problemlərin essensial sistemi dağıtmasına da yol vermir. Hegelin yanaşmasında Tanrı essensial və ekzistensial ayırımdan kənarda olsa da, bu vəhdət, identiklik yalnız Tanrıda bitmir. Hegel hesab edir ki, İlahi Varlığın təcəssümü olan özünüreallaşdırma tarixdə də həyata keçirilə bilər. Tillix göstərir ki, Hegel insanların düşüncə və hisslərində yaşanan yetərsizliklərə rəğmən dünyanın İlahi düşüncənin özünügerçəkləşdirmə məkanı, mövcudluğun mahiyyətdən düşüş deyil, mahiyyətin ifadəsi olmasına

inanır (5, s.307-308). Rasionalizm orta əsrlərdə formalaşan və mövcudluğun imkansızlıqla eyniləşdirilməsinə gətirib çıxaran "insanın günahkarlığı" düşüncəsinə qarşı gələn, insanın əqli imkanlarını əsas olaraq götürən cərəyan kimi formalaşsa da, başlanğıcda dini-fəlsəfi düşüncədə yaradılışın subyektin mənəviyyatına əsaslanan metafizikasının önəmli prinsiplərini heç də inkar etmirdi.

Özgələşmənin rasional düşüncənin köməyi ilə aradan qaldırılmasının mümkünlüyünə inam yeni paradiqmanın əsas xüsusiyyəti kimi çıxış edir. Bu baxımdan sosial elmlərdə insanın təbiətinin və cəmiyyətin xüsusiyyətlərinin yenidən dəyərləndirilməsi baş verir. Bu yeni paradiqmaya əsasən tədricən sosial fenomenlərin yeni tədqiqi metodologiyası formalaşır ki, bu da öz növbəsində bütövlükdə yeni metafizikanın yaranmasına gətirib çıxarır.

Bir tərəfdən təbiət elmlərinin inkişafını şərtləndirən metodologiyanın sosial elmlərə tətbiqi subyektin obyektləşdirilməsi prosesinə şərait yaradır. Elmi yanaşmada obyektivlikdən fərqli olaraq "subyektiv" anlayışı keçici, gerçəklik ehtimalı az olan anlamına gəlir. Bu baxımdan yeni yanaşmada subyektə əsaslanma elmi həqiqətlə ziddiyyət təşkil edir. S.Frank subyektin varlığının önəmini, onun ilkin reallıq olduğunu göstərmək üçün "Subyektiv" anlayışı ilə "subyektə aid olan" ifadəsini fərqləndirməyi önəmli hesab edir. Müəllifə görə, "subyektiv" anlayışı yanlış mühakimə anlamına gəlsə də, subyektin özünün gerçəkləri obyektiv aləmin gerçəkləri qədər realdır və o, obyektiv gerçəklikdən fərqli anlam kəsb edir (6, s.164).

Digər tərəfdən klassik metafizikadan imtina olunur, insan və cəmiyyətə yeni paradiqmatik baxış formalaşmağa başlayır. İnsanın mahiyyəti, yəni təbiəti etibarilə fəzilətli, özgələşməsi nəticəsində şərə aktuallıq qazandıran varlıq olması konsepsiyası əsaslandırma gücü olmadığı üçün inkar olunur. Təkamül nəzəriyyəsinə əsaslanaraq insan təbiətinin instinktlərdən qaynaqlanmasını, insan xüsusiyyətlərinin isə tarixi-mədəni proseslərdə sonradan formalaşdığını iddia edən konsepsiyalar insanın təbiəti ilə bağlı problemin fəlsəfi əsası kimi çıxış etməyə başlayır.

Yeni paradiqma öz növbəsində yeni insan-cəmiyyət dualizmini formalaşdırmış olur ki, bu yanaşmaya əsaslanan nəzəriyyələr kontekstində insanın cəmiyyətdən özgələləşməsi köklü problemə çevrilmiş olur. Əslində klassik metafizik yanaşmanın müəyyən tərəflərini əks etdirən qnostisizmdəki dualizm bu yeni yanaşmada da özünü göstərməkdədir. Yəni insanın maddi təzahürünün korlanması və İlahi gerçəkliyin müqəddəsliyi ziddiyyətinin fərdin vəhşi instinktləri ilə cəmiyyətin ideallarının toqquşmasına transformasiyası diqqəti çəkir. Formalaşan baxışda əsas ziddiyyəti bir tərəfdən insanı təbiəti etibarilə bioloji aləmin vəhşi instinktlərinə aid etmə, digər tərəfdən isə tarixi-mədəni inkişafda meydana gələn insan şüurunun mütləqləşdirilməsi təşkil edir. İnsanın bu cür ikiləşməsi modern dövrün özgələşmə probleminin əsasını təşkil etmiş olur.

Yeni yanaşma uzun bir dövr ərzində rasionallığı əsas götürərək bu

ikiləşmənin doğurduğu problemi görməzdən gəlməyə çalışsa da, XIX əsrdə fəlsəfədə formalaşan həyat fəlsəfəsi, ekzistensializm, psixologiyada psixoanalitik məktəb irrasional tərəfdən imtinanın və yaxud onun həlli illüziyasının mümkünsüzlüyünü ortaya qoyur. Nəticədə, bir tərəfdən psixoanalitik yanaşma, "həyat fəlsəfəsi" cərəyanı və s. daxilində insan təbiətinin ifadəçisi olan vəhşi instinktlərin onun müəyyənləşdiricisi olması cəhdləri ortaya çıxmış olur. Digər tərəfdən isə sosial elmlərdə fərdin bu təbiəti ilə ziddiyyət təşkil edən normalar əsasında cəmiyyət quruculuğu problemi önə çəkilir. Bu yanaşmanın insanın daxilində ciddi böhrana yol açdığını görən ekzistensial fəlsəfə varlığın anlamlandırılması, kimsəsizliyi ilə dərin boşluq yaşayan fərdin qayğılarının yeni özgələşməyə səbəb olduğunu göstərməyə çalışır. Birinci yanaşma öz əksini Nitşenin və Z.Freydin baxışlarında tapmış olur. M.Buber Nitşe fəlsəfəsinin önəmini insan situasiyasının problemliliyindən çıxış etməsində görür. Buber göstərir ki, Nitşenin insanın kimliyi ilə bağlı fəlsəfi antropoloji suala cavabında insandakı instinktlərə əsaslanaraq onu heyvanlar aləminin ünsürünə çevirmə cəhdi müşahidə olunsa da, sualın qoyuluşunun özü fərqli – antropoloji, ekzistensial mahiyyət kəsb edir (2, s.184). Bu baxımdan Nitşe fəlsəfəsində eyni dualizm fərqli formada özünü göstərir. Bir tərəfdən insan ağrılı problem kimi çılpaqlığı ilə təzahür edir, digər tərəfdən insanın probleminin təbiətin qanunauyğunluqları kontekstindən həllinə cəhd göstərilir.

İnsan təbiətinin instinktivliyi, cəmiyyətlə fərdin dualizmi baxışını psixologiya elminə gətirən psixoanalitik məktəbinin banisi Z.Freyd fərdin özü ilə və cəmiyyətlə münasibətlərindəki ziddiyyətlərin həllinin mümkünsüzlüyü ideyasını irəli sürür. İnsan təbiəti və cəmiyyətlə bağlı konsepsiyalarda insanın təbiəti etibarilə kortəbiiliyin məhsulu olması, cəmiyyətin onun təbiətinə zidd mexanizmlə fəaliyyət göstərməsi düşüncəsi əks olunur. Fərdin iştirakçılığı ilə formalaşan cəmiyyətlərin fərdin özü ilə yaranan ziddiyyətlərini, fərdin özünün formaşdırdığı topluma yadlaşmasını bu konsepsiyalar daxilində cavablandırmaq mümkünsüz görünür. Bu yanaşmada ən önəmli problem kimi ortaya çıxan şüurla insan təbiətinin ziddiyyəti məsələsidir. Şüurun məntiqiliyi, insan hisslərinin, impulslarının xaotikliyi və onların ayrı-ayrı başlanğıclara tabe etdirilməsi subyekt-obyekt özgələşməsinin həllinin mümkünsüzlüyünü şərtləndirmiş olur.

Problemin hərtərəfli, fərqli tərəflərinin ümumi nəticələrini əldə edərək öyrənilməsi fəlsəfənin mövcud problemi doğru dəyərləndirməsinə imkan verir. Fəlsəfi düşüncə daxilində formalaşan ekzistensializmdə sosial elmlərin insana, cəmiyyətə yeni yanaşmasının şərtləndirdiyi obyektləşmə prosesində subyektin obyektivliyindən imtinanın doğurduğu çətinliklər öz əksini tapmaqdadır. Sosiologiya, psixologiya və sosial-psixologiya elmlərində müxtəlif məktəblər daxilində ekzistensial yanaşmanın müəyyən prinsipləri önə çəkilsə də, bu yanaşmanın metodoloji əsasının formalaşmaması və yaxud ondan imtina özgələşmə probleminin dərin fəlsəfi, sosial, psixoloji təhlilində maneələr yaratmış

olur.

**Nəticə**

Məqalədə özgələşmə problemi dini-fəlsəfi və sosial elmlərdə mövcud müəyyən yanaşmalar kontekstindən araşdırılaraq aşağıdakı nəticələrə gəlinmişdir:

Müxtəlif dövrlərdə aparıcı rol oynayan fərqli idrak formalarının şərtləndirdiyi metodoloji yanaşmadan asılı olaraq özgələşmə problemi ilə bağlı müxtəlif paradiqmalar irəli sürülmüşdür;

Klassik metafizikaya əsaslanan mifoloji, dini və fəlsəfi düşüncədə mövcud insanla gerçək insan təbiəti arasındakı ziddiyyət özgələşmə probleminin əsası kimi çıxış etsə də, monizmə və dualizmə əsaslanmaqla fərqli konsepsiyaların yaranmasını şərtləndirmiş olur;

Müasir elmi baxışın əsasında dayanan rasionalist yanaşma özgələşməni fərdin təbiətinin instinktlərə əsaslanması, insana məxsus olan ali xüsusiyyətlərin isə tarixi-mədəni prosesdə meydana gəlməsi paradiqması özgələşməni insanın öz təbiətinə yaxınlaşması kimi deyil, fərdin öz təbiətindən qaçışı kimi interpretasiyasına yol açır;

Müasir elmi-fəlsəfi yanaşmada obyekt-subyekt özgələşmənin əsas dualizmi kimi təzahür edir.

## ƏDƏBİYYAT


1. *Viktor E. Frankl.* İnsanın anlam arayışı. İngilizcedem çeviren: Selcuk Budak. İstanbul: Okuyanus, 166 s.
2. *Бубер М.* Два образа веры: Пер. с нем. / Под ред. П.С.Гуревича, С.Я.Левит, С. В. Лёзова. М.: Республика, 1995, 464 с.
3. История теоретической социологии: в 4-х т., Т.1 / Ответ. ред. и составитель Ю.Н.Давыдов. М.: Канон+ ОИ «Реабилитация», 2002, 496 с.
4. Мотивация и личность / А.Маслоу. 3-е изд. СПб.: Питер, 2006, 352 с.
5. *Тиллих П.* Систематическая теология: в 3-х т., Т. I-II.; СПб.: Университетская книга, 2000. 463 с.
6. *Франк С.Л.* С нами Бог / Франк С.Л. / Сост. и предисл. А.С.Филоненко. – М.: ООО «Издательство АСТ», 2003, 750 с.Redaksiyaya daxil olub 01.07.2021


Redaksiyaya daxil olub 06.10.2021

***UOT 327***

***E.T.Mustafayev***
*Khazar University*
*elmar.mustafayev@gmail.com*

# DIFFUSION OF EUROPEANIZATION BY EXPORTING THE EU REGIONALISM MODEL

***Keywords:*** *Europeanization, EU, regionalism, EU type regionalism*

With the Big Bang enlargement in 2004 and 2007, the European Union (EU) has almost reached its political and economic limits in the enlargement process. Yet, the EU has not stopped spreading its norms and values beyond its formal borders. Deprived of its strongest incentive tool - the EU membership - in Europeanization process of the third countries, the EU tries to project its norms and values by building the institutions and multilateral policy frameworks similar to its own. This article put the mirror to the regionalism process triggered by the Europeanization process of the EU. To that end, the article studies the role of the EU as a framework in diffusion of the EU type regionalism beyond its borders.

***E.T.Mustafayev***

# AVROPALAŞMA PROSESİNİN AVROPA İTTİFAQI REGİONALİZM MODELİNİN İXRACI VASİTƏSİLƏ YAYILMASI

***Açar sözlər:*** *Avropalaşma, Avropa İttifaqı, regionalizm, Avropa İttifaqı tipli regional birliklər*

2004-2007-ci illərdəki "Böyük Partlayış" genişlənməsindən sonra Avropa İttifaqı demək olar ki, həm siyasi, həm də iqtisadi baxımdan genişlənmə prosesinin sonuna çatmış oldu. Genişlənmə prosesinin sona çatmasına baxmayaraq Avropa İttifaqı öz norma və dəyərlərini sərhədlərindən kənarda təbliğ etməkdə davam edir. Qonşu ölkələrin Avropalaşma proesində ən güclü təşviq alətindən (İttifaqa tam hüquqlu üzv olmaq) məhrum olan Brüssel öz norma və dəyərlərinə əsaslanan bənzər regional modellər qurmağı həyata keçirir. Məqalə Avropa İttifaqının Avropalaşma prosesi siyasəti tərəfindən tətiklənən regionlaşma prosesini araşdırır. Bu məqsədlə məqalədə Avropa İttifaqının sərhədləri xaricində Avropa İttifaqı tipli regional birliklərin qurulmasında olan struktural rolundan bəhs edilir.

***Э.Т.Мустафаев***

## ДИФФУЗИЯ ЕВРОПЕАНИЗАЦИИ ЭКСПОРТОМ МОДЕЛИ РЕГИОНАЛИЗМА ЕС

***Ключевые слова:*** *европеизация, ЕС, регионализм, регионализм по типу ЕС*

С расширением "Большого взрыва" в 2004 и 2007 годах Европейский Союз почти достиг своих политических и экономических пределов в процессе расширения. Тем не менее, ЕС не прекратил распространять свои нормы и ценности за пределы своих формальных границ. Лишенный самого сильного инструмента стимулирования (членства в ЕС) в процессе европеизации третьих стран, ЕС пытается проецировать свои нормы и ценности, создавая институты и многосторонние политические рамки, аналогичные его собственным. В статье исследуется процесс регионализма, спровоцированный процессом европеизации ЕС. С этой целью в статье исследуется роль ЕС как каркаса в распространении регионализма европейского типа за пределы его границ.

### Introduction

The last enlargement round of the EU distinguished itself from the previous waves of enlargement. This enlargement has made it clear that EU neither politically nor economically is ready to undertake another enlargement round at least in near and mid-term future.

"I do not deny that the (EU) enlargement has worked very well. But we cannot go on forever extending the area of security, stability, and prosperity with just the enlargement instrument" [7, p.2].

Despite its unwillingness to undertake another enlargement, the EU has not refused to spread its norms and values in its near abroad. On the contrary, the EU has promoted its internal practice abroad by building the resembling regional frameworks in its neighborhood. Bretherton & Vogler put it in a way that in relation with the third countries, the EU tempts to "reproduce itself" [2, p.286].

### Evolution of the Contemporary Regionalism Process

The idea of the unified and interdependent Europe following the WWII triggered the contemporary process of regionalism and interregionalism across the globe. Sideri describes the process of regionalism in three stages: *1) imperial regionalism of the 1920s and 1930s; 2) closed regionalism that emerged after the WWII and lasted until the mid-1970s; 3) open regionalism which is actual since 1980s* [3, pp.1-2].

The imperial regionalism stage embraces the interwar period which was

established to secure the hegemony of great powers. European great powers built blocs to ensure the supply of raw materials for industrial production. It was replaced by the closed regionalism following the end of the WWII.

Closed regionalism was focused to achieve the working peace among the European countries. Successful implementation of integration project paved the way for adding economic components to the process of regionalism in Europe. Security and economic model of the Europe motivated other countries in different regions to follow the suit of the European integration model. The process of regionalism beyond the borders of Europe was also backed by the EEC/EU.

EU's support for multilateral cooperation and regional integration beyond its borders dates back to late 1950s. Establishment of the European Economic Community by Rome Treaties in 1957 granted the right to the EEC to engage with the third countries and organizations to form reciprocal rights and obligations. But the support of the EU for regional integration in other parts of the world has become much more explicit since the 1990s [4, p.1165].

The collapse of the Berlin Wall and the Communist regime in the East part of Europe accelerated the wave of globalization. Globalization wave caused the replacement of the close regionalism with the open regionalism process. Unlike the closed regionalism, open regionalism is outward looking and retreats from internal protectionism [3, p.3]. Hass (2000) describes the open regionalism period after the Cold War as "half-open regionalism" or "coexistence of global and multilateral institutions" [10, p.130].

Similar to the work of Sideri, Langenhove and Costea also describe the regionalism process in three generations: *1) economic regionalism; 2) new-regionalism (neo-regionalism); 3) inter-regionalism* [6, pp.2-5]. Their work is mainly concentrated with the contemporary process of regionalism and does not attach an importance to regionalism process before the WWII. Also, unlike the Siedi, their work divided the regionalism process since the late 80s into two stages. While the first two generations coincide with the closed and open regionalism of Siedi which are characterized as recent past, the third description – inter-regionalism – is an ongoing process and studies the inter-regional relations and external projection of the region.

**Rationale for Regionalism**

The objectives of the countries to establish a regional integration framework are different. Farrel [4, p.1166] explains it with the following three objectives: 1) establishment of the inter-state regional cooperation in certain fields of governance aiming to establish an efficient region-wide regime; 2) regional unification in order to act as a single powerful actor in international political and economic affairs; 3) to set up informal regionalization by targeting

to increase economic cooperation and people-to-people contacts in the region.

Kubicek explains the rationale for regionalism with four dissimilar categories: 1) *geopolitical factors*; 2) *institutionalism and the importance of interdependence*; 3) *state-level explanations*; 4) *cultural-constructivist approach* or *sense of region and regional identity* [5, pp. 238-241].

*Geopolitical factor* reflects the neo-realist approach of alliance building to counterbalance the other regional power. Countries tend to establish a regional alliance in order to diminish the threat of other regional power. Gulf Cooperation Council to deter Iran, ASEAN against Vietnam, or MERCOSUR against the USA are the examples for geo-political factors behind the regionalism [5, p. 239].

*Institutionalism and importance of interdependence* category of regionalism arise out of mutual interests and shared problems of the regional states. In order to have a common response to global pressures. Besides, existing interdepence among the regional countries push them to establish a regional framework to reduce the expensive cost of transaction and information [5, pp.239-240].

*State-level explanations for regionalism* category shows the reasons why political decision-makers agree to establish or foster multilateral regional institutions. According to Kubicek [5, p. 240] the regime type is the strongest incentive for states' decison-makers. Alliance of democratic states which do not tend to fight with each other, alliance of authoritarian states that try to resist western pressures are enough to take hold the regionalism.

Regionalism is not only limited to economic and political calculations and benefits. Regionalism also has components of ethnic, religious, and cultural identity. The *sense of region and regional identity* is the only category of regionalism that, the role of the non-state actors are also important. Additionally, this category is efficient if the countries of the region share the same norms and values [5, pp. 240-241]. In this respect, the EU countries have much more common than the countries of East Asia.

**Diffusion of EU Type Regionalism**

The success of the EU model of regionalization has made it a standard reference point in building the new regional blocks for other countries. Its success story of region building has also become a foreign policy tool for the EU which included it to its the agreements with the third countries along with democracy, human rights, and good governance [2, p.10]. The EU by establishing the regional blocks compatible with its own seeks the following goals: expansion of regional governance; diffusion of its governance model, norms and values beyond its borders that will help the EU to exercise its influence; to make the EU identity more powerful without challenging the

national identity of the member-states [4, p.1165].

Börzel an Risse developed the framwork of the diffusion of EU like regionalism in different parts of the world. According to them, the EU lack of military coercion promotes its regionalism and institutionalism model beyond its borders with the three mechanisms of Europeanization: 1) Positive and negative conditionality; 2) Social learning and persuasion; 3) Emulation [2, pp.7-9].

**Table 1:** EU toolbox for diffusion of EU like regionalism ideas

| Diffusion Mechanism | Instrument |
|---|---|
| Positive and negative conditionality | • Access to the EU market<br>• Rewards (financial or technical aids)<br>• Sanctions |
| Social learning and persuasion | Political dialogue and diplomacy |
| Emulation | Competition |

**Source:** Adapted from Börzel and Risse [2, p.9]

Positive and negative conditionality mechanism facilitates the diffusion of ideas by cost and benefit calculation. Positive conditionality bears fruit if the country receives the access to the EU market or gets rewards as the financial or technical assistance in exchange for the adoption of EU norms and values. Negative conditionality, on the other hand, is the mechanism to force the neighboring country to stabilize the political situation either by economic or political sanctions [9, pp.23-25].

Social learning and persuasion mechanism envisage the *logic of appropriateness* and the *communicative rationality*. Countries in order to become the legitimate member of the international society "in-good-standing", internalize the norms and rules of the EU. Also, this mechanism is based on the persuasion of the state either by another state or an international organization on the validity of norms promoted by the EU [8, pp.667-668].

Furthermore, this mechanism takes place by indirect promotion either from the EU or the member-state by applying the institutional model of the EU in other regions in order to achieve the regional peace and security.

Last but not least, emulation mechanism counts on the indirect influence of ideas and competition of the countries. Countries compete with each other for boosting the economy and improving the living conditions by applying the successful practices of the EU [2, p.8].

## Conclusion

The promotion of regionalism beyond its borders have become one of the foreign policy priorities of the EU. In order to encourage the countries to participate in region building, the EU conducts political dialogue both with individual states and different regional blocks. The advocacy of EU type region building not only enables to deepen the political and economic relations with third countries but also makes the EU a center of gravity in international relations. Although the desired outcome of the EU type region building is *one-size fits all* approach, the diffusion mechanisms and instruments are differing.

**REFERENCE**

1. *Bicchi F.* ‘Our size fits all’: normative power Europe and the Mediterranean // Journal of European Public Policy, 2006, pp.286-303
2. *Börzel T., & Risse T.* Diffusing (Inter-) Regionalism: The EU as a Model of Regional Integration. The Transformative Power of Europe (7), 2009, pp.1-25
3. *Doidge M.* Regional Actors and the Rise of the Interregionalism. In M. Doidge, The European Union and interregionalism: Patterns of engagement Farham & Burlington: Ashgate Publishing Limited, 2011, pp.1-29
4. *Farrel M.* EU policy towards other regions: policy learning in the external promotion of regional integration // Journal of European Public Policy, 2009, pp. 1165-1184
5. *Kubicek P.* The Commonwealth of Independent States: an example of failed regionalism? British International Studies Association, 2009, pp.237-256
6. *Langenhove L.V., & Costea A.C.* The EU as a Global Actor and the Emergence of ‘Third Generation’ Regionalism. UNU-CRIS Occasional Papers, 2007, pp.1-21
7. *Prodi R.* A Wider Europe - A Proximity Policy as the key to stability. "Peace, Security And Stability International Dialogue and the Role of the EU" Sixth ECSA-World Conference. Jean Monnet Project. Brussels, 2002. Retrieved from http://europa.eu/rapid/press-release_SPEECH-02-619_en.htm
8. *Schimmelfennig F., & Sedelmeier U.* Governance by Conditionality: EU Rule Transfer to the Candidate Countries of Central and Eastern Europe // Journal of European Public Policy, 2004, pp.661-679
9. *Schimmelfenning, F., & Sedelmeier, U.* The Europeanization of Central and Eastern Europe. New York: Cornell University Press, 2005
10. *Vernygora V. A., & Chaba, N.* New Europe and its neo-regionalism: A working case of the 'community of democratic choice' // Trames Journal of the Humanities and Social Sciences. 2008, pp.127-150

Redaksiyaya daxil olub 26.09.2021

*UOT 32*

***T.R.Salmanzadə***
*Bakı Dövlət Universtiteti*
*togrulsalmanzada@gmail.com*

# BAKI FORUMLARI SİVİLİZASİYALARARASI DİALOQUN İNKİŞAFINDA ALTERNATİV DİALOQ PLATFORMALARI KİMİ

***Açar sözlər:*** *Bakı, sivilizasiya, mədəniyyət, dialoq, forum*

Məqalədə Azərbaycanda multikulturalizm siyasətinin inkişafının ikinci mərhələsində "Bakı prosesi" prosesi ilə başlanan yeni dialoq platformaları diqqətə alınır. 2008-ci ildən başlanan bu proses Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, Bakı Humanitar Forumları və BMT SA ilə əməkdaşlıq kontekstlərində 3 istiqamətdə öyrənilir. Qeyd olunan forumların beynəlxalq əhəmiyyəti və fəaliyyət prinsipləri müqayisəli təhlil olunur.

***Т.Р.Салманзаде***

## БАКИНСКИЕ ФОРУМЫ КАК АЛЬТЕРНАТИВНЫЕ ДИАЛОГОВЫЕ ПЛАТФОРМЫ ДЛЯ РАЗВИТИЯ МЕЖЦИВИЛИЗАЦИОННОГО ДИАЛОГА

***Ключевые слова:*** *Баку, цивилизация, культура, диалог, форум*

В статье исследуются новые диалоговые площадки, которые начались с Бакинского процесса на втором этапе развития мультикультурализма в Азербайджане. Этот процесс, начавшийся в 2008 году, был проанализирован по трем направлениям: Всемирный форум межкультурного диалога, Бакинские гуманитарные форумы и сотрудничество с UN AOC. Проведено сравнительное исследование международного значения и принципов работы этих форумов.

***T.R.Salmanzadeh***

## BAKU FORUMS AS ALTERNATIVE DIALOGUE PLATFORMS FOR THE DEVELOPMENT OF INTER-CIVILIZATION DIALOGUE

***Keywords:*** *Baku, civilization, culture, dialogue, forum*

The article studies the new dialogue platforms that began with the Baku Process in the second stage of the development of multiculturalism in Azerbaijan. This process, which began in 2008, has been analysed in three directions, which are, World Forum for Intercultural Dialogue, Baku Humanitarian Forums and cooperation with UN AOC. The international significance and operation principles of these forums have also been interrogated comparatively.

2008-ci ildə əsası qoyulan “Bakı prosesi”nin ardınca mütəmadi olaraq davam etdirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, Beynəlxalq Humanitar Forumları, BMT SA-nın Forumunun Bakıda keçirilməsi ilə Azərbaycan yeni siyasi-mədəni dialoq platformaları yaratdı. Eyni zamanda mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına və bütün dünyada təşviq olunmasına həsr olunmuş bu beynəlxalq forumlarla ölkə qlobal bir dialoq məkanına çevrildi.

Müasir dövrdə Azərbaycanın keçdiyi inkişaf yolu və artan beynəlxalq nüfuzu mövcud multikulturalizm ənənəsini daha geniş şəkildə təbliğ etməyə, onu qlobal problemlərin həllində aparıcı dövlətə çevirməyə imkan verir. Azərbaycan tərəfindən həyata keçirilən və dəstəklənən dialoq siyasəti paralel olaraq aşağıdakı platformada aparılır:

1. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları (Bakı Prosesi)
2. Bakı Humanitar Forumları
3. BMT SA ilə əməkdaşlıq

Bakı prosesi prezident İlham Əliyevinin 4 noyabr 2008-ci il tarixli Sərəncamına uyğun olaraq həmin il dekabrın 2-3-də Bakıda keçirilmiş Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı ilə başlamışdır. “Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır” mövzusunda keçirilən konfransına ilk dəfə olaraq Azərbaycanın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin də mədəniyyət nazirləri dəvət olunmuşdu [4, s.63]. 48 ölkə və 8 beynəlxalq təşkilatın iştirak etdiyi bu konfransda Azərbaycanın təşəbbüsü ilə “Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı bəyannaməsi” qəbul edilmişdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə baş tutan bu proses nəticəsində mədəniyyətlər, sivilizasiyalar arasında dialoqun inkişafını nəzərdə tutan "Bakı prosesi"nin əsası qoyulmuş və bu təşəbbüs qlobal bir prosesə çevrilmişdi. Prezident konfransdakı çıxışı zamanı demişdir:

*"Mən çox istərdim ki, bu gün əsası qoyulan "Bakı prosesi" uzun müddətli olsun. Çox istərdim ki, bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, konkret fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin"* [7, s.230-231].

Açılış mərasimində çıxış edən Avropa Şurasının baş katibi Teri Devis isə konfransın keçirilməsini bütün Avropa üçün əlamətdar hadisə olduğunu bildirmiş və qeyd etmişdir ki, *"Bakı öz tarixi ilə müxtəlif mədəniyyətlərin qovşağında yerləşir və şərqlə qərb, şimal ilə cənub arasında təbii körpüdür"* [7, s.230-231].

2008-ci ildən başlayan Bakı Prosesi bir qədər əvvəl – 2005-ci ildə yaradılan BMT-nin Sivilizasiyalar Alyansına paralel olaraq Azərbaycan tərəfinin mədəniyyətlərarası dialoq, sülh və davamlı inkişaf sahəsində strateji yanaşmasını göstərir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları davamlı olaraq BMT SA tərəfindən də dəstəklənir və BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi də Forumlarda iştirak etmişdi.

Bakı prosesi ilə yanaşı, həmin ilin 10-11 iyun tarixlərində Heydər Əliyev

Fondunun təşəbbüsü, UNESCO və İSESKO-nun dəstəyi ilə Bakıda **"Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi"** mövzusunda digər bir beynəlxalq forum keçirilmişdi. Forumun açılışında Fondun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva qeyd etmişdi:

*"Bu gün biz mədəniyyətlər və sivilizasiyalararası dialoq probleminə qadınların gözü ilə baxmalıyıq, qadın mövqeyini qabartmalıyıq. Qadın olan yerdə həmişə səmimiyyət var, sevgi var, məhəbbət var. Qadın olan yerdə düşmənçiliyə, qarşıdurmaya, nifrətə yer yoxdur. Zənnimcə, qadınlar əzəldən bəri dialoq tərəfdarıdırlar. Məhz ona görə qadın potensialı dialoqun möhkəmlənməsində böyük rol oynaya bilər"* [2, s.97-98].

Burada önəmli məqam BMT SA tərəfindən sivilizasiyalararası dialoqun inkişafı perspektivlərini nəzərdə tutan 2006-cı il məruzəsi Yüksək səviyyəli ekspertlər qrupunu Alyansın fəaliyyətinin fokuslandığı əsas sahələri – təhsil, gənclik, miqrant məsələsi və medianı göstərir. Yalnız 2019-cu ildə buna əlavə olaraq qurumun hazırkı Ali Nümayəndəsi Morationi "Qadınlar sülh vasitəçiləri kimi" deməklə yeni prioritet sahəsi əlavə etmək istədiyini bildirib [19]. Bundan 10 il öncə isə Bakıda Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən Beynəlxalq Forumda mədəniyyətlərarası dialoqda qadınların roluna diqqət çəkilmişdi.

2009-cu ilin oktyabrında  Bakıda keçirilən İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransına 10-dan artıq Avropa dövləti dəvət edilmişdi. Beləliklə, Avropa və İslam ölkələri arasında münasibətlərin inkişafında beynəlxalq tədbirlərdə qarşılıqlı iştirak ənənəsinin əsası qoyuldu. 2010-cu il sentyabrın 23-də BMT Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda ilk Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyini elan etdi [2, s.88].  Beləliklə, Azərbaycan Şərqlə Qərb arasında coğrafi körpü olmaqla yanaşı, siyasi körpü rolunu da qurmağa başladı. Həm Avropa Şurası, həm də İƏT-yə üzv ölkə olaraq ilk dəfə yeni formatda dialoq başlatdı.

I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2011-ci il 7-9 aprel tarixlərində 102 dövlətin və 10-dan artıq beynəlxalq təşkilatın nümayəndələrinin iştirakı ilə keçirilmişdir. Mədəniyyətlərarası Dialoqun Forumu mədəniyyətlərin, sivilizasiyaların müxtəlifliyinin tanınması, onlar arasında lokal, regional və qlobal səviyyələrdə dialoqun təşviqini, gücləndirilməsini əsas məqsəd kimi qarşıya qoyur. Qeyd olunan Forumda BMT-nin Sivilizasiyalar Alyansı Katibliyinin icraçı direktoru Mark Şuer Forumda iştirak etmiş və onun keçirilməsinə yüksək qiymət vermişdi [6, s.301]. ÜMDF forma olaraq Sivilizasiyalar Alyansının forumları oxşar konsepsiyaya malikdir və dövlətlərlə yanaşı, beynəlxalq təşkilatlar, QHT-lər, alimlər, ictimai xadimlər, media nümayəndələrinin də iştirakını nəzərdə tutur. Forum zamanı Avropa, Amerika, Asiya, Afrika və Avstraliya qitələrinin adlarının "A" hərfi ilə başlaması nəzərə alınaraq qitələrarası əməkdaşlığın inkişafını nəzərdə

tutan “5A” platforması təsis olunmuşdu [15].

2011-ci aprelində Bakıda keçirilmiş Forumdakı çıxışında Azərbaycan Respublikası prezidenti İlham Əliyev demişdir:

*"Biz istəyirik ki, bütün xalqlar, bütün dinlərin nümayəndələri bir-biri ilə sıx təmasda olsunlar, bütün problemləri açıq şəkildə müzakirə etsinlər. Bu gün dünyada qloballaşma haqqında, mədəniyyətlərarası dialoq haqqında, multikulturalizm haqqında geniş diskussiyalar aparılır. Mən bunu müsbət qiymətləndirirəm. Çünki bu məsələlər ətrafında daim fikir mübadiləsi aparılmışdır. Ancaq bir məqsədlə – necə edək ki, xalqlar bir birinə daha yaxın olsunlar. Necə edək ki, dünyada dini zəmində qarşıdurma olmasın, xalqlar, sivilizasıyalararası məsələlər müsbət istiqamətdə inkişaf etsin. Qarşılıqlı inam artsın, qarşılıqlı hörmət artsın”* [6, s.306-307].

Daha sonra Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 may tarixli fərmanı ilə qərara alınmışdır ki hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilsin [2]. Bunun nəticəsi olaraq 2013, 2015, 2017 və 2019-cu illərdə müvafiq olar Bakıda II, III, IV və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları keçirilmişdir.

Bakı Prosesi İnsan Hüquqları haqqında Avropa Konvensiyası, Universal İnsan Hüquqları Bəyannaməsi, Vyana Bəyannaməsi və Fəaliyyət Proqramına əsaslanmaqla BMT-nin (2001) və Avropa Şurasının (2008) sivilizasiyalar və mədəniyyətlərarası dialoq haqqında gündəliyinə uyğun olaraq aşağıdakı məqsədləri hədəfləyir:

1. Mədəniyyətlər arasında anlaşma və dialoqu təşviq etmək;
2. Əməkdaşlığın artırılması, xüsusilə, müsəlman və qərb cəmiyyətləri arasında;
3. Mədəniyyətlərarası dialoq və əməkdaşlığın təşviqində mədəniyyət, incəsənət və mədəni irsin imkanlarından daha geniş və effektiv istifadə imkanlarını müəyyənləşdirmək;
4. Mədəni-bədii tədbirləri və mübadiləni dəstəkləmək, incəsənət xadimlərinin dialoq və qarşılıqlı anlaşmada rolunu qəbul etmək;
5. Səlahiyyətli beynəlxalq və regional təşkilatlar vasitəsilə üzv ölkələr, vətəndaş cəmiyyəti təşkilatları və özəl sektorun da aktiv iştirakı ilə mədəniyyətlərarası dialoqa imkanlar yaratmaq [16].

Azərbaycan dialoqa və sülhə yüksək qiymət verən ölkə olaraq BMT SA-nın ilk Forumunun keçirilməsindən sonra növbəti – 2009-cu ildə qarşılqılı münasibətlərə dair inkişaf planın hazırlanmış və Alyans ilə əməkdaşlığa başlanmışdı. 2009-cu ilin aprelində İstanbulda keçirilən II Forum daxil olmaqla Azərbaycan Alyansın forumlarında davamlı olaraq iştirak edib [6, s.299]. SA ilə aparılan geniş əməkdaşlıq Bakıda keçirilən digər dialoq platformalarında da davam etdirilir və ÜMDF-nin bir çox layihələri Sivilizasiyalar Alyansı ilə ortaq keçirilir.

Bu əməkdaşlığın inkişafı nəticəsində 2014-cü ildə BMT Baş Məclisinin 69-

cu sessiyasında SA-nın 2016-cı il Forumunun Bakıda keçirilməsi qərarı qəbul edilib, 2015-ci ildə isə Londonda bu barədə Saziş imzalanıb [11]. 2016-cı il 25-27 aprel tarixlərində Alyansın "İnklüziv cəmiyyətlərdə birgəyaşama: çağırış və məqsəd" devizi ilə Bakıda keçirilən 7-ci Qlobal Forumunda Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və 140 ölkədən nümayəndə iştirak edib [17]. Sivilizasiyalar Alyansının ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir Bakıda keçirilən 7-ci Qlobal Forumu Alyansın tarixində ən uğurlu forumlardan biri kimi qiymətləndirib [9].

2017-ci il 4-6 may tarixində Bakıda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlamışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident Mehriban Əliyeva Forumun "Sərhədsiz dünyaya doğru" mövzusunda açılış sessiyasında iştirak etmişdi. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu Azərbaycanın irəli sürdüyü və BMT-nin Sivilizasiyalar Alyansı, YUNESKO, Avropa Şurası, AŞ-nin Şimal-Cənub Mərkəzi və İSESKO-nun dəstəklədiyi təşəbbüsdür. Bu təşəbbüs mədəniyyətlərarası dialoqun dünyada ən təxirəsalınmaz vəzifələrdən biri olduğunu göstərir. Bakı Forumunda mədəniyyətlərarası dialoqun konseptual, idarəçilik, siyasi və praktiki aspektləri müzakirə olunmuş, dialoqa yönələn maneələr nəzərdən keçirilmiş və onun müxtəlif mühitdə ən yaxşı formada aparılması konkret şəkildə müzakirə edilmişdir [18]. Forumun ardınca BMT Baş Katibinin Baş Assambleyaya təqdim etdiyi 2017-ci ilin İllik Hesabatında və ÜMDF mədəniyyətlərarası dialoqun inkişafında əsas platforma kimi qeyd olunmuşdu [8].

BMT Baş Assambleyasının 72-ci sessiyasında çıxışı zamanı Prezident İlham Əliyev qeyd etmişdi:

*İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan Azərbaycan 2008-ci ildə BMT-nin dəstəklədiyi "Bakı Prosesi"nə start verdi. "Bakı Prosesi"nin əsas məqsədi müsəlman aləmi ilə Avropa arasında dialoqu, tərəfdaşlığı və əməkdaşlığı gücləndirməkdir* [1, s.173]. Beləliklə, prezident İlham Əliyev Bakı prosesinin əslində yalnız mədəni müxtəlifliyin, humanitar hüquqların qorunması sahəsində deyil, eyni zamanda müsəlman dünyası və Avropa arasında sivilizasiyalararası dialoqun inkişafı sahəsində bir forum olduğunu diqqətə çatdırmışdı.

2019-cu ilin mayında "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna 100-dən artıq ölkədən və 30-dan artıq beynəlxalq təşkilatdan nümayəndə qatılmışdı. Prezident İlham Əliyev Forumun açılışındakı çıxış zamanı diqqəti Azərbaycanın həyata keçirdiyi və iştirak etdiyi nəqliyyat və enerji layihələrinə çəkərək demişdi:

*"Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi baxmırıq. Əslində bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını*

*yaradır. Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Eyni zamanda lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik"* [14].

Daha sonra çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos Bakının BMT-nin Sivilizasiyalar Alyansının regional habına çevrilə biləcəyi fikrini irəli sürmüşdür [14]. Bu isə onu deməyə əsas verir ki, yaxın gələcəkdə ola bilər ki, Bakı Prosesi Sivilizasiyalar Alyansı ilə tam inteqrasiya etsin. Bununla da Azərbaycan sivilizasiyalararası dialoq siyasətində İspaniya və Türkiyədən sonra üçüncü əsas tərəfdaş ölkə olacaq.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarından əlavə 2010-cu ilin yanvarında Azərbaycan və Rusiya prezidentləri İlham Əliyev və Dmitri Medvedevin təşəbbüsü ilə Humanitar Əməkdaşlıq üzrə Azərbaycan-Rusiya Forumunda qəbul olunmuş qərara əsasən Beynəlxalq Humanitar Forumlar keçirilir. 2011-ci ilin oktyabrında "XXI əsr: ümidlər və çağırışlar" şüarı altında I Bakı Beynəlxalq Humanitar Forumu təşkil olunmuşdur [6, s.307-308]. Növbəti illərdə – 4-5 oktyabr 2012-ci il tarixində II, 31 oktyabr-1 noyabr 2013-cü il tarixində III, 2-3 oktyabr 2014-cü il tarixində IV, 29-30 sentyabr 2016-cı il tarixində V, 25-25 oktyabr 2018-ci il tarixlərində VI Bakı Beynəlxalq Humanitar Forumları keçirilmişdir [2, s.93].

Bakı Beynəlxalq Humanitar Forumu dövlət xadimləri, müxtəlif elm sahələri üzrə Nobel mükafatı sahiblərini, beynəlxalq təşkilatların rəhbərlərini və həmçinin, siyasi, elmi və mədəni elita nümayəndələrinin bir araya gətirərək humanitar məsələlərlə bağlı nəzəri və praktiki fikir mübadiləsi aparılır. Forum nəticəsində müxtəlif humanitar problemləri özündə əks etdirən Bakı Bəyannaməsi qəbul olunur, bu da dünya gündəmi qeyd olunan problemlərə çəkmək məqsədi daşıyır.[13]

Humanitar Forumlar zamanı multikulturalizm, müasir texnologiyalar, təhsil və elm, davamlı inkişaf və digər məsələlər üzrə sessiyalar təşkil edilir. Müasir yüksək inteqrasiya etmiş qlobal iqtisadi sistem təhlükəsizlik məsələləri ilə iqtisadi, sosial, texnologiya və başqa sahələrdə humanitar problemlərin öhdəsindən gəlmək üçün ölkələr, cəmiyyətlər arası əməkdaşlıq sistemi tələb edir. Humanitar forumlar da məhz bu məqsədlə çoxsaylı aktorları problemə cəlb edir. 2014-cü ildə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumunun açılışı zamanı Prezident İlham Əliyev bu məsələni diqqətə çatdırmışdır:

*"Bu gün müharibələr, toqquşmalar, qanlı toqquşmalar demək olar ki, ölkələri məhv edir. Bu, çox ciddi prosesdir. Biz bu prosesə təcrid edilmiş proses kimi baxa bilmərik. Müasir dünyada biz hamımız bir-birimizlə bağlıyıq "[5, s.10].*

2018-ci ildə VI Bakı Beynəlxalq Humanitar Forumu keçirilmiş və I Forumla müqayisədə 70-dən çox yeni ölkə olmaqla 97 ölkədən nümayəndə qatılmışdı [3, s.4]. Bu isə Humanitar Forumun da nüfuzunun hansı miqyasda

yüksəldiyinin göstəricisidir. Forum zamanı qəbul olunan Bəyannamə ilə Bakı Beynəlxalq Humanitar Forumunun humanitar əməkdaşlığın inkişaf etdirilməsinə təkan verəcəyi və Azərbaycanda insan kapitalının yüksəldilməsi, dayanıqlı inkişaf sahəsində olan təcrübələri yüksək qiymətləndirilməklə aşağıdakı məsələlər qeyd olunmuşdu:

- yalnız insan potensialı və insan kapitalının inkişafına qoyulan sərmayələrin həyat keyfiyyətinin yüksəldilməsinə yönəlmiş idarəetmə, istehsalat, elmi və informasiya-kommunikasiya texnologiyalarının təkmilləşdirilməsini təmin etdiyini düşünürük;
- informasiya texnologiyalarının və kütləvi informasiya vasitələrinin səmərəli sivilizasiyalararası, mədəniyyətlərarası və konfessiyalararası dialoqun təşkili məqsədlərinə nail olmaqda sürəkli artan rolunu qeyd edirik;
- ekoloji sivilizasiya haqqında təsəvvürlərin formalaşmasının, istehlak və istehsalın, təbii sərvətlərə qayğıkeş münasibətin səmərəli modellərinin tətbiqinə yönəlmiş müxtəlif fəaliyyətlərin həvəsləndirilməsinin və iqlim dəyişiklikləri ilə bağlı zəruri tədbirlər görülməsinə şüurlu münasibətin vacibliyini xüsusi vurğulayırıq;
- insan inkişafı və humanitar əməkdaşlıq sahəsində ixtisaslaşan müxtəlif beynəlxalq və milli strukturları tolerantlıq və qarşılıqlı hörmət mühitinin formalaşdırılmasına, müasir qlobal və lokal çağırışların həllinə yönəlmiş forum, konfrans və dəyirmi masaların mütəmadi olaraq keçirilməsinə çağırırıq [12].

**Nəticə**

Azərbaycan multikulturalizm sahəsində zəngin və qədim təcrübəyə malikdir. Bu müxtəliflik həm dini, həm etnik, həm də mədəni baxımdan özünü göstərir. Müstəqil Azərbaycan dövlətinin qurulmasından sonra tarixi ənənələr dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir və daha geniş miqyas almışdır. Müasir Azərbaycan Respublikası öz tarixi təcrübəsindən çıxış edərək yalnız ölkə daxilində deyil, qlobal miqyasda multikulturalizmin inkişafı sahəsində səylərini davam etdirir və bütün dünya ölkələrini əməkdaşlığa çağırır.

Azərbaycanda qlobal siyasi-mədəni dialoq siyasəti əsas olaraq 3 istiqamətdə aparılır: Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu və BMT Sivilizasiyalar Alyansı ilə əməkdaşlıq. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası ilə əməkdaşlıq nəticəsində yaradılması XX əsrin başlanğıcından etibarən dünya siyasətində fundamental problemlərdən olan İslam və Qərb sivilizasiyaları arasında gərginliyin yumşadılması və daimi dialoq mühitinin qorunması baxımından qlobal əhəmiyyət kəsb edir.

2020-ci ildə "Vətən müharibəsi"ndə qazanılan qələbədən sonra Azərbaycan tərəfi müharibələrin gətirdiyi ağır nəticələrin bir daha təkrar olunmaması üçün regional və qlobal dialoqun daha da inkişaf etdirilməsi təşəbbüsü ilə çıxış edir. Bu

kontekstdə BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosun 2021-ci ilə Azərbaycana və bu çərçivədə işğaldan azad olunan Ağdama səfərindən sonra Alyans ilə birgə “Mədəniyyət naminə sülh” qlobal kampaniyası elan olunub. Kampaniya çərçivəsində birgə hazırlanacaq Fəaliyyət Planı ilə BMT-nin Sivilizasiyalar Alyansı və Azərbaycan Respublikası arasında əməkdaşlıq nəticəsində konfliktlərin qarşısının alınmasına yönələn yeni bir dialoq platforması yaradılması mümkündür. Bu isə BMT SA-nın da agendasında tamamilə yeni bir fəaliyyət sferası olacaq.

Bakı Forumları dünyada dialoqun və sülhün təmini üçün yeni imkanlar yaradır və eyni zamanda Azərbaycana dünya siyasətində yeni gündəlik yaratma imkanı verir. Mədəniyyətlərarası dialoqun genişlənməsi, Bakı prosesinin Qərblə İslam dünyası arasında birbaşa müzakirələr aparılmasına yaratdığı imkanlar isə tərəflər arasında siyasi, iqtisadi əlaqələrin inkişafı üçün də potensialı genişləndirir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında: Seçilmiş fikirlər (Azərbaycan, rus və ingilis dillərində). Bakı: Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, 2017, 520 s.
2. Azərbaycançılıq ideologiyası: ənənə və müasirlik. Bakı: Elm və təhsil, 2019, 456 s.
3. Bu gün VI Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır / “Xalq” qəz., 2018, 25 oktyabr, s.4
4. *Cahangir C.* Azərbaycanda multikulturalizmin xüsusiyyətləri və istiqamətləri // Elm və innovativ texnologiyalar, Bakı, 2017, №1, s.57-68
5. Bakı Beynəlxalq Humanitar Forumunun materialları: 2 cilddə, I c., 2-3 oktyabr 2014-cü il, Bakı: Şərq-Qərb, 2016, 356 s.
6. *Əhədova S.A.* Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: Elm, 2014, 348 s.
7. *Niftiyev N.* Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı, 2015, 408 s.
8. 5th World Forum on Intercultural Dialogue / URL: https://bakuprocess.az/forums/baku-forum-2019/introduction/
9. 7th United Nations Alliance of Civilizations Global Forum Report / Baku, Azerbaijan, 25-27 April 2016 / URL: https://www.unaoc.org/wp-content/uploads/BakuForumReport-v5-spread-web.pdf
10. Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 27 may 2011-ci il, № 432 / URL: http://www.elibrary.az/docs/FERMAN/frm2011_46.pdf
11. Azərbaycan Respublikasının Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansı arasında 7-ci Qlobal Forumun 2016-cı il 25-27 aprel tarixlərində Bakı şəhərində keçirilməsinə dair Sazişin təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 24 dekabr 2015-ci il. № 1655 / URL: http://www.e-qanun.az/framework/31715)
12. Bakı Beynəlxalq Humanitar Forumu, Forum 2018 / URL: https://bakuforum.az/az/archive/forum-2018/
13. Bakı Beynəlxalq Humanitar Forumu, Forum haqqında / URL: https://bakuforum.az/az/#about-forum
14. Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb / URL: http://mct.gov.az/az/umumi-xeberler/forum-acilis
15. Baku Process, Global strategy for intercultural dialogue / URL: https://bakuprocess.az/baku-process/about-process/
16. Conference of Ministers responsible for Culture (Baku, 2-3 December 2008): “Intercultural dialogue as a basis for peace and sustainable development in Europe and its neighbouring regions” / URL: https://bakuprocess.az/wp-content/uploads/Baku_Declaration_en-2008-1.pdf
17. İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun rəsmi açılışında iştirak edib. 26 aprel 2016/ URL: https://president.az/articles/19563
18. İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında iştirak etmişdir / URL: http://www.president.az/articles/23532
19. UNAOC, Who We Are / About UNAOC / URL: https://www.unaoc.org/who-we-are/

Redaksiyaya daxil olub 22.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 90-97
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 90-97

*UOT 32*

***S.İ.Şükürov***
*Azərbaycan Turizm və Menecment Universiteti*
*sbir.sh@hotmail.com*

# AZƏRBAYCAN RESPUBLİKASINDA ENERJİ SİYASƏTİNİN HÜQUQİ-NORMATİV BAZASI

***Açar sözlər:*** *hüquqi-normativ baza, enerji, kommunikasiya, bərpa, enerji təhlükəsizliyi*

Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevrilməsi hamımızda qürur hissi oyadır və dövlətimizin beynəlxalq mövqelərinin möhkəmlənməsinə xidmət edir. Müasir dövrdə Respublikada bu sahəyə dair “Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı”nın, “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın, “Azərbaycan Respublikasında Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsinin təsdiq edilməsi haqqında” Qanununun, “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Qanununun qəbul edilməsi mühüm əhəmiyyət kəsb edir. Bunlar əsas götürülərək məqalədə enerji təhlükəsizliyi məsələsinin hüquqi mahiyyəti və əsas məzmunu kompleks şəkildə şərh edilmişdir.

***С.И.Шукуров***

# НОРМАТИВНО-ПРАВОВАЯ БАЗА ЭНЕРГЕТИЧЕСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

***Ключевые слова:*** *нормативно-правовая база, энергетика, восстановление, рекуперация, энергетическая безопасность*

Сегодня Азербайджан является одним из главных гарантов энергетической безопасности Европы, чем мы все гордимся и что служит укреплению международных позиций нашей республики. В современном мире в Республике имеет особую важность принятие в этой области "Государственной программы по использованию альтернативных и возобновляемых источников энергии", "Государственной программы социально-экономического развития Азербайджанской Республики", “Закон об утверждении Устава Международного агентства по возобновляемым источникам энергии в Азербайджанской Республике”, Закон о рациональном использовании энергетических ресурсов и энергоэффективности. Исходя из этого в статье комплексно трактуется основное содержание и правовая сущность вопроса энергетической безопасности.

***S.İ.Shukurov***

# LEGAL AND NORMATIVE BASE OF ENERGY POLICY IN THE REPUBLIC OF AZERBAIJAN

***Keywords:*** *normative-legal base, energy, communication, recovery, energy security*

Today Azerbaijan is one of the main guarantors of Europe's energy security, which we are all proud of and which serves to strengthen the international positions of our republic. In the modern world in the Republic, it is of particular importance to adopt in this area the "State Program on the Use of Alternative and Renewable Energy Sources", "State Program of Socio-Economic Development of the Republic of Azerbaijan", "Law on Approval of the Charter of the International Agency for Renewable Energy Sources in the Republic of Azerbaijan" , Law on the rational use of energy resources and energy efficiency. Based on this, the article comprehensively interprets the main content and legal essence of the issue of energy security.

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı strateji tərəfdaş, güclü və nüfuzlu aktor kimi tanınır. Regionda reallaşan hər bir layihə Azərbaycanın imzası ilə təqdim olunur və uğur qazanır. Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının, eləcə də energetika sahəsində dövlət siyasətinin uğurla həyata keçirilməsi nəticəsində Azərbaycan artıq özünün enerji təhlükəsizliyini tam təmin etməklə bərabər neft, qaz və elektrik enerjisi ixrac edən ölkəyə çevrilmişdir. Enerji-kommunikasiya layihələrinin əsas təşəbbüskarı olan Azərbaycan bu layihələrin reallaşmasında regional mərkəz rolunu oynayır. Bütövlükdə son dövrləri Azərbaycanın energetika sənayesi üçün əsaslı yüksəliş və yeni inkişaf mərhələsi kimi xarakterizə etmək olar. Enerji təhlükəsizliyini təmin etmiş ölkəmiz artıq 2007-ci ildən başlayaraq qonşu dövlətlərə elektrik enerjisi ixrac edən ölkəyə çevrilib. Beləliklə, dünya energetika bazarında Azərbaycanın getdikcə artan rolu onun geosiyasi təsirini də artırmaqdadır.

Energetika sahəsində aparılan islahatlar ilk öncə davamlı və əsaslandırılmış qanunvericilik bazasının mövcudluğunu zəruri edir. Ümumiyyətlə, tək energetika sahəsində deyil, dövlətin bütün sahələrdə həyata keçirdiyi islahatlar dəqiq, praqmatik hüquqi-normativ bazaya əsaslanmalıdır. Azərbaycan 7 noyabr 2006-cı il tarixdə "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"nu imzalamaqla, bu sahənin beynəlxalq standartlara uyğunlaşdırılmasına, energetika sahəsində beynəlxalq hüquqi-normativ bazanın formalaşmasına start verdi. Bu Memorandum Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin həyata keçirilməsinə, Azərbaycanın enerji infrastrukturunun tərəqqisinə və modernləşdirilməsinə, enerji sərvətlərindən səmərəli faydalanma və tükənməz enerji mənbələrindən

yarararlanmaya öz töhfəsini vermişdir. Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı bağlanmış bu müqavilə Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində dialoqun böyüməsinə və əməkdaşlığın genişlənməsinə qulluq etməkdən əlavə Avropanın enerji təhlükəsizliyinin daha etibarlı formada təmin edilməsinə imkan yaratmışdır. Bu, beynəlxalq enerji təhlükəsizliyində Azərbaycanın yerinə və roluna verilən böyük dəyərin ifadəsi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və modernləşdirilməsi, enerjidən əlverişli şəkildə istifadə, enerjiyə qənaət və bərpa edilən enerji mənbələrinin yenidən istifadəsi demək idi.

Məlum məsələdir ki, ənənəvi enerji mənbələri tükənməz deyildir, zaman keçdikcə onların azalması prosesi baş verir. Bu amil və onlardan istifadə zamanı ətraf mühitə külli miqdarda zərər vurulduğunu nəzərə alaraq dünya ölkələrində (ABŞ, Yaponiya, Almaniya, Finlandiya, Kanada, İspaniya, Çin və s.) ekoloji cəhətdən təmiz enerji mənbələrindən (günəş, külək enerjisi, kiçik SES-lər, termal sular, biokütlə enerjisi) geniş istifadə olunur. Dünya üzrə istehsal edilən elektrik enerjisinin 15 faizə yaxını alternativ və bərpa olunan enerji mənbələrindən istifadə edilməklə əldə edilir, onun isə 80 faizi biokütlədən alınan enerjidir. Günəş enerjisinin birbaşa elektrik enerjisinə çevrilməsi də dünya praktikasında geniş yayılmışdır və inkişaf etmiş ölkələrdə energetikanın əsas istiqamətlərindən biri hesab olunur. Son 10 ildə külək enerjisindən istifadə etməklə elektrik enerjisi istehsalı on dəfədən çox artmışdır. Ölkəmizin yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti imkan verir ki, dünyanın inkişaf etmiş ölkələrində olduğu kimi, respublikamızda da ekoloji cəhətdən təmiz və bərpa olunan alternativ enerji mənbələrindən geniş istifadə edilsin. Belə mənbələrdən istifadə edilməsi istilik enerji stansiyalarında yandırılan böyük miqdarda yanacağa qənaət edilməsi və ətraf mühitə atılan zərərli maddələrin miqdarının nisbətən azaldılması ilə nəticələnər. Həmçinin təbii potensialların elektrik və istilik enerjisi istehsalına cəlb edilməsi elektroenergetikanın gələcək inkişafı istiqamətində mütərəqqi dəyişikliklər etməyə də imkan yaradacaq.

Azərbaycan Prezidentinin 21 oktyabr 2004-cü il tarixli sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında Alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı" çərçivəsində bir sıra müvafiq tədbirlər həyata keçirilmiş, respublikamız bu sahədə ayrı-ayrı ölkələrin təcrübəsini diqqətlə öyrənmiş, təhlillər aparmış və beynəlxalq qurumlarla sıx əməkdaşlıq etmişdir [1]. Bu dövlət proqramından irəli gələn məsələlərin ardıcıl və səmərəli həyata keçirilməsini sürətləndirmək və ölkəmizdə alternativ və bərpa olunan enerji mənbələrini istismara cəlb etməklə enerji resurslarından istifadənin səmərəliliyini yüksəltmək məqsədilə Sənaye və Energetika Nazirliyinin (indiki Energetika Nazirliyi) tərkibində Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin yaradılması haqqında Azərbaycan Prezidentinin imzaladığı 16 iyul 2009-cu il tarixli fərmanın əhəmiyyəti olduqca yüksəkdir. 22 sentyabr 2020-ci ildə Prezident İlham Əliyev “Azərbaycan Respublikası Energetika Nazirliyinin

fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında və "Azərbaycan Respublikası Energetika Nazirliyinin fəaliyyətinin təmin edilməsi və "Azərbaycan Respublikasının Sənaye və Energetika Nazirliyi haqqında Əsasnamənin, nazirliyin strukturunun və aparatın işçilərinin say həddinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 15 may tarixli 404 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" fərman imzalayıb. Fərmana əsasən, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi yaradılıb [4].

Təsadüfi deyil ki, möhtərəm Prezidentin imzaladığı fərmanda dünya təcrübəsində geniş yayılmış alternativ enerji mənbələrindən (günəş, külək, termal sular enerjisindən, kiçik çaylar və s.) istifadə və daha da inkişaf etdirilməsi öz əksini tapmışdır. Mühüm əhəmiyyət kəsb edən bu fərmanın icrası enerjiyə qənaət və ekologiya sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsinə güclü təkan vermişdir.

Ənənəvi enerji növləri sahəsində malik olduğumuz zəngin potensial ölkəmizin tələbatına tam cavab versə də, perspektiv inkişaf baxımından mütləq alternativ və bərpa olunan enerji mənbələrindən istifadə istiqamətində dövlət başçısı tərəfindən qarşıya daha konkret vəzifələr qoyulmuşdur. Bu baxımdan həyata keçirilən çoxşaxəli strateji konsepsiyalarda alternativ və bərpa olunan enerji mənbələrindən istifadə ilə bağlı konkret müddəalar öz əksini tapır. Azərbaycan Respublikasının Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin tamhüquqlu üzvü olması barədə tapşırıq və bu təşkilatın Nizamnaməsini imzalaması [2] da məhz Prezidentin bu sahənin inkişafına göstərdiyi böyük diqqətin ifadəsidir. Belə ki, Beynəlxalq Bərpa Olunan Enerji Agentliyi (IRENA) beynəlxalq səviyyədə bərpa olunan enerji sahəsi üzrə ən mötəbər beynəlxalq təşkilatlardan sayılır. IRENA 26 yanvar 2009-cu il tarixində Bonn şəhərində təsis edilib. Azərbaycan Respublikası 2009-cu ildən IRENA-nın üzvlüyünə qəbul edilib, 2014-cü il mayın 2-də Milli Məclisin qərarı ilə IRENA-nın nizamnaməsinin ratifikasiyası ilə onun tamhüquqlu üzvü olub [5].

Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) əsas məqsədi bərpa olunan enerjinin qlobal səviyyədə geniş və davamlı istifadəsinə təkan verməkdən ibarətdir. IRENA həmçinin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr üçün əməkdaşlıq çərçivələrinin müəyyən olunmasını nəzərdə tutur. Eyni zamanda IRENA davamlı inkişaf nöqteyi-nəzərindən bərpa olunan enerjinin hərtərəfli, geniş tətbiqi və istifadəsini əsas məqsəd kimi müəyyənləşdirib. IRENA-nın əsas vəzifələri sırasında bərpa olunan enerji və enerji səmərəliliyi məsələlərinə birgə sistemli yanaşmada meydana çıxan milli prioritetlərə yardımların təmin olunmasıdır. 28 noyabr 2019-cu il tarixdə Bakıda IRENA-nın təşkilatçılığı ilə Energetika Nazirliyi, bir sıra dövlət qurumları, beynəlxalq təşkilatların nümayəndələri və ekspertlərin iştirakı ilə "Azərbaycanda Bərpa Olunan Enerjiyə

hazırlığın qiymətləndirilməsi" layihəsinin yekun hesabatı ilə bağlı tədbir keçirilib [2].

Azərbaycan Respublikası Prezidentinin 22 dekabr 2017-ci il tarixli fərmanı ilə Enerji Məsələlərini Tənzimləmə Agentliyi (AERA) yaradıldı. AERA Energetika Nazirliyinin tabeliyində yaradılmış publik hüquqi şəxsdir. Fərmanın 1-ci bəndinə əsasən Agentliyin "Azərbaycan Respublikası Energetika Nazirliyinin Dövlət Enerji Nəzarəti İdarəsinin və Dövlət Qaz Nəzarəti İdarəsinin əsasında" yaradıldığını nəzərə alaraq həmin qurumlar ləğv edilməklə onların aktiv və passivləri Agentliyə ötürülmüşdür [4]. Elektrik və istilik enerjisi, habelə qaz təchizatı sahələri Enerji Məsələlərini Tənzimləmə Agentliyinin əsas fəaliyyət istiqamətləri olaraq müəyyənləşdirilmişdir.

2020-ci il 3 fevral tarixdə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda dövlət başçısı Dövlət Proqramının 2003-cü ildə ilk dəfə olaraq qəbulundan keçən müddət ərzindəki infrastruktur layihələrinə toxunarkən bildirdi ki, "…bu illər ərzində 33 elektrik stansiyası tikildi, onların generasiya gücü 3 min meqavatdır. Əgər bu stansiyalar tikilməsəydi, bu gün ölkəmizin yarısını qaranlıq bürüyərdi, biz elektrik enerjisini yenə də idxal edərdik və buna böyük pullar verərdik. Amma biz bu stansiyaları tikməklə, 3 min meqavat generasiya gücünü əldə etməklə bu gün elektrik enerjisini ixrac edirik. Keçən il bu ixracdan ölkəmizə təqribən 60-65 milyon dollar vəsait daxil olubdur" [5].

2020-ci ildə Azərbaycan Enerji Xartiyası Konfransına sədrlik etdi. Qeyd edək ki, bu barədə qərar 2018-ci ildə qəbul olunub. Ölkəmiz üçün enerji siyasəti baxımından çox mühüm əhəmiyyət kəsb edən bir ildə bu konfransa ev sahibliyi etməsi Azərbaycanın növbəti energetika uğuru olaraq qiymətləndirilə bilər. Belə ki, "Cənub Qaz Dəhlizi" meqalayihəsi üzərində işlərin başa çatdığı 2020-ci ildə bu konfransa Azərbaycanın sədrlik etməsi ən düzgün və praqmatik bir qərar idi. 2020-ci il 28 oktyabr tarixdə "Enerji istehsalı, nəqliyyat, istilik və soyutma sahələrində bərpa olunan enerji mənbələrinə keçid: müasir çağırışlar və meyillər" mövzusuna həsr edilən Bakı Beynəlxalq Enerji Xartiyası Forumu öz işinə başlamışdı. Forum iştirakçılarına Azərbaycanda həyata keçirilən enerji siyasəti, enerji-kommunikasiya layihələrinin həyata keçirilməsində ölkəmizin rolu, icra olunan layihələr, energetika sahəsində həyata keçirilən islahatlar, o cümlədən qanunvericilik aktları layihələrinin hazırlanması, institusional dəyişikliklər barədə məlumat verilib.

Müasir reallıqlar bərpaolunan enerji növlərinin ümumi generasiya gücümüzdəki payının artmasını tələb edir. Bu sahədə əhəmiyyətli hadisə 2020-ci ilin yanvarında Azərbaycanın iki böyük xarici investor ilə bərpaolunan enerji növlərinin istehsalı üzrə niyyət protokolunu imzalaması oldu. Bu protokala əsasən ölkəmizdə çox böyük əhəmiyyətli layihələr reallaşacaq. Belə ki, biri külək, biri isə Günəş enerjisindən istifadə olunmaqla iki elektrik stansiyası tikiləcək. Bu iki stansiyanın ümumi generasiya gücü 440 meqavat səviyyəsində olacaq. Bu

genimiqyaslı layihələrə təqribən 400 milyon dollara qədər xarici sərmayə qoyuluşu nəzərdə tutulur.

Son illər ərzində Respublikanın energetika sisteminin infrastrukturunda da ciddi dəyişikliklər edilib. Yeni istehsal güclərinin yaradılması hesabına son 10 ildə elektrik enerjisinin istehsalında 39,7 faiz artım əldə edilib. Ölkənin inkişafı, əhalinin artımı, sənayeləşmə prosesi ilə əlaqədar olaraq elektrik enerjisinin istehlakı 58,3 faiz artıb. 2025-ci ilə qədər ölkəmizdə elektrik enerjisinə tələbatın 25,5 milyard kVt·st-a qədər artacağı, ixrac da nəzərə alınmaqla elektrik enerjisi istehsalının isə ötən ilə nisbətən 15% artımla 30 milyard kVt·st-a çatacağı proqnozlaşdırlır. Bu istehsal həcmlərinin bir qismi 2019-cu ildə istismara verilmiş, qoyuluş gücü 409 MVt olan "Şimal-2" elektrik stansiyası, 2020-ci ildə təməli qoyulmuş və 2022-ci ildə istifadəyə verilməsi planlaşdırılan 385 MVt gücündə "Qobu" elektrik stansiyası hesabına əldə ediləcək. Həmçinin bu prosesdə "Azərenerji" ASC-nin istehsal güclərinin optimallaşdırılması və bərpası nəticəsində yenidən istismara cəlb edilən 1300 MVt imkan gücündən istifadə ediləcək. Eyni zamanda təhlillər göstərir ki, tələbatın tam qarşılanması üçün yeni istilik elektrik stansiyalarının tikilməsinə də ehtiyac var. Azərbaycan zəngin neft, qaz yataqlarına malik olsa da, bu gün qarşıda duran ümdə vəzifə neft və qazdan qənaətlə istifadə etmək və daha çox ixraca yönəltmək üçün bərpaolunan enerji növlərindən istifadə etməkdir. Nəzərə almaq lazımdır ki, Günəş, külək kimi təbii resurslarımız da bu məqsədimizi reallaşdırmağa imkan verir.

Qeyd edək ki, 3 iyul 2018-ci il tarixdə "Azərbaycan İES"-də baş vermiş məlum qəza nəticəsində respublikanın enerji sistemində mövcud boşluqlar üzə çıxdı. Prezident İlham Əliyevin tapşırığı ilə "Azərbaycan Respublikasında kommunal xidmətlərin inkişafına dair Strateji Yol Xəritəsi"nin prioritetlərini və elektrik sisteminin yenidən qurulması tələblərini və Azərbaycanın böyüməkdə olan iqtisadiyyatının ehtiyacını həll etmək üçün Respublikanın elektroenergetika sahəsində Yaponiyanın "TEPSCO", Almaniyanın "Fichtner", "Enerco", "VPC" kimi dünyada tanınmış şirkətlərinin iştirakı ilə 3 mərhələli "Master Plan" hazırlandı. Plana əsasən "Azərenerji" ASC-yə 230 mln. manat vəsait ayrıldı. Bu gün artıq Mingəçevir İstilik Elektrik Stansiyasının beş bloku təmir olunub və bu, əlavə təqribən 400 meqavata yaxın generasiya gücü deməkdir. İES-in qalan üç blokunda da bərpa-tikinti işləri aparılır. Bu isə deməyə imkan verir ki, yaxın iki-üç il ərzində böyük dərəcədə enerji gücümüzü artıracağıq. Bütün bu tənzimləmələrlə yanaşı, transformatorların quraşdırılması, yeni yarımstansiyaların fəaliyyətə başlaması, elektrik xətlərinin təzələnməsi gündəlikdə duran vacib məsələlərdir.

Enerji effektivliyi resurslarından səmərəli və qənaətli istifadə məsələləri dövlətin əsas prioritetlərindəndir. Bu baxımdan 20 avqust 2021-ci il tarixdə qəbul olunmuş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Azərbaycan Respublikasının Qanunu" xüsusi əhəmiyyətə malikdir. Qanun layihəsinin hazılanmasına yerli mütəxəssislərlə yanaşı, beynəlxalq ekspertlər, enerji

sektorunda böyük təcrübəsi olan konsaltinq şirkətləri cəlb olunmuş, xarici ölkələrin təcrübəsi öyrənilmiş və sənədin hazırlığı zamanı istifadə olunmuşdur. Qeyd edək ki, 1996-cı ildə qəbul olunmuş və qüvvədə olan "Enerji resurslarından istifadə haqqında" Qanun müasir tələblərə cavab vermirdi. 25 il kimi qısa bir müddət ərzində Azərbaycan mükəmməl və praqmatik enerji siyasəti ilə bir çox uğurlara imza atdı, regional və qlobal enerji layihələrinin söz sahibi olan ölkələrindən birinə çevrildi. Təbii ki, belə bir tarixi şərait müasir standartlara uyğun yeni qanunun yaradılmasını zəruri edirdi. Dövrün reallığı enerji təhlükəsizliyinin təmin edilməsi üçün enerjidən səmərəli istifadəni tələb edir [3].

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanunu Avropa İttifaqının "EU4energy" proqramı çərçivəsində Beynəlxalq Enerji Xartiyasının dəstəyi ilə Energetika Nazirliyi tərəfindən hazırlanmışdır. Qanun enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin fəaliyyətini və onlar arasında yaranan münasibətləri tənzimləyir. Qanun enerjinin istehsalı, saxlanması, ötürülməsi, paylanması, satışı və istehlakı sahəsində yaranan münasibətlərə və bu sahədə fəaliyyət göstərən dövlət orqanlarına, fiziki və hüquqi şəxslərə, o cümlədən son istehlakçılara şamil olunur. Xüsusi vurğulamaq lazımdır ki, qanun layihəsində ölkəmizdə ilk dəfə tətbiq olunacaq enerji səmərəliliyi layihələrinə xüsusi yer verilmişdir, həmçinin qanun layihəsində enerji effektivliyi üzrə fondun yaradılması və fond vasitəsilə enerji effektivliyi tədbirlərinin dəstəklənməsi məsələsi yer almışdır [3]. Bütün bu əhəmiyyətli islahatların reallaşması, qeyd olunduğu kimi, ölkənin energetika sisteminin dayanıqlığının tam təmin edilməsinə gətirib çıxaracaq, bu da öz növbəsində istehlakçıların elektrik enerjisi ilə fasiləsiz təmin edilməsinə imkan yaratmaqla bərabər, Azərbaycanın elektrik enerjisi üzrə ixrac potensialını daha da genişləndirəcək.

## Nəticə

Bu gün Azərbaycan mühüm nəqliyyat, logistika və enerji mərkəzinə çevrilərək enerji-kommunikasiya layihələri ilə beynəlxalq əməkdaşlığa töhfə verir. Azərbaycan illər öncə heç kəsin təsəvvür etmədiyi və inanmadığı enerji-kommunikasiya layihələrini həyata keçirir. Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında ölkəmiz xüsusi rol oynamışdır. Əgər Azərbaycan illər öncə çox mürəkkəb bir geosiyasi vəziyyətdə öz siyasi iradəsini nümayiş etdirməsəydi, bu gün biz dövlətin energetika siyasətinin uğurlarından danışa bilməzdik. Məhz düzgün və uzaqgörən siyasət nəticəsində Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri istifadəyə verildi, Bakı-Tbilisi-Qars dəmir yolu tikildi. Daha sonra Avropanın ən böyük infrastruktur layihələrindən biri olan Cənub Qaz Dəhlizi Azərbaycanın təşəbbüsü və qətiyyəti nəticəsində reallaşdı. Dövlətimiz tərəfindən həyata keçirilən enerji siyasəti böyük bir coğrafiyada enerji

təhlükəsizliyinin təminatına, sosial rifaha, qarşılıqlı faydalı əməkdaşlığa töhfə verir.

Hal-hazırda Azərbaycan öz enerji tələbatını tam olaraq daxili imkanlar hesabına ödəyir. Bütün bu sadalanan uğurlar enerji-kommunikasiya layihələrinin əsaslandığı hüquqi-normativ bazanın vacibliyini bir daha göstərir. Həyata keçirilən enerji siyasəti müasir dövrün tələblərinə uyğun hüquqi əsaslara dayanmalıdır. Ölkəmizdə enerji təhlükəsizliyi, enerji-kommunikasiya layihələri ilə məşğul olan mütəxəssislər bu sahənin inkişafı ilə əlaqədar daim araşdırmalar aparır. Xüsusilə bu sahəyə dair elmi-tədqiqat işlərində də enerji mənbələrinin istifadəsinə aid fundamental təhlillər öz əksini tapmaqdadır. Bu baxımdan müasir dövrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadəyə dair hüquqi bazanın yaradılması da mühüm əhəmiyyət kəsb edir. Bərpa olunan enerji mənbələrindən istifadənin özünəməxsus xüsusiyyətlərindən irəli gələn bir sıra səbəbləri araşdırmaq və bu problemləri aradan qaldırmaq prioritet istiqamətlərdən biridir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında alternativ və bərpa olunan enerji mənbələrindən istifadə olunması üzrə Dövlət Proqramı. Bakı, 2004, 21 oktyabr / “Azərbaycan” qəz., Bakı, 2004, 22 oktyabr
2. Azərbaycan Respublikasında Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin Nizamnaməsinin təsdiq edilməsi haqqında Qanun. Bakı, 2014, 02 may / “Xalq” qəz., 2014, 16 may
3. Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında Qanun. Bakı, 2021, 20 avqust / “Azərbaycan” qəz., 2021, 22 avqust
4. http://www.e-qanun.az/framework/37363
5. https://president.az/articles/35705
6. https://president.az/articles/40895


Redaksiyaya daxil olub 07.10.2021

# Pedaqoji-psixoloji elmlər

*UOT 372.0:002*

***A.D.Zamanov, H.Ə.Əlizadə***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*Bakı Dövlət Universiteti*
*a_zamanov@mail.ru*

## İNTERNETİN TƏHSİLƏ İNTEQRASİYASI TƏLİM PROSESİNİN SƏMƏRƏ VƏ KEYFİYYƏTİNİN ARTIRILMASI YOLU KİMİ

***Açar sözlər:*** *informasiya texnologiyaları, Veb 1.0 - alətləri, Veb 2.0 - alətləri, Sosial media vasitələri, YouTube, Facebook, Instagram, Twitter, Vikilər, Bloqlar*

İnsanlar arasında əlaqələrin yaradılması, müxtəlif fəaliyyətlərin həyata keçirilməsi baxımından internetin həyatımıza daxil olma arealı sürətlə böyüyür. İnternetin zərərləri haqqında kifayət qədər məlumatlı olsaq da, sürətli dünyamızda ondan öz işlərimizin səmərəli və keyfiyyətli şəkildə həyata keçməsi üçün istifadə etmək məcburiyyətindəyik. Təhsil sferasında da internetdən, onun imkanlarından istifadə etmək təlim fəaliyyətinin səmərəsinin və keyfiyyətinin artmasına xidmət edir. Məqalədə təhsilin səmərə və keyfiyyətinin artırılması baxımından müxtəlif təcrübələr əsasında internetin imkanları, veb 1.0 və veb 2.0 alətlərinin, sosial media vasitələrindən Twitter, Facebook, Instagram, YouTube, o cümlədən Vikilər, Bloqlardan təlim prosesində istifadənin yolları araşdırmış, müvafiq təkliflər verilmişdir.

***А.Д.Заманов, Х.А.Ализаде***

## ИНТЕГРАЦИЯ ИНТЕРНЕТА В ОБРАЗОВАНИЕ КАК СПОСОБ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ И КАЧЕСТВА ПРОЦЕССА ОБУЧЕНИЯ

***Ключевые слова:*** *информационные технологии, инструменты Web 1.0, инструменты Web 2.0, социальные сети, YouTube, Facebook, Instagram, Twitter, Википедия, Блоги*

В повседневной жизни возможность и потребность доступа к Интернету быстро растет, причем как с точки зрения формирования отношений между людьми, так и с точки зрения выполнения различных действий. Мы достаточно осведомлены об опасностях, подстерегающих нас из Интернета, однако в нашем быстро меняющемся мире мы должны использовать его возможности, чтобы реализовывать свою работу эффективно и результативно. Использование Интернета и его возможностей в сфере образования способствует повышению эффективности и качества образовательной деятельности. В связи с этим, для

повышения эффективности и качества образования в данной работе исследованы возможности Интернета через анализ опыта пользователей в этой сфере, в частности, использование инструментов Web 1.0 и Web 2.0, социальные сети – Twitter, Facebook, Instagram, YouTube, исследованы пути использования Wikipedia, Блог в процессе обучения, представлены соотвествующие предложения.

***A.D.Zamanov, H.A.Alizadeh***

## INTEGRATION OF THE INTERNET TO EDUCATION AS A WAY TO IMPROVE THE EFFICIENCY AND QUALITY OF THE LEARNING PROCESS

***Keywords:*** *information technology, Web 1.0 tools, Web 2.0 tools, social networks, YouTube, Facebook, Instagram, Twitter, Wikipedia, Blogs*

In everyday life, the ability to access the Internet is growing rapidly, both in terms of forming relationships between people and in terms of performing various activities. We are sufficiently aware of the dangers that lie in wait for us from the Internet, however, in our rapidly changing world, we must use its capabilities in order to implement our work effectively and efficiently. The use of the Internet and its possibilities in education contributes to an increase in the efficiency and quality of educational activities. To improve the efficiency and quality of education, in this article explored the possibilities of the Internet through the analysis of user experience in this area, in particular, the use of Web 1.0 and Web 2.0 tools, including social networks in the learning process – Twitter, Facebook, Instagram, YouTube, Wikipedia, Blogs and maked corresponding suggestion.

### Giriş

İnformasiya texnologiyaları artıq xeyli vaxtdır ki, təlim prosesinə tətbiq olunur. İlk vaxtlardan bu texnologiyalar təlim prosesinin keyfiyyətini artıran vasitəyə çevrildi. İnternetin yaranması İKT-nin imkanlarını daha da genişləndirdi. İnternet insanlara daha asanlıqla, daha qısa müddətdə, daha çox, daha məzmunlu informasiya əldə etmək imkanı verdi. Bu texnoloji inkişaf informasiya texnologiyalarından təhsildə istifadə edərək təhsilalanların daha çox məlumat əldə etməsi fikrini gündəmə gətirdi. Nəticədə informasiya texnologiyalarının təhsilə inteqrasiyası getdikcə genişləndi.

### Veb 1.0 - alətləri informasiya mənbəyi kimi

Təlim prosesinə informasiya texnologiyalarının tətbiqi ilk dövrlərdə veb 1.0- alətləri vasitəsi ilə həyata keçirildi. Bu alətlərin tətbiqi zamanı bütün məlumat mübadiləsi ana kompüterdən digər istifadəçilərə ötürülürdü, yəni bu alət müəllim və dərsliklərlə yanaşı, öyrənənlər üçün informasiya mənbəyinə çevrildi. Müəllim və dərsliklərdən fərqli olaraq bu texnologiyaların məlumat

bazasının günü-gündən genişlənməsi onların əhəmiyyətinin artmasına rəvac verdi.

İnformasiyanın veb 1.0 - alətləri vasitəsi ilə əldə edilməsi elə görünə bilər ki, təlim prosesində müəllimin rolunu azaldır. İlk dövrlərdə belə fikirlər dolansa da, zaman göstərdi ki, veb 1.0 - alətlərinin təhsilə inteqrasiyası təlim prosesində yalnız müəllimin informasiya ötürücü funksiyasını azaldır, əvəzində isə təhsilalanların informasiyalar əldə etməsi, onu emal etməsi üçün müəllimin məsləhət verən, istiqamətləndirən və nəzarət edən (fasilitator) funksiyası meydana gəldi. Fasilitator bir qrup insanı görüşlər və ya müzakirələr zamanı daha yaxşı işləməyə, ümumi məqsədləri başa düşməyə və bu məqsədlərə necə çatmağı planlaşdırmağa kömək edən bir insandır [1].

Bütün ölkələrdə təhsilin məzmunu baxımından məlumatlar eyni səviyyədə deyil. Bəzi ölkələrdə informasiya texnologiyalarının təhsilə tətbiqi artıq xeyli müddətdir ki, həyata keçirilir. Buna görə də həmin ölkələrdə təhsilin məzmunu ilə bağlı kifayət qədər müxtəlif məzmunlu təcrübələr toplanmışdır. İnternet hər bir insana xarici ölkə məktəblərinin və universitetlərinin bu istiqamətdə əldə etdiyi təcrübələri paylaşmaq imkanı verir. Bu işi asanlaşdırmaq, "dil baryerini" aradan qaldırmaq üçün internetdə hətta "Tərcümə" proqramları mövcuddur. Bu proqramlar təhsilalanların bu çətinliklərinin dəf edilməsinə kömək edir.

Veb 1.0 - alətləri öyrədənlər və öyrənənlərin işinin səmərəliliyini artırdı. Onların bu texnologiyalardan istifadə etmək bacarıqları yüksək olduqca uğurlar daha da artdı. Lakin veb 1.0 – alətlərindən istifadə zamanı təhsilalanlar bir-biri ilə qarşılıqlı əlaqəyə daxil ola bilmirlər. Əldə edilmiş informasiyanın emal edilməsi prosesində təhsilalanların qarşılıqlı əlaqəsi, əməkdaşlıq etməsi mühüm əhəmiyyət kəsb edir ki, bu imkanları da veb 2.0 - alətləri yaratdı.

**Veb 2.0 - alətləri – qarşılıqlı əlaqədən distant təhsilə gedən yol**

Təlim prosesində veb 1.0 - texnologiyalarının əldə etdiyi uğurlar özünün sonrakı inkişafını veb 2.0 - texnologiyalarının təhsilə inteqrasiyasında tapdı. Bu iki texnologiyanın fərqi ondan ibarət oldu ki, veb 2.0 - texnologiyaları məlumat mübadiləsi üçün təhsilalanlarla qarşılıqlı əlaqə yaratmaq imkanı verir. Bu imkanlar distant təhsilin yaranmasına yol açdı.

Veb 2.0 - texnologiyalarından istifadə zamanı təhsilalanlar istənilən vaxt müzakirəyə cəlb oluna bilirlər. Bu, zaman və məkan seçimini müəllimlə razılaşma əsasında təhsilalanların müəyyən etməsi fəal öyrənmə mühitinin yaranmasına səbəb olur. Veb 2.0 - alətləri həm fərdi, həm də qrup müzakirələri üçün geniş imkanlara malikdir. Bu proqramlardan istifadə edərkən orada olan veb səhifələr və videolar müzakirələrə hər bir istifadəçinin daxil olmasına icazə verir. Bu da təhsilalanların dərs və dərsdənkənar fəaliyyəti üçün geniş imkanlar açır.

Minocha və Robertsə görə, veb 2.0 - alətləri vasitəsi ilə təqdim edilən məlumatları təhsilalanların əldə etməsinə, paylamasına və bir-birləri ilə əməkdaşlıq edə bilməsinə şərait yaradan güclü vasitədir. Bu texnologiyalardan istifadə üçün təhsilalanların fərdi imkanları müxtəlif olduğu üçün əldə olunacaq nəticələrin də fərqli olacağı ehtimal olunur [2].

Təhsildə dinamik veb texnologiyalarından istifadə edərkən iki əsas məqam nəzərə alınmalıdır: dinamik veb texnologiyaları ilə həyata keçirilən təlim kompüter savadı olan insanlarla daha səmərəli nəticələr verir; əhəmiyyətsiz məqsədlər üçün dinamik veb texnologiyalarının istifadəsi qadağan edilməlidir [3].

Hazırda onlayn dərslərin "keyfiyyəti" məsələsi gündəmdədir. Bəzi mütəxəssislər bu dərslərin keyfiyyətini təlimin ənənəvi forması səviyyəsinin keyfiyyətinə qaldırmağın mümkün olduğunu vurğulayırlar. Lakin bu fikir bir mənalı qarşılanmır. Mütəxəssislərin digər qismi bu dərslərin keyfiyyətinin nəzərəçarpacaq dərəcədə təlimin ənənəvi formada təşkilindən geri qaldığını sübut etməyə çalışırlar. Biz belə mübahisənin tərəfdarı deyilik. Fikrimizcə, təlimin bu iki forması bir-birinə alternativ kimi qiymətləndirilməməlidir, onlar təlimin müxtəlif növləri kimi dəyərləndirilməlidir. Təhsilin hibrid təşkili formasının yaranması əslində bu düşüncənin məhsuludur. Biz təhsilin təşkilinin hər iki formasından istifadənin tərəfdarıyıq. Onların hər birinin özünəməxsus üstünlükləri vardır. Misal kimi pandemiya dövründə keçirilən onlayn dərslərin, təlimlərin və imtahanların, magistr, fəlsəfə doktorluğu və elmlər doktorluğu dissertasiya işlərinin müdafiəsinin onlayn təşkilini göstərə bilərik. İlk təçrübə olduğu üçün müəyyən çatışmazlıqlara baxmayaraq onlayn dərslər və digər fəaliyyətlər təhsilalanların təhsildən kənar qalmalarının qarşısını aldı. Buna görə də onlayn dərslərin təmin olunması üçün yeni imkanlar araşdırılmalıdır. Məsələn, şagird və ya tələbə müxtəlif səbəbdən dərsə gələ bilməyəndə onların təlimdən geri qalmamaları üçün dərsdən sonra münasib vaxt ərzində onlayn formada müəllimlə əlaqə saxlayıb, müəyyən informasiya və ya məsləhət alması, müəllimin orta məktəb şagirdlərinin ev tapşırıqlarını hazırlayarkən və yaxud asudə vaxtının səmərəli təşkili üçün və s. onlayn əlaqə yaratmaq faydalı ola bilər. Fikrimizcə, onlayn dərslərin yüksək səviyyədə təşkili üçün yeni modellər də hazırlamaq mümkündür. Onlar təlimin keyfiyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edə bilər.

Müxtəlif fikirlərin olmasına baxmayaraq veb 2.0 texnologiyaları mahiyyəti etibarı ilə birgə öyrənməni özündə ehtiva edir. Bu zaman müəllim hətta şagirdlər və tələbələr arasında əməkdaşlığı da həyata keçirmək imkanına malik olur. Son texnologiyalar təlim qarşısında duran məqsədlərin daha əhatəli şəkildə həyata keçirilməsi üçün dəstək və fərdi təlimat verir [4]. Mütəxəssislərin fikrincə, müasir təlim texnologiyaları vasitəsi ilə müəllim bütün təhsilalanların fəaliyyətinə nəzarət edə bilir və hətta bir neçə qrupla eyni vaxtda qarşılıqlı əlaqə

qura bilir [5].

Hazırda mütəxəssislər kompüterlə birgə öyrənmə imkanlarını araşdırırlar. Bu insanların kompüter vasitəsilə öyrənməsinin yeni mərhələsidir. Jonassen və Kvon şagirdlərin dərsdə fəal iştirak etdikləri, üz-üzə ünsiyyət və qarşılıqlı əlaqələrin meydana gəldiyi ənənəvi öyrənmə mühiti ilə müqayisədə kompüter əsaslı öyrənmə mühitində bir-birləri ilə qarşılıqlı əlaqə qurma imkanlarının heç də az olmadığını bildirirlər [6].

Veb 2.0 tətbiqetmələri sosial şəbəkələrin yarandığı zamana təsadüf etdi. Təcrübələr göstərdi ki, sosial şəbəkələr müəllim və təhsilalanlara bir-birləri ilə ünsiyyət qurmaq, əməkdaşlıq etmək, müzakirələr aparmaq üçün faydalıdır. Bu texnologiyalara nümunə olan “Twitter”, “Facebook, “Instagram”, “YouTube” və s. göstərmək olar.

**Sosial media vasitələrinin tədris imkanları**

Son zamanlarda sosial medialarda geniş məlumat bazalarının əlçatan olması onun təhsilə inteqrasiyasını artırmışdır. Sosial mediadan istifadə zamanı yalnız gündəlik məlumatlar deyil, akademik məlumatlar da əlçatandır [7]. Müasir dövrdə sosial medialar təhsilalanların təkcə akademik fəaliyyətlərini deyil, həm də sosial varlıq kimi ünsiyyət istiqamətlərinin yeni formasını təşkil edir: təhsilalanların əməkdaşlığının inkişafına təkan verir, onlar yaşayış yerlərindən asılı olmayaraq məlumat bazasına daxil ola bilir, yoldaşları ilə əlaqə yarada bilir, qısa müddət ərzində onları bir virtual auditoriyaya yığmaq olur və s. Nə üçün təlim prosesinin təşkilində bu üstünlüklərdən istifadə edilməsin?!

Sosial media təhsilalanları ünsiyyət qurmağa, əməkdaşlıq etməyə, paylaşmağa, ictimailəşdirməyə imkan verən mühit yaradır. Sosial mediadan istifadənin mənfi və müsbət tərəfləri vardır. Tələbələrin sayının artması inteqrasiya və ünsiyyətin artmasına müsbət təsir göstərsə də, bağlılıq, müəllif hüquqları və məxfilik problemləri vardır [8]. Əvəzində sosial media interaktiv və motivasiyaedici mühiti özündə birəşdirə bilir. Asterhan və Rosenbergə görə, Facebook-dan şagirdlər ilə əlaqə qurmaq üçün bir vasitə kimi istifadə edən müəllimlər müxtəlif məqsədlərə nail olurlar. Bunlardan biri dərsdən kənarda tədrisin genişləndirilməsi və məktəblə əlaqəli tədbirlərin təşkilidir. Eyni zamanda virtual sahəni izləmək, kəşf etmək və şəxsi imkanları aşkarlamaq üçün psixopedaqoji məqsədlərlə də bu tip əlaqələrdən istifadə oluna bilər [9]. Aparılan tədqiqatlar nəticəsində video görüntülərdən istifadə edən şagirdlərin fənlərə daha yüksək səviyyədə yiyələndikləri və daha yüksək akademik göstəricilərə sahib olduqları qənaətinə gəlinmişdir [10]. Videoların yaradılması şagird və tələbələrin informasiya texnologiyaları, akademik və sosial bacarıqlarını gücləndirir. Sosial medianın ayrı-ayrılıqda təlim prosesində necə istifadə olunması ilə əlaqədər araşdırmalar edərkən aşağıdakı nəticələrə gəlinmişdir.

**Twitter** uzunluğu 140 simvol olan sosial media vasitəsidir. Təbii ki, bu həcm təlim üçün nəzərəçarpacaq dərəcədə azdır. Lakin bununla yanaşı, qeyd etməliyik ki, Twitterdən təlim vasitəsi kimi istifadə etmək mümkündür. Bunun üçün qısa mətnləri mesaj kimi ötürmək kifayətdir. Bu zaman əsas məsələ mahiyyət haqqında məlumatın verilməsidir. Aparılmış tədqiqatlara əsasən təhsil sahəsində Twitterdən istifadə etməyin yollarını izah edək [11]:

- Twitterdə "Müəllimlər üçün Twitter" səhifəsi mövcuddur. Onlar sadəcə olaraq bu səhifəyə daxil olaraq çoxlu sayda bağlantıya daxil olub həmkarlarından maraqlandıqları mövzularla bağlı zəruri məlumatlar əldə edə bilərlər.
- Müəllimlər Twitterdən istifadə edərək tapşırıqların təfərrüatları haqqında qısa məlumatları asanlıqla və tez bir zamanda tvit edə bilərlər. Hər bir kəs tviti ala, paylaşa, ötürə və ya cavab verə bilər. Bu, Twitteri onların əməkdaşlığına təkan verən vasitəyə çevirmişdir.
- Təlim prosesində baş verən hər bir dəyişiklik haqqında məlumat vermək üçün Twitterdən istifadə oluna bilər. Ani vaxt ərzində təhsilalanlar məlumat alır və tələbə yoldaşları ilə paylaşa bilirlər.
- Twitterdən istifadə edən hər kəs zəruri tədqiqat materialını tez və asanlıqla əldə edə bilir. Bunun üçün axtarış panelinə müvafiq açar sözləri yazmaq kifayətdir.
- Hər hansı bir mövzunu axtararkən Twitterdə mövcud olan digər qruplara qoşulmaq mümkündür ki, bu da Twitterdə yeni dostluqlar yaratmaq, fikir bölüşmək imkanlarını açır.
- Sinif üçün maraqlı olan bir mövzunu qruplar arasında paylaşmaq mümkündür.
- Twitter vasitəsilə müəllimlər sorğu keçirə bilər. Məsələn, dərsdə şagird və tələbələrin nəyi bəyəndiklərini, nəyi bəyənmədiklərini, hansı dəyişikliklər etmək istədiklərini, hansı kitabları oxumağa üstünlük verdiklərini, dərs və təhsilalanların inkişafı ilə bağlı digər məsələlər haqqında sorğu keçirmək mümkündür.
- Öyrənənlərlə onlarda yaradıcı keyfiyyətlərin inkişafı üçün oyundan istifadə etmək olar. Məsələn, orta məktəbdə hər hansı bir hekayəni başlayıb, sonra onun şagirdlər tərəfindən davam etdirilməsini tapşırıq kimi vermək olar.

Deyilənlər Twitterin təhsilə inteqrasiyası haqqında olan fikirlərdir. Şagirdlər, müəllimlər və valideynlər Twitterdə aktiv olmaqdan faydalana bilərlər. Bu portal eyni zamanda birləşmiş və yığcam qrupların yaradılmasına imkan verir.

İnsanlararası əlaqələr baxımından **Facebook** mühüm əhəmiyyət kəsb edir. Burada dostluq qruplarında olan insanların ad günləri qeyd olunur, insanlar müxtəlif hadisələr haqqında, o cümlədən oxuduqları kitablar, yaradıcılıqları, yaşadığı hissləri əks etdirən yazıları, bir-birləri haqqında fikirləri və s.

məlumatlar var. Burada məişət məlumatları ilə yanaşı, elmi məlumatlar da əldə etmək olar. Bunu iki istiqamətdə həyata keçirmək mümkündür:

- Facebook-da öyrənmə üçün yeni və maraqlı olan informasiyalar əldə etmək;
- İstər yerli, istərsə də beynəlxalq səviyyədə tanınan şəxslərlə əlaqə qurmaq.

Əldə olunan təcrübələrə əsasən Facebook-dan yararlana bilmək üçün aşağıdakıları bilmək məqsədəuyğundur:

- Lazım olan məsələ haqqında insanlara müraciət edə bilərsiniz. Sizin dostluq qrupuna daxil olan insanların hansı həmin informasiyaya malikdirsə, onu sizə göndərəcək və siz qısa zaman kəsiyində öyrənmək istədiyiniz məsələ ilə bağlı kifayət qədər məlumat əldə edəcəksiniz;
- Dünyanın müxtəlif ölkələrində uşaqlar üçün mühazirələr və təqdimatlar verilir. Siz onları dinləyə bilərsiniz;
- Facebook-da müxtəlif muzeylərin, qalareyaların rəsmi səhifələri var. Onlara giriş əldə edərək şagirdlərin həmin muzey və qalareyalara onlayn ekskursiyasını təşkil etmək oar;
- Facebook-da çox sayda maarifləndirici oyunlar mövcuddur. Dərs prosesində Facebook-da mövcud olan həmin oyunlardan uşaqlarda həm motivasiya, həm də idraki maraq yaratmaq üçün istifadə etmək olar;
- Tələbələr Facebook-da öz tədqiqatları və onun nəticələri ilə bağlı sorğu keçirə bilərlər;
- Facebook-da mövcud olan "Flashcards" öyrənmə üçün maraqlı bir platformadır və ondan sinifdə layihələrin və tapşırıqların icrası zamanı istifadə etmək olar;
- Tələbələr bir-birləri ilə mənbələri və problemlə bağlı fikirlərini paylaşa bilirlər;
- Şagirdlər və tələbələr dəyərli mənbələr hazırlayaraq sinfin Facebook səhifəsində paylaşmaq üçün xəbər linkləri yarada bilərlər. Bu onların daha çox məlumat toplamasına şərait yaradır;
- İmtahan ərəfəsində tələbələr onlara aydın olmayan məsələlər haqqında müəllimdən və bir-birlərindən məlumat ala bilərlər;
- Tələbələrdən oxuduqları mətnlərin xülasəsini göndərməsini xahiş etmək olar. Bu həm də onların dərsi öyrənmələrinə nəzarət mexanizmi kimi istifadə olunur;
- Şagirdlərin və tələbələrin idman nəticələri, məktəbdə və ya universitetdə baş verən hadisələr haqqında məlumatları Facebook-da yerləşdirmək olar. Həmin məlumatlar təhsilalanların həm daha yüksək nailiyyətlər əldə etməsinə, həm də onların bir-birini daha yaxşı tanımalarına imkan verir;
- Facebook-da müəllimlər valideynlər üçün səhifə aça bilər ki, bu yolla onlara övladlarının fəaliyyəti, ailədə uşaqların tərbiyəsinin təşkili və s. metodiki

məsələlər haqqında məlumatlar və məsləhətlər verə bilər. Hətta burada valideyn qrupları da təşkil etmək olar. Bu qruplarda valideynlər bir-birləri ilə əlaqə saxlayaraq övladlarının təlim-tərbiyəsinin təşkili istiqamətində bir-birləri ilə təcrübələrini bölə bilərlər;

- Feysbukda sinif həyatı haqqında məlumatlar toplusundan ibarət olan məlumatların məcmusunu özündə birləşdirən hadisələri arxivləşdirmək mümkündür;

- Müəllimlər keçiriləcək bütün dərslərin xülasəsini, təqdimatları, videoları və s. Facebook-da yerləşdirə bilər;

- Facebook yalnız dərsləri deyil, həm də faydalı ideyaları olan müəllimləri birləşdirmək üçün virtual məkandır [12].

Facebook-un əlavə təhsil xidmətləri də var: **TechPrep** (Facebook-un rəhbərlik etdiyi bu təşəbbüs "McKinsey və Company" tərəfindən dəstəklənir və kompüter elmləri və proqramlaşdırma haqqında daha çox örənmək istəyən valideynlər, himayəçilər və öyrənənlər üçün yaradılmışdı), **TechStart** (bu vasitə kompüter elmlərinə maraq oyatmağa yönəlmişdi), **Həftə üçün mühəndis** (üç həftəlik davam edən bu məktəbdənkənar proqram 13 və daha çox yaşlı gənclərə mühəndislik dünyasını araşdırarkən kompüter elmləri bacarıqlarından istifadə etməyi öyrədir). Bu xidmətlərdən hər kəs yararlana bilər.

Kütləvi vizual sosial media saytlarından biri **Instagram-**dır. Fəaliyyətə başladığı 2010-cu ildən indiyə qədər 130 milyondan çox istifadəçi qazanıb.

Dünya məktəblərində müəllimlərin şagird və valideynlərlə ünsiyyət qurmaq üçün Instagram-dan istifadə təcrübəsi var. Bunun üçün sadəcə olaraq müəllim xüsusi bir sinif hesabı yaratmalıdır. Bu hesab yalnız siniflə əlaqəli məsələlər üçün istifadə olunmalı, yalnız şagirdlər və onların valideynləri tərəfindən izlənilməlidir. Xüsusi sinif hesabını açdıqdan sonra, dərhal hashtag (#) axtarış və şəkillər yerləşdirmək mümkündür. Hashtag-ın sizi hara aparacağını izləyin.

Instagram vasitəsi ilə ev tapşırığını öyrənmək və ya yada salmaq üçün ora məlumatlar və şəkillər göndərmək olar. Instagram-da ayrıca şərh bölməsi vasitəsi ilə sinif müzakirələrini təşviq etmək imkanı var. Nəhayət, müəllimlər rəqəmsal vətəndaşlıq yarada bilər. Instagram-dan istifadə etmək qaydalarını bilən şagird rəqəmsal vətəndaş olmaq üçün lazım olan bacarıqlar əldə etməlidir.

Instagram məktəblərin özünü tanıtması, eyni zamanda müəllimlərin şagirdlərlə daha yaxşı ünsiyyət qurması baxımından faydalıdır. Instagram-dan əyləncə tapşırıqları və məktəb layihələrini tamamlamaq üçün istifadə edə bilərlər. Hannah Hudson bir müddət əvvəl Instagram-dan tələbələrlə birlikdə istifadə etməyin yollarını açıqlamışdı. Onlardan bəzilərinə diqqət edək:

- Yalnız valideynlərin və məktəb nümayəndələrinin görə bildiyi xüsusi Instagram hesabında tələbələrin yaradıcı əsərlərinin və digər xüsusi layihələrin şəkillərini daima nümayiş etdirin.

- Tələbələri sinif Instagram hesabında gündəlik həyatlarından şəkillər paylaşmağa dəvət edin. Bu şəkillər əsasında daha səmərəli fəaliyyətinə əsasən həftənin tələbəsini müəyyən edin.

- Tələbələri sevimli kitablarının fotolarını paylaşmağa və sonra oxumağa, daha sonra onun haqqında rəy yazmağa təşviq edin [13].

Instagram tələbələrin olduğu yerdir və tələbəyə bilik öyrətmək üçün müəllim onunla bir yerdə olmalıdır. Təlim prosesində Instagram-ın tətbiqi bu reallıqdan yaranmışdır.

Rəqəmsal əyləncə məkanı kimi məlum olan **YouTube** həm də öyrənmək üçün vacib bir mühitdir. Elekton təhsil videoları çox güclü öyrənmə vasitəsidir, çünki o məlumatın ötürülməsini yaxşılaşdırır, mürəkkəb prosedurları nümayiş etdirir və çətin mövzuları izah etməyə kömək edir. Onlar əyləncəli xarakter daşıya bilər və şagirdləriniz onlara istədiyi qədər baxa bilər.

Aşağıda tədqiqatçıların YouTube-dan istifadə üçün təklif etdikləri bəzi məsləhətlərə diqqət edək:

- YouTube videolarını elekton təhsil kursuna əlavə etmək asan bir işdir. Bir mövzunu öyrətmək, onlayn izah etmək, öyrənənləri həvəsləndirmək və ya sadəcə olaraq elekton təhsil kursu haqqında məlumat yaymaq üçün YuoTube videoları olduqca əhəmiyyətlidir;

- YouTube-dan hər kəsin şərh verə biləcəyi, töhfə verə biləcəyi və fikirlərini paylaşa biləcəyi güclü bir elektron öyrənmə icması quraraq istifadə etmək olar;

- Elekton təhsil videoları təhlil üçün xüsusilə effektiv vasitədir. Bir YouTube videosuna baxdıqdan sonra şagirdlərinizdən öz şəxsi fikirlərini bildirməsini xahiş edərək onlayn müzakirəni təşviq edə bilərsiniz;

- YouTube şəbəkəsinə elektron öyrənmə materiallarının yüklənməsi, onu bütün tələbələr üçün əlçatan edir. Onlar mobil telefonlar, planşetlər və ya gündəlik istifadə etdikləri digər vasitələrlə bu materiallarla tanış ola bilirlər. Bundan əlavə tələbələrin YouTube-dan öz təqdimatlarını bölüşmək üçün də istifadə etmək mümkündür;

- YouTube bütün cihazlarda mövcud olduğundan və öyrənənlərin qısa seqmentlərdə daha uzun elekton təhsil videolarına baxmasına imkan yaratdığına görə təhsilalanlar videoları istədikləri vaxt izləyə və təklif olunan məlumatları mənimsəyə bilər;

- YouTube videolarını elekton təhsil kursunun bir hissəsi kimi istifadə etmək, tələbələrin YouTube video materialının mahiyyətini və əsas məqamlarını tam qavrayana qədər izləmək, geri çevirmək və yenidən oxutmaqla bu bacarıqları inkişaf etdirmək mümkündür. Hətta buna əsaslanan onlayn tapşırıqlar həyata keçirmək olar. Məsələn, tələbələrə hər hansı bir video vasitəsi ilə öyrəndiklərini bir neçə sözlə ifadə etmələrini tapşırmaq məqsədəuyğun olar.

- YouTube-dan virtual kitabxana kimi istifadə etməklə tələbələrə mürəkkəb anlayışlar, prosedurlar və fikirləri daha yaxşı öyrənməyə imkan yarada bilərik. Bu zaman video kliplər təsirli ola bilər;

- Tələbələrdən onlayn qrup tapşırığı çərçivəsində bir video hazırlamağı xahiş etmək olar. Onlar bu videoda öyrəndikləri vacib məlumatlardan istifadə edəcəklər. Tələbələrə verilən bu tapşırıq həmçinin onların yaradıcılıqlarının inkişaf etməsinə istiqamətlənmişdir [14].

YouTube çox güclü rabitə mühitlərindən biridir. Deyilənlərdən istifadə edərək zəruri məlumatları asanlıqla yetirmələrinizə çatdıra bilərsiniz. YouTube-u təhsil aləti kimi dəyərləndirmək həqiqətən faydalıdır. “XXI əsrdə min illərdir davam edən kampus əsaslı təhsilin açıq, hər yerdə, istənilən vaxt təşkili modelinə keçidini görürük” [15].

Təlim prosesində digər media vasitələrindən - **Vikilər, Bloqlar, Etiketləmə**dən də istifadə etmək olar. Onları izah edək:

- **Vikilər** bir çox istifadəçinin paylaşdığı səhifələri eyni şablondan istifadə edərək qurulmuş veb-saytlardır. Onlar birlikdə qurmağı və birlikdə işləməyi təmin edir ki, bu da onları birgə öyrənmək üçün uyğun bir vasitə halına gətirir.

"Viki texnologiyaları" dedikdə, "sürətli düzəliş texnologiyaları" başa düşülür. Bəzən Viki texnologiyalarını "canlı sənədlər texnologiyaları" da adlandırırlar. Bir çox istifadəçilər "Wiki" sözünün "what I know is" (mən nə bilirəm) ifadəsindən alındığını hesab edirlər. Bu ifadə Viki texnologiyalarının mənasını təyin edir: hər hansı biliyə malik olan istifadəçi, informasiyanı veb-saytda çap etməklə bu biliyi başqaları ilə bölüşür [16].

Sinif otağında müəllimlər fənnin məzmununu şagirdlərə çatdırır. Vikilərlə şagirdlər fənnin məzmununu necə dərk etdiklərini birlikdə nümayiş etdirmək imkanı qazanırlar. Vikilər şagirdləri biliyi istehlak edəndən biliyi yaradana çevirir. Blumun təlim məqsədləri taksonomiyasını yada salaq. Bu taksonomiyada sonuncu məqsəd yaratma kimi dəyərləndirilir. Vikilər bu məqsədin reallaşmasına xidmət edir. Nəticədə şagirdlərdə yaradıcı təfəkkürün inkişaf etməsi üçün şərait yaranır. Bununla yanaşı, Vikiləri hazırlayarkən şagirdlər qrup formasında işlədikləri üçün onlar bir-birindən öyrənir və onlarda birgə işləmək bacarıqları inkişaf edir.

Vikilərin istifadəsi zamanı aşağıdakıları həyata keçirmək olur:

- Vikinin tələbə işinin sənədləri kimi xidmət etdiyi mini tədqiqat layihələri;

- Tələbələrin fənlə bağlı oxuduqları barədə xülasə və tənqidlər əlavə etdikləri birgə izahatlı biblioqrafiyalar;

- Fənlə əlaqəli faydalı terminlərin, konsepsiyaların, hətta böyük bir fənn konsepsiyasının bələdçisinin və ya lüğətinin tərtib edilməsi;

- Müəllim və tələbələrin fənlə əlaqəli fikirləri yerləşdirilə, şərh edilə, qruplaşdırıla və ya təsnif edilə biləcəyi əlaqələr toplusunun yaradılması;

- Müəllim və tələbələrin müvafiq sənədləri yerləşdirə biləcəyi fənn sənədlərinin onlayn anbarının yaradılması;
- Tələbə işinin elektron portfellərinin yaradılması [17].

**Bloqlar** istifadəçilər tərəfindən Blogosfer adlanan bir alt dünyada yaradılan şəxsi gündəliklərdir. Onlar veb 1.0-dan fərql olaraq davamlı yazmağı təmin edirlər, bir səhifədən ibarət olmur, daha çox məlumat saxlaya bilirlər. Burada istifadəçilər yalnız görmək istədiklərini görə bilərlər.

Bloqlar xüsusən təhsil üçün bir çox üstünlüklərə malikdir:

- Şagirdlərin öyrənmə prosesinə daha çox nəzarət etmə imkanı olduğu üçün onları müstəqil təlim fəaliyyətinə sövq edir;
- Öyrənənlər arasında müzakirələrə daha geniş imkan yaradır;
- Öyrənənlərin öz aralarında və müəllimlə İnternet əlaqələrini yüksəldir [17].

Müəllimlərin və öyrənənlərin bloqlardan necə istifadə edə bilmələri haqqında artıq müəyyən təcrübə toplanmışdır. Məsələn:

- Müəllimlər tapşırıqları, mənbələri dərc etmək üçün bloqlardan istifadə edə bilər və şagirdləri, hətta valideynləri sinifdə baş verən hadisələrdən, son tarixlər və məzmunla bağlı məlumatlandıra bilər;
- Müəllimlər öyrənənlərin məzmunun mənimsənilməsinə və yazı bacarıqlarının inkişafına kömək etmək üçün bloqlardan istifadə edə bilərlər;
- Şagirdlər yazılarını dərc etmək və müəyyən bir mövzuda başqaları ilə paylaşmaq üçün bloqlardan istifadə edə bilərlər;
- Öyrənənlər ayrıca şahmat klubu və ya illik kitab klubu, futbol komandası və ya bayramlar üçün bloqlar yarada bilərlər [18].

**Etiketləmə** istifadəçilərə müxtəlif media vasitələri arasında əlaqələr yaratmağa imkan verir. Əslində, hər şeyi etiketlər vasitəsilə paylaşırlar. Veb 2.0 - alətləri sayəsində etiketləmə şəxsidir, hər kəs hər məzmunu etiketləyə bilər. Digər veb vasitələrdən fərqli olaraq bu taksonomiya deyil, buna folksonomiya deyilir.

Etiketləmənin təhsildə üstünlükləri var. Uşaqların istedadlı olduğunu müəyyənləşdirmək və etiketləməklə müəllimə bu cür uşaqlar üçün xüsusi proqram hazırlamaq imkanı verir. Onların bacarıqları məlum olur. Müəllim bu qabiliyyətləri təlim prosesində nəzərə ala bilir. Bu, öyrənənlərə zehni qabiliyyətlərini inkişaf etdirmək və eyni zamanda çətin bir işi eyni zamanda həyata keçirmə imkanı verir. Müəllimlərə uşaqların qabiliyyətlərinə görə müxtəlif qrupları idarə etməyə imkan verir. Etiketləmə təlimdə çətinlik çəkənlərə də xüsusi proqram hazırlamaq imkanı verir. Etiketləmə bir növ öyrənənləri təsnif edir [18].

**Nəticə**

Hazırda insanlar arasında əlaqələrin yaradılması, müxtəlif fəaliyyətlərin həyata keçirilməsi baxımından İnternetin həyatımıza daxilolma arealı sürətlə böyüyür. İnternetin bəzi tərəfləri haqqında kifayət qədər məlumatlı olsaq da, sürətli dünyamızda ondan öz işlərimizin səmərəli və keyfiyyətli şəkildə həyata keçməsi üçün istifadə etmək məcburiyyətindəyik. Təhsil sferasında da İnternetdən, onun imkanlarından istifadə etmək təlim fəaliyyətinin səmərəsinin və keyfiyyətinin artmasına xidmət edir. Məsələ ondan ibarət deyil ki, təhsilin ənənəvi forması ilə müqayisədə məsafədən təhsilə üstünlük verilir. Təhsilin ənənəvi formada təşkilinə münasibət birmənalıdır. Lakin İnternet əsrində ənənəvi təhsilin səmərə və keyfiyyətinin artması üçün biz İnternetin imkanlarından istifadə yollarının araşdırılmasını məqsədəuyğun hesab edirik. Bunun üçün hər gün istifadə etdiyimiz texnologiyalardan – mobil telefondan, planşetdən, kompüterdən və s. istifadə edərək birgə öyrənmənin yeni yollarından istifadə edə bilərik.

**ƏDƏBİYYAT**


1. https://en.wikipedia.org/wiki/Facilitator
2. https://books.google.az/books?id=TRXcQBKicEgC&pg=PA177&lpg=PA177&dq=web+2.+0+(Minocha+and+Robertsa,+2008)&source=bl&ots=oau9Ae8zTx&sig=ACfU3U3iyNv9OisCFuS_YUY9KUbxGWtFg&hl=az&sa=X&ved=2ahUKEwiap8nnu8TuAhVrpIsKHX91DmAQ6AEwDnoECAcQAg#v=onepage&q=web%202.%200%20(Minocha%20and%20Robertsa%2C%202008)&f=false
3. https://www.researchgate.net/publication/280230890_Web_20_teknolojilerinin_egitim_uzerindeki_etkileri_ve_ornek_bir_ogrenme_yasantisi
4. https://www.researchgate.net/publication/342133737_COMPUTER-ASSISTED_COLLABORATIVE_WRITING_AND_STUDENTS'_PERCEPTIONS_OF_GOOGLE_DOCS_AND_WIKIS_A_REVIEW_PAPER
5. https://www.researchgate.net/publication/264560996_Supporting_teachers_in_guiding_collaborating_students_Effects_of_learning_analytics_in_CSCL
6. https://www.researchgate.net/publication/225334310_Communication_patterns_in_computer_mediated_versus_face-to-face_group_problem_solving
7. https://asistdl.onlinelibrary.wiley.com/doi/full/10.1002/pra2.2017.14505401131
8. https://www.researchgate.net/publication/320171052_Computer-based_technology_and_student_engagement_a_critical_review_of_the_literature
9. https://www.researchgate.net/publication/273398609_The_promise_reality_and_dilemmas_of_secondary_school_teacher student_interactions_in_Facebook_The_teacher_perspective
10. https://www.nextthoughtstudios.com/video-production-blog/2017/1/31/why-videos-are-important-in-education
11. https://elearningindustry.com/15-ways-twitter-in-education-students-teachers

12. https://www.onlinecollege.org/2009/10/20/100-ways-you-should-be-using-facebook-in-your-classroom
13. https://blogs.edweek.org/edweek/education_futures/2018/06/how_to_use_instagram_in_the_classroom.html
14. https://tophat.com/blog/youtube-in-the-classroom
15. https://theconversation.com/youtube-a-valuable-educational-tool-not-just-cat-videos-34863
16. https://az.wikipedia.org/wiki/Viki
17. http://desarrolloweb.dlsi.ua.es/blogs/benefits-of-blogs
18. http://gjar.org/publishpaper/vol2issue9/d275r66.pdf

Redaksiyaya daxil olub 23.06.2021

*UOT 159.9:316.37*

***X.O.Xəlilova***
*AMEA Fəlsəfə İnstitutu*
*xalida-83@rambler.ru*

# MƏHKUMLUQDAN AZAD OLMUŞ GƏNCLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASI – XARİCİ ÖLKƏLƏRLƏ MÜQAYİSƏLİ TƏHLİL

***Açar sözlər:*** *məhkumun şəxsiyyəti, sosiallaşma, sosial-psixoloji xüsusiyyətlər, cəmiyyətə inteqrasiya, məhkumların sosial reabilitasiyası*

Məqalədə məhbusluqdan azad olmuş gənclərin cəmiyyətə yenidən inteqrasiya olunmasında yaranan çətinliklər və bununla bağlı ayrı-ayrı dövlətlər və müvafiq beynəlxalq təşkilatlar tərəfindən görülən işlər təhlil olunur. Qeyd olunur ki, son on ildə keçmiş məhkumların sosial reabilitasiya və cəmiyyətə inteqrasiyası üzrə bir sıra layihə və proqramlar həyata keçirilib. Buna baxmayaraq məhkumluqdan azad olunmuş gənclər üçün nəzərdə tutulmuş davamlı və effektiv reabilitasiya və inteqrasiya proqramlarının davamlı zənciri yoxdur.

***Х.О.Халилова***

# ИНТЕГРАЦИЯ В ОБЩЕСТВО ОСВОБОЖДЕННЫХ ОТ ЗАКЛЮЧЕНИЯ ЮНОШЕЙ – СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ С ЗАРУБЕЖНЫМИ СТРАНАМИ

***Ключевые слова:*** *личность заключенного, социализация, социально-психологические особенности, интеграция в общество, социальная реабилитация заключенных*

В статье анализируются трудности реинтеграции молодых людей, освобожденных из мест лишения свободы, в общество, а также работа, проделанная отдельными государствами и соответствующими международными организациями. Отмечается, что за последнее десятилетие реализован ряд проектов и программ по социальной реабилитации и интеграции бывших заключенных в общество. Однако не существует устойчивой цепочки устойчивых и эффективных программ реабилитации и интеграции для юношей, освобожденных от заключения.

***Kh.O.Khalilova***

**INTEGRATION IN A SOCIETY RELEASED YOUTH –
A COMPARATIVE ANALYSIS WITH FOREIGN COUNTRIES**

***Keywords:*** *personality of a prisoner, socialization, socio-psychological characteristics, integration into society, social rehabilitation of prisoners*

The article analyzes the difficulties of reintegration of young people released from places of detention into society, as well as the work done by individual states and relevant international organizations. It is noted that over the past decade, a number of projects and programs have been implemented for the social rehabilitation and integration of former prisoners into society. However, there is no sustainable chain of sustainable and effective rehabilitation and integration programs for liberated youth.

## Giriş

Məhbusluqdan azad olmuş gənclər cəmiyyətə yenidən inteqrasiya olunmasında bir sıra çətinliklərlə üzləşir. Keçmiş məhbuslar damğa və digər sosial maneələrlə qarşılaşır, bu da onların iş, mənzil, ailə, sosial və normal həyata geri dönməsini çox çətinləşdirir. Onlar tez-tez hüquqi və psixoloji problemlərlə üzləşir, lakin məhkumluq keçmişi olmayan gənclərin hüquqi və psixoloji xidmətlərdən istifadəsi daha asandır. Məhkumlar əsasən ali təhsil və karyeradan məhrum olunur, çünki işəgötürənlər gənc məhkumlardan müsahibə aldıqları zaman şübhəli görünürlər. Damğa, qərəz və bütün bu tip maneələr məhkumların psixi sağlamlığına və ümumi rifahına mənfi təsir göstərir. Bu tip halların təkrarlanması onları yenidən cinayətə təhrik etdirir. Aparılan tədqiqatların əsas məqsədi məhkum olmuş şəxslərin psixoloji vəziyyətini nəzərə almaq və onların, cəmiyyətə yenidən inteqrasiyasının mümkün yollarına nəzər salmaqdır.

Araşdırmalara əsasən, tədqiqatların əksəriyyətində gənc məhbusların azad edildiyi ilk gündən buna bənzər problemlərlə üzləşməsi ortaya çıxdı. Əvvəllər məhkum olunmuş şəxslərin əsas problemlərindən biri də ali təhsil və iş imkanlarından məhrum edilməsidir. Bu kimi məhdudiyyətlər onların maddi vəziyyətinə də təsir edir; işsiz gənclər yetərli gəlir mənbələri tapa bilmirlər. Bu da öz növbəsində hüquqi yardım almaqda maneələrə səbəb olur. Məhkum edilmiş şəxslərin əksəriyyəti bəzi hüquqi prosedurlardan məhrum edildiyini etiraf edir. Üstəlik, stereotiplərin və psixoloji təzyiqlərin təsiri həyatlarının bir çox aspektlərində geniş şəkildə hiss olunur ki, bu da onların yenidən cəmiyyətə inteqrasiyasına, iş mühitinə qayıtma istəyini və motivasiyasını azaldır. Təəssüf ki, bir çoxlarının ailələri tərəfindən lazımi psixoloji dəstək ala bilməməsi və cəmiyyətin qərəzli düşüncələri ilə bağlı qorxuları onların müalicə gedişatına əks təsir göstərir. Bütün bu amillər cəmiyyətə yenidən inteqrasiya prosesinə maneə törətməkdə mühüm rol oynayır [5].

Son on ildə keçmiş məhkumların sosial rehabilitasiya və cəmiyyətə inteqrasiyası üzrə bir sıra layihə və proqramlar həyata keçirilib. Buna baxmayaraq bütün ölkə üzrə məhkumluqdan azad olunmuş gənclər üçün nəzərdə tutulmuş davamlı və effektiv reabilitasiya və inteqrasiya proqramlarının davamlı zənciri yoxdur.

**Azərbaycanda görülən tədbirlər**

Azərbaycan hökuməti məhkumluqdan azad olmuş gənclər qrupunun üzləşdiyi ən ümumi problemləri həll etmək və ya yüngülləşdirilməsi üçün bəzi planlar üzərində işləyir. Layihələr prinsipial olaraq maliyyə və psixoloji dəstək istiqamətində nəzərdə tutulub. Hazırda dövlət bu kateqoriyadan olan insanlara minimum əmək haqqının 4 misli miqdarında birdəfəlik müavinət ödəyir. Həmçinin məşğulluq orqanları tərəfindən iş yerlərində kvota çərçivəsində ayrılan işlə təmin olunması və cəza çəkmək ərəfəsində olan şəxslərin peşə hazırlığının təşkili üçün tədbirlər görülür [23]. Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən maddi yardımdan əlavə 17 oktyabr 2017-ci il tarixli 434 nömrəli Əmək və Sosial Müdafiə Nazirliyinin nəzdində Dövlət Sosial Müdafiə Fondu nəzdində olan cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzi yaradılmışdır [10].

Eyni zamanda Qobustan rayonunda cəzaçəkmə müəssisələrində məhkumlar üçün 50 nəfərlik Sosial Adaptasiya Mərkəzinin 2018-ci ildə fəaliyyətə başlaması planlaşdırılırdı [4]. İctimai birliklər də təşkilatlarla əməkdaşlıq edərək bu prosesdə fəal iştirak edirlər. 2011-ci ildə "Penitensiar müəssisələrin müşahidəsi" İctimai Birliyi Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin cəzaçəkmə müəssisələrində 3 ay davam edən "Gənc Məhbuslara Psixoloji Dəstək" layihəsinə start verdi [12].

2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi ilə "Məhkumların psixoloji reabilitasiyasına ictimai dəstək" adlı başqa bir layihə "Azadlıqdan məhrum edilmiş yerlərin qorunması" İctimai Birliyi tərəfindən həyata keçirilmişdir [6].

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi 15 iyul 2014-cü il tarixində "Məhkumluqdan azad edilmiş gənclərin sosial adaptasiya mərkəzinin yaradılması" başlığı altında bir layihəyə başlamaq üçün "Gənclərin Hüquqi Təhsili" İctimai Birliyi ilə də işləmişdir [15]. Elə həmin il nazirlik "Gənclərin sosial problemlərinin həllində yardım" İctimai Birliyi ilə birlikdə "Məhkumluqdan azad edilmiş gənclərin reabilitasiyasına ictimai dəstək" təqdim etdi [2].

Keçmiş məhbusların sosial hüquqlarının təmin edilməsi üçün bir neçə ictimai birlik hüquqi və sosial dəstək vermək üçün layihələr təşkil etmişdir. Onların əksəriyyəti hüquqi prosedurlarda çıxış əldə etməkdə maneələrlə

qarşılaşmasına görə 2015-ci ildə "Hüquqi İslahatlar Üçün Gənc Hüquqşünas Qadınlar" İctimai Birliyi "Keçmiş məhkumlara hüquqi dəstək və onlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması" layihəsini həyata keçirdi. Yeni təşkilatlardan başqa BMT-nin İnkişaf proqramı (UNDP) bu məsələdə çox fəal idi [21].

Bu iş beynəlxalq təşkilatlarla uğurlu əməkdaşlığın nümunəsi kimi mediada yayımlandı. Qlobal təşəbbüslər digər istiqamətlərdə də davam etdirildi. 8 may 2019-cu il tarixində Avropa Şurası Bakıda 24 aylıq "Azərbaycanda cəzaçəkmə islahatlarına əlavə dəstək" adlı yeni ictimai birlik Avropa Birliyi Şurasının 24 aylıq yeni layihəsinin başlandığını elan etmək üçün konfrans təşkil etdi. Bu proqram çərçivəsində 11 may 2020-ci ildə sərbəst buraxılmış məhkumlara dəstək olmaq məqsədilə reinteqrasiya proqramlarını həyata keçirmək üçün qrant alan bir sıra Azərbaycan QHT-ləri üçün onlayn seminar təşkil edildi. Nazirliklər müxtəlif sahələrdə olan və bu sahədə ixtisaslaşmış təşkilatlarla birlikdə işləməyə xüsusi diqqət yetirirdilər. 2020-ci ilin iyul ayında "Cəzaçəkmə müəssisələrinin qorunması" İctimai Birlik və Azərbaycan Respublikası Prezidentinin yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstək Şurasının maliyyə dəstəyi ilə "Keçmiş məhbusların cəmiyyətə inteqrasiyası tədbirləri" layihəsinə başlamışdır və onların sosial hüquqları təmin edilmişdir [3].

Digər tərəfdən Ədliyyə Nazirliyi və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "2020-ci ildə cəzaçəkmə müəssisələrində görüləcək işlər üzrə fəaliyyət planı" imzaladılar. Plana uyğun olaraq cəzaçəkmə müəssisələrində müxtəlif seminarlar keçirildi. Müvafiq olaraq Azərbaycan Respublikasının milli qanunvericiliyinin maddələri qanuni olaraq məcburidir və beynəlxalq səviyyədə qəbul edilmiş prinsiplərə əsaslanaraq münasibətləri tarazlaşdırmaq əzmindədir. Məqalələr məhkumların və keçmiş məhbusların sosial, iqtisadi və qanuni hüquqlarını qorumaq və qanunla onların qorunmasını təmin etmək məqsədi daşıyır [22].

**Azərbaycan Respublikasının qoşula biləcəyi beynəlxalq konvensiyalar**

Azərbaycan Respublikasının konstitusiyası və hüquq sistemi ən müasir prinsiplərə və beynəlxalq qaydalara uyğun tərtib olunsa da, effektivlik üçün atılacaq bir neçə addım var. Birləşmiş Millətlər Təşkilatı məhkumlara qarşı ədalətli rəftarı qorumaq və təmin etməklə bağlı bir qrup qaydalar təklif edir. Aşağıda Azərbaycanın da nəzərə ala biləcəyi bəzi beynəlxalq konvensiyalar var.

- Birləşmiş Millətlər Təşkilatının məhbuslarla rəftarına dair minimum standart qaydaları
- BMT-nin Qeyri-məhkəmə tədbirləri üçün minimum standart qaydaları (1990, Tokio qaydaları)

- BMT-nin Uşaq Hüquqları Konvensiyası
- BMT-nin Yetkinlik yaşına çatmayan Ədliyyə İdarəçiliyinin Minimum Standart Qaydaları (1985, Bejing qaydaları)
- BMT-nin Yetkinlik yaşına çatmayan cinayətkarlığın qarşısının alınması üzrə 1990-cı il Qaydaları (Riyad Təlimatları)
- BMT-nin Azadlıqdan Məhrum Edilmiş Gənclərin Müdafiəsi Qaydaları (1990)

Bundan başqa müxtəlif ölkələrdə başladılan aşağıdakı layihə və proqramlar Azərbaycanda da tətbiq oluna bilər. Sinqapur, Kanada, Böyük Britaniya və Estoniyadan seçilmiş proqramlar məhkum olmuş gənclərin reabilitasiyası və reinteqrasiyası baxımından böyük uğurlar əldə edib.

**Sinqapur**

Sinqapur Həbsxana Xidmətinin Reabilitasiya Çərçivəsi ilk dəfə 2000-ci ildə cinayətkarların yenidən qurulması səylərimizi istiqamətləndirən qəsdən işləyən bir model olaraq hazırlanmışdır. Baxımlı bir yanaşma ilə reabilitasiya çərçivəsi üç fərqli mərhələdən ibarətdir:

1) Qayğı
2) Yarıyol Baxımı
3) Baxım

"Qayğı" mərhələsi hər addımda keçmək üçün üç proseduru əhatə edir. İlk addım hər bir məhkumun təhlükəsizlik risklərinə və qəbul zamanı reabilitasiya ehtiyaclarına görə təsnif edilərək qiymətləndirilməsidir. Daha sonra təsnifat hər məhkum üçün "Şəxsi marşrut xəritəsi" qrafiki üçün istifadə olunur. Həbsxana işçisi "Şəxsi marşrut xəritəsini" izləmək və nəzərdən keçirmək üçün məhkumun şəxsi nəzarətçisi təyin ediləcəkdir. Buna görə reabilitasiya proqramları müəyyən edilir; məhkumlara "Şəxsi marşrut xəritəsin"də müəyyən edilmiş ehtiyaclarına uyğun proqramlar ayrılır. Əsas reabilitasiya proqramlarından bəzilərinə aşağıdakılar daxildir: xüsusi müalicə proqramlari, təhsil, məşğulluq və peşə təhsili, ailəyə yönəlmiş xidmətlər və proqramlar. Xüsusi müalicə proqramlari beş əsas sahədə həbsxana məsləhətçiləri və psixoloqlar tərəfindən hazırlanır və çatdırılır: “Pro-sosial düşüncə”, “Qəzəb və emosiyanı idarəetmə”, “Maddə asılılığının müalicəsi”, “Zorakiliq və cinsi hüquq pozuntularının idarə edilməsi və aradan qaldirilması”. Təhsil proqramı alternativdir: 2000-ci ildə tədris mənbələrini mərkəzləşdirməyə kömək etmək üçün Kaki Bukit Mərkəzi (Həbsxana Məktəbi) yaradıldı. Akademik dərslərdən əlavə həbsxana məktəbindəki məhkum tələbələrə həyat bacarıqlarını bəxş edən və yaxşı sosial dəyərləri təbliğ edən birgə tədris tədbirlərində iştirak etmək imkanları da verilir. Elə həmin il Həbsxana məktəbində Milli Gənclik Nailiyyətləri Mükafatı (NYAA) başladı. NYAA proqramı 14-25 yaş arası bütün gəncləri sağlam vərdişlərə cəlb etdi. Bu

məhkumlar gündə təqribən dörd saat NYAA fəaliyyətlərinə sərf edirlər, bu da macəra mərkəzli çətinliklərdən icma bacarıqları təliminə qədərdir. Bu Proqramın dörd əsas komponenti var: xidmət öyrənmə; açıq təqdir; sağlam yaşamaq; icma liderliyi təşəbbüsü. Keçən il ilk dəfə olaraq Milli Gənclik Nailiyyətləri Mükafatı (NYAA) proqramının görkəmli məzunu olan hüquq mütəxəssisi cənab Darren Tana fəxri NYAA Qızıl Mükafatı təqdim edildi [14]. Həbsdə olduğu müddətdə bürünc və gümüş mükafatlarını alan Cənab Tan, marjinal qruplara və risk altında olan gənclərə dəstək olaraq cəmiyyətə xidmət etməyə davam etdi. İndi Invictus Hüquq Korporasiyasının direktoru, Tasek Jurong Limited qeyri-kommersiya təşkilatının direktoru və Beacon of Life Academy-nin həmtəsisçisidir. Məşğulluq və Peşə Təhsili Proqramı çərçivəsində Sinqapur Reabilitasiya Müəssisələri Korporasiyası ilə ortaq olaraq Sinqapurdakı həbsxana sənayesini idarə edən qanuni bir idarə heyəti, məhkumlar üçün müxtəlif iş və bacarıq təhsili imkanları mövcuddur, məsələn, sənaye çörək zavodunda, camaşırxana, zəng mərkəzi bacarıqları və hətta rəqəmsal media dizaynında. "Qatar və Yer" proqramı çərçivəsində məhkumlar sərbəst buraxıldıqdan sonra növbəti iş yerləri ilə həbsxanalarda təhsil alırlar. "Yer və Qatar" proqramı üçün məhkumlar sərbəst buraxılmadan öncə növbəti iş yerində təlimlə uyğunlaşırlar. Bundan əlavə Karyera Resurs Mərkəzləri 2005-ci ildə işə hazırlıq bacarıqları təhsili və onlayn iş axtarış portalı vasitəsi ilə karyera yönləndirmə xidmətləri göstərmək və məhkumların sərbəst buraxılmadan əvvəl işlə təmin olunmalarına kömək etmək üçün yaradılmışdır. Bundan əlavə olaraq ailəyə yönəlmiş xidmətlər və proqramlar da təklif olunur. Sinqapur Həbsxana Xidməti müxtəlif yollarla həbs olunan ailələri fəal şəkildə cəlb edir. 2006-cı ilin iyul ayında məhkumların ailələrinə xidmət etmək və kömək etmək üçün Ailə Resurs Mərkəzləri (FRC) yaradıldı. Daha mürəkkəb ehtiyacları olan ailələr üçün qısamüddətli maliyyə yardımı və hətta iş idarəetmə xidmətləri təklif etdilər. Cəmiyyətin Yenidən İnteqrasiya Proqramı məhkumların yenidən cəmiyyətə keçmələrinə kömək etmək üçün azadlığa buraxılmadan əvvəl verilir. "Yarı Yolda Baxım" mərhələsində uyğun məhkumların cəza müddətini üç sxemlə cəmiyyətdə çəkməsinə icazə verilir:

1) Ev saxlanması sxemi
2) Yarım yol ev sxemi
3) İşdən azad etmə sxemi.

"Ev saxlanması" üçün seçilmiş məhkumlara cəzalarının son aylarını və ya illərini ailələri ilə və ya fərdi yaşayış yerlərində yaşamağa icazə verir. "Halfway House sxemi" ailənin az və ya çox dəstəyi olan məhkumlara cəmiyyətdə cəzalarını çəkmək üçün Halfway evlərini təklif edir. Məhkumlardan gün ərzində işləmələri və axşam komendant saatı üçün təyin olunmuş yataqxanalara qayıtmaları tələb olunur. "İşdən buraxılma sxemi" əvvəlki iki sxemə uyğun gəlməyənlərə həbsxanada gün ərzində işə düzəlmək üçün icazə

verir, eyni zamanda da axşamlar az təhlükəsizlikli bir həbsxanaya qayıtmalarını tələb edir. Sonuncusu "After Care" mərhələsidir. Bu məhkumlar üçün Xidmətdən sonrakı mərhələdə İcma sonrası baxım proqramı (CAP) verilir. Bu könüllü azadlıqdan sonrakı proqram köhnə məhkumların altı ay müddətinə qədər yenidən inteqrasiya səyahətlərində onlara dəstək olmaq məqsədi daşıyır [8]. CAP-a yazılan məhkumlara məşğulluq, maliyyə, yaşayış, öhdəsindən gəlmə bacarıqları, ailə və sosial dəstək də daxil olmaqla beş sahədəki reinteqrasiya problemlərinin öhdəsindən gəlmələrinə kömək etmək üçün Aftercare Case Menecerləri təyin edilir [17].

**Kanada**

Kanadanın İcma Təhlükəsizliyi və Düzəliş Xidmətləri Nazirliyi Cinayətkar Proqramlar və xidmətlər təklif edir. Müsbət məhkum və cinayətkar dəyişikliyinə təsir göstərmək üçün nəzərdə tutulmuş dörd əsas proqram təklif olunur:

1) həyat bacarıqları proqramları,

2) maddə asılılığı, qəzəbin idarə olunması və s. kimi problemləri həll etmək üçün reabilitasiya proqramları,

3) təhsil və savadlılıq proqramları,

4) iş proqramları.

Bundan əlavə Kanadanın İcma Təhlükəsizliyi və İslah Xidmətləri Nazirliyi cinayətkarlar həbsxanada işləyərkən cəmiyyətə yenidən inteqrasiya etmək üçün ehtiyac duyacaqları bəzi bacarıqların əldə edilməsi üçün Trilcor Industries adlandırdıqları bir proqram təqdim edir [1].

**Latviya**

"Breaking Waves" Latviyadakı dörd həbsxananın gənc məhkumları üçün 2012-ci ilin dekabrından 2013-cü ilin iyun ayına qədər davam edən bir təlim proqramı idi. Hər iki cinsdən olan 14-30 yaş arası Latviya və Rusiyalı iştirakçıların öyrənmə maneələri, dil maneələri və ya əqli qüsurları vardır. Layihə hədəf qrupda yenidən yerləşdirmə və məşğulluğu asanlaşdıracaq sosial bacarıq və münasibətləri inkişaf etdirmək üçün uzunmüddətli qeyri-rəsmi təlim fəaliyyətləri təşkil etdi. İştirakçılar əldə etdikləri bacarıqları təsvir edən Youthpass sertifikatları aldılar (Avropa Birliyi, 2015).

**Avropa miqyasında**

Avropa miqyasında "HERO: 2001-2003-cü illərdə cinayətkarların reabilitasiyası üçün sağlamlıq və təhsilə dəstək" layihəsi Avropa Cinayət Ədliyyə sistemində cinayətkarların reabilitasiyasına töhfə vermək məqsədi daşıyır [9]. Layihənin əsas fəaliyyəti iki dəstək xidmətinin inkişaf etdirilməsi

idi: sağlamlığın təşviqi və sağlamlığın monitorinqi modulu, iki qrup istifadəçi üçün bir öyrənmə və bacarıq dəstəyi modulu:

1) gənc və ilk cinayətkarlar,

2) cəmiyyətə yenidən girməyə hazırlaşan məhkumlar.

HERO (Sağlamlıq və Cinayətkarların Reabilitasiyası üçün Təhsil Dəstəyi) əksər cəmiyyətlərin qarşılaşdığı iki əsas problemi həll edir:

1) həbsxanalarda şəraitin necə yaxşılaşdırılması,

2) təkrar cinayət səviyyəsini necə azaltmaq olar (Tavistock İnstitutu, n.d).

"Emma's Acres" Mission B.C. kənd təsərrüfatı sosial müəssisəsidir. Burada qurbanlar və zorakı cinayətkarlar 3,2 hektar fermada yan-yana işləyirlər. Birlikdə fermer bazarlarında satılan və ya cinayət qurbanının ailələrinə sərbəst olaraq verilən tərəvəzlər yetişdirirlər (Donato, n.d.). "KLINK Coffee" 2013-cü ildə yaradılan, həbsxanadan evə qayıdan şəxslərin iş imkanlarını yaxşılaşdırmaq üçün hazırlanmış uğurlu bir sosial müəssisədir. İşə hazırlıq təhsili bir məşğulluq mütəxəssisi tərəfindən verilir və iş tutumları, işəgötürən gözləntiləri, uzunmüddətli məşğulluq davranış nümunələri, iş axtarış bacarıqları, müsahibə bacarıqları, büdcə tərtibatı və kredit puanları kimi mövzuları əhatə edir. Bundan əlavə müştərilər cinayət qeydinin açıqlanması, müştəridəki institusional boşluqlar və işə düzələnin hüquqları kimi mövzularda təlim alırlar. İşə hazırlıq təlimindən sonra müştəri qəhvə sənayesində 4 həftədən 4 aya qədər bir iş yerləşdirmə imkanı əldə edir. Qəhvə sənayesindəki bacarıq və biliklər, iş təcrübəsi və arayışa əlavə olaraq iş bazarına girərkən və cinayət mühakiməsi sistemindən ayrılarkən fərdləri düzgün ayağa qaldırmağa kömək edir (John Howard Society of Ontario, 2016). Torontodakı Kanada Psixi Sağlamlıq Dərnəyinin Ailə Məlumatı və Müdaxilə Proqramı ailələrə bərpa yönümlü psixi sağlamlıq dəstəyi xidmətləri təklif edir [13]. "Hər yerdə Psixi Sağlamlıq üçün Ailə Birliyi" hər hansı bir ruhi xəstəliyin olduğu ailələrə, Böyük Toronto bölgəsindəki ailə üzvlərinə təkbətək dəstək, təhsil, qaynaqlar, dəstək qrupları və mübarizə strategiyaları təqdim edərək dəstək təklif edir (Howard Ontario Cəmiyyəti, 2016) [11]. "Reenter" layihəsi cinayətkarlarla (həm məhkumlar, həm də keçmiş məhkumlar) işləyən islah işçilərinin (həbsxana və sınaq işçiləri, könüllülər) potensialının artırılmasına töhfə verə biləcək psixo-maarifləndirmə vasitələri ilə bağlı yaxşı təcrübə mübadiləsinə yönəlmişdir. Deməli, bu layihə effektiv proqramları xəritələşdirmək üçün bilik və təcrübə mübadiləsi və bu proqramları həyata keçirə bilməsi üçün təlimçilər hazırlamaq məqsədi daşıyır. Birincisi, həbsxana və sınaq şəraitində işləyən 450 mütəxəssisə çatdırılacaq bir potensialın yaradılması proqramı (həbsxana və sınaq heyəti, könüllülər). İkincisi, yenilikçi psixo-təhsil, məşğulluq məsləhətləri, etika, dava idarəetmə və nəzarət vasitələri toplusu [7].

"MOBI – Cinayətkarların Yenidən İnteqrasiyasına Doğru Səfərbərlik Cəmiyyəti" layihəsi cəmiyyətin təkrar cinayətin qarşısının alınmasında daha aktiv və etibarlı bir ortaq olmasını təmin etmək məqsədi daşıyır. Layihə cinayətkarların (keçmiş) reabilitasiyası və yenidən inteqrasiyası haqqında cəmiyyətin məlumatlılığı, yenidən cinayət və sosial təcrid dövrünü pozmaq üçün bir təlim kursu hazırlamağı nəzərdə tutur və AB-nin bu sosial problemə çoxlu aktyorları cəlb etməsinə kömək etmək, hamımızı öz rolumuzu oynamağa məcbur etmək lazımdır. Layihənin ("Cəmiyyətin yenidən inteqrasiyaya doğru səfərbər edilməsi" - Erasmus + proqramı tərəfindən maliyyələşdirilən MOBI layihəsi (KA2 – böyüklərin təhsili üçün Strateji Tərəfdaşlıq) dörd mərhələsi var:

1) İntellektual çıxış (IQ) hadisələri
2) Qısamüddətli birgə işçi təlim tədbirləri
3) Daha çox hadisə
4) Seminarlar.

“İntellektual çıxış hadisələri”nin ilk mərhələsində cəmiyyətin cinayətkarların (eks) ehtiyacları və CJS (Cinayət Ədliyyə Sistemi) funksiyalarına dair fikirlərini araşdırmaq üçün qiymətləndirmə vasitəsi istifadə olunur. Qiymətləndirmə vasitəsi onlayn sorğudan istifadə edərək vətəndaş cəmiyyətinin keçmiş cinayətkarlar və CJS funksiyaları barədə fikirlərini toplayır. İkinci mərhələdə qiymətləndirmə vasitəsi cinayətkarın reinteqrasiya prosesi ilə bağlı cəmiyyətin qəbulu ilə bağlı fikirlərini araşdırmaq üçün istifadə olunur: reinteqrasiya prosesi ilə əlaqədar cəmiyyətin qəbuluna dair keçmiş cinayətkarlardan anlayış toplamaq üçün bir araşdırma daxil edilir. Bundan əlavə Çarpan Hadisə zamanı tərəfdaşlar intellektual nəticələri (IQ) təbliğ edirlər [20].

**Birləşmiş Krallıq**

İngiltərə "Həbsxana təhsili vasitəsilə potensialın artırılması" layihəsi üzərində işləmişdir. 2016-cı ildə İngiltərədəki həbsxana təhsili sisteminə edilən bir araşdırma həbsxana rejiminin bütün sahələrinin təhsil üçün uyğun hesab edilməli olduğu qənaətinə gəldi, lakin bir sıra xüsusi meyarlar müəyyən edildi. Birincisi, savadlılıq, hesablama və informasiya-kommunikasiya sahəsində əsas bacarıqların inkişafı davranış proqramları, ailə münasibətləri, öyrənmə əlilliyi və əlilliyi olan məhkumların ehtiyacları üçün lazımi dəstək (LDD) daxil olmaqla texnologiyalar, Şəxsi və Sosial İnkişaf (PSD) lazımdır. Ayrıca sənət, musiqi və idman fəaliyyətləri, iş və karyera seçimləri və gənc məhbusların inkişafı üçün mentor dəstəyi təklif edilə bilər [16].

**Estoniya**

Estoniya cinayətkarlar üçün cəzaçəkmə müəssisələrində sosial reabilitasiya proqramı təklif edir. Bu layihə müxtəlif proqramlar və təlimlərlə

hazırlanmışdır. Birinci proqram sinir idarəetmə ilə bağlıdır. Bu proqram gənc məhkumların əsəblərini və özünü idarə etmələri üçün hazırlanmışdır. İkincisi, "sosial bacarıqların inkişafı" təlimi təklif olunur. Məhkumlar özlərini ifadə etməyi, düşüncələrini təhlil etməyi və gündəlik həyatda davranışlarını idarə etməyi öyrənirlər. Məhkumlar üçün həyat tərzi proqramı da nəzərə alınır. Proqram asılılıq yaradan maddələrin istismarçıları ilə asılılarını və qanunsuz davranışa səbəb olan asılılıqları müəyyənləşdirir [19].

**Birləşmiş Krallıq**

"Birlikdə addım atın" İngilis könüllü təşkilatı gənc məhbusları həbsdən azad edildikdən sonra iş tapmaları üçün işə götürməyi planlaşdırır. Məhkumlara məşqçilik, özünə inam yaratmaq, fərdi bacarıq və maraqları araşdırmaq, könüllü düşüncə və münasibətlərə meydan oxumaq və gələcək məqsəd və istəkləri müəyyənləşdirməyə kömək edir [18].

**Nəticə**

Beləliklə, Azərbaycanda cəzaçəkmə müəssisələrindən azad olmuş məhkumlar təhsil və iş əldə etmək üçün bir çox sosial, iqtisadi, psixoloji çətinliklərlə və maneələrlə rastlaşırlar.

Araşdırma bu məsələ ilə bağlı qəbul edilmiş Azərbaycan qanunvericiliyi ilə yanaşı, yaxın gələcəkdə Azərbaycanın qoşula biləcəyi – məhkumlarla rəftar, yetkinlik yaşına çatmayanların müdafiəsi, reabilitasiya və həyata keçirilməsini təmin etmək üçün beynəlxalq konvensiyalar da təqdim etdi.

Araşdırmanın ən əhəmiyyətli hissəsi müxtəlif ölkələrdə inkişaf etdirilən reinteqrasiya və reabilitasiya layihələri haqqında olan hissədir. Bu cür layihələrin uğurla həyata keçirilməsi çox perspektivlidir. Eyni zamanda Azərbaycanda məsul dövlət qurumu və təşkilatlar tərəfindən oxşar layihə və proqramların yenidən start götürməsinə səbəb ola bilər.

## ƏDƏBİYYAT

1. *Anderson W.* Reintegration of Ex-Convicts into Canadian Society, 2020 /https://schoolworkhelper.net/reintegration-of-ex-convicts-into-canadian-society/
2. Azadinform.az (2013). Məhkumların psixoloji reabilitasiyası ilə bağlı layihə başlayıb / http://azadinform.az/az/sosial/155708/mehkumlarin-psixoloji-reabilitasiyasi-ile-bali-layihe-baslayib/
3. Azadlıq hüququ və işgəncələrin qadağan olunmasına dair / Təlim materialları toplusu (2010) / http://academy-justice.gov.az/madde3/e2.pdf
4. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. Cəza çəkməkdən azad edilmiş gənclərin sosial adaptasiyası mərkəzinin yaradılması, 2014 /

https://www.mys.gov.az/en/press/news/n/2262/cza-ckmkdn-azad-edilmis-gnclrin-sosial-adaptasiyasi-mrkzinin-yaradilmasi
5. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi. Cəza çəkməkdən azad olunmuş gənclər cəmiyyətə inteqrasiya olunacaqlar, 2015 / https://www.mys.gov.az/mtbuat/xbrlr/n/2678/cza-ckmkdn-azad- olunmus-gnclr-cmiyyt-inteqrasiya-olunacaqlar
6. Council of Europe. Azərbaycanda penitensiar islahatlara layihəsinin açılışı oldu, 2019 / https://www.coe.int/az/web/baku/-/-further-support-to-the-penitentiary-reform-in-azerbaijan-2-project-launched-in-azerbaijan
7. Donato A. (n.d.). FROM PUPPIES TO FARMING: CANADA’S MOST INNOVATIVE PRISON REHAB PROGRAMS / https://www.cbc.ca/keepingcanadasafe/blog/from-puppies-to-farming-an-in-depth-look- at-innovative-prisoner-rehab-progr
8. EPEA. MOBi – Mobilizing Society Towards (ex) Offenders Reintegration, 2019 /https://www.epea.org/mobi-mobilizing-society-towards-ex-offenders-reintegration/
9. European Union. Unleashing young people’s creativity and innovation, 2015 / https://ec.europa.eu/assets/eac/youth/library/publications/creativity-innovation_en.pdf
10. *İbrahimov R*. “Sosial Adaptasiya Mərkəzi bu il fəaliyyətə başlayacaq”, 2018 / https://www.bizimyol.info/az/news/44045.html
11. John Howard Society of Ontario. REINTEGRATION IN ONTARIO: PRACTICES, PRIORITIES, AND EFFECTIVE MODELS, 2016 / https://johnhoward.on.ca/wp-content/uploads/2016/11/Reintegration-in-Ontario- Final.pdf
12. Milli.az . Cəzaçəkmə müəssisələrində məhkumlar və müəssisə əməkdaşları üçün psixoloji seminarlara start verilib, 2011 / https://news.milli.az/society/66157.html
13. Ministry of the Solicitor General. Offender Programs and Services, 2021 /https://www.mcscs.jus.gov.on.ca/english/corr_serv/OffenderProgramsServices/offender_programs.html
14. National Youth Achievement Award / http://www.nyaa.org/outdoor.html
15. Qhtxeber.az. Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilənlərin sosial adaptasiyası məqsədilə görüləcək birgə tədbirlər müəyyən edilib, 2020 / http://www.qhtxeber.az/news.php?id=21432&lang=az
16. Strengthening the capacity of criminal justice professionals and volunteers / http://prisonsystems.eu/reenter-project/
17. Singapore Prison Service / https://www.sps.gov.sg/news-about-us/in-the-news/largest-number-of-inmates-clinching-goldin-national-youth-achievement-awards-20th-anniversary-in- prisons)
18. Step Together (n.d.). About us / https://www.step- together.org.uk/pages/5-about-us
19. *Tang S.* (n.d). EFFECTIVE REHABILITATION AND REINTEGRATION OF OFFENDERS. RESOURCE MATERIAL SERIESNo.82 / https://www.unafei.or.jp/publications/pdf/RS_No82/No82_07VE_Tang.pdf

20. The Tavistock Institute (n.d). HERO: Health & Education Support for the Rehabilitation of Offenders 2001-2003 / https://www.tavinstitute.org/projects/hero- health-education-support-for-the-rehabilitation-of-offenders-2001-2003/
21. UNDP Azerbaijan. Arıçılıq məhbusların daha parlaq gələcəyə inamının bərpasına ümid verir, 2019 / https://www.az.undp.org/content/azerbaijan/az/home/stories/UNDP- AZE-prison-beekeeping.html
22. “Azadlıqdan Məhrumetmə Yerlərinin Müşahidəsi” İctimai Birliyi yeni layihəni icra edir, 2020 / https://1905.az/press-reliz-5/
23. “2020-2026-cı illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiyanın”nın təsdiq edilməsi haqqında - Azərbaycan Respublikası Prezidentinin Sərəncamı / https://www.sosial.gov.az/uploads/images/image_750x_5d2c2a78da75f.pdf

Redaksiyaya daxil olub 21.10.2021

*UOT 37*

***E.Ə.Mollayeva***
*Bakı Dövlət Universiteti*
*elzamollayeva@rambler.ru*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ TƏRBİYƏNİN İNKİŞAF DİNAMİKASI

***Açar sözlər:*** *qloballaşma, milli dəyərlər, bəşəri dəyərlər, milli özünüdərk, mənəvi ekologiya, Şərq və Qərb mənəvi dəyərlər sistemi*

Müasir dövrdə gedən sürətli qloballaşma prosesi tərbiyə sahəsinə yeni yanaşmanı aktuallaşdırır. Bütün dünyanı əhatə edən bu planetar prosesin müsbət və mənfi təsirinin elmi araşdırlması onun mahiyyətinin düzgün müəyyənləşdirilməsinə şərait yaradır. Bununla da sosial, siyasi və iqtisadi sahələrdə optimal yolların axtarılıb tətbiq edilməsi məsələsi günün vacib problemi kimi təhsil-tərbiyə prosesində də yeni tərbiyə konsepsiyalarının hazırlanması zərurətini ortaya qoyur.

Qloballaşmanın dağıdıcı təsirini daha çox tərbiyə, mənəviyyat sahəsində görürük və hiss edirik. Qloballaşma prosesi bu gün dünya xalqlarını, müxtəlif rakurslardan cərəyan edən hadisələri sürətlə öz daxilinə çəkib qarşısıalınmaz qüvvət mənbəyinə çevrilir və bu güclü amilin təcavüzündən güclü əxlaqa, milli tərbiyə sisteminə əsaslanan xalqlar müəyyən qədər qoruna bilirlər. Bu istiqamətdə gələcək nəsillərin tərbiyəsi onların mənəvi dünyasında millilik ilə qloballıq arasındakı nisbətin hansı tərəfin xeyrinə həll olunmasında güclü rola malik şərtdir. Uşaqların tərbiyəsində milli köklərə istinad etmək bizi gələcəkdə qloballaşmanın içərisində əriyib yox olmaqdan qoruya bilər.

***Э.А.Моллаева***

## ДИНАМИКА РАЗВИТИЯ ВОСПИТАНИЯ В УСЛОВИИ ГЛОБАЛИЗАЦИИ

***Ключевые слова:*** *глобализация, национальные ценности, общечеловеческие ценности, национальное самосознание, духовная экология, восточная и западная система моральных ценностей*

Быстрый процесс глобализации в наше время требует нового подхода к образованию. Научное изучение положительных и отрицательных последствий этого планетарного процесса, охватывающего весь мир, позволяет правильно определить его суть. Таким образом, поиск и применение оптимальных путей в социальной, политической и экономической сферах подчеркивает необходимость разработки новых образовательных концепций в образовательном процессе как важную проблему дня.

Мы больше видим и чувствуем деструктивные последствия глобализации в области образования и нравственности. Сегодня процесс глобализации стремительно привлекает народы мира, события с разных сторон и становятся

непреодолимым источником силы, а нации, основанные на сильной морали, национальная система образования может быть в некоторой степени защищена от агрессии этой могущественной фактор. Воспитание будущих поколений в этом направлении – условие, которое играет важную роль в принятии решения в их пользу в их духовном мире отношения между национальностью и глобализацией. Опора на национальные корни в воспитании детей может защитить нас от исчезновения в глобализации в будущем.

***E.A.Mollayeva***

**DYNAMICS OF UPBRINGING DEVELOPMENT IN TERMS OF GLOBALIZATION**

***Keywords:*** *globalization, national values, general values, national self-awareness, spiritual ecology, eastern and western system of moral values*

The rapid process of globalization in our time requires a new approach to education. Scientific study of the positive and negative consequences of this planetary process covering the whole world allows you to correctly determine its essence. Thus, the search and application of optimal paths in the social, political and economic fields emphasizes the need to develop new educational concepts in the educational process as an important day issue.

We see more and feel the destructive consequences of globalization in the field of education and morality. Today, the process of globalization rapidly attracts the peoples of the world, events from different sides and become an insurmountable source of force, and a nation based on strong morality, a national education system can be somewhat protected from aggression of this powerful factor. Education of future generations in this direction is a condition that plays an important role in making a decision in their favor in their spiritual world relations between nationality and globalization. Support for national roots in the education of children can protect us from disappearance in globalization in the future.

*Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam.*
***Heydər Əliyev***

Sürətli qloballaşma prosesi ilə müşayiət edilən müasir dövrdə cəmiyyətin bütün sahələrinə yenidən baxış aktual vəzifə kimi meydana çıxır və bu aktuallıq özünü daha çox tərbiyə sahəsində büruzə verir. XXI əsr qloballaşma əsri kimi bəşər tarixində yer almaqla bu prosesin həm müsbət, həm də mənfi tərəflərini özündə ehtiva edir. Aydın məsələdir ki, cəmiyyətdə baş verən hadisə və proseslərə birtərəfli yanaşma onun mahiyyətinin tam açılmasına mane olacaq. Bu üzdən qloballaşmanın mahiyyətinin düzgün müəyyənləşdirilməsi həm sosial, həm siyasi,

həm də iqtisadi cəhətdən yeni optimal yolların tapılmasına şərait yaradar.

«Dünyanı şüur idarə edir» və bu fəlsəfi aksioma əsasən, qloballaşma da şüurdan başlayır. Cəmiyyətin qloballaşmaya münasibəti heç də birmənalı deyil və onun üzvləri qloballaşmanı təqdir və tənqid edənlər qrupuna bölünürlər. Hər iki yanaşmada obyektiv reallıq var və bu prosesə daha peşəkar yanaşmada onların sintezi vacibdir. Eyni zamanda insan həyatında mühüm rol oynayan onun sosial-mənəvi məkanının – sosial-mənəvi ekologiyasının təmizliyinin qeydinə qalmaq lazımdır. Dünyada baş verən ümumi böhranlar (fiziki, bioloji, iqtisadi, siyasi, sosial) fonunda sosial-mənəvi ekologiyada gedən tənəzzül digər böhranlara nisbətən daha ağır və sarsıdıcı olur. Onun fəsadlarını aradan qaldırmaq üçün isə uzun illər lazım olur və "ona görə də sosial-mənəvi mühitin saflığının qorunması dövrün qlobal problemlərindən biridir. Bayağı mədəniyyətin ayaq açıb yeridiyi, xarici ölkələrdən milli-mənəvi mühitimizə yabançı olan təsirlərin gücləndiyi bir vaxtda sosial-mənəvi ekologiyanın problemlərini öyrənmək və lazım gəldikdə həyəcan təbili çalmaq lazımdır" (3, s.16).

Qloballaşma dünyada gedən bütün hadisələrə, bütün sahələrə öz güclü təsirini göstərməklə zahirən qarşısıalınmaz, dağıdıcı proses kimi görünür. Xüsusilə böyük meqapolislərdə miqrasiyanın nəticəsi kimi ortaya çıxan şərq və qərb mədəniyyətlərarası inteqrasiya köçüb gələn miqrant ailələrin uşaqlarını sosial adaptasiyada çətinliklərlə üz-üzə qoyur. Nəticədə, qərbin həyat tərzini getdikcə mənimsəyən bu uşaqlar qloballaşmanın qurbanlarına çevrilirlər.

Bu zaman hadisələrin pedaqoji-psixoloji spesifikliyini anlamaq üçün "qloballaşma" anlayışının düzgün elmi məzmununu bilmək vacibdir. Çünki həm kütləvi, həm də elmi ədəbiyyatda bu anlayışa çox tez-tez rast gəlirik.

"Qloballaşma" sözünün tərkibi latınca "qlobus", yəni kürə və qlobal, fransızca "ümumi" sözdən ibarətdir. Qısa siyasi lüğətdə ona belə tərif verilir: "Qlobal ən ümumi, bütün yer üzünü əhatə edən deməkdir" (5, s.44). 1967-ci ildə ilk dəfə bu termin dünyada gedən əsaslı proseslərin mahiyyətini izah etmək məqsədilə işlədilmişdir.

Qloballaşmaya verilən təriflər arasında onu daha çox iqtisadiyyata və ya mənəviyyata aid edənlərə rast gəlmək olur. Z.Qaralov qloballaşmanı belə xarakterizə edirdi: "Qloballaşma müasir iqtisadiyyatda hər hansı hadisənin ümumdünya əhəmiyyəti kəsb etməsidir. Ən çox iqtisadiyyat sahəsinə aid edilir. Qloballaşma – dünyanın struktur diferensiasiyasına varlı və kasıb dövlətlərin qarşılıqlı münasibətlərinə və onların mədəniyyətinin qarşılıqlı əlaqələrinə həm müsbət, həm də mənfi təsir göstərən ziddiyyətli prosesdir" (4, s.37).

Göründüyü kimi, Z.Qaralov qloballaşmada dominant olaraq iqtisadiyyatı götürsə də, mədəniyyətlərin, bu mədəniyyətə malik olan dünya xalqlarının tərbiyə sistemlərinin də qarşılıqlı əlaqələrini qeyd edir. Ümumiyyətlə, qloballaşma həm iqtisadi, həm də mədəni sahəni əhatə edən meqaamil kimi qəbul edilə bilər.

XXI əsrə qədər tarixdə mövcud olmuş qloballaşmanın müsbət təzahürləri

özünü dünya dinlərinin yaranması və yayılmasında (Tövrat, Zəbur, İncil, Quran), odun, çarxın kəşf edilməsində, mənfi təzahürləri isə dünya müharibələrinin, qlobal mafiyaların, qlobal xəstəlilkərin, qlobal miqrasiyanın baş verməsində göstərmişdir.

Qloballaşmanın dağıdıcı təsirini daha çox tərbiyə, mənəviyyat sahəsində görürük və hiss edirik. Bu prosesə milli mənlik şüuru güclü olan xalqlar və millətlər davam gətirib öz milli özünəməxsusluğunu saxlaya bilirlər. Bu xüsusda S.Xəlilov yazır: “Ot kökü üstə bitər”, - deyirlər. Lakin insanlar da müxtəlifdir, köklər də. Birillik, yüzillik, minillik köklər üzərində dayananların zəmanənin sınaqlarına qarşı müqavimətləri də müxtəlif olur” (, s.15). Çox güman ki, dünyanı cənginə alan bu prosesdə milli və tarixi kökləri güclü olan, rişələri daha dərin qatlara gedən xalqlar mental dəyərlərini saxlamaqla millilikdən bəşəriliyə doğru uzanan təkamül yolunu seçirlər. Milli şüuru güclü olan xalqların uzun əsrlər və eralar boyu mövcudluğu qloballaşma şəraitində yaşamağın obyektiv və subyektiv şərtlərini özündə ehtiva edir. Bu mövcudluqda güclü mənəvi dayaqlara söykənən tərbiyə əsaslı rol oynayır və xalqların assimilyasiya, dissimilyasiya proseslərinə davamlılığında güclü amil kimi çıxış edir.

Azərbaycan xalqı da zaman-zaman qloballaşmanın təsirinə bu və ya digər formada məruz qalmış, öz mental dəyərlərini, milli xüsusiyyətlərini tarixin keşməkeşli dövrlərinin sınağından çıxarmışdır. Ümummilli liderimiz Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə verdiyi qiymət qloballaşma şəraitində qarşımızda duran vəzifələri əks etdirir: “Azərbaycan xalqı müstəmləkəçilik zülmü altında nə qədər yaşayıbdır... Ancaq dilini də, dinini də, adət-ənənəsini də öz mənəvi əxlaq mentalitetini də saxlayıbdır, bütün əxlaqi normalarını-hamısını saxlayıbdır... Mən bu gün bir azərbaycanlı kimi, özündə həm milli-mənəvi dəyərləri, həm də ümumi bəşəri dəyərləri cəm edən bir insan kimi deyirəm ki, bizim xalqımızın mənəvi-əxlaqi mentaliteti onun ən böyük sərvətidir. Biz bunları qiymətləndirməliyik. Şübhəsiz ki, mentaliteti o birisindən fərqli olmayan xalq öz xarakterini göstərə bilməz. Hər xalqın öz mentaliteti, əxlaqi qaydaları vardır. Bizdə nə qədər gözəl qaydalar var. İndi onları nəyəsə başqa şeylərə qurban vermək olmaz... Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi köklərimiz, bizim dilimiz və dinimiz – hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur” (1, s.223-224).

Qloballaşma prosesi bu gün dünya xalqlarını, müxtəlif rakurslardan cərəyan edən hadisələri sürətlə öz daxilinə çəkib qarşısıalınmaz qüvvət mənbəyinə çevririr və bu güclü amilin təcavüzündən güclü əxlaqa, milli tərbiyə sisteminə əsaslanan xalqlar müəyyən qədər qoruna bilirlər. Bu istiqamətdə gələcək nəsillərin tərbiyəsi onların mənəvi dünyasında millilik ilə qloballıq arasındakı nisbətin hansı tərəfin xeyrinə həll olunmasında güclü rola malik şərtdir. Uşaqların tərbiyəsində milli köklərə istinad etmək bizi gələcəkdə qloballaşmanın içərisində əriyib yox olmaqdan qoruya bilər.

Bəs bu tərbiyə hansı istiqamətlərdə aparılmadır? Gələcək nəsillərin tərbiyəsi

ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyətində intişar tapır və bu sosial-ictimai institutların hər birinin tərbiyə sahəsində öz vəzifələri, prioritetləri vardır.

Ailə uşaqların tərbiyəsinin məzmununda əsaslı rola malik olan ilk cəmiyyət kimi onların hansı dəyərlər əsasında tərbiyə olunması ilə şərtlənir. Məhz ailə tərbiyəsi ilə qloballaşma şəraitinə davam gətirən nəsillərin yetişdirilməsinin əsası qoyulur və bu beşikdən, ana laylasından başlayır. Bu sahədə ailə dəyərlərinin mental və ya kosmopolit yanaşmaya əsaslanması orada böyüyən uşağın tərbiyəsinə ciddi təsir göstərir. Belə ki, bir sıra ailələr tərbiyə prosesini milli-mənəvi dəyərlər, mental xüsusiyyətlərin dominantlığı şəraitində aparmaqla uşaqda Şərq ailəsinə məxsus spesifikliyi aşılamağa çalışırlar. Bəzi ailələr isə müasirliyin əlaməti kimi tərbiyədə "ifrat müstəqilliyi", "açıq-saçıqlığı", daha çox Avropa dəyərlərinə əsaslanmağı tətbiq edirlər. Hər iki yanaşmada ailə sosial funksiya baxımından tərbiyədə optimal yol tapmalıdır və bu optimallıq həm Şərq, həm də Qərb tərbiyə sistemindəki mütərəqqi dəyərlərin sintezinə əsaslanmalıdır. Bu gün onsuz da nə Şərq, nə də Qərb qloballaşma prosesindən kənarda mövcud olmaq gücünə malik deyil. Bəzən qloballaşmada daha çox Qərb dəyərlərini dominant təsir gücü kimi qələmə verirlər və əlbəttə, burada müəyyən qədər həqiqət var. Qərbin güclü iqtisadiyyata, yeni texnologiyalara Şərqdən əvvəl malik olması və digər obyektiv amillər onun qloballaşmada üstünlüyünü təmin edir. Bəs belə bir şəraitdə Azərbaycan ailəsi hansı yolu seçməlidir? Azərbaycan ailəsinin Qərb ailə institutuna örnək ola biləcək yazılmamış qanunları, ailədaxili münasibətləri Şərq müdrikliyinin ən bariz nümunəsi kimi özünü təsdiq etməkdədir. Tədqiqatçı Ə.Bədəlova Azərbaycan ailəsinin dünyaya inteqrasiya ediləcək keyfiyyətlərini belə səciyyələndirir: "Bizim dünyaya təbliğ olunası keyfiyyətlərimiz var. Niyə onları yaşatmayaq, nümayiş etdirib başqalarına sevdirməyək? Niyə dünya bizi ailə institutumuza görə tanımasın? Niyə dünya bilməsin ki, yer üzündə bir ölkə var, orada kişi sözü, qadın ləyaqəti ən mötəbər hökmlərdən, fərmanlardan üstündür" (2, s.22). Qərb isə ciddi sosial-əxlaqi dayaqlara malik olmalı olan ailəni ifrat azadlıq və müstəqillik kimi amillərlə ciddi zərbə altında qoymaqla gələcək nəsillərin həm tərbiyə, həm də demoqrafik planda problemlərinə yol açır. Bu baxımdan qloballaşma şəraitində həm Şərq, həm də Qərb ailəsi eyni yanaşmaya əsaslanmaqla bəşəriyyəti planetar problemlərdən biri olan qloballaşmadan, demoqrafik fəlakətlərdən qoruya bilər. Bu yanaşma tərbiyə prosesində Şərq müdrikliyi ilə Qərb demokratiyasının sintezindən ibarət olmalıdır.

Tərbiyədə əsaslı rola malik məktəb qloballaşma şəraitində cəmiyyətin sosial sifarişini yerinə yetirməklə, eyni zamanda milli-mənəvi dəyərlərə malik, öz xalqını, torpağını sevən, xalqının adət-ənənələrini şəxsi və ictimai fəaliyyətində yaşadan vətəndaşların yetişdirilməsini prioritet vəzifə kimi qarşıya qoyur. Bu prosesdə məktəb ilə ailənin birgə fəaliyyəti, əlaqəsi güclü rola malikdir. Məktəb təkcə uşağı tərbiyə etmir, o həm də onun ailəsinə onun valideyinləri ilə münasibətlər sistemi əsasında təsir göstərir. Çünki heç də valideynlərin hamısı eyni səviyyədə olmur və

onların tərbiyə ilə bağlı öz dəyərlər sistemi olur ki, onların da bəziləri bizim mental dəyərlərimizə uyğun olmaya bilər. Bu baxımdan məktəb həm şagirdin, həm də valideynin ictimai tərbiyəçisi kimi çıxış edir və bu prosesdə pedaqoji prosesin əsas fiquru olan müəllimin ideya-siyasi və əxlaqi səviyyəsinin rolu inkaredilməzdir.

Məktəbin qloballaşma prosesində rolundan danışarkən onun ailə ilə əlaqəsinin bu gün heç də qənaətbəxş olmamasını da qeyd etmək lazımdır və burada həm sosial, həm də iqtisadi amillərin öz payı var. Belə ki, ailənin iqtisadi təminatı ilə bağlı problemlər üzündən günün çox hissəsini işləməyə məcbur olan bəzi valideynlərin, istəsələr belə, məktəblə sıx əlaqə saxlamağa vaxtları olmur. Bir qrup valideyn isə vaxtı olsa belə, onlarda uşaqların təlim, tərbiyəsinin vəziyyətini öyrənməyə daxili motivasiya olmur. Belə valideynlərin övladları sosial cəhətdən yetim uşaqlara çevrilib bəzi küçə qruplaşmalarına qoşulurlar. Digər qrupa daxil olan valideynlər isə məktəblə müntəzəm əlaqə saxlayır, onları uşağın təkcə təlim nailiyyətləri deyil, həm də tərbiyə sahəsindəki göstəriciləri maraqlandırır. Araşdırmaya görə, belə valideynlərin əksəriyyəti ziyalı təbəqədəndir. Bütün hallarda valideynlər tərəfindən məktəblə sıx əlaqəyə bəhanələrin gətirilməsi təəssüf doğurur və belə valideynlər unudurlar ki, uşağın əsl vətəndaş kimi böyüməsində iqtisadi təminatdan daha çox onun tərbiyə aldığı mühit böyük rol oynayır.

Qloballaşma prosesini sürətləndirən və tərbiyə sahəsində neqativ halların kütləviləşməsində əsas amillərdən biri də kütləvi informasiya vasitələri, xüsusilə, internet şəbəkəsidir. İnternet insanların virtual sosiallaşmasına şərait yaratmaqla bərabər, müxtəlif xalqlara məxsus mədəni dəyərlərin və milli xüsusiyyətlərin assimilyasiyasına münbit şərait yaradır. Əlbəttə, internetin həyatımızda rolunun ancaq mənfi tərəflərini qeyd etmək düzgün olmazdı və hamımıza yaxşı məlumdur ki, sosial şəbəkələr gənc nəslin dünyagörüşünün formalaşmasında, sosial istiqamətdə tərbiyələnməsində əsaslı rola malikdir. Artıq "internet əsri" adlanan XXI əsrdə məlumatın ötürülməsində interaktivlik və müxtəlifçalarlılıq internet istifadəçiləri arasında intensiv fikir mübadiləsi, onların "evdən çıxmadan" dünyanın istənilən nöqtəsinə "virtual" səyahəti ilə özünü büruzə verir. Dünyanın sərhədlərini "virtual" olaraq aşan insanlar, xüsusilə, hələ şəxsiyyət kimi tam formalaşmamış uşaqlar qlobal kitabxana rolunu oynayan internetdə tərbiyəvi cəhətdən özlərinə uyğun olmayan məlumatlar blokuna da daxil olurlar. Uşaqların internetdən istifadəsinə valideyn nəzarətinin müxtəlif səbəblər üzündən zəif olması uşaqlarda akselerasiya prosesinin sürətlənməsinə və vaxtından əvvəl "böyüməsinə" gətirib çıxarır. Bu da uşaqların mənəvi tərbiyəsində müəyyən problemlərlə müşayiət olunur və uşaqların internetdən istifadəsində pedaqoji-psixoloji amillərin nəzərdən qaçırılması gələcəkdə tərbiyə sahəsində ciddi fəsadlara yol aça bilər.

Qloballaşma şəraitində tərbiyə ilə bağlı diqqət mərkəzində saxlanılması vacib olan məsələlərdən biri ictimai rəyin və ictimai qınağın zəifləməsidir. Əvvəllər ictimai yerlərdə, insanı əhatə edən mühitdə (bu daha çox mikro və mezomühitə

aiddir) milli-mənəvi dəyərlərimizə, milli əxlaqımıza zidd olan hərəkətlərə qarşı vətəndaşlarda güclü ictimai qınaq var idi. İndi isə sanki insanlarda cəmiyyətdə baş verən tərbiyəsiz hərəkətlərə qarşı laqeydlik, "tolerantlıq" yaranıb və bunun da getdikcə adət halını alması gələcəkdə yaxşı nəticələr verməyəcək.

Dünya xalqları arasında bizi bir millət kimi səciyyələndirən, müəyyən edən və ən ali hiss olan milli özünüdərk qloballaşma prosesində hər bir xalq və millət üçün özünümüdafiə, özünüqoruma vəzifəsini yerinə yetirir. Heç bir xalq özünü dünyada gedən fundamental, planetar proseslərdən təcrid etmək gücündə deyil və tərbiyə sistemləri də bazis rolunu oynayan iqtisadiyyatın Qərbə inteqrasiyası fonunda daha tez qloballaşmaya məruz qalır. Milli ruhun yaranması ailənin iki sütunu olan valideynlərin milli özünüdərkindən birbaşa asılıdır və həm ata, həm də ana eyni millətə, xalqa mənsubdurlarsa, orada böyüyən uşaq hər iki valideyndən milli xüsusiyyətləri əxz edəcəkdir. Əgər valideynlərdən biri, xüsusilə ana başqa xalqın nümayəndəsidirsə, burada milli özünüdərk ilə bağlı müəyyən kənaraçıxmaların şahidi oluruq. Müxtəlif xalqlara və millətlərə məxsus insanlar arasında nikahın bağlanması müasir dövrdə adi hal alıb və əvvəlki illərə nisbətən buna cəmiyyətdə daha tolerant münasibət mövcuddur. Doğrudur, bizim cəmiyyətdə bu nikahlara münasibət birmənalı deyil və onu təqdir edənlər də, tənqid edənlər də kifayət qədər elmi dəlilləri əsas olaraq gətirirlər. Amma bir xalq və millət olaraq bu gün milli özünüdərk ilə bərabər, genefondumuzun da qorunub saxlanılması vətəndaş cəmiyyəti olaraq bizim hər birimizin milli-mənəvi borcumuz olmalıdır.

Qloballaşma ilə bağlı tərbiyədə mövcud olan problemlərin yaranmasında ictimai təbliğat və təşviqat vasitəsi olan televiziyanın öz payı var və onun haqqında qısa da olsa yazmaq yerinə düşər. Acınacaqlı hal odur ki, bu gün uşaqların tərbiyəsinə ailədən və məktəbdən də daha çox televiziya ekranlarından tamaşaçıya ötürülən qeyri-etik verilişlər, aqressiya və qəddarlıq təbliğ edən filmlər daha güclü təsir göstərir. Tədqiqatçı Ə.Bədəlova yazır: "Bu gün Azərbaycan evlərinə təkcə yerli ekran vasitəsilə sutkada 20 saatdan çox veriliş ötürülür. Onun yarıdan çoxu ədəb-ərkandan kənardır" (2, s.18).

Hələ vaxtilə VII əsrdə Məhəmməd peyğəmbər tərbiyədə qloballaşmanın təzahürlərini bir cümlə ilə belə ifadə etmişdir: "Uşaqlar öz valideynlərindən daha çox zəmanələrinə bənzəyirlər". Bu gün də bu aforizm öz aktuallığını saxlayır və bu bənzəmədə televiziyanın öz rolu var. Təəssüf ki, bu məkandan tərbiyə vasitəsi kimi çox az istifadə edilir və oradakı verilişlərin çoxu sanki cəmiyyətin mənəviyyatının pozulmasına hesablanıb. Televiziyanın məhz qloballaşma şəraitində xalqın həyatında oynadığı əhəmiyyətli rolu ümummilli liderimiz Heydər Əliyev belə qiymətləndirmişdir: "İnsanların mənəvi tərbiyəsində, mənəvi inkişafında televiziyanın rolu çox böyükdür. Televiziya respublikanın həyatında gedən prosesləri əks etdirərək xalqımızda, vətəndaşlarda ictimai-siyasi fəallığı artırıbdır. Televiziya xalqımızın gözəl ənənələrini, milli ənənələrini, mənəvi

ənənələrini təbliğ edərək insanlarımızı mənəvi cəhətdən daha da yüksəltməyə kömək edibdir. Televiziyamız tariximizin səhifələrini əyani surətdə təbliğ edərək hər bir vətəndaşın öz keçmişini, tarixini, millətin aqibətini daha yaxından bilməsinə kömək edibdir. Televiziya insanların mənəvi tərbiyəsini yüksəltmək üçün çox gözəl bir vasitədir. Televiziya bu işi davam etdirməlidir. Bizim insanlarımızda milli vətənpərvərlik ruhu, milli qürur hissi daha da inkişaf etməlidir və televiziya bu sahəyə bundan sonra da ciddi fikir verməlidir" (1, s.553-554). Televiziya Ulu öndərin bu tövsiyələrini fəaliyyət kredosuna çevirməlidir və Qarabağ uğrunda gedən 44 günlük Böyük Vətən müharibəmizdə dövlət televiziyası (AzTV) xalqımızın milli mənəviyyatının əsas qolu olan döyüşkənliyimizi, Vətən və torpaq, yurd təəssübkeşliyimizi, Vətən uğrunda canını fəda edən minlərlə Azərbaycan əsgərinin qəhrəmanlığını bütün dünyaya bəyan etdi. Qloballaşan dünyada düşmən tapdağında olan torpaqları uğrunda ölüm-dirim mübarizəsinə qalxan, dilindən, dinindən, sosial vəziyyətindən, milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşları bir yumruq kimi Ali Baş komandanın ətrafında birləşən Azərbaycan adlı ölkəni daha yaxından tanıtmaqda məhz televiziya öndə gedən təbliğat vasitəsi oldu. Türk milli birliyinin ifadəsi olan "iki dövlət-bir millət" tandeminin siyasi gücü ilə türk birliyinə düşmən münasibət bəsləyən bəzi ölkələrə verilən ritorik cavab Azərbaycanın qloballaşma şəraitində inkişafının konturlarını müəyyən etdi. Bu müharibə bir daha sübut etdi ki, milli təəssübkeşliyi, Vətən sevgisi güclü olan xalqlar məkanından və zamanından asılı olmayaraq öz mövcudluğunu əsrlər boyu saxlayır.

Sürətlə gedən qloballaşma prosesi bütün yaş dövrlərini əhatə etsə də, gənclərimizin sosial həyatına onun güclü təsirini asanlıqla görmək olar. Bu onların zahiri görünüşündə, davranış fəaliyyətində və düşüncə tərzində özünü büruzə verir. Belə şəraitdə mədəni, mənəvi və milli köklərimizə qayıdışın elmi konsepsiyası hazırlanmalıdır və bu konsepsiya ilə gənclərimizdə mənəviyyatımıza daxil olan yad ünsürlərə, yabançı təsirlərə qarşı "sosial özünümüdafiə instinkti formalaşdırılmalıdır" (3, s.17). Milli mənlik hissi güclü olan fərdlərdən ibarət xalqlar məhz bu ali hissin təsiri və qüdrəti ilə dünyada gedən mürəkkəb siyasi-iqtisadi hadisələrlə assosiasiya edilmiş ümumdünya böhranlarında davam gətirib mövcudluğunu davam etdirirlər. Milli dərk ilə özünüdərk arasındakı ahəngdar tarazlıq gənc nəslin hadisələrə milli təəssübkeşlik rakursundan qiymət verib daha mobil və çevik olmasına şərait yaradır.

Qloballaşmada "ictimai mən" ilə "milli mən" arasında üzvü bağlılıq olmadıqda insan milli xüsusiyyətlərini getdikcə itirən "dünya insanı"na çevrilməyə başlayır. Bu konsepsiya ətrafında bu gün müxtəlif fikir mübadiləsinin getməsi və dünyada gedən sosial-siyasi proseslərin məhz bu çevrilməyə istiqamətlənməsi tərbiyə sistemlərində milli qayıdışa sistemli elmi-fəlsəfi-pedaqoji yanaşmanı aktuallaşdırır. Dünyanın eyni düşüncə tərzinə, heç bir milli koloritə malik olmayan insanlardan ibarət olması onun rəngarəngliyinin itməsi və "darıxdırıcı planet"ə

çevrilməsi ilə nəticələnər. Bizim doğma evimiz olan Yer planetini müxtəlif milli köklərə, milli-mənəvi dəyərlərə malik xalqlar daha da maraqlı edir, çünki xalqlar, tərbiyə sistemləri arasında gedən inteqrasiya prosesləri hər bir xalqı, eyni zamanda dünyanı mənəvi cəhətdən daha da zənginləşdirir.

## ƏDƏBİYYAT


1. *Bədəlova Ə.* Qloballaşma şəraitində böyüməkdə olan nəslin milli özünüdərk tərbiyəsi. Bakı: ADPU, 2013, 93 s.
2. Heydər Əliyev: Mənəviyyat, mənəvi dəyərlər, mənəvi tərbiyə. Bakı: Müəllim, 2008, 614 s.
3. *Xəlilov S.* Şərq və Qərb. Ümumbəşəri ideala doğru. Bakı: Azərbaycan Universiteti, 2004, 624 s.
4. *Qaralov Z.* İdeologiya və mənəviyyat. Bakı: Hüquq, 2008, 483 s.
5. Qısa siyasi lüğət. Bakı: Azərbaycan Dövlət nəşriyyatı, 1967, 230 s.


Redaksiyaya daxil olub 20.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 132-142
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 132-142

*UOT 37*

***Ş.S.Nəzərova***
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci*
*shalala.nazarova@mail.ru*

# İNKLÜZİV TƏHSİLİN ƏSAS PRİNSİPLƏRİ, MÖVCUD PROBLEMLƏRİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *inklüziv təhsil, inklüziya, prinsiplər, sağlamlıq imkanları məhdud uşaqlar, problemlər, perspektivlər*

Müasir dünya təhsilə və bütövlükdə sosial-mədəni siyasətə yanaşmaların köklü şəkildə dəyişməsini yaşayır. Bu, cəmiyyətin insanın şəxsi keyfiyyətlərinin inkişafına və formalaşmasına istiqamətlənməsindən irəli gəlir. XXI əsr üçün səciyyəvidir ki, şəxsiyyətin yalnız özünü reallaşması istənilən sosial inkişafın əsas məqsədidir. İctimai şüurda bu dəyişikliklər müasir təcrübənin yaratdığı yanaşmalara və anlayışlara əsaslanan yeni təhsil paradiqmasının yaranmasına səbəb oldu. Bunlara "inklüziv təhsil" anlayışını da aid etmək olar. UNESCO istisnasız olaraq bütün uşaqların keyfiyyətli təhsilə bərabər daxil olma imkanı olan bütöv bir fenomen kimi inklüziv təhsilin ən universal tərifini verdi. Bu, bizim fikrimizcə, humanizmin, intellektin və yaradıcılıq qabiliyyətlərinin inkişafı, şəxsiyyətin intellektual, etnik, emosional və fizioloji komponentlərinin balansı üzərində qurulmuşdur. Məqalə inklüziv təhsilin əsas prinsiplərinə, dünyada, o cümlədən Azərbaycan Respublikasında mövcud problemlər və inkişaf perspektivlərinə həsr edilmişdir.

***Ш.С.Назарова***

## ОСНОВНЫЕ ПРИНЦИПЫ, СУЩЕСТВУЮЩИЕ ПРОБЛЕМЫ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ИНКЛЮЗИВНОГО ОБРАЗОВАНИЯ

***Ключевые слова:*** *инклюзивное образование, инклюзия, принципы, дети с ограниченными возможностями здоровья, проблемы, перспективы*

Современный мир переживает коренную смену подходов к образованию и к социально-культурной политике в целом. Это обусловлено переориентацией общества на развитие и формирование личностных качеств человека. Для XXI столетия характерно понимание, что только самореализация личности является основной целью любого социального развития. Эти изменения в общественном сознании вызвали появление новой парадигмы образования, которая опирается на подходы и понятия, выработанные современной практикой. К ним можно отнести, в частности, понятие «инклюзивное образование». ЮНЕСКО дала наиболее универсальное определение инклюзивного образования как целостного феномена, предполагающего равный доступ к качественному образованию всех детей без исключения. Оно базируется, на наш взгляд, на гуманизме, развитии интеллекта и творческих способностей, балансе интеллектуальных, этнических, эмоциональных и физиологических компонентов личности. Статья посвящена основным

принципам, современным проблемам и перспективам развития инклюзивного образования в мире, в том числе в Азербайджанской Республике.

***Sh.S.Nazarova***

**BASIC PRINCIPLES OF INCLUSVE EDUCATION, CURRENT PROBLEMS AND DEVELOPMENIT PERSPECTIVES**

***Keywords:*** *inclusive education, inclusion, principles, children with limited health, problems, prospects*

The modern world is experiencing a radical change in approaches to education and socio-cultural policy as a whole. This is due to the fact that society is oriented towards the development and formation of personal qualities of man. It is typical for the 21st century that self-esteem is the main goal of any social development. These changes in public consciousness led to the emergence of a new paradigm of Education based on approaches and concepts created by modern practice. This can be attributed to the concept of "inclusive education". UNESCO has given the most universal definition of inclusive education as a whole phenomenon, which allows equal access to quality education of all children without exception. This, in our point of view, is built on the development of homanism, intellect and creative abilities, on the balance of the intellektual, ethnic, emotional and physiological components of personality. The article is devoted to the basic principles of inclusive education, problems in the world, including the Republic of Azerbaijan and prospects for development.

## Giriş

Tarixi inkişaf prosesində sağlamlıq imkanları məhdud uşaqların təhsil sistemi təcriddən inklüziyaya qədər yol keçmişdir. Məktəbdə belə uşaqların təhsil tarixini şərti olaraq aşağıdakı mərhələlərə bölmək olar:

- XX əsrin 60-cı illərinin əvvəllərindən ortalarınadək – sağlamlıq imkanları məhdud uşaqları təcrid etməyə aparan "tibbi model";
- XX əsrin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər – sağlamlıq imkanları məhdud uşaqları ictimai həyata inteqrasiya edən "normallaşma modeli";
- XX əsrin 80-ci illərinin ortalarından bu günə qədər – "daxil etmə modeli", yəni inklüziya.

Azərbaycanda inklüziv təhsilin təxminən 15-17 illik təcrübəsi mövcuddur və ölkəmizdə inklüziv təhsil sisteminin daha da perspektivli inkişafı üçün dövlət daima bu məsələyə diqqət yetirməlidir və bu işi uğurla həyata keçirir [13]. Məhz inklüziv təhsil xüsusi təhsil ehtiyacları olan uşaqlara sağlam həmyaşıdları ilə bərabər cəmiyyətdə maksimal adaptasiya və tam inteqrasiya üçün zəruri olan inkişaf imkanlarını təmin edəcəkdir [16].

**Tədqiqat metodları**

İnklüziya yalnız xüsusi təhsil ehtiyacları olan uşaqların deyil, həm də sağlam uşaqların daha inkişaf etmiş, humanist və səmərəli təhsil sistemi kimi tanınır. İnklüziya məktəb sisteminin meyarlarına uyğunluğundan və ya uyğunsuzluğundan asılı olmayaraq hər kəsə təhsil hüququ verir. Məktəb təkcə təhsil funksiyalarını yerinə yetirmir, həm də uşağın həyat fəaliyyətinin əsas sahəsidir. Onların hər birinin fərdiliyinin hörməti və qəbul edilməsi vasitəsilə öz təhsil trayektoriyası olan şəxsiyyətin formalaşması baş verir. Məktəbdə şagirdlər kollektivdədirlər, bir-biri ilə qarşılıqlı hərəkətdə olmağı, qarşılıqlı əlaqələr qurmağı, müəllimlə birlikdə təhsil problemlərini yaradıcı şəkildə həll etməyi öyrənirlər. Əminliklə demək olar ki, inklüziv təhsil bütün uşaqların şəxsi imkanlarını genişləndirir, humanizm, tolerantlıq, yardıma hazır olmaq kimi keyfiyyətləri inkişaf etdirməyə kömək edir. İnklüziv təhsil tamamilə yeni bir sistemdir ki, burada şagirdlər və müəllimlər ümumi məqsəd üzərində işləyirlər; istisnasız olaraq bütün uşaqlar üçün əlçatan və keyfiyyətli təhsilin həyata keçirilməsi vacib şərtdir.

İnklüziv təhsil problemləri üzrə tədqiqatların təhlili inklüziyanın aşağıdakı prinsiplərini qeyd etməyə imkan verir:

- bütün uşaqlar və müəllimlər tərəfindən cəmiyyət üçün bərabər dəyərin tanınması;
- şagirdlərin yerli təhsil müəssisələrinin mədəni həyatında iştirak dərəcəsinin artırılması və eyni zamanda uşaqların bir hissəsinin ictimai həyatdan təcrid olunması səviyyəsinin azaldılması;
- uşaq bağçasının yanında yaşayan bütün uşaqların müxtəlif ehtiyaclarına tam cavab verə bilməsi üçün məktəbəqədər təhsil müəssisələrində iş üsullarının yenidən qurulması;
- yalnız əlilliyi və ya xüsusi təhsil ehtiyacları olanlara aid üçün deyil, bütün uşaqlar üçün bilik əldə etmək və ictimai həyatda tam iştirak etmək yolunda maneələrdən xilas olmaq;
- maneələrin aradan qaldırılması və fərdi uşaqlar üçün müəssisələrin mövcudluğunu artırmaq cəhdlərini təhlil etmək və öyrənmək. Məktəbəqədər təhsil müəssisələrində bütün yetirmələrinin rifahı naminə islahatların və dəyişikliklərin aparılması;
- yaşayış yeri üzrə yerləşən müəssisələrdə uşaqların təhsil almaq hüququnun tanınması;
- həm uşaqlar, həm də müəllimlər üçün ümumilikdə müəssisələrdə vəziyyətin yaxşılaşdırılması;
- təhsil müəssisələrinin rolunun yalnız təhsilalanların akademik göstəricilərinin artırılmasında deyil, həm də ictimai dəyərlərin inkişafında tanınması;
- təşkilatlar və yerli icmalar arasında dəstək və əməkdaşlıq əlaqələrinin inkişaf

etdirilməsi. Təhsildə inklüziya cəmiyyətdə inklüziyanın bir aspektidir.

Beləliklə, bu prinsiplərin mahiyyəti təşkilatın yanında yaşayan bütün uşaqlar üçün təhsilin mövcudluğudur. Sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər təhsil müəssisələrinə fiziki cəhətdən daxil olması təmin edilməlidir. Tədris proqramının strukturu elə olmalıdır ki, o, daha mobil olsun, təhsil metodlarının müxtəlifliyi isə bütün uşaqların tələbatını ödəməyə imkan versin. Sağlamlıq və inkişaf imkanlarından asılı olmayaraq uşaqdan şəxsiyyət formalaşdıran birgə və fərdi fəaliyyət mühüm əhəmiyyət kəsb edir. İnklüziya – sağlamlığı məhdud olan uşaqların xeyrinə sağlam şagirdlərin hüquqlarının pozulmaması, təhsilin hamı üçün real hüquqa çevrildiyi cəmiyyətin inkişafının növbəti mərhələsidir. İnklüziya yalnız xüsusi təhsil ehtiyacları olan uşaqların deyil, həm də sağlam uşaqların daha inkişaf etmiş, humanist və effektiv təhsil sistemi kimi tanınır. İnklüziya standartın meyarlarına uyğunluğundan və ya uyğunsuzluğundan asılı olmayaraq hər kəsə təhsil hüququ verir.

Məktəbəqədər təşkilat yalnız təhsil funksiyalarını yerinə yetirmir, həm də uşağın həyat fəaliyyətinin əsas sahəsidir. Onların hər birinin fərdiliyinin hörməti və qəbul edilməsi vasitəsilə öz təhsil trayektoriyası olan şəxsiyyətin formalaşması baş verir. Bununla yanaşı, uşaq bağçasının yetirmələri kollektivdədir, bir-biri ilə qarşılıqlı əlaqə, münasibətlər qurmağı, təhsil problemlərini yaradıcı şəkildə həll etməyi öyrənirlər. Əminliklə demək olar ki, inklüziv təhsil bütün uşaqların şəxsi imkanlarını genişləndirir, humanizm, tolerantlıq, köməyə hazır olmaq kimi keyfiyyətləri inkişaf etdirməyə kömək edir. İnklüziv təhsil prinsip etibarilə yeni sistemdir ki, burada tərbiyəçilər və müəllimlər ümumi məqsədlə: istisnasız olaraq bütün uşaqlar üçün əlçatan və keyfiyyətli təhsil üzərində işləyirlər. Hazırda Azərbaycanda sağlamlıq imkanları məhdud uşaqların təhsil sistemi müasir təhsilin aktual və diskussiya problemlərindən biridir. Bu istiqamətdə 2004-cü ildən başlayaraq mühüm işlər görülüb. Ölkəmizdə inklüziv təhsillə bağlı müxtəlif layihələr həyata keçirilmişdir. Bu layihələrin icrası dövründə sağlamlığı məhdud uşaqlar məktəbəqədər və ümumtəhsil səviyyəsində inklüziv təhsilə cəlb olunmuşdur. Hal-hazırda belə uşaqların təhsili davam edir, dövlətimiz sağlamlığı məhdud uşaqlarla bağlı beynəlxalq təcrübədən istifadə edərək işlərini uğurla davam etdirir. Lakin bu istiqamətdə müəyyən çətinliklər mövcuddur.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi məlumatına əsasən Azərbaycanda 633649 sakin sağlamlıq məhdudiyyətlərinin bu və ya digər formasına malikdir (bax: cədvəl 1). Onlardan 62951-i, yaxud 10%-i sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlardır [12]. Bu, müxtəlif dərəcəli fiziki, psixi və ya intellektual inkişafın xüsusiyyətlərinə malik insanlardır: dayaq-hərəkət aparatının anadangəlmə və ya həyatı boyu əldə etdiyi pozuntular, görmə, eşitmə qüsurları, psixi vəziyyət, əqli inkişaf. Onlar xüsusi uyğunlaşdırılmış həyat şəraitinə ehtiyac duyurlar və tez-tez kənardan yardım tələb edirlər.

***Cədvəl 1.*** **Pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı (ilin əvvəlinə, nəfər) - Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik hesabatları [12]**

| İllər | Pensiya və ya müavinət alan əlilliyi olan şəxslərin sayı - cəmi | Onlardan sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar |
|---|---|---|
| 2000 | 250712 | 21739 |
| 2005 | 393058 | 49135 |
| 2007 | 426946 | 48479 |
| 2008 | 437627 | 55066 |
| 2009 | 458851 | 56433 |
| 2010 | 473185 | 58122 |
| 2011 | 488551 | 57941 |
| 2012 | 506127 | 61693 |
| 2013 | 520793 | 62866 |
| 2014 | 537586 | 62860 |
| 2015 | 568149 | 65482 |
| 2016 | 587170 | 67081 |
| 2017 | 613645 | 71934 |
| 2018 | 625640 | 71783 |
| 2019 | 636004 | 72979 |
| 2020 | 633469 | 62951 |

Cədvəl 2-də Azərbaycan Respublikasında ilk dəfə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilən 18 yaşadək uşaqların yaş qrupları üzrə bölgüsünü, cədvəl 3-də isə Azərbaycan Respublikasında ilk dəfə sağlamlıq imkanları məhdudiyyəti müəyyən edilən 18 və yuxarı yaşlı şəxslərin yaş qrupları üzrə bölgüsünü təqdim edirik [12].

**Cədvəl 2, 3**-dən istifadə edərək 2007-2019-cu illərdə Azərbaycan Respublikasında ilk dəfə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilən şəxslərin sayının qrafik təsvirini təqdim edirik [12].

***Cədvəl 2.*** **Azərbaycan Respublikasında ilk dəfə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilən 18 yaşadək uşaqların yaş qrupları üzrə bölgüsü -**
**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik hesabatları [12]**

| | İlk dəfə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilən 18 yaşadək uşaqların sayı - cəmi, nəfər | o cümlədən yaş qrupları üzrə: | | | | 18 yaşadək əhalinin hər 10 000 nəfərinə |
|---|---|---|---|---|---|---|
| | | 0-3 yaşlı | 4 -7 yaşlı | 8-13 yaşlı | 14 -17 yaşlı | |
| *2017* | | | | | | |
| Cəmi | 5157 | 2072 | 1543 | 1176 | 366 | 19,7 |
| *2018* | | | | | | |
| Cəmi | 5777 | 2395 | 1766 | 1251 | 365 | 22,1 |
| *2019* | | | | | | |
| Cəmi | 9213 | 2430 | 2477 | 3014 | 1292 | 35,0 |

***Cədvəl 3*** **.Azərbaycan Respublikasında ilk dəfə əlilliyi müəyyən edilən 18 və yuxarı yaşlı şəxslərin yaş qrupları üzrə bölgüsü –**
**Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik hesabatları [12]**

| | İlk dəfə sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilən 18 və yuxarı yaşda şəxslərin sayı-cəmi, nəfər | onlardan yaş qrupları üzrə: | | 18 və yuxarı yaşda olan əhalinin hər 10 000 nəfərinə |
|---|---|---|---|---|
| | | 18-29 yaşlı | 30-35 yaşlı | |
| *2017* | | | | |
| Cəmi | 23451 | 3275 | 2260 | 32,4 |
| *2018* | | | | |
| Cəmi | 18542 | 2652 | 1954 | 25,3 |
| *2019* | | | | |
| Cəmi | 20502 | 3567 | 2030 | 27,7 |

**Qrafik 4**

***Azərbaycan Respublikasında ilk dəfə əlilliyi müəyyən edilən şəxslərin sayı, min nəfər***
***Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin illik hesabatları* [12]**




Təqdim olunan rəqəmlər Azərbaycanda inklüziv təhsilin inkişafına diqqətin artırılmasını bir daha sübut edir. Dünyada uşaqların keyfiyyətli təhsil almasına mane olan cəhətlər fiziki məhdudiyyəti olan şəxslərin sosial bərabərsizliyi ilə bağlı olan çoxsaylı məhdudiyyətlərdir. Sağlamlıq imkanları məhdud uşaqlar üçün mövcud xüsusi təlim-tərbiyə müəssisələri sistemi indi ciddi dəyişikliklərə məruz qalır və bir çox hallarda öz ixtisarının astanasında durur. Çox güman ki, ümumtəhsil və xüsusi məktəb arasındakı fərqlərin aradan qaldırılması tendensiyası daha da güclənəcək.

Bununla əlaqədar olaraq sağlamlıq imkanları məhdud uşaqların marjinallaşması (uçurumda dayanması) proseslərini əhəmiyyətli dərəcədə azaltmağa və onlara təhsilin əlçatanlığını artırmağa imkan verən inklüziv təhsilin rolu artır. Bununla da bu cür uşaqlara onların sosial adaptasiyası üçün daha əlverişli şərait yaradılacaqdır. Ümumtəhsil məktəbində inklüziv təhsilin inkişaf tendensiyası ilə şagirdlərin zehni, nitq və bütövlükdə psixi inkişaf səviyyəsinə görə tərkibinin qeyri-yekcinsliyinin gücləndirilməsi uzlaşır. Bu, həm şərti sağlam, həm də sağlamlıq imkanları məhdud uşaqların digərlərinə adaptasiyasını əhəmiyyətli dərəcədə çətinləşdirir, müəllimlərin hər bir təhsilalana fərqli, həqiqətən fərdi yanaşma prinsipini tam şəkildə həyata keçirməyə imkan verməyən təlim, tərbiyə, inkişaf prosesində şagirdlərə fərdi yanaşmanın həyata keçirilməsində əlavə çətinliklər yaradır.

Bu çətinlikləri aradan qaldırmaq üçün, fikrimizcə, Azərbaycan Respublikasında ümumtəhsil məktəblərində aşağıdakı şərtlərin mövcudluğu daha təkmil şəkildə həyata keçirilməlidir:

- ümumi təhsil sistemində sağlamlıq imkanları məhdud uşaqların inklüziv təhsil prosesinin normativ-hüquqi bazasını təmin etmək;
- peşəkar təlim keçmiş ümumi təhsil müəllimləri və inklüziv yanaşmanı reallaşdıra bilən müşayiət mütəxəssisləri tərəfindən təhsil prosesini təmin etmək;
- qəbul və qarşılıqlı yardım prinsiplərinə əsaslanan inklüziv təhsilin "sərhədsiz" təhsil və sosial mühitini yaratmaq;
- inklüziv təhsil şəraitində sağlamlıq imkanları məhdud uşaqların müşayiət olunmasını təmin edən müxtəlif profilli mütəxəssislərin kompleks fəaliyyət modellərinin yaradılması;
- inklüziv təhsilin elmi-proqram-metodiki təminatını (tədris planları, tədris proqramları (onların variantları), zərurət olduqda xüsusi dərsliklər və iş dəftərləri, şagirdin özü üçün tədris vəsaitləri) işləyib hazırlamaq;
- distant təhsilin imkanlarından təhsildə səriştəli yanaşmanın həyata keçirilməsinin effektiv aləti kimi fəal istifadə etmək;
- sağlamlıq imkanları məhdud uşaqlara psixoloji-pedaqoji və sosial dəstəyi təmin edən təşkilatlar, müəssisələr, idarələr arasında idarələrarası qarşılıqlı əlaqəni və sosial tərəfdaşlığı təmin etmək;
- müəssisənin sağlamlıq imkanları məhdud uşağı tərbiyə edən ailə ilə qarşılıqlı əlaqəsinin təşkilini təmin etmək.

Bu gün bu baxımdan ümumtəhsil məktəblərində təşkilati-metodiki xarakterli dəyişikliklərə cəhd göstərilir. Belə ki, məsələn, bəzi məktəblərdə tədris prosesinə müxtəlif dəstək vasitələri (psixoloji, loqopedik, korreksiyalı-pedaqoji) ilə əlavələr üzrə proqramların sayının artması müşahidə olunur. Lakin belə proqramlar bir qayda olaraq birtərəflidir, elmi cəhətdən kifayət qədər əsaslı deyil. Çox vaxt sağlamlıq imkanları məhdud uşaqların müşayiət proqramları xüsusi təhsili olmayan mütəxəssislər tərəfindən yaradılır.

**Nəticə və təkliflər**

Müasir şəraitdə uşaqlara kömək və dəstəyin mövcud formalarının çatışmazlığı, bəzən isə zəifliyi daha qabarıq şəkildə üzə çıxır. Burada çox işlər kifayət qədər peşəkar şəkildə aparılmır, müəllimlərin bu cür fəaliyyətlə bağlı dar ixtisaslaşması, onların psixoloji səriştəsinin aşağı olması ilə əlaqəlidir. Onlar inkişafdan kənar psixoprofilaktika üsullarına zəif yiyələnir, psixoloji və pedaqoji korreksiyanın metodlarından istifadə etməkdə çətinlik çəkirlər. Ümumtəhsil məktəblərinin müəllimləri hələ ki, uşaqların müxtəlif kateqoriyaları ilə işləməyi, qrup işi təşkil etməyi və fəal paradiqmada dərs keçməyi bacarmırlar. Onlar təhsil marşrutunun qurulması və sağlamlıq imkanları məhdud uşaqlar üçün fərdi proqramların işlənib hazırlanması üzrə müasir texnologiyalara malik deyillər.

Ümumilikdə isə sağlamlıq imkanları məhdud uşaqların dəstəklənməsinə və onlara təhsil prosesində hərtərəfli yardım göstərilməsinə diqqətin artırılması vacibdir.

Sağlamlıq imkanları məhdud və fiziki baxımdan qüsurlu uşaqlara yardım subyektlərinin fəaliyyətinin (məktəb psixoloji xidməti, korreksiya-pedaqoji xidmət, sosial xidmət) məzmun və təşkilati prinsiplərinin işlənib hazırlanması yalnız müxtəlif profilli mütəxəssislərin kompleks fəaliyyət modeli: psixiatr-həkimlər, nevropatoloqlar, fizioloqlar, psixoloqlar, loqopedlər, pedaqoq-defektoloqlar haqqında bütöv təsəvvür əsasında mümkündür. Onların ayrı-ayrı səyləri təhsil, tədris, psixo-korreksiya, profilaktik işlərdə istənilən nəticələri vermir və verə bilməz.

Hazırda uşaqlara kompleks yardımın təşkili qarşısında duran inklüziv təhsilin aktual problemi "sərhədsiz" təhsil mühitinin yaradılmasıdır. Bu cür təhsil mühitinin ümumi qaydalarından biri onun sağlamlıq imkanları məhdud uşaqlar üçün əlçatanlıq meyarıdır.

Belə uşaqların müşayiət olunmasını təmin edən müəssisələrdə avadanlıq və təchizatla bağlı ümumtəhsil tələblərdə bu kateqoriyadan olan uşaqların sosiallaşmasının problemləri və çətinlikləri nəzərə alınmalıdır. Təhsil müəssisələrində sosial mühit cəmiyyətin müasir həyat fəaliyyətinin səviyyəsini nəzərə almalıdır və onun tələblərinə yaxın olmalıdır. Bu, xüsusilə uşağın həyatının bütün sahələrinin texniki təchizatına aiddir: məişət ehtiyaclarının həyata keçirilməsi, sosial səriştənin, sosial fəallığın və uşağın həyat davamlılığının formalaşdırılması.

Həmçinin təhsil prosesində yeni informasiya texnologiyalarının istifadəsində ciddi problemlər var ki, bu da aşağıdakı amillərlə şərtlənir:

- sağlamlıq imkanları məhdud uşaqlar üçün nəzərdə tutulan, təlimin məqsəd və vəzifələrinə cavab verən texnologiyalardan istifadə əsasında optimallaşdırılmış informasiya-texnoloji infrastrukturun (təhsil müəssisəsi çərçivəsində), proqram-aparat təminatının olmaması;
- inklüziv təhsilə istiqamətlənmiş texnoloji infrastrukturun yaradılması prinsiplərinə əsaslanan şəraitin olmaması: istifadə rahatlığı, əlverişliliyi, çevikliyi, iqtisadi əlçatanlığı, rentabelliyi.

Sağlamlıq imkanları məhdud uşaqlarda ətraf mühitlə təmas, hipodinamiya, psixo-emosional sferanın pozulması və çox vaxt böyüklərdən asılı olaraq müxtəlif fəaliyyət növlərinin yerinə yetirilməsində uşaqların özünü büruzə verməsində sistemli şəkildə həyata keçirilməsi üçün şərait tələb olunur. Bu işdə yardımçı texnologiyalar, yəni qurğular və ya xidmətlər xüsusi rola malikdir ki, funksional məhdudiyyətləri olan insanlara gündəlik həyatda fəal iştirak etməyə, təhsil almağa, işləməyə və ya istirahət etməyə icazə verirlər.

Bu sahədə problemlərin həlli üçün ilk növbədə hazırda mövcud olan yardımçı qurğular barədə məlumat bankının yaradılması tələb olunur.

Elmdə və ictimai həyatda sürətli dəyişikliklər, informasiya texnologiyalarının inkişafı şəraitində təhsildə, o cümlədən sağlamlıq imkanları məhdud şəxslərə səriştəli yanaşmanın həyata keçirilməsinin səmərəli aləti kimi distant

təlimdən istifadə etmək məqsədəuyğundur. Distant təhsil şəraitində tələbə informasiya axtarışı, onun seçilməsi və strukturlaşdırılması, təhlili və qiymətləndirilməsi üzrə səmərəli bacarıq əldə edir.

Distant təhsil texnologiyalarının tədris prosesinə tətbiqi şagirdlərin problem-axtarış və layihə fəaliyyətinin həyata keçirilməsi üçün yeni imkanların yaranmasına gətirib çıxarır. Belə ki, pedaqoqların şagirdlərlə və şagirdlərin öz aralarında interaktiv telekommunikasiya əlaqəsi şəraitində müasir cəmiyyətdə fəaliyyətinin təşkili üçün zəruri olan səlahiyyətlər təbii şəkildə formalaşır.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşağı tərbiyə edən ailə ilə qarşılıqlı əlaqənin təşkili tamamilə yeni səviyyədə təmin edilməlidir və bu, uşağın sağlamlığına zərər vurmasının qarşısını alır. Bu istiqamətdə aşağıdakı addımların atılması uyğundur:

- sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən ailələrə sosial-psixoloji və sosial-pedaqoji yardım həllərinin proqram-metodiki təminatının və əlaqələndirilməsinin yaradılması;
- sağlamlıq imkanları məhdud uşaqların tərbiyə olunduğu ailə üzvləri arasında yaranan problemlərin aşkar edilməsi və düzəldilməsi üçün proqram-metodiki təminatın yaradılması;
- valideynlərin (və ya onları əvəz edən şəxslərin) kompleks diaqnostika, reabilitasiya və təhsil sahəsində ölkədə mövcud olan xidmətlər üzrə informasiya təminatı hüququnun həyata keçirilməsi üçün şəraitin yaradılması;
- ailənin sağlamlıq imkanları məhdud uşaqların müşayiət olunmasını təmin edən müəssisənin işinə fəal cəlb edilməsi;
- valideynlərə uşaqlarının inkişafı problemləri üzrə məsləhətlərin verilməsi;
- valideynlərin ailə şəraitində uşaqlara yardım göstərmək üçün onlara əlçatan olan metod və üsulların öyrədilməsi;
- valideynlərin təşkilatla əlaqə qurması və s.

Azərbaycanda bu problemlərin və ümumtəhsil məktəbi şəraitində yaranan bir sıra digər problemlərin həlli təhsil, peşə və məişət sahələrində, özünüdərketmə, özünüinkişaf və sağlamlıq imkanları məhdud uşaqların özünütəhsil sahələrində maneələrin aradan qaldırılmasına gətirib çıxaracaq ki, bu da öz növbəsində inklüziv təhsilin daha uğurlu inkişafına kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. *Бикбулатова А.А.* Трудоустройство инвалидов: мировой опыт и современное состояние [Текст] / А.А.Бикбулатова, Е.А.Петрова, Р.В.Козьяков // Ученые записки Российского государственного социального ун-та, 2016, Т. 15, № 4(137), с.6-11
2. *Богомолова Т.Ю., Коржук С.В.* Инклюзивное высшее образование как часть жизненной траектории: опыт выпускников НГУ, имеющих инвалидность // Мир экономики и управления 2017, Т.17, № 4, с.201-213

3. *Бреннер Д.А., Сафонова Т.В.* Актуальные вопросы развития инклюзивного образования // Практическая дефектология, 2017, № 2 (10), с.3-11
4. *Дорошина О.П.* Особенности обучения студентов с ограниченными возможностями: опыт кафедры бухгалтерского учета и налогообложения университета управления «ТИСБИ» // Инклюзия в образовании, 2017, Т.2, № 2, с.21-26
5. *Иванова Н.Ю.* Адаптивные технологии компании «АЙ ПИ ЭР Медиа». Электронно-библиотечные системы IPRbooks и «Библиокомплектатор» для поддержки внедрения инклюзивного образования // Инклюзия в образовании, 2017, Т.2, № 3, с.12-16
6. Инклюзивное образование – образование для всех: Материалы республиканской научно-практической конференции (22 декабря 2017 года, г. Уфа), Уфа: изд-во ИРО РБ, 2017, 180 с.
7. *Крыжановская Л.М.* Основы психокоррекционной работы с обучающимися с ОВЗ: учеб. пособие для вузов. М.: Владос, 2018, 375 с.
8. *Моргачева Е.Н.* Зарубежный опыт инклюзивного обучения и возможности его использования в отечественной практике [Текст] // Дефектология, 2018, № 3, с.59-65
9. *Птушкин Г.С. Рощенко О.Е.* О повышении качества усвоения естественнонаучных дисциплин студентами технических вузов и СПО // Инклюзия в образовании, 2017, Т. 2, № 2, с.70-74
10. *Романова Г.А.* Моделирование инклюзивной образовательной среды вуза и ее проблемы // Инклюзия в образовании, 2017, Т.2, № 2, с.48-56
11. *Шафикова З.Х.* Обучение рабочим профессиям учащихся с ОВЗ в условиях инклюзии [Текст] // Педагогика, 2017, № 2, с.121-123
12. https://www.stat.gov.az/: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları - 2000 - 2020 - ci illər, https://www.stat.gov.az/
13. http://www.e -qanun.az/framework/7421: Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005-2009-cu illər). Bakı, 3 fevral 2005-ci il
14. http://www.e-qanun.az/framework/897: Azərbaycan Respublikasının Konstitusiyası, 12 noyabr 1995-ci il
15. http://www.e-qanun.az/framework/18343: Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 19 iyun 2009-cu il
16. http://www.e-qanun.az/framework/372692018 - 2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı. Bakı şəhəri, 14 dekabr 2017-ci il
17. https://www.unicef.org/
18. https://heydar-aliyev-foundation.org/az
19. https://edu.gov.az/

Redaksiyaya daxil olub 20.10.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2021, C.69, №3, s. 143-149
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2021, V.69, №3, pp. 143-149

*UOT 78.07*

***F.İ.Rzayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*firangiz-rzayeva@mail.ru*

# GƏNC NƏSLİN MÜASİR MUSİQİYƏ MARAQ GÖSTƏRMƏSİNDƏ İSMAYIL HACIBƏYOVUN FORTEPİANO YARADICILIĞININ TƏSİRİ

***Açar sözlər:*** *fortepiano musiqisi, maraq, müasir musiqi, neoklassisizm, barokko sənəti, romantizm reallıqları*

Təqdim olunan məqalədə qeyd olunur ki, XX əsrin son onilliklərində Azərbaycan bəstəkarlarının fortepiano musiqisində iki əsas – barokko sənəti və romantizm reallıqlarına istiqamətlənən üslub tendesiyalarına ayrılma nəzərə çarpır. Dövrün gənc bəstəkarlarının əsərlərində neoklassik tendensiyalar güclənir. Yaradıcılıq nümunələri göstərən bəstəkar İsmayıl Hacıbəyovun fortepiano əsərləri də bu iki üslub yenilənməsi şəraitində olmuşdur. Məqalə müəllifi bəstəkar neoklassisizminin bəzi xüsusiyyətlərini fortepiano əsərləri əsasında üzə çıxarılması cəhdini irəli sürür və gənclərin müasir musiqiyə bu əsərlər vasitəsilə maraqlarını formalaşdırır.

***Ф.И.Рзаева***

## ВЛИЯНИЕ ФОРТЕПИАННЫХ ПРОИЗВЕДЕНИЙ ИСМАИЛА ГАДЖИБЕКОВА НА РАЗВИТИЕ ИНТЕРЕСА К СОВРЕМЕННОЙ МУЗЫКЕ МОЛОДОГО ПОКОЛЕНИЯ

***Ключевые слова:*** *фортепианная музыка, интерес, современная музыка, неоклассицизм, барочное искусство, реалии романтизма*

В статье отмечается, что в последние три десятилетия XX века в фортепианной музыке композиторов Азербайджана заметно расслоение на две основные стилевые тенденции – искусство барокко и реалии романтизма. В произведениях молодых композиторов фортепианных произведений Исмаила Гаджибекова произошли в условиях обновления этих двух стилей. Автор статьи пытается выявить некоторые особенности неоклассицизма в фортепианных произведениях композитора и формирует у молодёжи интерес к этой музыке.

***F.I.Rzayeva***

## THE INFLUENCE OF ISMAIL HAJIBEYOVS PIANO WORKS ON THE DEVELOPMENT OF INTEREST IN CONTEMPORARY MUSIC OF THE YOUNGER QENERATION

***Keywords:*** *piano music, interest, contemporar music, neoclassicism, baroque art, the realities of romanticism*

The article notes that in the last three decades of the twentieth centure, in the piano music of Azerbaijani composers, there is a noticeable stratification into two main style trends – baroque art and realities of romanticism. In the works of younq composers of that time, neoclassical tendencies are amplified. The creation of piano works by Ismail Hajibeyov took plase in the context of the renewal of these two styles. The author of the article tries to reveal some of the features of neoclassicism in the composer s piano works.

XX əsrin son onilliyində demək olar ki, Azərbaycan bəstəkarlarının hamısı az və ya çox sayda, fortepiano əsərləri yaratmışlar. Bəstəkarların yaradıcılığı əvvəlki illərdə olduğu kimi, respublikada olan ifaçılıq mədəniyyəti ilə qarşılıqlı əlaqədə inkişaf edirdi.

Müasir fortepiano musiqisində bəstəkarların üslub və texniki novasiyaları milli musiqi təfəkkürünün əsas qanunauyğunluqları ilə yeni səviyyədə sintez olunmuşdur.

Folklor elementlərinin aleotorika, sonoristika, mürəkkəb lad-harmonik əsaslı polifoniya ilə həm ənənəvi çərçivədə, eyni zamanda təfsir olunmada birləşməsi XX əsrin sonunda bəstəkarlıq təcrübəsində olan xarakter xüsusiyyətlərdir. Şübhəsiz, qeyd etdiklərimiz Azərbaycan bəstəkarlarının fortepiano musiqisinin yenilənməsinə səbəb oldu.

Üslub yenilənməsi əsasən geniş harmonik vasitələr, polifoniyanın həm ənənəvi, həm də XX əsr bəstəkarlıq təcrübəsində olan xüsusi üslubda təqdim olunmasında öz əksini tapmışdır. Əsərlərin bəstəkarlıq cəhəti nisbətən standart idi. Fortepiano musiqisinin mövzu tematikası əhəmiyyətli dərəcədə genişlənmişdir. Nəzərdən keçirdiyimiz dövrdə musiqinin obraz rəngarəngliyinə uyğun olaraq əsərlərin musiqi tematizmi modifikasiyaya uğrayır, janr dairəsi daha da genişlənir, müxtəlif yeni janrlar yaranır. Bunlardan eskizlər, freskalar, ötəri anlar, əhval-ruhiyyə və s. məzmunlu əsərləri qeyd edə bilərik. Bu növ məzmunlu əsərlər fortepiano musiqisi janrlarının qarşılıqlı təsir prosesinə fəal daxil olur. Buna yeni janr hibridlərinin yaranması sübutdur: konsert-simfoniya, poema-tokkata, varialyudiya. “Variant” cücərtiləri prinsipinə əsaslanan birgə təzahür edən lakonik mövzu-tezislər verilirlər. Onlar əsərin emosional əhval-ruhiyyəsini yaradır və bütövlükdə bütün intonasiya-ritmik sistemin qurucu vahidi funksiyasını daşıyırlar.

XX əsrin son onilliklərində fortepiano musiqisinin inkişafında iki əsas üslub tendensiyalarına ayrılma nəzərə çarpır. Birinci tendensiya musiqi məzmununu özündə aydın daşıyan barokko sənəti təsirini daşıyır. İkincisi isə müasir insanın çoxşaxəli daxili aləminin açılanmasını nəzərdə tutan romantizm reallıqlarına istiqamətlənir.

XX əsrin 70-90-cı illərində bəstəkarlar kiçik formalı əsərlərdə əvvəlki onilliklərdə olan inkişaf xəttini davam etdirir. Dövrün ab-havasına cavab verən,

müasir üslub üsullarını inkişaf etdirən, gənc bəstəkarların əhval-ruhiyyəsini əks etdirən bir sıra əsərlər yaranır. 70-ci illərdə Azərbaycan musiqisində XX əsrin birinci yarısında yaranmış neoklassik tendensiyalar yeni qüvvə ilə güclənir. Bu halda münbit mühiti ancaq dahi Qara Qarayev ənənələri təşkil etmir. Məlumdur ki, Azərbaycan musiqisi onun yaradıcılığı vasitəsilə dünyanın bir çox aparıcı bəstəkarlıq məktəbləri ilə bağlı idi (Prokofyev, Şostakoviç, Stravinski, Bartok, Xindemit).

Neoklassisizmin inkişafı bilavasitə qədim musiqiyə maraq ilə də bağlı idi. Bura barokko incəsənəti və erkən klassisizm daxildir. Eyni zamanda bura bəstəkarların öz düşüncələrini daha sadə və sərfəli vasitələrlə ifadə etmək tələbatları da daxil idi.

Neoklassisizmin yayılmasının genişlənməsinə ifaçılıq prosesi də az təsir göstərmədi. Respublikada qədim və müasir musiqi ifaçılığında ixtisaslaşan solist və kamera kollektivləri meydana gəlir.

Yuxarıda qeyd etdiklərimizi əsas götürərək XX əsrin son onilliklərində yaradıcılıq nümunələri göstərən bəstəkar İsmayıl Hacıbəyovun fortepiano əsərləri üzərində dayanmaq istərdik. Bəstəkarın özünəməxsus yaradıcılığına müraciəti mühüm nəzəri və təcrübi əhəmiyyətə malikdir. Tədqiqatçı N.İskəndərovanın fikrinə görə, "Onun əsərlərini nəzərdən keçirmədən və analitik xarakterə malik zəruri ümumiləşdirmələr aparmadan XX əsrin II yarısı Azərbaycan musiqisində baş verən bədii proseslərin tam və obyektiv mənzərəsini yaratmaq qeyri-mümkündür" (3).

Adlı-sanlı Hacıbəyovlar sülaləsinin son nümayəndəsi və Qara Qarayevin ən sevimli, sadiq ardıcıllarından biri olan İsmayıl Hacıbəyov az ömür sürsə də, yaradıcılıq etibarilə parlaq, məzmunlu və dolğun bir həyat yaşamış, musiqi ilə yanaşı, rəssamlıq və ədəbiyyata da zaman ayırmışdır. Onun fitri istedadlı təbiəti, yaradıcılıq fəaliyyətinin çoxşaxəliliyi bəstəkarlıq və müəllimliklə bağlı olaraq musiqiçini dövrünün bir çox müasirlərindən fərqləndirirdi. İsmayıl Hacıbəyov ilk addımlarından özünə diqqəti cəlb etdi və yaradıcı fərdiliyini erkən üzə çıxardı.

Gənc bəstəkarın yaradıcı axtarışları XX əsrin 60-70-ci illərində Azərbaycan musiqisində prinsipial üslub yeniləşməsi şəraitində baş vermişdir. Dahi Qara Qarayevlə bilavasitə sıx yaradıcı təmasda olan gənc bəstəkar bu böyük şəxsiyyətin təsirindən yan keçə bilməmişdir. İ.Hacıbəyov yaradıcılığının başlanğıcı Q.Qarayevin Azərbaycan musiqisi üçün mühüm əhəmiyyətə malik olan əsərlərinin – Üçüncü simfoniya və skripka ilə orkestr üçün Konsertinin yarandığı bir dövrə təsadüf edir. Demək olar ki, gənc bəstəkar özünü artıq ilk əsərlərində ifadə etmiş və müxtəlif musiqi janr və formalarında qüvvəsini sınayaraq özünə maraq yaratmağa müvəffəq olmuşdur. İsmayıl Hacıbəyovun yaradıcılığı həmişəyaşar klassikaya, klassisizmin sabit ənənələrinə bağlılığı ilə diqqəti cəlb edirdi. XX əsrin 79-90-cı illərə aid olan əsərlərində bəstəkar özünü

neoklassisizmin ardıcılı kimi tanıdır və bu cəhət onun polifonik təfəkkürünə, barokko formalarına müraciət etməyinə, kameralılığa meyilliliyinə, bəzi forma yaradıcı prinsiplərə, ötən əsrlərin musiqisi ruhunda stilizasiyalara və s. sirayət edir.

İsmayıl Hacıbəyovun əsərlərinin müxtəlif cizgilərə malik olması, onun neoklassik təcrübəsi orijinal bədii üslubunun formalaşmasına gətirib çıxarır.

Ötən əsrin 60-70-ci illəri Azərbaycan musiqisində klassisizm, bir bədii üslub istiqaməti kimi, Qara Qarayevin adı ilə möhkəm bağlı olmuşdur. Neoklassik təmayüllər ilk dəfə olaraq məhz onun yaradıcılığında özünün parlaq və hərtərəfli əksini tapmışdır. Bu haqda düzgün qənaətlərə gələn musiqişünas İ.V.Abezqauzun fikrini təqdim etmək istərdik: "Qarayev yaradıcılığının magistral xəttinin hansı səmtə hərəkətindən asılı olmayaraq öz mahiyyəti etibarilə gizli bir şəkildə kamil olan bu xətt mütləq klassisizmə istiqamətlənir" (4).

Məlumdur ki, neoklassisizm özünüifadə üçün son dərəcə geniş imkanlar yaratmışdır. Məhz bu səbəbdən dəst-xəttindən irəli gələrək bir-birindən fərqli bəstəkarları cəlb edirdi. Bu mənada İ.Hacıbəyovun neoklassik təcrübəsi o zamankı dəb naminə deyil, gənc müəllif üçün daha çox bəstəkarlıq sirlərinə yiyələnməklə, özünəməxsus dünyagörüşü, öz "mənini" tapmaqla, bəstəkarlıq "kredo"sunun formalaşmasına yol açan qanunauyğunluqla özünü isbat etmişdir.

XX əsr musiqisinə neoklassisizmin təsiri ümumilikdə şəksiz və müxtəlifdir. Təqdim olunan məqalədə İsmayıl Hacıbəyov neoklassisizminin bəzi xüsusiyyətlərini bəstəkarın fortepiano əsərlərinin əsasında üzə çıxarmaq cəhdi irəli sürülmüş və bu əsərlər vasitəsilə gənc nəslin müasir musiqiyə maraqlarının formalaşmasına cəhd olunmuşdur.

Qeyd etməliyik ki, bəstəkarın fortepiano əsərlərinin ümumi sayı bir qədər az olsa da, onların yaranma tarixçəsində xarakterik səpələnməni görmək çətin deyil. Məsələn, "Paqanini mövzusuna variasiyalar" (1968) və "Vatto ruhunda eskizlər" (1971) bəstəkarın tələbəlik illərinə aid olan əsərlərdir. "Cəngi" mövzusunda Rapsodiya" (1975) "Üç idilliya" (1990) və "Albomdan səhifələr" (1993) uşaq fortepiano silsiləsi isə 90-cı illər yaradıcılığına təsadüf edir. Bəstəkarın fortepiano yaradıcılığına daxil olan əsərlər bir-birindən məzmununa, silsilə və neoklassik həllinə, ən əsas isə alətin şərhinə görə fərqlənir. Prinsip etibarı ilə ifaçılıqla əlaqəli olan bütün məsələlərdə bəstəkarın fortepianoya dərindən bələdliliyini qeyd etməliyik. Hesab edirik ki, bu cəhəti qeyd etmək zəruridir. Bəstəkar alətin bütün virtuoz – texniki və ifadəli tembr imkanlarına yiyələnərək təqdim olunan əsərlərin hər birində onların üzvi surətdə həyata keçirilməsinə nail olmuşdur.

Hələ Konservatoriyada təhsil aldığı illərdə "Paqanini mövzusuna Variasiyalar"ı yazmaq fikrini bəstəkara Qara Qarayev məsləhət görmüşdü. O, qeyd etmişdi ki, bu növ əsərin Azərbaycan musiqisində meydana çıxmasının böyük əhəmiyyəti vardır. Paqanininin 24 kaprisinin əsasında variasiyalar bir çox

bəstəkarların (List, Brams, Raxmaninov, Lütoslavski) diqqətini cəlb etmişdir.

Lakin buna baxmayaraq gənc bəstəkar bu məşhur mövzu əsasında variasiyaları böyük cəsarət və məsuliyyətlə yazmağa başlamışdı. List, Brams, Raxmaninovun pianoçuluq tapıntılarının zəminində tematik inkişaf prinsipləri, səslənmənin orkestr gücünün effektli işlənib hazırlanmış müxtəlif instrumental tembr və çalarlar istifadə olunmuş və texniki nailiyyətlər (tremolo, akkord trelləri, oktava passajları, tersiya və sekstalar əsasında ikili notlar) əldə edilmişdir. İ.Hacıbəyovun silsiləsi mövzunun interpretasiyası və işlənməsində yeni bir pillə idi.

Bəstəkar romantik fortepiano məktəbinin tematik nailiyyətlərini Paqanini tərəfindən işlənib hazırlanmış virtuoz skripka ifaçılığı üsulları ilə, dəqiq desək, nəinki ikili, eləcə də üçlü notlarla, qlissando, müxtəlif stakkato texnikalı üsullarla, ifadəli ornament bəzəkləri, metroritmik dəyişkənlik və nəhayət, virtuoz tərzli ifa ilə birləşdirmişdir.

Ümumilikdə İ.Hacıbəyovun əsəri sərbəst variasiya silsiləsini təşkil edir. Silsilənin inkişafı faktura və metroritmin mürəkkəbləşməsi üzərində qurulub. Variasiyalar təzadlıq prinsipinə əsaslanır: cəld variasiyalar ağır variasiyalarla, homofon quruluşlu variasiyalar polifonik variasiyalarla, major variasiyalar minor variasiyalar ilə, matəm marşı isə parlaq virtuoz variasiya ilə ziddiyyət təşkil edir.

Əsərdə dinamikliyin bir çox üsullarından, dəqiq desək, orqan punktlarının istifadəsi ilə melodik və harmonik şəkildəyişmələri, ritmik, tembr, struktur və faktura dəyişmələri istifadə olunmuşdur. Bu da səsin artıb-azalmasını, kulminasiyasını yaradır, yəni mühüm formayaradıcı rol oynayır.

"Vatto ruhunda eskizlər" İ.Hacıbəyov tərəfindən neoklassisizm ənənələrinə əsasən yaradılaraq Barokko dövrünün instrumental musiqisinin müəyyən ənənələrini dirçəldir. Nəzərdən keçirilən silsilə üç hissədən ibarətdir – Sonata in E, Menuet və Rondoletto. Nəticə etibarı ilə bu üç hissələr kiçik süita yaradır. Fortepiano silsiləsinin belə adlandırılması diqqətəlayiqdir. Bu başlıq Azərbaycan bəstəkarının üslub niyyətlərini nəinki üzə çıxarır, eyni zamanda onun musiqi meyillərinin dəqiq ünvanına işarə edir. Vattonun ardınca İ.Hacıbəyov zəriflik və incəlik, nəfislik və nəcibliklə dolğun olan uzaq dövrün musiqi üslubunu canlandırır.

Bu mənada silsilənin hər bir hissəsi özünə görə nümunəvidir. Hissələr bu və ya digər janrla, ona müvafiq forma ilə bağlı olub XVII-XVIII əsr klavir musiqisinin ifaçılıq üsulları, üslub xüsusiyyətlərindən irəli gələn musiqi başlanğıcı ilə tanış edir.

Birinci hissədə (Sonata in E) İ.Hacıbəyov iki hissədən ibarət qədim sonata formasından istifadə edib. Sonata formasının qanunauyğunluqları burada Barokko dövründən qalan inkişaf prinsipləri ilə bir araya yerləşdirilir. Bu, monotematizmlə əsas tonallığın üstünlük təşkil etməsi, həmçinin musiqinin ümumilikdə axıcılığı, tematizmi ilə özünü nümayiş etdirir. Sonata in E-nin musiqisinin janrvari

xarakterində qədim fransız rəqsi olan və öz metroritmik quruluşuna görə Menueti xatırladan, lakin daha cəld tempdə ifa olunan Paspye əks olunmuşdur.

"Eskizlər"in II hissəsini təşkil edən Menuet silsilənin ağır hissəsidir. Bu hissə sakit, düşüncəli, fəlsəfi və ruhi əhvalları dərindən təsvir edən bir hissədir. Bəstəkar bu hissədə Menuet janrına müraciət edir. Burada faktiki olaraq rəqsvari cizgilər hökm sürmür. Tədqiqatçı T.Seyidovun qeyd etdiyi kimi, "Menuet – Baxın polifonik menuetləri ruhunda stilizasiyasıdır" (4).

III hissə – Rondoletto silsiləyə parlaq kontrastlılıq daxil edir. "Eskizlər"in finalı rondo formasında yazılaraq tokkata ruhunda yazılmışdır və bununla da silsiləni gözə çarpacaq dərəcədə canlandıraraq hərəkətə gətirir.

**"Cəngi" mövzusunda Rapsodiya.** Bu əsəri bəstəkar İsmayıl Hacıbəyov dahi Üz.Hacıbəylinin 90 illik yubileyi münasibəti ilə yazmışdır. Professor T.Seyidovun qeyd etdiyi kimi, "əsər simfonik transkripsiyanın ilk nümunəsinə çevrildi" (4). İ.Hacıbəyovun Rapsodiyası özündə fantaziya və bir hissəli fortepiano konserti cizgilərini birləşdirmişdir və Azərbaycan musiqisinin banisi Üz.Hacıbəylinin əsərinin mövzusundan istifadə olunmuşdur.

Bəstəkar tərəfindən ölməz, dahi əsər olan "Cənginin" musiqisinə müraciət, bu musiqinin müasir bəstəkarlıq texnikasından istifadə edərək möhtəşəmliyini əbədiləşdirmək idi. İsmayıl Hacıbəyov Rapsodiyada Üzeyir bəyə xas olan tematik materialı Qara Qarayevin musiqi dramaturgiyası və ifadə şərhinin prinsipləri ilə birləşdirməyə çalışmışdır. Bəstəkar istifadə etdiyi ifadə vasitələrinin uyğunlaşmasından yaranan ahəngə və Azərbaycan musiqi sənətinin bu nəhəng sıçrayışına heyran olmuşdur. Bu isə müəllifə doğma klassikasına yeni musiqi – estetik mövqedən müraciət etmək imkanı yaratmışdı. "Cəngi" mövzusunda Rapsodiyanın kadensiya hissəsi əsərin ilk ifaçısı olan Fərhad Bədəlbəylinin qələminə aiddir.

Bəstəkarın fortepiano aləti üçün yazdığı digər əsər – "Üç idilliya" adlanır. Bu əsər üç miniatürdan ibarətdir. Əsərdə tək bir obraz dairəsi hökm sürür. Bu – lirika aləmidir. "Üç idilliya" vahid əhval-ruhiyyəyə əsaslanan lirik prelyudlər kimi qavranılır. Hər üç miniatür nəfis melodizmi və təsirliliyi ilə fərqlənir.

Birinci miniatür Sarabandanın stilizasiyasıdır. İkinci miniatürün melodiyası mahnıvari xarakterlidir. Üçüncü miniatür isə – Laylaydır. Miniatürün sonu impressionizm üslubunda, ruhunda yazılaraq ahəngdarlıq yaradır. Prelyudlərin harmoni dili son dərəcə aydın, ifadəli, ahəngli olub, diatonika əsasında ardıcıllaşır.

"Vatto ruhunda eskizlər" və "Üç idilliya" fortepiano silsilələrinin hər biri süita prinsiplərini əks etdirir. Hər iki əsəri birləşdirən xüsusiyyət silsilə həllinin sadəliyindən, yazı dəst-xəttinin qənaətçiliyindən, qədim rəqsvari və instrumental janrlara əsaslanmadan ibarətdir.

"**Albomdan səhifələr".** Silsilə sadə musiqi forması, tematizmi, aydınlığı və məntiqi inkişafı ilə fərqlənir. Silsilədə uşaq oyunlarını ifadə edən bir aləm, zərif,

incə obrazlar təsvir olunur. Bəstəkarın silsiləsi R.Şumanın "Gənclər üçün albom", P.Çaykovskinin "Uşaq albomu", A.Zeynallının "Uşaq süitası", F.Əmirovun "Uşaq lövhələri"nin ənənələrini davam etdirir.

Əsərə müəyyən obrazlı başlanğıcın daşıyıcısı olan kiçik pyeslər daxil olunub. Bu pyeslər uşağın həyatı, onun daxili aləmi və sevinc ifadə edən məqamları ilə əlaqəlidir.

Silsilədə 9 müxtəlif xarakterli pyeslər təqdim olunur. Bu pyeslər bir-birinin ardınca fasiləsiz, "astaca" ifa olunur. Miniatürlərin xarakteri – qızğın, oynaq – cazibəli, lirik, marşvari, rəqsvaridir. Pyeslər lay-lay, marş, rəqs janrları vasitəsi ilə ifadə olunur.

Əsərdəki pyeslər təzadlı prinsip əsasında qurulmuşdur və hər pyes proqramlı başlığa malikdir. Pyeslərin forma quruluşu klassik nöqteyi-nəzərdən aydındır. Bəstəkar miniatürlərdə period və ya sadə iki və üç hissəli formadan istifadə edir. Silsilədə homofon quruluşa malik pyeslər üstünlük təşkil edir. Polifonik pyeslərə isə az təsadüf edilir. Bəstəkar İsmayıl Hacıbəyov həm uşaqlar, həm də böyüklər üçün eyni dərəcədə yüksək səviyyəli, dərin mənalı musiqi əsərləri yaratmışdır,

Apardığımız təhlilləri yekunlaşdıraraq qeyd etməliyik ki, bəstəkar İsmayıl Hacıbəyov yaradıcılığının inkişaf etdiyi istiqamət üçün neoklassisizm bir növ çıxış nöqtəsi olmuşdur. İstedadlı bəstəkar bu musiqi cərəyanının bir çox təzahürlərinə qarşı nadir təsadüf edilən qavrama qabiliyyəti nümayiş etdirmiş və yaradıcılığının zəngin, geniş tablosunda əksini tapmışdır.

Məqalənin başlığında qoyulmuş əsas məqsəddən irəli gələrək bir daha vurğulamaq istərdik ki, bəstəkarın yaradıcılığı və onu təşkil edən fortepiano əsərləri ilə tanışlıq gənclərimizin müasir bəstəkar musiqisi ilə maraqlanmalarına yardım edə bilər. Pedaqoji Universitetdə Musiqi müəllimi ixtisaslı tələbələrin hazırlığında nəzərdə tutulmuş tədris planlarında olan "Musiqi tarixi", "Əsas musiqi aləti" fənlərinin proqramlarına İsmayıl Hacıbəyovun məqalədə təqdim etdiyimiz əsərlərini daxil etmək məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT


1. *Qasımova S., İmanova Ü., Abdullayeva Z.* Azərbaycan musiqi ədəbiyyatı. Bakı: Elm və təhsil, 2014, 487 s.
2. *Искендерова Н.* Яркое дарование // Mədəniyyət dünyası, Bakı: ADMİU, 2008, XVI s., s.259-262
3. *Искендерова Н.* Исмаил Гаджибеков. О некоторых особенностях музыкального языка // Elmi əsərlər, Bakı: ADMİU, 2009, №4. s.127-130
4. *Сеидов Т.* Азербайджанская фортепианная культура XX века. Баку: Аз.гос.изд. Азернешр, 2006, 270 с.


Redaksiyaya daxil olub 09.10.2021

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- "Humanitarian, social and pedagogical-psychological sciences" series of the periodic scientific journal "Transactions of Pedagogical University" accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal's electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 20.11.2021
Kağız formatı $70\times100^{1/16}$, 9,5 ç.v.
Sifariş 401. Sayı 100.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68